# AZƏRBAYCAN NAĞILLARI

**BEŞ CİLDDƏ**

**V CİLD**

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab "Azərbaycan nağılları. Beş cilddə. IV cild"*
*(Bakı, Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, 1963)*
*nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni və
qeydlərin müəllifi: **Nürəddin Seyidov**

Redaktoru: **Bəhlul Abdulla**

**398.2'094754 - dc 21**
**AZE**
**Azərbaycan nağılları.** Beş cilddə. V cild. Bakı, "Şərq-Qərb", 2005, 304 səh.

Bu cilddə oxuculara təqdim olunan nağıllar Gəncəbasardan ifa zamanı yazıya alınıb toplanmışdır. Cildə daxil edilmiş "Moltanı padşahı", "Uşax pəhlivan", "Yusiflə Sənubər", "Padşah və dəmirçi" ilə yanaşı "Ovçu Pirim", "Göyçək Fatma", "Loğman", "Kəsik baş", "İskəndər Zülqərneyn" və bu kimi bəzən bir, bəzən də bir neçə dəfə nəşr edilmiş süjetlərin yeni, maraqlı variantlarıdır. Çox uzaq keçmişlərlə bağlı inam və etiqadların, adət və ənənələrin izlərini yaşadan bu nağıllar içərisində müxtəlif süjet, motiv, hətta əfsanə, rəvayət və lətifələrin birləşməsindən ibarət olanları da var.

Cilddəki nağılların üslub xüsusiyyətləri qorunub saxlanmış, sondakı nağıl isə imlasına toxunulmadan bir nümunə kimi verilmişdir.

**ISBN 9952-418-77-6**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# OVÇU PİRİMİN NAĞILI

Badi-badi giriftar, hamam-hamam içində, xəlbir saman içində, dəvə dəlləklik elər köhnə hamam içində. Hamamçının tası yox, baltaçının baltası, burdan bir tazı keçdi, onun da xaltası yox. Qarışqa şıllaq atdı, dəvənin budu batdı. Milçək mindik Kür keçdik, yabaynan doğa içdik. Günlərin bir günündə, Məmməd Nəsir tinində, biri varıydı, biri yoxuydu, bir ovçu Pirim varıydı. Bunun işi-peşəsi sabahdan axşama kimi dağda-daşda, meşədə ovçuluq eləmək idi.

Yenə bir gün ovçu Pirim şikara gedirdi. Yolda qabağına bir ceyran çıxdı, tez oxu çilləyə* qoyub ceyranı vurdu, gətirib evdə dərisini soyub, ətini şişlərə taxıb kabab bişirmək istədi. Ovçu Pirim elə ki, şişləri odun üstünə qoydu, bir də gördü ki, ətin hər tikəsi bir ceyran olub başladılar qaçmağa. Pirim bu işə lap məəttəl qaldı. Əlləriynən gözlərini ovuşdururdu ki, görsün bu yuxudu, ya gerçək. Gördü ki, yox balam, elə doğrudu. Aradan bir neçə gün keçmişdi, ovçu Pirim fikirləşdi ki, ceyranın dərisi çox qəşəngdi, aparım bunu padşaha bağışlayım. Pirim dərini gətirib padşaha verdi. Vəzir-vəkil yığılıb gördülər ki, bu elə bir dəridi ki, heç qiyməti yoxdu. Vəzirin ovçu Pirimə paxıllığı tutdu. Onun başını batırmaq istədi. Odur ki, dedi:

– Qibleyi-aləm, bu cür gözəl dərini salmağa gözəl də bir imarət lazımdı. Özü də fil sümüyündən, o da ki, səndə yoxdu, əvvəlcə fil sümüyündən bir imarət tikdir, sonra ceyran dərisini də sal evə.

Padşah dedi:

– Vəzir, mən bu qədər fil sümüyünü hardan tapım?

Vəzir dedi:

– Ceyranın dərisini gətirən fil sümüyünü də gətirə bilər. Ovçu Pirimi göndər tapıb gətirsin.

Padşah o saat ovçu Pirimi çağırtdırıb əmr elədi ki, yeddi günün müddətinə mənə fil sümüyündən bir imarət tikdirməsən boynunu vurduracağam. Yazıx Pirim kor-peşiman qayıtdı evə. Öz-özünə dedi: "Haqqı olur, mən niyə ceyran dərisini aparırdım ki, padşah da mənə belə deyirdi. Özüm öz əlimnən başıma bəla açdım". Bir az götür-qoydan sonra bu qərara gəldi ki, baş götürüb bu vilayətdən ilim-ilim itsin. Buxçasına bir az çörək qoyub, oxunu, yayını da əlinə alıb başladı getməyə. Az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlib bir dağın dibinə çatdı. Gördü ki, uzaxda bir qəşəng ağ ilanla bir bədheybət qara ilan biri-birinə sarmaşıb. Qara ilan ağ ilanı az qalır ki, boğsun. Ovçu Pirimin ağ ilana həm yazığı gəldi, həm də qeyrəti götürmədi. Oxu çilləyə qoyub qara ilanı nişan aldı. Amma bədbəxtlikdən ox ağ ilana dəyib, onu bərk yaraladı. Qara ilan qaçdı. Ağ ilanın qışqırığına bütün ilanlar tökülüb gəldilər. Demə ağ ilan ilanlar padşahının qızı imiş. Odur ki, padşah əmr elədi ki, qızımı vuranı yerdə də olsa, göydə də olsa tez tapıb mənim hüzuruma gətirin! Bəli, o saat ilanlar düzü-dünyanı axtarıb ovçu Pirimi tapdılar. Qabaxlarına salıb ilanlar padşahının imarətinin qapısının ağzınatan qovdular. Ovçu Pirim çox bikeyf idi. Bu ilanlardan biri yolda Pirimə dedi:

– Ey ovçu, niyə bikeyf olursan. Öz əməlinin cəzasıdı çəkirsən.

Pirim dedi:

– Ey ilan, mən ağ ilana yaxşılıq eləmək istəyirdim, gəldi tərsinə çıxdı, ona görə bikeyfəm.

İlan dedi:

– Pirim qağa, ilanlar padşahı bilsə ki, bu iş sənin namusuna toxunub, onda sənin günahından keçər.

Pirim baxdı ki, böyük bir dağın altından yol gedir, gethaget, düz gəlib çıxdı şah olan yerə. Gördü burda bir cahi-cəlal var ki, heç deyiləsi deyil. Hər yer qızıldan, gümüşdən, ləli-cavahiratdandır. Yuxarıda qızıl taxtın üstündə yekə bir ilan oturub, başında da ləl-cavahirdən bir tacı var ki, adam baxanda gözü qamaşır. Demə bu, ilanlar padşahı imiş. Bunun hər tərəfindən rəngbərəng, irili-xırdalı ilanlar tim-tik qalxıb az qalırlar adamı yesinlər, bir xışıltı, fışıltı var ki, gəl görəsən. Ovçu Pirim

qorxusundan tərpənə bilmirdi, ayağının altında o qədər ilan var idi ki, sayı-hesabı yox idi.

Ovçu Pirimin yaraladığı ağ ilan da qapının yanında durmuşdu. İlan dilə gəlib dedi:

– Ey ovçu Pirim, mən bilirəm, sən məni qəsdən vurmadın, qara ilanı vurmaq istəyirdin, amma ox mənə dəydi. İndi ilanlar padşahıynan danışıb qurtarandan sonra desə ki, məndən nə istəyirsən, onda qorxma, de ki, iki şey istəyirəm, biri yaşıl qaşlı üzüyü[1] mənə ver, ikincisi də ağzıma tüpür. Atam nə qədər qəzəblənsə də qorxma, elə o şeyləri istə.

İlanlar padşahı başını qaldırıb dedi:

– Ey oğul, sən nə cürətlə mənim qızımı vurubsan?

Ovçu Pirim dedi:

– Ey ilanlar padşahı, mən sənin qızını qəsdən vurmadım. Gördüm ki, bir qara ilan onun boynuna sarmaşıb boğmaq istəyir. Namus mənə güc elədi, bu kifirlikdə bədheybət qara erkək ilan belə göyçək ağ ilanla niyə oynasın. Odur ki, mən o qara ilanı nişan aldım, amma bədbəxtlikdən ox ağ ilana dəydi.

Padşah bu sözü eşidən kimi dedi:

– Ovçu Pirim, mənim qızımın namusunu çəkdiyinə görə səni öldürməyəcəyəm. Əvəzində məndən nə istəyirsən, de verim.

Ovçu Pirim dedi:

– Mənim taxsırım çoxdu, ölmək istəyirəm, padşah sağ olsun, elə ağzıma tüpür, qoy ölüm gedim, onda mənə yaxşılıq eləmiş olarsan.

Padşah dedi:

– Ay ovçu, axı mənim tüpürcəyim zəhərlidi.

Sonra padşah bir ilanı çağırıb dedi:

– Tüpür bu daşın üstünə, ovçu görsün.

İlan daşın üstünə tüpürən kimi daş zəhərin gücündən parça-parça oldu. Padşah dedi:

– Ovçu, gördünmü zəhərin gücünü?

Ovçu Pirim dedi:

– Mən razıyam, tüpür.

Padşah əlacsız qalıb ovçu Pirimin ağzına tüpürdü. Padşah dedi:

– Ovçu, məndən daha nə istəyirsən?

Pirim dedi:

– Padşah sağ olsun, bir şey də istəyərdim, amma utanıram deməyə.

İlan dedi:

– Utanma, de!

Pirim dedi:

– Qorxuram verməyəsən, and iç ki, anamın südü[2] haqqı verəcəm, sonra deyim.

İlan gördü ki, Pirim əl çəkmir, odu ki, anasının südünə and içdi. Pirim dedi:

– Sənin iki üzüyün var, biri yaşıl qaşlı, o biri də sarı. Mən o yaşıl qaşlını istəyirəm.

Padşah bu sözü eşidən kimi tim-tik ayağa qalxıb gözləri çıxdı kəlləsinə, dili bir qarış çıxdı eşiyə, ağzından köpük daşdandı, qəzəblənib dedi:

– De görüm, sənə kim öyrətdi bu sirri?!

Pirim dedi:

– Heç kim, özüm.

İlan and içmişdi, əlacı kəsildi, götürüb üzüyü verdi. Pirim üzüyü barmağına taxandan sonra dedi:

– Ey padşah, bir üzük nədi ki, onu verməmək istəmirdin?

İlan dedi:

– Pirim, bil, agah ol ki, mənim tüpürcəyim xalis sehirdi. Kimin ağzına tüpürsəm, o, cəmi quşların, heyvanların, otların dilin biləcək, bu üzügü də kim barmağına taxsa, dünyada nə istəsə o saat yanında hazır olacaq. Bax ona görə də mən bunu vermək istəmirdim.

Ovçu Pirim padşahın yanından çıxan kimi gördü ki, bütün otların, çiçəklərin, ağacların, heyvanların, ilanların hamısının dilini bilir. Ovçu Pirimi görən kimi ilanlar yerin deşiyindən başlarını çıxarıb dedilər:

– Ovçu Pirim, burda qırx küp qızıl var, mən onun üstündə yatıb qoruyuram, istəyirsən gedim, gəl qızılları apar.

Pirim ilanların köməyilə yerin altında nə qədər qızıl varıydı, hamısının yerini öyrəndi. Odur ki, bu qızıllardan bir xeyli çıxarıb özüynən apardı. Özü də yol başladı Hindistana sarı getməyə. Qabağına böyük bir göl çıxdı, öyrəndi ki, bütün fillər gəlib bu göldən su içib, sonra da çimirlər. Ovçu Pirim ilanlar padşahına ismarış göndərdi ki, mən nə cür eləyim ki, bu filləri öldürüb sümüklərini aparım. İlanlar padşahı öz vəzirini köməyə göndərdi. Vəzir dedi:

– Ovçu Pirim, gərək biz bu gölü balnan dolduraq, fillər gəlib gölə girəndə bala batıb qalsınlar orda. Sonra da bütün ilanlara əmr elərəm

fillərin ətini yeyərlər, qalar sümükləri, hər ilan da bir sümük gətirər sabağatan sənə fil sümüyündən bir imarət tikərlər.

Bəli, ovçu Pirim yolda aldığı qızılları götürüb getdi bazara, nə qədər bal satan vardısa hamısının pulunu verib yolladı ki, aparıb balı tökərsiniz filan gölə. Bir günün içində gölə o qədər bal tökdülər ki, göl palçıq kimi oldu. Fillər gəlib çimmək istəyəndə hamısı yapışıb qaldılar. İlanlar padşahının vəziri əmr elədi bütün dünyadakı ilanların hamısı tökülüb gəldi. Filləri çalıb öldürdülər, ətlərini yeyib, hərəsi də bir sümük gətirdi. Sabaha kimi fil sümüyündən gözəl bir imarət tikdilər.

Ovçu Pirim gördü ki, ev hazırdı, özü də padşaha verdiyi vəd tamamdı. Tez padşahın yanına gəlib dedi:

– Padşah sağ olsun, fil sümüyündən ev hazırdı.

Padşah baxıb gördü ki, doğrudan elə bir imarətdi ki, dünyanın heç bir yerində belə bir imarət yoxdu. İmarət o qədər hündürdü ki, dibi yerdən nəm çəkir, başı bulutdan. Vəzir ovçu Pirimin sağ gəldiyini görüb ürəyində bir az da kini artdı. Padşah təzə evinə köçüb vəzirinə dedi:

– Vəzir, indi mənim çatışmayan bir şeyim var, yoxsa yox?

Vəzir dedi:

– Qibleyi-aləm, belə bir gözəl evə gözəl də bir qız lazımdı ki, o da Çin padşahının qızıdı. O qız da bu evdə olsa, onda sənin hər şeyin yerində olar.

Padşah təzədən ovçu Pirimi çağırıb əmr elədi ki, indi də gərək Çin padşahının qızını gedib gətirəsən. Yazıx Pirim əlacsız qayıtdı evinə. Bir az çörəkdən-zaddan götürüb başladı yol getməyin binasın qoymağa. Az getdi, çox getdi, iynə yarım yol getdi. Yolda qabağına bir kişi çıxdı. Gördü ki, bir zorba adamdı. Elə bil dövdü. Hər ayağında bir dəyirman daşı, biri də boğazında. Bu kişi quş kimi cəlddi. Heç elə bil ki, bu dəyirman daşları bunun ayağında deyil.

Ovçu Pirim kişiyə yaxınlaşıb dedi:

– Ay qardaş, bu dəyirman daşlarını niyə ayaxlarına keçiribsən?

Kişi dedi:

– Ay ovçu Pirim, gəl məni də özünə yoldaş elə, dərdimi sənə söyləyəcəm, həmi də sənnən hara desən gedərəm.

Ovçu Pirim razı oldu. Kişi dedi:

– Mən bir padşahın pəhlivanıydım. Özüm də elə bərk qaçardım ki, dünyada heç kim mənə çata bilməzdi. Bir gün padşah məni çağırıb bir kağız verdi ki, gərək bunu aparıb Dərgah padşahın vəzirinə verib, bir

günə qayıdıb gələsən. Dərgah padşahın torpağına yeddi günə gücnən getmək olardı. Mən bir günə gedib qayıtdım. Gələndə yolda gördüm ki, arvadım padşahın qara quluynan qucaxlaşıb bir ağacın dibində yatıblar. Qılıncı çəkib qara qulu öldürdüm. Arvadım qaçıb meşədə gizləndi. Başladım arvadımı axtarmağa, düz üç gün axtardım, demə arvad gəlib padşaha xəbər verib ki, sənin pəhlivanın çoxdan qayıdıb gəlib, amma padşahın yanına gəlmək istəmir. Odu ki, padşah qəzəblənib əmr elədi ki, mənim ayaxlarıma, boynuma dəyirman daşı keçirsinlər. O günnən mənim ayaxlarıma, boynuma bu daşları keçiriblər ki, heç yerə qaça bilmiyim.

Kişi öz dərdini danışıb qurtarandan sonra ovçu Pirim də öz başına gələnləri danışdı. Gəlib çıxdılar bir çayın qırağına. Ovçu Pirimnən ayaxlarında dəyirman daşı olan kişi meşədən bir ağac qırıb çayın üstünə uzatdılar ki, o tərəfə keçsinlər. Bir də gördülər ki, bir yekə qənətli qarışqa, yanında öz qoşunnarı gəlib ovçu Pirimə dedi:

– Ovçu Pirim, mən qarışqaların padşahıyam. Mənim qoşunlarım çaydan o tərəf, bu tərəfə keçəndə suda boğulub ölürdülər. İndi sən bu körpünü düzəltdin, mənim qoşunlarım çaydan rahat keçib gedəcəklər. Biz səndən çox razıyıq. Nə işin varsa de, onu yerinə yetirək. Qarışqalar padşahının buynuzları, qənədi, həmi də tükləri var idi. Qənədinin ucundan bir azca qopardıb ovçu Pirimə verdi ki, nə vaxt dara düşsən, bunu oda tutarsan. Onda bütün qarışqalar sənə köməyə gələr.

Bəli, bu iki yoldaş genə yol başlıyıb getməyin binasını qoydular. Az getdilər, çox getdilər, dərələr keçib dağlar aşdılar, ta ki, gəlib çatdılar Çin padşahının torpağına. Gedib padşahın elçi daşının üstündə oturdular. O saat xidmətçilər padşaha xəbər apardılar ki, bəs iki nəfər elçi daşının üstündə oturub.

Padşah əmr elədi ki:

– Gedin onları gətirin mənim hüzuruma.

Xidmətçilər gəlib ovçu Pirimi apardılar padşahın yanına.

Padşah dedi:

– Kimsən? Nəyə gəlibsən?

Ovçu Pirim dedi:

– Mən ovçu adamam, gəlmişəm sənin qızını alıb aparam.

Padşah dedi:

– Mənim üç şərtim var. Əgər onları yerinə yetirsən, qızımı sənə verərəm. Yox, şərtləri yerinə yetirə bilməsən, onda səni öldürtdürəcəyəm.

Ovçu Pirim dedi:

– Mən razıyam, de!

Padşah dedi:

– Birinci şərtim budu ki, on iki çuvalda on iki gilə şeyi bir birinə qatıb on iki ağaclıq bir yerə səpəsən, özü də bir saatda onların hamısını yığıb ayırd eliyəsən.

İkinci şərtim odu ki, qızım hər qoluna bir dəyirman daşı taxıb qaçacaq, sən də hər qoluna bir dəyirman daşı taxıb gərək qızımnan ötüşəsən, onu ötə bilsən, onda qızı sənə verərəm.

Üçüncü şərtim də odu ki, ilanlar padşahının oğlunun ağzında oynatdığı yekə ləli gərək mənə gətirəsən.

Ovçu Pirim padşahın şərtlərinə razı oldu.

Əvvəl-əvvəl qarışqalar padşahının verdiyi qənədi oda tutub bütün qarışqaları yanına yığdı. Bir saatın içində qarışqalar on iki gilə şeyi on iki ağaclıqdan yığıb hamısını ayırd elədilər.

Padşah gördü ki, Pirim birinci şərti yerinə yetirdi.

Bu dəfə padşahın qızı hər qolunda bir dəyirman daşı çıxdı meydana. Qız doğrudan gözəl idi. Adam üzünə baxmağnan doymaq bilmirdi. Qələm qaşlı, uzun saçlı, incə belli, şirin dilli, ağ üzlü, qara gözlü, hündür boylu pəhlivan kimi bir qız idi. Ovçu Pirim gördü ki, yox balam, deyəsən qıznan bacarmayacaq, odu ki, fənd qurub dedi:

– Padşah sağ olsun, bu mənim kiçik qardaşımdı, özü də həm ayaqlarında, həm də boynunda dəyirman daşı var. Elə qoy qızın əvvəlcə bunnan ötüşsün, əgər bunu ötə bilsə, onda mənnən ötüşər.

Qız razı oldu. Başladılar ötüşməyə. Ayaqlarında dəyirman daşı olan pəhlivan qızı ötüb keçdi. Pirim dedi:

– Padşah, sənin qızın mənim kiçik qardaşımı ötə bilmədi, meydana girsəm məni heç ötə bilməz.

Padşah ovçu Pirimin sözünə razı oldu. Padşahın üçüncü şərti çox çətin idi. Ovçu Pirim ilanların dilini bilirdi. Odu ki, onları çağırıb kömək istədi. İlanlar padşahının vəziri dedi:

– O ləl ki, sənə lazımdı, o qara ilanların padşahının oğlundadı. O ilan həmişə gecələr çıxıb qaranlıqda ləli göyə atıb tutur, ağzında oynadır. Onu almaq çox çətindi. Gərək biz gedib dağın dalında gizlənək, gecə qara ilan ləli atıb tutanda, sən oxnan ilanı vur, biz ləli götürək.

Ovçu Pirim ilanlarnan o qədər gözlədi ki, gecə qaranlıq düşdü. Qara ilan dilinin altında gizlətdiyi ləli göyə atıb tutanda ovçu Pirim

ilanı oxnan vurdu, tez ağ ilanlar ləli gətirib Pirimə verdilər. Elə bu vaxt bir də gördülər bir nərilti, xışıltı gəlir ki, elə bil yer-göy lərzəyə gəlir; hər tərəfdən qara ilanların qoşunu hücum elədilər. Qırx gün, qırx keçə ilanların davası oldu. Qan su yerinə axırdı. Bu davada qarışqalar da ovçu Pirimə kömək eləyib qara ilanların yaralarına girib qanlarını sorurdular. Axırda da gördülər ki, heç biri o birinə bata bilmir. Odu ki, çəkilib hərə öz yerinə getdi. Ovçu Pirim də ləli aparıb Çin padşahına verdi.

Padşah gördü ki, Pirim bütün şərtləri yerinə yetirdi. Əlacsız qalıb qızını verdi ona. Ovçu Pirim qızı götürüb gəldi öz padşahının yanına. Yolda gələndə ovçu Pirim bütün başına gələn əhvalatın hamısını qıza söylədi. Qız dedi:

– Ay ovçu Pirim, məni ki, padşaha aparırsan, mən ona getməyəcəyəm. Gəl onu öldürək, canımız qurtarsın. Sonra sənə gedim.

Ovçu Pirim dedi:

– Padşahı necə öldürək?

Qız dedi:

– O sənin işin deyil, mən özüm onu öldürərəm.

Bəli, padşah gördü ki, ovçu Pirim qızı gətirib, istədi qıza yaxınlaşa, qız dedi:

– Yol gəlmişəm, yorulmuşam, mənə yeddi gün möhlət ver, sonra evlənək.

Padşah razı oldu. Qızı aparıb fil sümüyündən tikilmiş evə qoydular. Qız elə həmən gün xəlvətcə bir kənkan tapıb ev qapısının içində dərin bir quyu qazdırdı. Üstünü də həsirnən örtdü. Özü də bu qapıdan heç kimi qoymurdu kin, bura padşahındı. Yeddinci gün padşah bəzənib, kecinib qızın yanına gəldi. Qız qapını açıb padşahı həmən qapıdan apardı. Elə padşah ayağını içəri qoyan kimi guppultuynan getdi quyunun təkinə. Sabah açıldı, gördülər padşahdan bir xəbər çıxmadı. Axırda vəzir durub gəldi qızın yanına ki, bəs padşah hardadı? Qız vəziri də həmən qapıdan qəbul elədi. O da ayağını içəri qoyan kimi gurubbaz getdi düz quyunun dibinə. Qız tez adam göndərib ovçu Pirimi çağırdı yanına. Ovçu Pirim Çin padşahının qızıynan evlənib başladılar keyf-damağnan gün keçirməyə.

Ovçu Pirim barmağındakı üzüyə baxıb ürəyindən nə keçirsəydi, o saat o şey qeybdən hazır olurdu. Pirim üzüyə baxıb padşahın imarətindən də qəşəng imarət istədi. O saat nəriltiynən-gurultuynan bir kərpici qızıl, bir kərpici gümüşdən elə bir saray tikildi ki, dünyada heç bir

padşahın belə imarəti yox idi. İçində bir cahi-cəlal var idi ki, baxanda adamın ağlı başından çıxırdı, bir-birinin içindən qırx otaq varıydı ki, hamısı qızıl, gümüş, ləl, cavahirat, yaqut, zəvərcat, mirvariynən doluydu.

Günlərin bir günü Pirimin köhnə peşəsi genə yadına düşdü, bir ova çıxmaq istədi. Odu ki, arvadına dedi:

– Arvad, ürəyim yaman ova çıxmaq istəyir, bu gün oxu, yayı götürüb meşəyə gedəcəyəm.

Arvad bu sözü eşidən kimi iki ayağını bir başmağa diriyib elə nıx dedi ki, gərək mən də gedəm. Pirim nə qədər dəlil dəlalət elədi ki, ay arvad, sənin bir uşaq qucağında, biri də qarnında, bu halnan hara gedirsən, meşədə sənin nə itin azıb? Arvad əl çəkmədi ki, çəkmədi. Axırda bir at özü mindi, qarnında bir balası, yanında da qulunu olan bir at da arvadına verdi ki, heç olmasa ağır olsun, yolda yıxılıb eləməsin. Arvad balaca oğlunu da dalına şələyib sıçrayıb mindi ata, başladılar yol getməyə. Pirim qabaqda, arvad da dalca gedirdi. Birdən Pirimin atı daldakı ata dedi:

– Ay madyan, niyə geridə qalırsan, gəlib mənə çata bilmirsən?

Madyan cavab verdi ki:

– Görmürsənmi, bir bala mənim qarnımda, bir gözüm də qalıb qulunda, üstümdə də bir uşaqnan bir arvad, qarnında da bir bala. Bu boyda yüknən sənə necə çatım?

Ovçu Pirim atların bu danışığını eşidib bərkdən güldü. Arvad ərinin güldüyünü görüb dirəndi ki:

– De görüm, nə olub ki, öz-özünə gülürsən? Pirim istədi sirri açıb desin, bir də gördü ki, atı dayandı, irəli baxıb gördü ki, bir ilan tim-tik qalxıb dedi:

– Ey ovçu Pirim, sən onu bil ki, bu sirri açsan öləcəksən, nə badə deyəsən!

Pirim bu sözdən sonra arvadına heç nə demədi. Arvad mindi cin atına ki, sən məni istəmirsən, istəsəydin gülməyinin səbəbini deyərdin. İndi ki, belə oldu, daha mən səndə oturmayacam, qayıdıb gedəcəyəm atam evinə.

Arvad acıq eləyib düz qayıtdı evə. Pirim nə qədər elədi arvadı qaytara bilmədi.

Arvad qabaxda, Pirim də dalınca kor-peşman geri qayıdırdılar. Pirim öz-özünə fikirləşirdi ki, mən neyləyim, arvada bu sirri deyimmi, yoxsa yox? Bu hində Pirim gördü ki, yolda bir xoruz bir toyuğu yanına

çağırır, amma toyuq gəlmək istəmir, xoruz bir də çağırdı, toyuq bu dəfə də gəlmədi, başladı qaçmağa. Xoruz hirslənib toyuğun dalınca dedi:

– Kül sənin başına, elə bil səndən savayı dünyada toyux yoxdu, sən olma o biri olsun, gəlmirsən cəhənnəmə gəl, mən də ovçu Pirim deyiləm ki, arvadın dalınca düşüb yalvaram.

Pirim bu sözləri eşidən kimi dedi:

– Xoruz qardaş, bəs mən neyləyim ki, arvad qayıtsın?

Xoruz dedi:

– Heç nə, evə gedən kimi yıx yerə, bir-iki əngəzdə, sonra da deynən ki, hara gedirsən get.

Xoruzun sözü Pirimin ağlına batdı, evə gedən kimi elə də elədi, arvadı döyüb qovladı. Arvad bir az eşikdə, qaranlıqda qalıb, sonra korpeşman qayıtdı evə, dedi:

– Ay Pirim, daha səndən heç bir sirr soruşmayacam. Bəlkə elə sirdi ki, mənə deyiləsi deyil.

O gündən arvad Pirimlə bir az mehriban dolandı. Aradan beş-on gün keçdi. Arvad genə sımsırığını sallayıb başladı giley-güzar eləməyə ki, sən məni özünə arvad hesab eləsəydin, sirrini də mənə deyərdin. Arvad o qədər ah-zar eləyib Ovçu Pirimin baş-beynini apardı ki, axırda Pirim cana doyub sirrini açıb arvada söylədi. Sonra dedi:

– Arvad, onu da bil ki, sirri sənə söylədiyimə görə məni bir də görə bilməyəcəksən, vəhşi heyvanlar, qurdlar-quşlar məni yeyib öldürəcəklər.

Arvad dedi:

– A kişi, elə şeydən niyə qorxursan, bir müddət yerin altından lağım atıb orda oturarsan, ara seyingiyənnən sonra çıxarsan.

Pirim dedi:

– Arvad, bu olan şey deyil, mən gedib ov ovlamalıyam.

Ovçu Pirim oxunu, yayını da götürüb getdi meşəyə tərəf. Gördü ki, bir sürü canavar buna sarı gəlir. Pirim baxdı ki, yaxında bir çoban qoyun otarır, özünü verdi çobanın yanına, əhvalatı söyləyib ondan kömək istədi. Çobanın on-on beş iti varıydı, hər biri əjdaha kimi. Çoban dedi:

– Qardaş, qorxma, itləri salarıq canavarların canına, hamısını boğub öldürərlər.

Bəli, bir də gördülər ki, canavarların sürüsünün ağzı açıldı, elə bil qoşun gəlir. Çoban itlərə kıs vurub saldı canavarların üstünə. Bir tərəfdən itlər, bir tərəfdən də çobanla Pirim canavarlarnan başladılar

vuruşmağa, düz sabah açılana kimi vuruşdular. Canavarlar o qədər çox idilər ki, qırmağnan qurtarmaq olmurdu. Çobanın itlərinin hamısı şil-küt olub taqətdən düşdülər. Yazıq itlər neyləsin, onlar on-onbeş idi, canavarlar minnən də çox. Çoban gördü ki, iş işdən keçib, Pirimi çadırın altında gizlətdi. Amma bu da Pirimi ölümdən qurtara bilmədi. Canavarlar Pirimi parça-parça elədilər. Ovçu Pirimin arvadı bu əhvalatı eşidib çox peşman oldu.

Nağıl tamama yetdi, camaat da durub evlərinə getdi.

Göydən üç alma düşdü, birini nağıl söyləyən yedi, birini kəsin siz yeyin, birini də yolda Pirimin atının qabağına çıxan ilannan xoruz yarı bölüb yesinlər.

Mən sağ, siz salamat, mən yüz yaşıyım, siz iki əlli, hansı çoxdu siz götürün, yerdə qalanı mənim.

## GÖYÇƏK FATMA

Biri var idi, biri yox idi, Allahın bəndəsi çox idi, bir kişiynən bir arvad var idi. Günlərin birində iş belə gətirdi ki, bu kişinin arvadı azarlanıb öldü. Həmin arvaddan Fatma adında yetim bir qızı, bir də oğlu qaldı. Kişi gördü ki, uşaqlara baxa bilməyəcək, odu ki, ayrı bir arvad aldı. Kişinin bu arvaddan da bir qızı oldu, amma bu, yaman kifir qız idi. Bu arvad gələn gündən yetim Fatmanı gözü götürmədi. Öz qızının adını da Fatma qoydu. Amma bu qızınan onun asiman tafovutu var idi, Yetim Fatma gözəl-göyçək bir qız, çirkin Fatma isə qart keçəl idi. Analıx yetim Fatmaynan, oğlana gün verib, işıx vermirdi. Onları gah suya, gah oduna göndərirdi. Evdə qarabaş kimi işlədirdi.

Günlərin birində arvad iki ayağın bir başmağa dirəyib ərinə dedi:

– Kişi, əgər bu uşaqları aparıb azıtmasan, səndə oturmuyacam. Mənim bu uşaqlardan zəhləm gedir, onlara daha mən baxa bilmirəm.

Kişi nə qədər yalvar-yapış elədi ki, ay arvad, insafın olsun, mən bu bir parça tüfülləri hara azıdım, yazıxdılar, gedərlər meşədə qurd-quş yiyər. Arvadın hırı tutmuşdu, elə nırx deyib durdu ki, əgər azıtmasan gününü qara eliyəcəm. Kişi çox götür-qoy elədi, gördü ki, ayrı əlacı yoxdu. Fatmaynan oğlunu götürüb getdi meşəyə. Uşaxlarını alladıb dedi:

– Balalarım, siz morux, çiyələk yığa-yığa gedin dərənin dibinə, mən də bu biri tərəfdən bir az odun qırım, axşamüstü gəlib sizi də götürərəm, gedərik.

Uşaxlar atalarının sözünə inandılar. Morux, çiyələk yığa-yığa lap meşənin sıx yerinə çatdılar.

Sizə kimnən deyim, kişidən. Kişi uşaxları aldadıb bu tərəfdən ağlaya-ağlaya, kor-peşman qayıtdı evə. Axşam oldu. Qaranlıq düşdü, meşədə göz gözü görmürdü. Ayı, canavar, pələng, şir meşəyə bir nərilti, gurultu, inilti salmışdılar ki, vəhmədən adamın bağrı çatlayırdı. Uşaxlar ha gözlədilər, dədələri gəlib çıxmadı. Axırda əlacsız qalıb bir ağacın başına çıxıb orada gecələdilər. Sabah tezdən durub yol başladılar bir cığırnan getməyə. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, gəlib bir bulağın başına çatdılar. Fatmanın qardaşı yaman susamışdı. Özünü tez verdi bulağın başına, istədi sudan doyunca içə. Fatma qoymaq istəmədi, elə bil ürəyinə dammışdı ki, bu suda bir şey var. Fatma nə qədər elədi ki, qardaşı sudan içməsin, olmadı. Oğlan ağzını bulağın gözünə diriyib sudan doyunca içdi. O saat dönüb oldu qara bir inək, Fatma üz-gözünü cırıb şivən saldı ki, ay qardaş, sənə demədimmi içmə, indi mən neyniyim, başıma haranın daşını töküm.

Qardaşı dedi:

– Bacı, daha iş-işdən keçib, mənimki də beləymiş, gəl gedək. Amma bu sirri nə badə bir adama deyəsən ha!

Fatma inəyi də qabağına salıb ayax ləpiriynən o qədər getdi ki, meşədən çıxdı. Bir dağın başına çıxıb gördü ki, evləri uzaxdan görükür. Düz gəldi evlərinə. Arvad gördü ki, qız gəldi, amma yanında da bir qara inək. Əvvəlcə üz-gözünü turşutdu, qaş-qabağını tökdü, istədi qızı qovlasın. Sonra fikirləşdi ki, oğlan yoxdu, yəqin ölüb-itib, meşədə qalıb. Qız da ki, bir yaxşı inəynən gəlib. İnəyi sağıb yeyərik. Bir azdan sonra qızı genə azdırarıx, o da itib cəhənnəmə vasil olar. Kişi də qızını görüb bir tərəfdən sevindi, bir tərəfdən də oğlunu yadına salıb bikeyf oldu.

Analıx hər gün Fatmanın əlinə bir az yun verib inəyi otarmağa göndərərdi. Fatma axşama kimi inəyi otarır, analığı verdiyi yunu da didib əyirərdi. Bir gün yenə inəyi otardığı yerdə bərk yel əsdi, yel Fatmanın yumağını götürüb apardı. Fatma, "a yel baba, yumağımı aparma" – deyə-deyə yüyürürdü. Yel baba yumağı aparıb bir evin bacasınnan içəri saldı. Fatma gəlib bu evin qapısını döydü. İçəridən bədheybət bir qarı çıxıb dedi:

– A bala, nə var, nə istəyirsən?

Fatma dedi:

– Qarı nənə, yel baba yumağımı sənin bacannan içəri saldı, gəlmişəm ki, onu verəsən.

Qarı dedi:

– A qızım, gəl mənim başıma bax, sonra yumağını verim.

Fatma razı oldu, içəri girib gördü qarının evi zir-zibilnən doludu. Odu ki, dedi:

– Qarı nənə, süpürgəni ver, evini süpürüm.

Qarı süpürgəni verdi. Fatma evi süpürüb tər-təmiz elədi. Sonra da başladı qarının başına baxmağa, gördü ki, bunun başı doludu ilan-çayannan, baxdı ki, qarının başında bitlər var tısbağa boyda, birələr var qurbağa boyda.

Qarı dedi:

– A qızım, de görüm sənin ananın başı qəşəngdi, yoxsa mənim? Mənim birələrim qəşəngdi, yoxsa onun.

Fatma dedi:

– Ay nənə, əlbəttə, sənin başın qəşəngdi. Sənin bit, birələrin də lap sərçə, bülbül kimi şeylərdi.

Bu sözlər qarının xoşuna gəldi, odu ki, dedi:

– Bala, burdan gedəndə qabağına üç bulax çıxacax, birinin suyu dümağ, süd kimi, o birininki qapqara şəvə kimi, birinin də suyu qıpqırmızı lalə kimi. Ağ suda soyunub çimərsən, qara sudan da saçına, qaşına, kirpiyinə çəkərsən, qırmızı sudan da yanaxlarına, dodaxlarına çəkərsən. Sonra gedib qara inəyin bir buynuzunnan yağ, birinnən də bal əməcəksən.

Fatma qarının yanından çıxıb gəldi, yolda günçıxan tərəfdə qabağına bir bulax çıxdı, suyu dümağ süd kimi, girib suda çimdi. Bir az gedib günbatan tərəfdə də bir bulağa rast oldu. Bu bulağın suyu da qapqara idi. Fatma bu suynan başını yuyub, bir az da qaşına, kirpiyinə çəkdi. Qırmızı sudan da bir az yanaxlarına, dodaxlarına çəkdi. Fatmanın gözəlliyi bir idi, indi oldu min. Fatma elə bir gözəl qız oldu ki, heç misli-bərabəri olmadı. Aya dedi, san çıxma, mən çıxacam, günə dedi, sən çıxma, mən çıxacam. Yanaxlar qıpqırmızı alma kimi, dodaxları qaymax, dişləri inci, gözü maral gözü. Nə deyim, bir baxan deyərdi bir də baxaydım.

Fatma düz gəlib çıxdı qara inəyin yanına, onun başını, gözünü sığallayıb başladı buynuzlarını əmməyə, gördü ki, doğrudan da, inəyin bir buynuzunnan yağ, birinnən də bal gəlir. Fatma hər gün inəyin buynuzlarını əmib elə kökəldi ki, lap balığa döndü. Fatmanın analığının bu işə həm paxıllığı tutdu, həm də mat qaldı ki, görən Fatma neyləyir ki,

belə kökəlib, qəşəngləşir. Odu ki, sabahdan öz keçəl qızını da qoşdu Fatmanın yanına ki, o da naxıra gedib qəşəngləşsin.

İş belə gətirdi ki, yenə bərk bir yel qopdu, bu dəfə də yel keçəl Fatmanın yununu götürüb apardı. Yun gedib həmin qarının bacasınnan içəri düşdü. Keçəl Fatma yunun dalınca qaça-qaça gedib qarının evinə çıxdı. Qapını döyüb yununu istədi. Qarı qızı içəri çağırıb dedi:

– A qızım, gəl başımı bitlə, sonra yununu verim.

Qız qarının başına baxıb gördü ki, bit-birəynən doludu. "Tfu" eləyib geri çəkildi. Qarı dedi:

– A qızım, mənim başım təmizdi, yoxsa sənin ananın?

Qız dedi:

– Allah vurmuşdu səni, başın ilan-qurvağaynan doludu, həlbətdə anamın başı yaxşıdı.

Qarı bir altdan yuxarı baxıb dedi:

– A qızım, sən ki, belə dedin, ala yununu verirəm, amma burdan gedəndə qabağına üç bulax çıxacax. Birinin suyu qara, birinin suyu ağ, o birininki də qırmızı. Sən əvvəlcə qara suya girib çimərsən, sonra ağ suynan başını yuyub, bir az da qaşına, kirpiyinə, qırmızı sudan da alnına sürtərsən. Sonra da qara inəyin döşlərini əmərsən.

Qız qarının yanınnan çıxıb yolda qara suynan çimdi, ağ sudan qaşına, kirpiyinə çəkdi, qırmızı sudan da alnına sürtdü. Əvvəldən də bir şey olmayan keçəl Fatma dönüb oldu qara qul; hər yeri oldu qap-qara kösəy kimi. Bircə dişləri, gözləri ağarırdı. Keçəl Fatmanın heç nədən xəbəri yox idi. Gəlib inəyin əmcəyini ağzına salıb başladı sormağa, gördü ki, ağzına irin gəlir, tez başladı inəyin o biri məməsini əmməyə, gördü ki, bunnan da qan gəlir. Durub kor-peşman evlərinə gəldi. Anası qızına baxan kimi əllərini iki dizinə vurub dedi:

– Bıy, başına küllər, ay qız sənə nə oldu ki, bu günə düşdün?

Qız başına gələni anasına söylədi. Daha iş işdən keçmişdi. O günnən keçəl Fatmanı anası evdən heç yerə buraxmadı. Amma göyçək Fatma hər gün inəyi aparıb otarır, özü də günü-günnən qəşəngləşirdi. Analıx gördü ki, Fatma inəyi otarmağa apardıxca yaxşılaşır, odu ki, bir gün bir az quru yuxa bişirib paltarının altınnan kürəklərinə qoydu, əri evə gələndə yerə yıxılıb arxası üstə o üzə, bu üzə çörükdü. Arvad tərpəndikcə yuxalar xırhaxırnan qırılırdı. Arvad ufuldana-ufuldana dedi:

– A kişi, görürsənmi nə bərk azarramışam. Ölürəm, mənə bir əlac.

Kişi dedi:

– Arvad, sənin dərmanın nədi, de tapım?

Arvad dedi:

– Mənim dərmanım qara inəyin ətidi. Onu kəsib ətini mənə yedirtsən yaxşı olacam.

Kişi əvvəlcə inəyi kəsmək istəmədi, amma arvad əl çəkmədi ki, çəkmədi. Kişi axırda inəyi kəsdi. Göyçək Fatma gördü ki, inəyi kəsdilər. Qaldı məəttəl ki, indi nə yeyəcək, acınnan öləcək. Durub getdi həmin qoca qarının yanına, əhvalatı ona söylədi. Qarı dedi:

– Qızım, eybi yoxdu, qoy inəyi kəssinnər, sən onun ətinnən yeməzsən, qoy onlar yesinnər, sonra xəlvətcə onun bütün sümüklərini torbaya yığıb gətirərsən mənim yanıma. Qorxma, qardaşın indi də xoruz cildinə düşəcək.

Fatma qarının yanınnan gəlib o dediyi kimi elədi. İnəyin ətinnən yemədi, onsuz da analığı heç ona ət vermədi. Bəli, Fatma inəyin sümüklərini irili-xırdalı yığıb bir torbaya doldurdu, xəlvətcə düz gətirdi qarının evinə, qarı yekə bir quyu qazıb sümükləri basdırdı ora. Üstünü torpaxlayıb qıza dedi:

– Bala, qorxma, bu sümüklərdən nə istəsən o saat hazır olacax.

Qız durub evlərinə gəldi, bir-iki günnən sonra padşahın böyük oğlunun toyuydu, hamını çağırmışdılar. Fatmanın analığı da keçəl qızını geyindirib-keçindirib toya gedirdi. Göyçək Fatma da analığına yalvar-yaxar elədi ki, toya onu da aparsın. Analığı qoymadı ki, qoymadı, dedi:

– Bircə sənin yerin əskik idi, qaxıl otur yerində, onsuz da sənin paltarın nə gəzir ki, geyinib gedəsən.

Analıx bir çanax darını yerə töküb, bir boş cam qoydu, dedi:

– Mən gələnə kimi bu darını yığarsan çanağa, bu camı da göz yaşınnan doldurarsan, əgər dediklərimi eləməsən, vay sənin gününə.

Fatma qaldı mat-məhəttəl ki, neyləsin. Analığı gedən kimi korpeşman daban alıb düz gəldi qarının yanına, analığının tapşırdığı işləri söylədi.

Qarı dedi:

– Qızım, qorxma, bu işlər mənim əlimdə su içimi kimi bir şeydi.

Qarı qıza bir çanax darı verdi, bir cam da duzlu şor su. Dedi:

– Apar bu darını tök analığının darı çanağına, duzlu suyu da tök cama, elə bilsin ki, ağlayıbsan, gözünün yaşıdı. Qaldı yerə tökülən darılar, toyux-cücələri burax qoy darını dənnəyib qurtarsınnar.

Qarı bu sözləri qıza deyənnən sonra onu götürüb gəldi inəyin sümüyünü basdırdığı yerə. Quyunun ağzını açıb dedi:

– Ey qara inək, sənnən bir qəşəng padşahanə libas, bir də bir qızıl başmaq istəyirəm ki, Fatma geyinib getsin toya.

O saat bir də gördülər ki, bu şeylər hazır oldu. Qarı qıza bir torba kişmiş, bir torba da kül verib dedi:

– Qızım, bu paltarı, qızıl başmağı geyib, torbaları da götürüb gedərsən toya, orada səni analığın tanımayacax, toyda səni də oynadacaxlar. Sən oynayanda camaatın üstünə kişmiş tökərsən, analığının üzünə kül, sonra tez qayıdıb gələrsən evə, paltarını soyunub oturarsan.

Bəli, Fatma zər-zibaynan tikilmiş paltarı geyib, qızıl başmağı ayağına taxıb döndü huri-mələyə. Getdi toya, hamı bu gözəllikdə qızı görüb mat qaldı. Fatma oynaya-oynaya adamların qabağına getdikcə hamının qucağına kişmiş töküb, analığının gözünə kül səpdi. Sonra toydan çıxıb tələsik qayıtdı evə. Yolda çaydan hoppanıb keçəndə başmağının bir tayı ayağınnan çıxıb düşdü suya. Tələsdiyinnən başmağı qoyub qaçdı. Həmin gün demə padşahın oğlu ova çıxıbmış. Qayıdan baş yolda atını çayda sulamağa gətirdi. At dodağını suya vurub geri çəkildi. Padşahın oğlu əyilib suya baxdı, gördü ki, suda bir tay qızıl başmax var, tez çıxardıb özüynən gətirdi. Bu tərəfdən də Fatma gəlib paltarını soyunub gizləndi. Analığı qaş-qabaxlı gəldi evə. Fatma dedi:

– Ana, bir az söylə görüm toyda nə oldu, nə keçdi?

Arvad dedi:

– Heç, nə olacax, bir qaragünnünün biri oynayanda hamının qabağına kişmiş tökdü, bizim qabağımıza kül atdı.

Bunları burda qoyax, görək padşahın oğlu başmağı neylədi. Başmax o qədər qəşəng idi ki, heç padşahın xəzinəsində də beləsi yox idi. Padşahın oğlu başmağı öz ləsinə verib dedi:

– Apar bu başmağı şəhərbəşəhər, kəndbəkənd axtar, hansı qızın ayağına olsa, gərək onu alam.

Lələ hər yeri gəzdi, bütün kəndləri, şəhərləri hələk-fələk elədi, başmax heç kimin ayağına olmadı. Axırda xəbər alırlar ki, bu başmağı ayağına taxmamış kim qaldı, dedilər ki, bircə Fatma adlı bir yetim qız var, o qalıbdı. Gətirib başmağı Fatmanın ayağına geyindirdilər, gördülər ki, elə bil başmaxçı özü əliynən tikib, düz qızın ayağına. O saat gedib padşah oğluna xəbər apardılar ki, bəs belə-belə, başmax filan qızın ayağına oldu. Oğlan toy tədarükü görüb Fatmanı gəlin gətirmək

üçün öz adamlarını göndərdi ki, qızın başını bəzəsinnər. Bu tərəfdən Fatmanın analığı paxıllığınnan az qaldı çatlasın, odu ki, Fatmanın əl-ayağını kəndirnən bağlayıb saldı təndirə, üstünü də örtdü. Öz qızı keçəl Fatmanı da bəzəndirib qoydu göyçək Fatmanın yerində. Yengələr, sağdışlar, solduşlar gəldilər ki, qızın başını bəzəyib gəlin aparsınlar, gördülər ki, qız o qız deyil. Dedilər:

– Ay balam, bu qız niyə belə qaralanıb?

Qızın anası nırx deyib durdu ki, elə bu həmən göyçək Fatmadı, o günün altında durub, gün qaraldıb. Yengə tez başmağı gətirib qızın ayağına taxdı, gördü yox, olmadı. Öz-özünə fikirləşdi ki, axı bu qız mən gördüyüm, deyil, bunu bəzəyib aparsax padşahın oğlu nə deyər? Elə bu fikirdəydi ki, gördü küçədən uşaxlar oxuyurlar:

Gün çıx, gün çıx,
Kəhər atı min çıx,
Keçəl qızı evdə qoy,
Saçlı qızı götür qac.

Yengə qızın tez başına baxıb gördü qız qart keçəldi... Tez durdu ki, gedib əhvalatı oğlana söyləsin. Birdən məhlədə bir xoruz başladı banlamağa:

Quqquluqu,
Fatma xanım təndirdə,
Əl-ayağı kəndirdə.

Yengə gəlib tez təndirin ağzını açdı, gördü doğrudan; da Fatmanın əl-ayağını kəndirnən bağlayıb təndirə salıblar. Qızı çıxardıb gətirdilər evə, yetmiş yerdən ona bəzək-düzək verib, geyindirib-keçindirib apardılar padşahın oğluna. Hamı toyda çalır, oynayır, şadlıx eləyirdi, keçəl Fatmaynan anası qan ağlayırdı.

Aradan bir müddət keçənnən sonra keçəl Fatmanın anası dedi:

– A qızım, olan-olub, keçən-keçib, bir dur get gör bacın nə qayırır?

Keçəl Fatma geyinib-keçinib getdi bacısının yanına, xoş-beş on beşdən sonra dedi:

– Ay bacı, yaman çimmək istəyirəm, dur gedək dərya kənarında çimək.

Göyçək Fatma bacısının xətrini sındırmayıb öz qızıl teştini də götürüb getdi dərya kənarına. Keçəl qız dedi:

– A bacı, əvvəlcə sən soyun, mən səni çimizdirim, sonra da sən məni çimizdirərsən.

Fatma sözə inanıb soyundu, dəryanın qırağında çimmək istəyəndə keçəl Fatma onu itələyib suyun dərin yerinə saldı. Göyçək Fatma sudan çıxa bilmədi. Keçəl qız Fatmanın paltarını geyinib oğlanın evinə gəldi. Axşam oldu, qız üz-gözünü gizlədə-gizlədə bir təhər gecəni saldı. Yatmax vaxtı gələndə oğlan gördü ki, Fatmanın saçı heç əlinə dəymir. Odu ki, dedi:

– Ay Fatma, sənin saçın heç gözümə dəymir.

Qız dedi:

– Başımı yumuşam deyin yığılıb bir yerə, sabah quruyar, genə uzanar.

Sabah açıldı, oğlan atına minib dəryanın kənarıynan gedirdi, bir də gördü ki, bir balıxçı toru nə qədər çəkirsə, sudan çıxarda bilmir. Oğlan atdan düşüb balıxçıya kömək elədi. Bir təhər toru çəkib sudan çıxardılar. Bir də gördülər ki, tora bir balıx düşüb ki, əjdaha boyda, tez balığın qarnını yardılar. Oğlan gördü ki, buy budu göyçək Fatma balığın qarnında, tez qızı çıxardıb bir şeyə büküb evə gətirdi. Fatma başına gələn əhvalatı tamam başdan-ayağa kimi ərinə danışdı. Oğlan o saat əmr elədi ki, bir dəli qatır gətirsinlər. Keçəl Fatmanı qatırın quyruğuna bağladıb dağda-daşda sürütdədilər. Keçəl Fatmanın hər tikəsi bir dərədə qaldı. Sonra göyçək Fatmaynan padşahın oğlu keyf çəkib dövran keçirdilər.

Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də nağıl söyləyənin.

## SEHİRLİ ÜZÜK

Biri varıymış, biri yoxuymuş, Allah varıymış, şəriki yoxuymuş, bir qarının bir keçəl nəvəsi varıymış. Bunlar çox kasıblıxnan dolanırlarmış. Qarı hər gün bir kələf ip əyirib verirmiş nəvəsinə ki, aparıb bazarda satıb soğannan çörək alsın. Yenə bir gün qarı bir kələf ip əyirib verdi keçələ ki, satıb çörək alsın. Keçəl kələfi götürüb gəldi bazara. Gördü yolun ortasında bir hay-küy var ki, gəl görəsən, adamlar bir-birinə qarışıb, hərənin əlində bir yekə dəyənək bir iti döyürlər. Yazıx it gah ora qaçır, gah bura, heç kim ona qahmar çıxmır. Elə qalıb zingildəyə-zingildəyə. Keçəlin ürəyi yumşaldı, itə yazığı gəldi, irəli durub dedi:

– Ay camaat, bu Allahın heyvanı sizə neyləyib ki, onu döyüb öldürürsünüz? İti öldürməynən əlinizə nə gələcək, alın bu kələfi sizə verim, o iti verin mənə.

Adamlar ipi alıb, iti verdilər keçələ. Keçəl iti götürüb qayıtdı evlərinə. Qapıdan içəri girəndə anası gördü ki, keçəl əli boş, yanında da bir it küçüyü gətirib, odu ki, dedi:

– Ay oğul, bəs çörək almadın?

Keçəl dedi:

– Ay nənə, yolda gördüm ki, bu iti döyüb öldürürlər, yazığım gəldi, kələfi verib bu iti aldım.

Arvad gördü ki, çərən-pərən eləməynən heç nə çıxmıyacaq, əlacı kəsilib bir söz demədi. Bir az acığı soyuyannan sonra yenə bir kələf ip əyirib verdi keçələ, özü də bərk-bərk tapşırdı ki, bu dəfə də çörəksiz qayıtsan vay halına. Bəli, keçəl dinməz-söyləməz kələfi götürüb getdi

bazara. İndi də gördü ki, bazarda bir pişiyi döyürlər. İrəli durub adamlardan soruşdu ki, bu yazıq pişiyin taqsırı nədi ki, onu döyürlər? Dedilər ki, qəssab tükənindən ət oğurlayıb, odu ki, döyürlər. Keçəl dedi:

– Ə, ac olsanız elə siz də oğurlayarsınız da, alın bu ipi verim sizə, o pişiyi verin mənə.

Adamlar ipi alıb pişiyi verdilər keçələ. Keçəl indi də pişiyi götürüb gəldi evlərinə. Qarı gördü ki, keçəl gəlir, amma qucağında çörək əvəzinə bir pişik gətirir. Qarı ağzın açıb gözün yumdu, gözün açıb ağzın yumdu, əlinə keçən daşı, kəsəyi keçəlin təpəsinə vurdu ki, əyə, acınnan ölürük, yeməyə bir tikə çörək tapmırıq, hələ gedib it-pişik də gətirirsən. Keçəl gördü ki, anası düz deyir, and içdi ki, bu dəfə da heç nə almıyacam. Qarı deyinə-deyinə bir kələf də ip əyirib verdi keçələ, özünə də tapşırdı ki, əgər bu dəfə də əliboş qayıtsan, evə gəlmə. Keçəl kələfi götürüb bazara getdi, satıb çörək aldı, evlərinə qayıtdı. Axşam çörəklərini yeyib, bir az da it-pişiyə verib yatdılar.

Keçəl gecə yatanda fikirləşirdi ki, yaxşı, mən bu itnən-pişiyi ki, gətirmişəm, özümüz yeməyə çörək tapmırıq, onlara nə verəcəm. Birdən ağlına gəldi ki, sabah itnən pişiyi də götürüb meşəyə apararam, bəlkə orda tülküdən, çaqqaldan, ətdən-mətdən bir şey tapıb yedilər. Bu fikirnən keçəl yatdı, səhər nənəsinə deyib itnən pişiyi də özüynən apardı. Bunlar o qədər yol getdilər ki, lap yoruldular. Çıxdılar bir hündür dağın başına. Keçəl gördü ki, bir mağaranın qabağında üç div[1] var, vallah bunlar bir bədheybət divdilər, adam baxanda az qalır bağrı çatlasın; qulaxları lavaş boyda, dişləri fil dişi boyda, nəfəs alanda burunları dəmirçi körüyü kimi qalxır-düşür. Dırnaxları kotan kimi, özü də bir-birinin quyruğundan, buynuzundan yapışıb dalaşırlar. Keçəl bunları görən kimi istədi qaçsın, birdən it hürdü, divlər səs eşidib tez keçəli tutdular. Keçəl qorxusundan bilmədi neyləsin. Yeddi başlı div dedi:

– Ey bəni insan, qorxma, bizim şərtimizi kəs, sənnən işimiz olmasın.

Keçəl dedi:

– Nə üstdə dava eləyirsiniz?

Üç başlı div dedi:

– Biz üç div iki qiymətli şey tapmışıq, biri həzrət Süleymanın xalçası[2], biri də üzüyüdü. Xalçanın üstündə oturub desən ki, məni həzrət Süleymanın eşqinə filan yerə apar, o saat aparacaq, üzükdən də nə dilək istəsən hazır olacaq. Bu iki şeyi üç divin arasında bölə bilmirik.

Keçəl fikirləşdi ki, bu divlərin əlindən qurtarmaq üçün bir yaxşı fənd işlətsin. Odu ki, dedi:

– Ay div qardaşlar, siz o şeyləri qoyun mənim yanımda. Mən bu dağın başından uzağa bir daş atım, siz üçünüz də gedin o daşın dalınca, kim daşı tez gətirsə xalça onun, üzük ikinci gələnin, kim lap axırda gəlsə, daha öz baxtından küssün.

Divlər ürəklərində fikirləşdilər ki, üçüncü gələn elə bu keçəli həzm rabedən keçirər.

Bəli, keçəl bir yekə daşı dağ aşağı yumarladı, daş təpəsi aşağı elə gedirdi ki, ildırım kimi. Divlər də daşın dalınca qaçırdılar. Elə divlər bir az aralanan kimi keçəl üzüyü barmağına taxıb, itiynən pişiyini də xalçanın üstünə oturdub dedi:

– Ey xalça, həzrət Süleyman eşqinə bizi apar düz evimizə.

O saat xalça göyə qalxıb bunları apardı. Keçəl göydən baxıb gördü ki, dəryanın qırağıynan gedirlər. Yadına düşdü ki, itnən pişik də acdı, evdə anasının da yeməyə heç nəyi yoxdu. Öz-özünə dedi: Elə bu dəryanın qırağında yerə düşüb bir az balıxdan-zaddan tutsam yaxşı olar. Bu fikirnən dəryanın qırağında xalçaya dedi:

– Ey xalça, həzrət Süleyman eşqinə bizi burda endir yerə, bir az balıx tutax.

Xalça o saat bunları yerə endirdi. Keçəl üzüyü barmağından çıxardıb dedi:

– Ey üzük, həzrət Süleyman eşqinə bizə bir-iki balıx yetir.

Söz keçəlin ağzınnan çıxan kimi o saat gördülər ki, bir yekə ana balıx sudan iki balasını çıxardıb dedi:

– Alın, ikicə balam var, onu da sizə peşkəş verirəm.

Keçəl balıxları alıb, bir az çır-çırpı yığıb, bir yaxşı ocaq çatdı. Balığın birini kabab bişirdi. İtnən pişiyə də verəndə onlar yemədilər. Keçəl nə qədər elədisə yemədilər. Axırda keçəl dedi ki, ay Allahın heyvanları, niyə naşükürlük eləyirsiniz, yeyin də. Birdən it dilə gəlib dedi:

– Ey keçəl qardaş, biz naşükür deyilik, bizim insafımız götürmür ki, onu yeyək. O ana balığın cəmi iki balası vardı, onların ikisini də sənə peşkəş eləyəndə, gərək sən insafa gəlib balasının birini özünə qaytaraydın. Amma sən bunu eləmədin. Odu ki, bunun altını çəkəcəksən. Balığın gözü balalarının dalınca qalmışdı, odu ki, yemədik.

Bu söhbətdən sonra keçəl gördü ki, səhv eləyib. Durdu dəryanın qırağında əllərini yumağa, bir-iki ovuc su götürüb əllərini oxalayırdı

ki, birdən üzük barmağından sürüşüb düşdü dəryaya, nə qədər axtardısa tapa bilmədi. Axırda kor-peşman evlərinə qayıtdı. Evləri lap yaxındaydı deyin, bu dəfə heç xalçaya da minmədi, büküb qoltuğuna vurdu, başladı getməyə, itnən pişik də bu işə peşman olmuşdular. Odu ki, dedilər:

– Ay qardaş, sən get, biz bir az buralarda hərlənək, görək üzüyü tapa bilərikmi?

Keçəl gəldi evlərinə, itnən pişik qaldılar dəryanın qırağında. Bir də gördülər ki, bir qoca balıxçı gəlib torunu atıb dəryaya, başladı balıx tutmağa. Qocanın toruna bir yekə balıx düşdü, ha çəkdisə gücü çatmadı. İt dişiynən toru tutub çəkdi, qocaya kömək elədi. Toru bir təhər kənara çıxardılar, içindən bir yekə balıx çıxdı. Qoca fikirləşdi ki, bu itnən pişik buna kömək elədilər. Odu ki, balığın qarnını yarıb içalatını itnən pişiyin qabağına atdı ki, yazıxdılar, acdılar, yeyib doysunnar. İtnən pişik leşin içini axdarıb üzüyü ordan tapdılar. Sevinə-sevinə aparıb keçələ verdilər. Keçəl üzüyü alıb itnən pişiyin başını sığalladı, onlara çoxlu yemək verib razılıq elədi. Keçəlin keyfi kökəldi, nənəsinə dedi:

– Nənə, de görüm dünyada ən gözəl qız kimdi?

Qarı dedi:

– A bala, neyləyirsən kimdi?

Keçəl dedi:

– Alıb özümə arvad eləyəcəm.

Nənəsi dedi:

– A bala, kirimişcə otur yerində, sən bir keçəlin biri, yatmağa heç yorğan-döşəyin də yoxdu, elə gözəl qızlar padşahlarda olur, onu da ki, sənə verməzdər.

Keçəl dedi:

– Sənin oralarnan işin olmasın, sən de görüm, gözəl qız kimin qızıdı?

Arvad dedi:

– Oğul, mən eşitmişəm ki, ən gözəl qız Hindistan padşahının kiçik qızıdı, amma onun da nişannısı var.

Keçəl dedi:

– Eybi yoxdu, mən o qızı alıb gətirəcəm.

Səhər keçəl durub üzüyü dilinin altına qoyub dedi:

– Üzük, həzrət Süleyman eşqinə sənnən bir imarət istəyirəm bir kərpici qızıldan, bir kərpici gümüşdən Özü də o qədər hündür olsun ki, başı bulutdan, binəsi yerdən nəm çəksin.

O saat bir də gördü ki, gurultu-nəriltiynən bir imarət hazır oldu ki, keçəlin dediyinnən də qəşəng. Keçəlin nənəsi bu işə lap məhəttəl qaldı. Keçəl dedi:

– Nənə, ev hazırdı, mən gedirəm indi də haman qızı gətirəm.

Keçəl xalçanın üstündə oturub dedi:

– Xalça, həzrət Süleyman eşqinə məni apar Hindistan padşahının torpağına.

O saat xalça göyə qalxıb keçəli apardı Hindistan torpağına, düz padşahın evinin qabağında qoydu yerə. Elə bu vaxtıydı ki, padşahın qızı aynadan küçəyə baxırdı. Keçəl, qızı görən kimi az qaldı ağlı başından çıxsın, o saat dedi:

– Elə əsil mən deyən gözəldi ki, var.

Tez üzüyü dilinin altına qoyub dedi:

– Üzük, sənnən istəyirəm ki, padşahın bu gözəl qızı bu saat mənim bu xalçamın üstündə olsun.

O dəyqə gördü ki, qız xalçanın üstədi. Dedi:

– Xalça, bizi həzrət Süleyman eşqinə, apar öz evimizə.

Xalça göyə qalxıb bunları düz gətirdi bir kərpici qızıl, bir kərpici gümüşdən olan imarətin içinə. Qız baxıb gördü ki, bura elə bir imarətdi ki, heç onun atası yuxusunda da görə bilməzdi. Qərəz, qıznan bir gün-beş gün belə burda ömür sürsünlər, görək Hindistan padşahı neylədi... Hindistan padşahı bir də xəbər tutdu ki, bəs qızı yoxa çəkilib. Hər yerə adam saldırdı, car çəkdirdi, qızdan bir sorax çıxmadı ki, çıxmadı. Axırda padşah baş vəzirin yanına çağırtdırıb dedi:

– Vəzir, gündə on dəfə qolumun qarısı sıxılır, ürəyim qısılır, qızımın getməyinə dözə bilmirəm, bir tədbir gör.

Vəzir dedi:

– Qibleyi-aləm, mən neçə gündü fikirləşirəm, çox götür-qoy eləmişəm, çoxlu rəmmallar çağırmışam; heç biri ağıllı bir söz deyə bilmir. Bircə rəmmal dedi ki, qızı bir keçəl oğlan aparıb, özü də bir kərpici qızıl, bir kərpici gümüş bir imarətdə saxlayır. İndi bircə ümidim ona gəlir ki, bir küp qarısı tapax, göndərək hər yeri axtarsın, bəlkə bir xəbər gətirə bildi.

Padşah o saat əmr elədi bir küpə girən qarı tapıb gətirdilər. Padşah baxıb gördü bu elə bir qarıdı ki, üzünə baxan gərək kəffarə verə. Gözləri çaş, ağzı əyri, qılçası topal, beli donqar, qaş-qabağınnan da ki, lap zəhirmar tökülür. Padşah dedi:

– Vəzir, bu şil-kütün biridi, düz yerdə yeriyə bilmir ağlım kəsmir ki, bunun əlinnən iş gələ.

Qarı dedi:

– Ey padşah, sən mənim sür-süfətimə baxma, gördüyüm işə bax. De görüm məni neyləyirsən çağırıb?

Padşah dedi:

– Qarı, mənim qızım birdən-birə yoxa çəkilib. Hər yeri ələk-fələk eləmişəm, tapa bilmirəm. Əgər sən onu tapa bilsən, nə istəsən verərəm.

Qarı gülüb dedi:

– Elə bu?

Padşah dedi:

– Bu azdı?

Qarı dedi:

– Sağ olmuş, belə işlər mənim əlimdə su içimi kimi bir şeydi. Günü bu gün taparam, amma gərək mənə xələt verəsən.

Padşah o saat əlin atıb qarının ovcuna bir xışma qızıl basdı. Qarı qızılı görən kimi gözləri siçan tutmuş pişik kimi dörd oldu. O saat dabanına tüpürüb evdən çıxdı. Vəzir, vəkil qarının dalınca baxıb gördülər ki, elə bil ki, hacıleyləkdi. Qarı evinə gəlib girdi küpün içinə, puçunu burdu, o saat küp gurultuynan-pırıltıynan qalxdı düz yeddinci göyə. Qarı küpün içində göydə hər yeri devran eləyirdi, bir də gördü ki, uzaxda bir imarət görünür, elə bil gün çıxıb hər yerə işıx salır. Küpü düz sürdü o tərəfə, gəlib şəhər qırağında bir xarabalıxda endi yerə, küpdən çıxıb özünə yetmiş yerdən sığal verdi, bir əlinə əsa, bir əlinə də təsbeh alıb gəldi həmən imarətin qabağına. O qədər güddü ki, gördü padşahın qızı küləfirəngiyə çıxıb baxır. Tez qarı gəlib küləfirənginin yanından keçəndə birdən ayağını boş qoyub yıxıldı yerə, başladı yalannan ax-uf eliyib zarımağa. Qızın qarıya yazığı gəldi, nökərlərə əmr elədi ki, gedin o qarını gətirin evə, bir az çörəkdən-zaddan verək.

Nökərlər gedib qarını yerdən qaldırıb gətirdilər qızın yanına.

Yaxşı deyiblər kor nə istər iki göz, biri əyri, biri düz. Elə qarı da bunu istəyirdi ki, özünü bir təhər qızın yanına salsın.

Qız qarını görən kimi dedi:

– Qarı nənə, hara gedirdin, niyə yıxıldın?

Qarı təsbehini çevirə-çevirə dedi:

– Bıy, qarı nənə sənə qurban, nə gözəl-göyçək qızsan, lap padşah qızına oxşayırsan. Mən kasıb bir arvadam, heç kimim yoxdu, elə sənin kimi insaflı adamların süfrələrindən artıx qalan qır-qırıntıdan verirlər, bir təhər dolanıram. İndi durub məsçidə gedirdim namaz qılmağa, acınnan qılçalarımda taqət qalmamışdı deyin daşa ilişib yıxıldım.

Qızın qarıya yazığı gəldi, gətirib ona yemək verdi. Qarı doyunca yeyib qurtarandan sonra yağlı dilini işə salıb qıza şirin-şirin elə söhbətlər elədi ki, qızın xoşuna gəldi. Qız da neçə vaxdıydı ki, ata-anasınnan ayrılmışdı, burda da bir keçəlin qoca nənəsinnən savayı söhbət eləməyə adam yoxuydu. Qarının söhbəti qızın ürəyini yumşaltdı. Qız da özünün bütün dərdini qarıya söylədi. Qarı gördü ki, qızın ürəyi tamam yumşalıb, nə soruşsa düzünü deyəcək, odu ki, dedi:

– Qızım, bu cahi-cəlal ki, görürsən, heç bir padşahda ola bilməz, bəs sənin ərin bu boyda dövləti hardan alıb?

Qız dedi:

– Qarı nənə, vallah bilmirəm.

Qarı gördü fürsətdi, tez dedi:

– Onda yəqin ərin səni istəmir.

Qız dedi:

– Yox qarı nənə, o mənnən ötəri ölür.

Qarı dedi:

– Qızım, onlar hamısı sözdü, əgər ərin səni istəsə, öz sirrini sənə deyər.

Qarı sözünü qurtarıb qalxdı ayağa getməyə. Qız yalvardı ki, qarı nənə, sən allah sabah da gəl bizə, bir az söhbət elə, təkəm, yaman darıxıram. Qarı, baş üstə, nənən sənə qurban, deyib getdi.

Axşam oldu, keçəl evə gələndə gördü arvadının qaşqabağı yernən gedir. Dedi:

– Sənə nə olub?

Qız dedi:

– Sən məni istəmirsən.

Keçəl dedi:

– Nəyə görə deyirsən ki, səni istəmirəm.

Qız dedi:

– Məni istəsən bu var-dövləti hardan almağının sirrini mənə deyərsən.

Keçəl nə qədər istədi deməsin, gördü olmur, qız əl çəkmir. Axırda əlacı kəsildi, dedi ki, hal-qəziyə dilimin altında bir üzük var, onu əlimdə tutub desəm ki, həzrət Süleyman eşqinə filan şey filan olsun, o saat o dediyim şey olur. Bu yerə saldığımız yaşıl xalçanın da üstə çıxıb desəm ki, xalça, məni həzrət Süleyman eşqinə filan şəhərə apar, xalça o saat quş kimi uçub məni ora aparar. Bütün bu cah-cəlalı bu üzüynən xalçanın köməyiynən düzəltmişəm.

Qız ərindən bu sözləri eşidəndən sonra rahat yatdı.

Səhər oldu, günorta üstü qarı əsasını yerə diriyə-diriyə yenə gəldi qızın yanına, o yandan, bu yandan söhbət eliyənnən sonra qız dedi:

– Qarı nənə, axşam ərimdən öyrəndim ki, bu dövləti hardan alıb.

Qız keçəlin dediklərini tamam qarıya söylədi. Qarı istədiyinə çatmışdı deyin bu gün dünənkinnən də şirin söhbət elədi. Axşam oldu, keçəl gəldi, amma qarı getmək istəmədi. Yalannan özün yerə yıxıb dedi:

– Vay sancılandım.

Qarı yalannan bir hay-şüyən saldı ki, vay qarannıx düşdü, mən necə gedəcəm. Qız dedi:

– Qarı nənə, nə çoxdu yerimiz, bu gecə bizdə yatarsan, sabah yaxşı olub gedərsən.

Elə qarı da bunu istəyirdi. O saat qızı qucaqlayıb marçahamarç o üzünnən, bu üzünnən öpüb dedi:

– Qızım, səni görüm xoşbaxt olasan, qalmışdım fikirdə ki, bu sancıynan mən hara gedəcəm.

Gecə yatmax vaxtı gələndə qarının yerini qapının yanınnan saldılar. Qıznan oğlan da evin yuxarı başında hərəsi bir yer salıb yatdılar.

Gecənin bir vaxtı imansız qarı durub bunların burnuna bihuşdarı iylətdi, barmağıynan oğlanın burnunu tutdu, oğlanın nəfəsi darıxdı, ağzını açdı, qarı əlini salıb dilinin altınnan üzüyü götürdü. Dəstəmaz alıb namaz qıldı, xalçanın üstündə oturub üzüyə dedi:

– Xalça, həzrət Süleyman eşqinə qıznan məni bu imarətlə bərabər apar Hindistan padşahının torpağına.

Qarı bu sözü deyən kimi bir də gördü qalxdı göyün üzünə, bir göz qırpımında çatdı Hindistana. Üzüynən xalçanı da aparıb getdi padşahın yanına, əhvalatı tamam-kamal söyləyib dedi:

– İndi gedib qızına baxa bilərsən.

Padşah vəziri də götürüb getdi qızının yanına, gördü doğrudan belə bir imarət heç bir padşahın torpağında yoxdu. Özü də qızı hələ yuxudan ayılmayıb. Padşah qızını ayıldıb başladı dərdləşməyə.

Bunları burda qoyax, görək keçəlin başına nə gəldi. Keçəl bir də ayılıb gördü ki, nə qız, nə ev, lələ köçüb yurdu qalıb. Qoca nənəsiynən öz köhnə evlərində bir cırıx həsirin üstə qalıblar. O saat barmağını dişlədi ki, bizi didərgin salan yəqin o qarı olacaq. Arvadımın dili difdimiş dursaydı, məndən sirri soruşmasaydı, belə də olmazdı.

Keçəl dedi:

– Nənə, yenə ipdən-zaddan əyir, aparım satım, bir az əppək alım.

Arvadın əlacı kəsildi, cəhrəni, iyi götürüb bir az yun əyirib iplik elədi verdi keçələ ki, aparıb satsın. Keçəl dedi:

– Eh, ay nənə, bunnan nə çıxacax, bir-iki qəpik-quruş verələr, ya verməyələr.

Nənəsi dedi:

– Ay oğul, neyliyim əlimnən ayrı iş gəlmir.

Keçəl dedi:

– Ay nənə, kasıbın baxdı olmaz, cibimdə bir sağ yer yoxdu ki, qəpik-quruşumu[3] ora qoyam, qorxuram itə. Bəlkə köhnə-kürüş bir kisədən-zaddan ola?

Nənəsi dedi:

– Bıy, ay oğul, yaxşı yadıma saldın, dədənnən üç şey qalıb, bir pul kisəsi, bir düdük, bir də papax. Dədən həmişə deyərdi ki, bunları divlərin zağasınnan tapıb. Mən elə o vaxtdan onları sandıxda saxlayırdım, gətirim torbanı verim.

Arvad gətirib boş kisəni nəvəsinə verdi. Keçəl ip yumağını da götürüb getdi bazara. Kələfi iki quruşa satdı, bir quruşuna əppək aldı, bir quruşunu da kisəyə saldı. Axşam oldu, keçəl gəldi evlərinə, çörəklərini yedilər, yatdılar. Səhər arvad yenə bir kələf verdi ki, keçəl aparıb satsın.

Keçəl dedi:

– Nənə, dünən bir quruşlux əppək almışdım, bir quruş da artırıb kisəmə salmışdım. İndi bu bir quruşu verim sən saxla, elə gündə bir quruş artırsam yaxşı olar.

Keçəl kisəni açıb quruşu çıxardanda gördü ki, pul dönüb qızıl olub. Nənə-bala bu işə məəttəl qaldılar. Keçəl sevinə-sevinə getdi bazara,

ipi satıb iki quruş qazandı bir quruşlux çörək aldı, bir quruşu da kisəyə saldı. Evə gəlib kisəni açanda gördü ki, bu pul da qızıl olub. O saat bildilər ki, nə sirr varsa, bu kisədədi. Odu ki, nənə-bala əllərinə keçən daşı-dəmiri kisəyə doldurub boşaldan kimi hamısı qızıl olurdu. Bir gün, beş gün keçəl bu kiseynən o qədər varlandı ki, var-dövlət başınnan aşdı. Bir qəşəng imarət tikdirdi ki, əvvəlkinnən də yaxşı. İmarətə qızıl-gümüşdən, ləl-cavahiratdan bir bəzək vurdurmuşdu ki, yeddi ağaclıxdan gün kimi işıx salırdı. Keçəlin keyfi lap kökəlmişdi, odu ki, dedi:

– Nənə, bu kişilikdən deyil ki, mən burda duram, arvadım Hindistanda, Allaha şükür, var-dövlət desən bizdə, ev-eşik desən bizdə, gəl sən burda ye-iç, dolan, mən gedim bəlkə qızı tapa bildim.

Nənəsi istədi razı olmasın, gördü yox, nəvəsi deyəsən əl çəkməyəcək. Əlacı kəsildi, razılıq verdi ki, oğul, yaxşı, bu gecə qal, sabah yola düşərsən.

Nənə-bala oturub dərdləşirdilər, birdən keçəl dedi:

– Nənə, əgər bu pul kisəsi olmasaydı, biz acından nə günə qalardıx, qapı-qapı düşüb dilənərdik.

Nənəsi dedi:

– Hə, ay oğul, neçə il idi ki, o kisə sandıxda dururdu, mən nə biləydim ki, bu kisə beləymiş.

Keçəl dedi:

– Nənə, sən deyirdin ki, dədəmnən bir papaxnan düdük də qalıb, birdən onlarda da bir sirr olar. Gətir bir baxaq, görək onlar necə şeydi.

Arvad durub sandıxdan papaxla düdüyü də gətirib oğluna verdi. Keçəl papağı qoydu başına ki, görsün necə olur. Elə papağı başına qoyan kimi nənəsi dedi:

– Bıy, başıma daşlar, nəvəm qeyb oldu ki.

Arvad başladı hay-şivənə ki, bala son necə oldun?

Keçəl elə bildi ki, nənəsi dəli oldu. Dedi:

– Ay nənə, sənə nə olub, görmürsənmi burda, yanında oturmuşam.

Arvad dad-fəryad elədi ki, ay oğul, vallah səni görmürəm. Birdən keçəlin ürəyinə gəldi ki, demək olmaz, şətəl bu papaxdan keçmiş olar, tez papağı başınnan götürdü. O saat nənəsi keçəli qucaxlayıb dedi:

– Ay bala, bu nə iş idi?

Keçəl dedi:

– Nənə darıxma, bu saat bu sirri tapacam.

Papağı qoydu nənəsinin başına, baxdı ki, indi də arvad yoxa çəkildi. Keçəl sevinə-sevinə dedi:

– Nənə tapdım, bu papağı kim başına qoyursa, gözə görükmür, indi də mən səni görmürdüm.

Keçəl şükür elədi ki, bu lap yaxşı oldu. Papağı qoyaram başıma, heç kim məni görməz, nə keyfim istəyər eləyərəm.

Keçəl dedi:

– Nənə, mənim gözüm bu düdükdən də su içmir. Görəsən bunda nə sirr var?

Düdüyü əlinə alıb o üzünə, bu üzünə çevirdi, heç bir şey olmadı. Birdən ağzına apardı ki, görsün çalınırmı, elə bircə dəfə üfürmüşdü ki, bir də gördü ki, eşikdən bir səs-küy gəlir, bir hay-həşir var ki, az qalır yer-göy lərzəyə gəlsin. Qapını açdı ki, eşiyə baxsın, gördü burda o qədər qoşun var, o qədər qoşun var ki, iynə atsan yerə düşməz. Keçəli görən kimi qoşun başçısı gəlib ona yalvardı ki, dünyada nə istəyirsən verək, hara getmək istəyirsən aparax, sən o düdüyü çalma, bizim hamımızın qulağı onun səsindən kar olub. Keçəl o saat başa düşdü ki, düdükdə də bu əlamət varıymış. Keçəl fürsəti fövtə vermədi, dedi:

– Məni aparın Hindistan torpağına, mən də düdüyü çalmayım.

Qoşun böyüyü o saat razı oldu.

Keçəl nənəsiynən halallaşıb düşdü qoşun böyüyünün yanına, başladılar getməyə. Elə bir az getmişdilər qoşun böyüyü nə elədi, nə eləmədi, keçəl bir də baxıb gördü ki, budu Hindistan torpağında, qızın imarətinin qabağındadı. Keçəl qoşun böyüyünü buraxıb özü başladı qızın yanına getməyə. Gördü ki, qızın imarəti hər tərəfdən elə hündür hasarla dövrələnib ki, ordan heç quş da səkə bilməz. İstədi qapıdan xəlvət getsin, gördü yox, bu da mümkün deyil. Qapıda iki elə bığıburma pəhlivan durub ki, adamı az qalır gözüynən yesin.

Keçəl o qədər gözlədi ki, qapı açılanda papağı başına qoyub bir böyürdən girdi içəri. Axtara-axtara düz gedib çıxdı qızın otağına. Qapının arasınnan baxıb gördü ki, arvadı evdə təkcə oturub, qabağında da bir yekə qızıl nimçədə aş. Keçəl papağı başına qoyub qapını açdı, girdi içəri, sonra da qapını örtüb cəftəsini də vurdu. Qız gördü qapı açıldı, sonra da öz-özünə bağlandı, amma içəri heç kim girmədi. Qızı vəhmə basdı ki, görəsən bu nə olan işdi. Keçəl yol gəlib bərk acımışdı, aşı görən kimi ədəb-ərkannan yerdə bardaş qurub başladı aşı yeməyə. Qız gördü aşı yeyirlər, amma gözə adam-zad görükmür. Qorxudan qız qış-

qırıb qaçmaq istəyəndə keçəl səsləndi ki, hara qaçırsan, mən sənin ərinəm, gəlmişəm səni aparmağa. Keçəl papağı başından götürüb yerə qoydu, qız baxıb gördü ki, öz əridi. Dili tutula-tutula dedi:

– A kişi, bu nə işdi, sən cinsən[4], şəyatinsən, nəsən, məni agah elə.

Keçəl dedi:

– Gəl otur bir az dərdləşək, sonra bilərsən.

Bunlar oturub başlarına gələn qəzavü-qədərdən danışdılar. Axırda keçəl dedi:

– İndi dur hazırlaş, səni aparmağa gəlmişəm.

Qız dedi:

– A kişi, sənin evin yox, yeməyə çörəyin yox, bu cür alaxana-balaxananı qoyub hara gedirsən, elə qal burda olax.

Keçəl dedi:

– Əşi sən nə danışırsan, indi elə bir cahi-cəlal düzəltmişəm ki, bu gördüyün mülk onun yanında tövləyə oxşayır.

Qız inanmadı ki, inanmadı. Dedi:

– Axı niyə məni aldadırsan, sən o qədər pulu hardan aldın?

Keçəl gördü olmur, axırı açıb dedi:

– Ay natərəs qızı natərəs, bax bu kisəni görürsənmi, bunun içinə hər nə qoysan dönüb olur qızıl. Bütün var-dövləti bu kisəynən düzəltmişəm.

Qız dedi:

– Bəs yaxşı, indi sənin xalçan yox, üzüyün yox, bu uzax yolu nə cür gəlib çıxdın?

Keçəl düdüyü çıxardıb dedi:

– Bax bunu bircə dəfə çalsam, hara istəsəm məni aparıb qoyarlar.

Bunları burda qoyax, sizə xəbər verək padşahdan.

Padşah qorxurdu ki, qızını gəlib apararlar. Odu ki, qızın otağının üstündən xəlvətcə bir baca açdırıb ora bir adam qoymuşdu ki, gecə-gündüz qızı pusub gözləsin. Bu işdən qızın xəbəri yox idi. Qızınan keçəlin bu danışıxlarını bacadan pusan adam eşidib, düz qaça-qaça daban aldı padşahın yanına, bütün gördüklərini danışdı.

Padşah o qədər gözlədi ki, qıznan keçəl soyunub yatdılar. Bunlar şirin yuxuda yata-yata aynadan, bacadan düşüb keçəlin əl-ayağını sarıdılar, kisəni, papağı, düdüyü də aparıb padşaha verdilər. Keçəli möhkəm döyüb saldılar zindana.

Qızın da keçələ o qədər meyli yoxuydu deyə atasına heç bir söz demədi.

Keçəl zindanda qalmaxda olsun, sizə kimnən deyim, keçəlin nənəsindən, itnən pişikdən. Yazıx arvad hər gün keçəlin cahi-cəlalına baxıb ah çəkirdi. İtnən pişik də heç yerə getmirdilər, keçəlin nənəsinə hayanlıq eləyirdilər. Arvad da elə hörünü salmışdı itnən pişiyə.

Bir gün keçəlin nənəsinin yenə nəvəsi yadına düşmüşdü deyin bikeyf idi. İtnən pişik sözü bir yerə qoydular ki, bu heç kişilikdən deyil ki, keçəl bizi ölümnən qurtardı, gərək biz də ona yaxşılıq eləyək, gedək onu tapax, üzüyü padşahdan alax.

İtnən pişik yol başlayıb düz getdilər Hindistan torpağına. Pişik qabaxda qaçırdı, it də onu qovurdu, elə gedirdilər ki, heç quş da onlara çata bilməzdi. Bunlar bu getməynən düz qırx gün, qırx gecə yol getdilər, çaylar keçdilər, dağlar aşdılar, axırı Hindistana çatdılar. Gedib qızın imarətini tapdılar. Pişik qapını açıb miyoldaya-miyoldaya girdi qızın yanına. Keçəlin arvadı o saat pişiyi tanıdı. Qız nə qədər pişiyi sığalladı, çörək verdisə, elə miyoltusu kəsmədi, gözü o üzə, bu üzə baxırdı. Qız başa düşdü ki, pişik keçəli axtarır. Odu ki, dedi:

– Ay Allahın heyvanı, bilirəm keçəli axtarırsan, o zindandadı.

Qızın söz ağzınnan qurtarmamış pişiklə it qapıdan çıxdı, zindana üz qoydular. Pişik bacadan özünü içəri saldı, başladı miyoldamağa. Keçəl o saat pişiyini tanıdı. Pişik dil açıb insan kimi dedi:

– İtnən mən gəlmişik üzüynən, xalçanı oğurluyub səni burdan aparax.

Keçəl dedi:

– Üzük padşahın dilinin altındadı, xalça da taxtın qabağında yerə salınıb.

İtnən pişik düz getdilər padşahın evinin qabağına. Aynadan-qapıdan nə qədər boylandılarsa, girməyə bir yer tapmadılar. Pişik o tərəf, bu tərəfə boylanırdı, bir də gördü kü, bir siçan qapının altınnan çıxıb qaçır. Tez xirtdəkləyib siçanı tutdu. Siçan gözünün yaşını sel kimi axıdıb başladı yalvarmağa, dedi:

– Səni and verirəm ananın südünə, məni yemə, balalarım var, acdılar. onlara yemək aparıram.

Pişik dedi:

– Sənnən bir şərtim var, onu eləsən yemərəm.

Siçan dedi:

– Şərtin nədi?

Pişik dedi:

– Gərək sən qapının küncünnən bir deşik açasan, mən də sənnən ordan girək içəri. Padşahın dilinin altında bir üzük var, onu çıxardıb verərsən mənə, onnan sonra sənnən işim yoxdu.

Siçan əlini gözünün üstə qoyub dedi:

– Baş üstə, o mənim əlimdə.

Siçan o saat dişiynən qapının taxtasını xırha xırnan kəsib bir deşik açdı. Pişiynən girdilər içəri. Pişik tez dırmaşıb cəftəni içəridən açdı, qapının arasını açıx qoydu. Gördülər padşah taxtın üstə fısha-fısnan yatır. Pişik tez yerdən xalçanı qatlayıb verdi itə. Siçan taxtın üstə o üzə, bu üzə hoppanıb çıxdı padşahın sinəsinin üstünə, yavaşca quyruğunun ucunu padşahın burnunun deşiyinə saldı, o saat padşah asqırdı, üzük ağzından sıçrayıb yerə düşdü. Pişik üzüyü götürüb siçana razılıx eləyib çıxdı eşiyə. İt xalçanı, pişik də üzüyü götürüb getdilər keçəlin yanına, üzüyü verdilər keçələ. Keçəl dedi:

– Üzük, həzrət Süleyman eşqinə məni bu zindannan qurtar.

Söz ağzınnan qurtaran kimi bir də gördü ki, zindanın qapısı açıldı. Keçəl çıxıb itnən də görüşdü. Üçü də oturdular xalçanın üstündə, keçəl yenə dedi:

– Xalça, həzrət Süleyman eşqinə arvadımı da burda səndən istəyirəm. Bizi apar öz evimizə.

Bir də gördülər arvadı da xalçanın üstündədi. Xalça qalxıb göyə, uça-uça bunları düz gətirdi öz evlərinə. Keçəlin nənəsi sevindiyindən bilmədi neyləsin.

Bunları burda qoyax, görək padşah neçə oldu.

Padşah yuxudan ayılıb gördü xalça yerdə yoxdu, dilini tərpədib gördü ki, üzük də qeybə çəkilib. Padşah dizinə döyə-döyə qaldı, ərəsətşivən saldı, vəzir-vəkili başına yığdı, bir çarə istədi. Axırda vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, bu işə bircə küp qarısınnan savayı heç kim əncam çəkməyəcək, sən onu çağırtdır.

Padşah o saat haman küpəgirən qarını gətirtdi hüzuruna. Əhvalatı ona söyləyib kömək istədi. Qarı əvvəlcə çox nəm-nüm elədi ki, axı onlar məni tanıyırlar, bu dəfə harda görsələr tutub öldürərlər. Padşah qarının ovcuna iki xışma qızıl qoyub dedi:

– Mən bilmirəm neyliyirsən elə, qızımı tap gətir.

Qarı qızılı görən kimi baş əyib getdi. Qarı küpün içinə girib düz qalxdı göyün bir qatına, gedib keçəlin olduğu şəhərə çatdı. Bir xarabalıxda küpünü gizlədib, bir sehir oxudu, özünü elədi on beş yaşında

bakirə bir qız. Düz gəlib keçəlin aynasının qabağında oturdu. Elə bu hində keçəlin arvadı aynadan qızı gördü, adam göndərdi ki, gedin o qızı çağırın görüm buralarda nə axtarır. Gedib qız sifətinə düşmüş küp qarısını gətirdilər. Keçəlin arvadı dedi:

– Ay qəşəng qız, buralarda nə axtarırsan?

Qız dedi:

– Ay xanım, vallah mən köçdən azıb qalmışam, ata-anamı axtardım tapa bilmədim, indi gecələməyə bir yer axtarıram, gəlib çıxmışam bura.

Padşah qızının buna yazığı gəldi, ərini himnən başa saldı ki, nə deyirsən, bunu yanımızda saxlayaxmı?

Keçəl fikirləşdi ki, arvadım atası evində hüröyün böyümüş adamdı, indi burda təkcə qulağı batmış adam kimi qalıb, elə bu qıznan gününü keçirər, darıxmaz, odu ki, başıynan razılıx verdi. Padşah qızı dedi:

– Ay qəşəng qız, mən də gündüzlər evdə tək qalıb darıxıram, gəl sən qal mənim yanımda, nə vaxt ata-anan gələr, onda gedərsən.

Yaxşı deyiblər kor nə istər iki göz, biri əyri biri düz. Qız elə belə bir işi Allahdan istəyirdi. Odu ki, özünü tülkülüyə qoyub dedi:

– Xanım, sən ki, deyirsən qal, qalıram yanında.

Bəli, gecə oldu, yatmax vaxtı gəldi, yer salıb hərəsi bir tərəfdə yatdılar. Gecədən bir az keçmiş keçəl yenicə hənirə getməmiş qız durub ər-arvadın burnuna behişdarı iylətdi, sonra üzüyü keçəlin dilinin altınnan çıxardıb dedi:

– Üzük, bir göz qırpımında qıznan məni bu imarətnən bir yerdə, həzrət Süleyman eşqinə apar Hindistana.

Söz tamam olan kimi qarının mətləbi hazır oldu, qız gözün açanda gördü kü, Hindistanda atasının yanındadı. Bu tərəfdən keçəl də ayılıb gördü ki, nənəsiynən yenə qalıb öz köhnə daxmalarında[5] bir cırıx təlisin üstündə. Keçəl boynunun süysününə bir yumrux vurdu ki, kül mənim başıma, bu şətəl yəqin o qızdan keçdi, mən niyə onu evə qoyurdum ki, belə də olurdu. Keçəl and içdi ki, vallah əgər mənim bir də yönüm düşsə Hindistana getsəm, gərək padşahnan qarıya bir turp əkdirəm, bir turp əkdirəm ki, qiyamatacan yadlarınnan çıxmasın.

Bu işlər keçələ yaman əsər eləmişdi. Nə yeyirdi, nə içirdi, acınnan quruyub laf ələngəyə dönmüşdü. Bir gün axşam vaxtı keçəl nənəsinə dedi:

– Nənə, məni rizə-rizə doğrasalar da, burda duran deyiləm, gedirəm, ya mənə verən Allah, ya padşaha.

Nənəsi nə qədər yalvar-yapış elədi ki, oğul, bu vaxt hara gedirsən, qal sabah get. Keçəl dedi:

– Nənə, həmzatım tutub, daha dura bilmirəm, mən getdim.

Nənəsi gördü ki, keçəl dediyinnən dönməyəcək. Odu ki, dedi:

– Oğul, get, yolun uğur olsun.

Keçəl evdən çıxdı, az getdi, çox dayandı, çox getdi, az dayandı, dağlar aşdı, çaylar keçdi, gəlib bir meşəyə çıxdı. Keçəl acmışdı, yeməyə bir şey axtarırdı. Gördü ki, meşə doludu cır meyvəynən. Bir az almadan-armuddan, gavalıdan dərib. doldurdu xurcununa. Ürəyi əzilirdi, iki dənə gavalı götürüb ağzına atdı, elə gavalını yeyib qurtaran kimi bir də gördü ki, təpəsinin ortasınnan iki buynuz çıxdı. Nə qədər çalışdı ki, buynuzları qoparsın, gördü mümkün olmur. Qaldı məəttəl ki, görəsən bu niyə belə oldu, ağlına da gəlmədi ki, bunu eliyən gavalıdı. Bir azdan sonra xurcunnan bir armud çıxarıb yedi. Bu dəfə gördü ki, elə bil düz-dünya hərləndi bunun başına, kəlləmayallax dəydi yerə. O saat başı qaldı yerdə, ayaxları göydə. Keçəl tamam çaşbaş qaldı. Nə qədər elədi ayağa qalxa bilmədi. Başa düşdü ki, bunu bu günə salan yediyi meyvələrdi. Yazıx keçəl başı yerdə, ayaxları göydə əlləriynən ölüm-zülüm bir xeyli gedib meşədən çıxdı, gördü aşağıda bir qəşəng örüş var. Yendi örüşə, istədi bir az uzanıb dincini alsın, gördü yox, nə uzanmax, nə dincəlmək heç biri mümkün deyil. Keçəl lap təngə gəldi.

Öz-özünə fikirləşdi ki, məni bu günə salan gavalıynan armud oldu. Allaha təvəkkül, qoy almadan da birini yeyim, ya məni bir az da pis günə salsın, ya da öldürsün, canım qurtarsın. Bu fikirnən almadan birini yedi. Almanı yeyənnən sonra nə görsə yaxşıdı, bir də gördü ki, təzədən dönüb olub anadangəlmə sappasağ. Nə buynuz var, nə bir şey. Başladı yenə həmişəki kimi yeriməyə. Keçəl istədi ki, xurcundakı meyvələri boşaltsın yerə, birdən ağlına gəldi ki, ay gidi elə yaxşı oldu. Gedərəm Hindistana, bunları bir təhər fırıldağnan-zadnan verərəm padşaha yeyər, buynuz çıxardıb təpəsi üstə qalar. Keçəl xurcunu çiyninə alıb soraxlaşa-soraxlaşa yol başladı Hindistana getməyə. Elə bir az getmişdi ki, gördü bir kahanın qabağında bir bədheybət div, ayaxları qalxıb göyə, başı qalıb yerdə. Div elə qəzəblənib, elə qəzəblənib, dırnaxlarıynan yeri kotan kimi eşir, nərəsinnən dağ-daş lərzəyə gəlib əsir. Keçəl divi görəndə istədi qaçsın, div onu gördü çığırdı, dedi:

– Ey bəni-insan, mənim əlimnən heç yana qaça bilməyəcəksən, nahax əziyyət çəkmə, gəl yanıma, mən neçə illərdi ki, belə təpəsi üstə

qalmışam, əgər dərdimə əlac eliyə bilsən, nə istəsən onu verəcəm, yox, əlac eliyə bilməsən, səni bircə tikiyə dürmək eləyib yeyəcəm.

Keçəl başa düşdü ki, div də onun kimi armud yeyib bu günə düşüb. Odu ki, xurcununnan bir alma çıxardıb verdi divə, dedi:

– Bu almanı ye, yaxşı olacaqsan.

Div almanı yeyən kimi, qalxıb durdu ayaq üstə, sevindiyinnən keçəli başladı duz kimi yalamağa. Div dedi:

– Qardaş, indi de görüm mənnən nə istəyirsən?

Keçəl dedi:

– Sənnən heç nə istəmirəm, bircə məni aparıb qoyasan Hindistana.

Div o saat əlini gözünün üstə qoyub dedi:

– Mənim gözüm üstə, min dalıma, özü də gözünü yum.

Bəli, keçəl xurcununu çiyninə salıb mindi divin dalına. Div bir lövh[6] oxuyub tənur elədi göyə, uça-uça keçəli aparıb qoydu Hindistana, sonra özü qayıdıb gəldi.

Keçəl Hindistana çatmaxda olsun, sizə kimnən xəbər verim, padşahdan. Demə padşaha soyux dəyib bir az keyfsizmiş. Keçəl gördü ki, car çəkirlər ki, bəs padşah azarlayıb, kimdi yaxşı həkim gəlsin onu yaxşı eləsin, çoxlu xələt alsın. Keçəl fürsəti fövtə verməyib tez bir həkim paltarı tapıb geydi, xurcundakı meyvələrdən də bir az cibinə doldurub getdi padşahın yanına, əhvalatı söylədi ki, bəs mən səni yaxşı eləyə bilərəm. Padşah dedi:

– Həkim, mənim başımda bu saat bir ağrı var ki, bütün dünya gözümə qarannıx görünür. Məni yaxşı eləsən, nə istəsən verəcəm.

Keçəl cibinnən bir armudnan bir gavalı çıxarıb verdi padşaha, dedi:

– Al, bunların ikisini də birdən ye, sağalacaqsan. Padşah armudnan gavalını yeyən kimi təpəsinnən bir buynuz çıxartdı, özü də ayaxları qalxdı göyə, başı endi yerə, qaldı təpəsi üstə. O saat hay-küy düşdü, keçəli tutdular. Keçəl dedi:

– Heç zəhmət çəkməyin, mən qaçıb eliyəsi deyiləm.

Vəzir arif adamdı, gördü ki, padşah kəlləmayallax olannan sonra həkim əlini belinə qoyub kələ kimi baxır, özü də suşdu adama oxşayır. Odu ki, dedi:

– Ay həkim, bu nə işdi, niyə belə oldu?

Keçəl dedi:

– Haqqı odur, belə padşaha bu da azdı.

Padşah həkimi belə görəndə cin vurdu beyninə ki, bu saat vurun bu məlunun boynunu. Keçəl şaqqıltıynan gülüb dedi:

– Ay padşah, sən ağıllı adam olsan, mənim ölümümə fərman verməzdin. Sənin dərmanını məndən savayı heç kim bilmir. Mən olmayannan sonra heç kim səni yaxşı eliyə bilməyəcək, təpəsi üstə qalıb sən də öləcəksən.

Padşah gördü həkim düz deyir. Odur ki, onu dilə tutub dedi:

– Həkim, nə istəyirsən verim, məni yaxşı elə.

Keçəl dedi:

– Üzüyü, xalçanı, papağı, kisəni, düdüyü.

Padşah o saat bildi ki, bu qızını aparan keçəldi. Padşah keçələ nə qədər hədə-qorxu gəldisə, bir şey çıxmadı. Axırda əmr elədi gətirib keçəlin istədiyi şeylərin hamısını verdilər. Keçəl şeyləri alannan sonra dedi:

– Padşah, mən səni bu dəfə yaxşı eləyəcəm, amma sonra mənə xəyanət eləsən, and olsun atamın ərvahına sənə bir doan tutacam əlləzinəni əzbərdən oxuyacaxsan.

Padşah and-aman eləyənnən sonra keçəl çıxardıb ona bir alma verdi. Padşahın gözü qorxmuşdu deyin yemək istəmədi. Keçəl dedi:

– Ye, qorxma, sənin dərmanın bu almadadı.

Padşah almanı yeyən kimi durub oturdu yerində, buynuzu da düşdü yerə. Hamı bu işə məəttəl qaldı.

Keçəl xalçaynan üzüyü alandan sonra gəldi arvadının yanına, onu da xalçanın üstündə oturdub dedi:

– Xalça, həzrət Süleyman eşqinə bizi apar öz qızıl kərpicli evimizə.

Xalça göyə qalxıb bunları gətirdi öz imarətlərinə.

Keçəl nənəsiynən görüşüb öpüşdü. İtnən pişiyi də doyuzdurub öz yanında saxladı. O günnən itnən pişik imarətin dörd tərəfini gözləyib həndəvərə bir adam da buraxmırdılar.

Günnərin birində keçəl arvadına dedi:

– Yaxşı, sən mənnən hər nə xəbər alırdınsa, mən sənə deyirdim, indi sən də mənə de görüm sən ki üzüyün sirrini bilirdin, qarı səni oğurlayıb aparannan sonra niyə məni axtarmırdın?

Qız dedi:

– Vallah, Allahdan gizlin deyil, sənnən nə gizlin. Mən baxıb görürdüm ki, sən qoçaq, mərd oğlansan, amma başına baxanda adamın

qol-qanadı sınıb yanına düşürdü. Sənin keçəl olmağın məni yaman məyus eləyirdi. Odu ki, qalmışdım iki dağın arasında.

Bu söz keçəli yaman bərk tutdu, bir xeyli fikrə getdi, birdən yadına düşdü ki, ay gidi, mənim barmağımdakı üzük dünyada nə istəsən onu verir, mən niyə dərdimə onnan əlac istəmirəm?

Keçəl tez üzüyü barmağınnan çıxardıb oturdu xalçanın üstündə, dedi:

– Üzük, həzrət Süleyman eşqinə məni elə yerə apar ki, orda başımın dərmanı olsun.

Söz tamam olan kimi xalça qalxdı ərşə, o qədər yol getdi, o qədər yol getdi ki, gedib dünyanın axırına çıxdı, orda bir meşənin içinə endi. Keçəl gördü yanında bir qəşəng bulax var ki, suyu dumduru göz yaşı kimi. Suyun içindəki daşlar elə gözəl, elə qəşəngdi ki, elə bil ləl-cavahiratdı. Hava çox istiydi, keçəl də neçə gün idi yol gəlirdi deyin toz-torpağın içindəydi. Odu ki, paltarını soyunub özünü verdi bulağın suyuna, bir çala düzəldib doyunca çimdi. Sonra çıxıb qıraxda başladı suyunu dərməyə, əlini atdı ki, başını qurulasın, gördü əyə, başı teyzən tükdü. Özünə inanmadı, bir də əlini apardı saçına, gördü doğrudan da başına tük gəlib. Əyilib suda öz şəklinə baxdı, gördü nişanadan ötəri başında bir tük tapılmayan keçəlin başı tüknən doludu. Keçəl sevindiyindən bilmədi neyləsin. Oturdu xalçanın üstündə düz gəldi evlərinə.

Arvadı keçəli görəndə az qaldı tanımasın. Keçəl elə qəşəng oğlan olmuşdu ki, üzünə baxan deyirdi bir də baxım. Bayax qızın məhəbbəti bir idisə, indi artıb oldu min. Ər-arvad yeyib-içib keyf çəkdilər, siz də yeyin, için, muradınıza çatın.

Göydən üç alma düşdü, biri mənim, biri itnən pişiyin, biri də qulaq asanların.

## QIZIL QOÇ

Bəli, nağıl binasını qoyax yavaş-yavaş, olum qapında qulunan qarabaş, dövlətli vurar plova şapalax, kasıb tapmaz bir kasa bozbaş, hə, sizə nə söyləyim, kimnən danışım, qədim əyyamdan.

Belə rəvayət eləyirlər ki, günlərin bir günündə biri varıymış, biri yoxuymuş, bir padşahın aman-zaman, gözünün ağı-qarası bircə oğlu varıymış, adına da Məlik deyərlərmiş.

Bir gün Məlik kəhər atına minib dərya qırağıynan gedirdi, bir də gördü ki, öz mehtərləriynən bir keçəl suyun qırağında dalaşırlar. Məlik bunları aralaşdırıb təpindi:

– Ə, nəyiniz artıx düşüb ki, bir-birinizi qırırsınız?

Mehtər dedi:

– Ağa, vallah, mən gördüm ki, dəryanın üzündə bir sandıx oyana-buyana ləngər vurur. Girdim dəryadan sandığı çıxartmağa, bir də gördüm bu zalım oğlu keçəl özünü yetirdi, başladı ki, sandıx mənimdi, indi onun üstündə dalaşırıq.

Keçəl dedi:

– Yalan deyir, sandığı əvvəlcə mən gördüm, gedib dəryadan onu çıxardanda bu gəlib qolumnan tutdu ki, sandıx mənimdi.

Məlik çıxardıb bunların hərəsinə yüz tümən pul verib sandığı aldı. Bir az gedəndən sonra öz-özünə fikirləşdi ki, əşi, bir açım görüm bunun içində nə var ki, onu dəryaya atıblar?

Oğlan bu fikirnən sandığın ağzını açdı. Gördü içində bir balaca da sandıx var. Onun da ağzını açdı, gördü bunun da içində bir sandıx var,

belə-belə, oğlan üç sandıx açdı, axırıncı sandığın ağzını açanda nə görsə yaxşıdı? Gördü bir qız şəkli var ki, adam baxanda ağlı başınnan çıxır.

Qız nə qız, saçları qapqara şəvə kimi, alnı ay, zülmətlərə işıx salır, qaşlar elə bil qüdrəti-ilahinin qələmiynən çəkilib, gözlər şəhla, kirpiklər düz yanaxlarına düşür, burnu hind fındığı, alma kimi yanaxları, lalə kimi dodaxları, ağ mərmərdən incə dişlər, ağ buxaxdan cücü dişlər, gəl məni gör, dərdimdən öl. Məlik şəklə baxan kimi dedi:

– Ya Rəbb, görəsən bu gözəl kimə qismət olacax?

Oğlan doyunca şəklə baxıb qurtaran kimi özünnən getdi. Bir azdan sonra ayılıb şəklə bir də baxdı, genə özünnən getdi. Oğlan düz yeddi dəfə şəklə baxdı, hər baxdıqca özünnən getdi. Axırda şəkli ürəyinin üstünə qoyub düz getdi hərəmxanadakı qəm otağına. Bura elə bir yerimiş ki, kimin dərdi-qəmi olsaymış girib orda ağlayıb göz yaşı tökərmiş. Bu otaxda hər nə varıymışsa, hamısı qara rəngdə imiş. Oğlan qara paltar geyib düz bir həftə burda qaldı. O qədər ağlayıb ah-zar elədi ki, gözünün yaşından qucağında şəklin rəngi qaçdı.

Bu əhvalatdan padşahın xəbəri yoxuymuş. Padşah ha gözləyir oğlu gəlib çıxmır. Hər yerə adam saldırıb car çəkdirir, oğlunnan bir sorax çıxmır. Axırda gəlib oğlanı hərəmxananın qəm otağında tapırlar. O saat gedib padşaha xəbər aparırlar. Padşah vəziri də götürüb oğlunun yanına gəlir. Görür Məliyin rəngi qaçıb sapsarı heyvaya dönüb, ağlamaqdan gözləri şişib dama dönüb, özü də qucağında bir qız şəkli.

– Oğul, nə olub, nə dərdin var?

Məlik əvvəlcə atasından utanıb dərdini demək istəmədi. Atası əl çəkmədi ki, gərək deyəsən. Məliyin əlacı kəsildi, dedi:

– Mehriban ata, mən bu şəklin dərdinnən belə olmuşam. Nə qədər istədim özümü ələ alam, gördüm gücüm çatmadı. Odu ki, gəlib qəm otağına girdim.

Padşah şəklə baxan kimi dedi:

– Oğul, bu, firəng[1] padşahının qızıdı. Dünyada ən güclü, mənəm-mənəm deyən padşahlar gediblər o qızı ala bilməyiblər, tamam qoşunlarını qırdırıb qaçıblar. Sonra da firəng padşahı onların torpağını at torbasında daşıdıb. Oğul mənim firəng padşahına gücüm çatmaz.

Məlik atasınnan bu sözü eşidənnən sonra dedi:

– Mehriban ata, sən mənə izn ver, mən özüm təkcə gedim.

Atası oğluna nə qədər dəlil-dəlayil elədisə də, gördü ona heç nə kar eləmir. Axırda padşah vəziriynən məsləhətləşib bu qərara gəldilər

ki, yüz atlıynan oğlanı yola salsınlar. Özü də atlıları öyrətdilər ki, hər bir ağacdan beş-onunuz atları sulamax mahnasıynan qaçıb dağılarsınız, axırda oğlum baxıb görər ki, tək qalıb, əlacı kəsilər, o da qayıdıb gələr.

Qərəz, padşah oğluna icazə verib onu yüz atlıynan yola saldı.

Oğlan elə bir küçə getməmişdi ki, birdən keçələ rast gəldi. Gördü dalında bir qom qarğı gedir. Onun qabağını kəsib dedi:

– Keçəl, dəryadakı sandığı, onun içindəki şəkli əvvəlcə sən tapıbsan, indi gərək o qızın özünü də sən tapasan, gəl mənnən bu saat gedək.

Keçəl dedi:

– Ağa, mən nə bilirəm o qız kimdi, haradadı?

Məlik dedi:

– Mən bilmirəm-zad qanmıram, əgər mənnən getməsən, bu saat sənin dərini boğazından çıxardacam.

Keçəl dedi:

– Yaxşı, onda qoy gedim evimizə deyim gəlim.

Məlik bir az da keçələ pul verdi ki, bunu da dədənə, anana verərsən, sən gələnəcən yeyib dolanarlar. Keçəl qaça-qaça gəldi evlərinə, pulu dədəsinə verib əhvalatı söylədi. Keçəlin dədəsi dedi:

– Gedirsən, cəhənnəmə get, qara gora get. Elə bil burda qalanda dağı-dağ üstə qoyacaydın. Bütün günü qapını açıb-örtməkdən qapının dabanı yeyilmişdi, gündüzlər çay aşağı, çay yuxarı getməkdən ayağında çarıx dayanmırdı, mağıl indi bir az qulağımız dincələr.

Qərəz, keçəl dədəsindən icazə aldı, anası keçəlin xurcununa bir arpa çörəyi qoyub yola saldı. Keçəl düz gəldi Məliyin yanına. Başladılar yol getməyə. Mənzilbəmənzil, teyyi-mənazil yol getdilər. Hər bir ağaclıx yol gedənnən sonra keçəl baxıb gördü ki, atlılar elə hey azalır, amma üstünü vurmadı ki, bəlkə tək qalalar, Məlik geri qayıda. Bir də Məlik dönüb geri baxanda gördü keçəlnən ikisi qapıb. Keçəl dedi:

– Qoşun bizi qoyub qaçıb, təkcə getməynən biz neyliyə bilərik, gəl biz də qayıdaq.

Məlik dedi:

– Keçəl qardaş, görürəm qaçmaqdan ötəri ürəyin nanə yarpağı kimi əsir, istəyirsən sən də qayıt, mən özüm təkcə gedərəm.

Yaxşı deyiblər keçəl çox bilən olar, bu keçəl lap bəzzatın biriydi, bir altdan yuxarı baxıb dedi:

– Ağa Məlik, yadınnan çıxartma ki, o qızı tapsam, təkcə mən tapacam. Mən sənnən gedəcəm, hər yerdə də sana qahmar duracam, amma bir şərtim var, gərək ona əməl eləyəsən.

Məlik dedi:

– Keçəl, şərtin nədi?

Keçəl dedi:

– Şərtim odu ki, qızı tapanatan mən nə desəm gərək onu eləyəsən.

Məlik keçəlin şərtinə razı oldu. Bunlar başladılar yol getməyə. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, orda aynan, ilnən, burda şirin dilnən, bir də gördülər ki, çörəkləri qurtarıb.

Məlik dedi:

– Keçəl, indi biz neyləyək, çörəyimiz qurtarıb, acınnan ölürük.

Keçəl dedi:

– Anam xurcunuma bir arpa çörəyi qoyub, gəl onu yeyək.

Keçəl çörəyi çıxardıb gördü dəyənəyə dönüb. Çörəyi daşın altına qoyub əzdi, başladılar yeməyə. Məlik ömründə arpa əppəyi yeməmişdi deyin elə bil torpax yeyirdi. Amma əlacı yoxuydu. Qərəz, arpa çörəyini yeyib qurtarandan sonra başladılar yenə yol getməyə. Gethaget gedib bir dağa rast gəldilər. Dağı aşıb bir güllük-çəmənlik yerə çatdılar. Bura elə bir yeridi ki, baği-gülüstan bunun yanında heç nə. Burda o qədər gül-çiçək vardı ki, hərəsi min rəngə çalır, ətrinnən adam valeh olurdu. Gül-bülbül, turac-kəklik, qırqovul, bildirçin, tovuz quşu, tutuquşu, hamısı bir-birinə qarışıb. Maral, ceyran, cüyür də lap istədiyin qədər. Burda quş iliyi, can dərmanı, hər nə deyirsən vardı. Bağın lap ortasında bir kərpici qızıldan, bir kərpici gümüşdən bir barigah vardı ki, başı göydə bulutdan nəm çəkirdi. Amma bu barigahın dörd tərəfində elə bir qalaça vardı ki, adam baxanda vahimə basırdı. Məlik dedi:

– Keçəl, görürsənmi nə gözəldi, lap ölüb-qalası yerdi.

Keçəl dedi:

– Ağa Məlik, hələ bilmək olmaz, o qalaçadan mənim gözüm almır. Ürəyim yaman döyünür, deyəsən bura gəlməyimizin altını çəkəcəyik.

Hər ikisi yavaş-yavaş getdilər düz qalacanın qapısına sarı. Elə yenicə qapıya çatmışdılar ki, bir də gördülər bir inilti, nərilti, gurultu qopdu, bir şaqqıltı oldu, elə bil yer-göy lərzəyə gəldi. Qorxudan Məliknən keçəl gözlərini yumub başlarını aşağı tikdilər.

Qeybdən bir səs gəldi ki, ey beyşüyrrər, gözünüzü niyə yumursunuz? Səsə başlarını qaldırıb gördülər qalaçanın darvazaları taybatay açıldı. Qeybdən bir əl gəlib Məliyi, bir əl də keçəli atdan düşürtdü, ikisinin də atını apardı qalaçanın içinə. Bunlar eləcə bir atları, bir də iki əl görürdülər, adam görə bilmirdilər. Bu iki əl atları apardı tövləyə,

bunlar da atların dalınca getdilər. Gördülər bu tövlə bir meydan yekəlikdə yerdi, yenə bir neçə əl gəldi, atlara arpa-saman tökdü. Sonra da həmən əllər Məliknən keçəli gətirdilər qalaçadakı barigaha. Məlik gördü burda bir cahi-cəlal var, bir ziynət var ki, öz atasının imarəti bunun yanında daxmaya oxşayır. Bir azdan sonra Məliknən keçəl gördü ki, aftafa-ləyən gəldi. Bunların əllərini yudular, dəsmalnan sildilər. Sonra süfrə açıldı, ortalığa min cür xuruşda yemək gətirdilər. Hər şey gəlirdi, amma hardan gəlirdi, kim gətirirdi, görükmürdü. Bunlar aç idilər deyin oturub aşdan, dolmadan doyunca yedilər. Sonra yenə iki əl gəlib süfrəni yığışdırdı. Əllər Məliknən keçəlin qolundan tutub apardılar yatax otağına. Qonaxlar soyunub yatdılar. Padşah oğlu Məlik həmi çox yorulmuşdu, həmi də yaman ərkəsöyün böyümüşdü deyin elə başını yasdığa qoyan kimi xorhaxornan düz yeddi yuxu aldı. Amma keçəl çox bic idi, fikirləşirdi ki, burda bunları öldürüb eləyərlər. Odu ki, sayxın yatmışdı. Gecədən bir xeyli keçmişdi. Keçəl gördü ev qapısı taybatay açıldı. Qara əmmaməli, qara əbalı, qara başmaqlı üç dərviş[2] içəri girdi. Dərvişlərin birinin əlində qara təsbeh, birinin əlində qara əsa, birinin əlində də qara qəbzəli qılınc varıydı. Əlində qılınc olan dərviş dedi:

– Ağa dərvişlər, nə deyirsiniz, bunları qılıncdan keçirimmi? Qorxuram gedib sirrimizi yayarlar.

Əli təsbehli dərviş dedi:

– O yatan cavan oğlan padşah oğludu. Öldürsən atası sənnən qanını alacax. Özü də bu oğlan həmən adamın əmisi oğludu ki, firəng padşahının qızını almax eşqinə düşmüşdü ala bilmədi, firəng padşahı da onu öldürüb torpağını at torbasında daşıtdı, tamam vilayətini yernən yeksan elədi. Bu biri də keçəldi, ona hələ ölüm yoxdu. O anadan olanda göydə ölüb-dirilən ulduzun çıxdığı vaxta düşüb. Odu ki, bu keçəl bir dəfə ölüb, yenə diriləcək. Əli əsalı dərviş dedi:

– Bəs bunları neyləyək?

Təsbehli dərviş dedi:

– İndi ki bunlar bizə pənah gətiriblər, elə yaxşısı budu ki, onlara kömək eləyək, yazıxdılar.

Elə dərvişin söz ağzınnan qurtaran kimi keçəl yerdən qalxıb düşdü onun ayaxlarına. Başladı yalvarmağa ki:

– Ağa dərviş, səni and verirəm Allaha, bizdən köməyini əsirgəmə, biz gedirik firəng padşahının qızını almağa, bizə bir yol görsət.

Dərviş dedi:

– Ey keçəl, sən ki, belə yalvarırsan, onda mən deyim, sən yadında saxla. Səhər sübh tezdən durub, atlara minib gedərsiniz. Qabağınıza əvvəlcə bir dovşan çıxacax. Bu dovşan o qədər o üzə, bu üzə tullanıb oynayacax ki, sizin xoşunuza gələcək. Ürəyinizdən keçəcək ki, onu tutasınız, nəbadə ona yaxın gedəsiniz, dovşan tamam başdan ayağatan tilsimlidi[3], sizi tilsimə salar. Dovşana heç fikir verməyin. Bir az gedənnən sonra qabağınıza bir tülkü çıxacax. Bu tülkü də bir sehirbaz qarıdı. O yeddi yolun ayrıcında oturub, gəlib-gedənin sirrini öyrənir. Nəbadə ona sirr verəsiniz. Özü də tülküdən bir az aralanan kimi düşüb atlarınızın nalını söküb tərsinə nallayarsınız. O tülkünün xasiyyətidi, əgər sizdən bir söz ala bilməsə, izinizə düşüb axtaracax, atlarınızı tərsinə nallasanız, izi itirib sizi tapa bilməz. Bir az gedəndən sonra bir ahuya rast olacaxsınız, ona da bir az dən töküb gedərsiniz, amma nəbadə onu tutasınız ha. O da tamam tilsimlidi. Bu üç tilsimdən qurtarannan sonra gedib bir dəryanın kənarına çatacaxsınız. Sizin mindiyiniz bu atlar o dəryanı keçə bilməyəcək. Atların yəhər-yüyənini açıb buraxarsınız meşəyə. Sonra görəcəksiniz ki, dəryanın qırağında bir papax boyda qap-qara şəvə kimi bir daş var. O qara daşın altında bir at cilovu var. O cilovu götürüb bir ucunu atarsan dəryaya. Dəryadan üçayaxlı bir at çıxacax, ona minib keçərsiniz suyun o tayına. Amma onu da deyim ki, o daşın balacalığına baxma, onun ağırlığı min batmandı, nə qədər eləsən yerinnən tərpədə bilməzsən. Daşın yanında durub deyərsən:

– Ey qara daş, sən göydən düşdün, yer sənə kömək durdu, sən də mənə kömək dur.

Sözü deyəndən sonra daşı qaldırarsan, cilovu götürərsən. Elə ki, ata minib o tərəfə getdiniz, bir belə qara daş da o tərəfdə var. Yenə cilovu atın başınnan çıxardıb qara daşın altına qoyarsınız. Atla işiniz olmaz. At quruda gedə bilmir, yenə qayıdıb dəryaya girəcək. Elə ki, o taya çıxdınız, həriniz dəmirdən bir çarıx geyib, əlinizə də bir dəmir əsa alarsınız. O qədər gedərsiniz ki, çarıqların dabanı deşilər, əsanın ucu yeyilər, onda həmən yerdə dayanarsınız. Sizə bir küp qarısı rast gələcək, ona pul verərsiniz, firəng padşahının qızını sizə tapıb görsədər.

Dərvişlər sözlərini deyib çıxıb getdilər. Keçəl gedib Məliyi silkələdi ki, oyatsın, gördü elə yatıb, elə bil lap ölüdü. Bir təhər oğlanı yuxudan oyatdı. Məlik dedi:

– Ay zalım keçəl, niyə məni yarımçıx oyatdın, yaxşı vağıya görürdüm, sən mənim yerimə olsan, heç ayılmazdın.

Keçəl dedi:

– Ağa Məlik, xoş sənin halına, yatıbsan, dünyadan xəbərin yox. Bilsəydin gecə dərvişlər mənim canıma nə vəsvəsə salmışdılar, onda qorxudan ciyər-öfgən ağzına gələrdi.

Məlik dedi:

– Keçəl, nə dərviş, nə vəsvəsə, sən nə danışırsan?

Keçəl gecə gördüklərinin, eşitdiklərinin hamısını Məliyə söylədi. Amma bircə ahuya rast gəlmək əhvalatını tərsinə danışdı. Yaxşı deyiblər, keçəl çox bic olar. Qəsdən bu sirri açmadı ki, yoldu, insan çiy süd əmib, birdən demək olmaz, yolda Məliknən sözləri çəp gələr, sonra Məlik keçəli qovar ki, onsuz da sirləri özüm bilirəm. Amma keçəl Məliknən şərt bağladı ki, gərək mən yolda nə desəm, ona qulaq asasan. Özləri də əhd-peyman elədilər ki, gərək möhkəm dost olax. İkisi də barmaxlarını çərtib qanlarını qatdılar.

Məliknən keçəl evdən çıxdılar ki, atlarını gətirsinlər, gördülər həmən iki əl atları qapının ağzında hazır saxlayıb. Atları minib başladılar yol getməyin binasın qoymağa. Dərviş dediyi kimi yolda əvvəlcə dovşana rast gəldilər, ona fikir verməyib keçdilər, sonra tülkü çıxdı qabaxlarına. Tülkü adam kimi dil açıb bunları nə qədər dilə tutdusa, bir sirr öyrənə bilmədi. Məlikgil bir az tülküdən aralanan kimi atlarının nalını söküb tərsinə nalladılar. Bir az da gedib ahuya rast oldular. Məlik oxunu yaya qoyub ahunu vurmaq istəyəndə keçəl qoymadı. Məlik dedi:

– Sən demişdin ki, axırda rast olduğun ahunu oxnan vurarsan, bəs indi niyə qoymadın, olmuya sözünnən döndün?

Keçəl dedi:

– Yox, ağa Məlik, mən qəsdən bir şeyi tərsinə demişdim, arxayın ol.

Bunlar bir az da gedənnən sonra gəlib çatdılar həmən dəryanın qırağına. Atların yəhər-yüyənini açıb buraxdılar meşəyə. Keçəl qara daşı qaldırıb altından cilovu çıxartdı; aparıb dəryaya saldı, o saat bir də gördülər ki, bir gurultu, şıxıltı, şırıltı qopdu ki, elə bil yer-göy lərzəyə gəldi. Dərya təlatüm elədi, içinnən üç qılçalı bir qara at çıxdı. Keçəl tez cilovu çəkdi, at istədi yenə dəryaya girsin, keçəl cilovu buraxmadı. Bir ənvayi-müsibətnən ikisi də tərkləşib ata mindilər. At özünü vurdu dəryaya, bir göz qırpımı çəkməmiş bunları çıxartdı o taya. Keçəl cilovu

atın başınnan açıb buraxdı, at o saat girdi dəryaya, gözdən itdi. Keçəl cilovu bu tərəfdəki qara daşın altına qoydu.

Axtarıb özlərinə dəmir əsa, bir də dəmir çarıx tapdılar. Çarıxları geyib dəmir əsanı da əllərinə alıb, çəkib çarığın dabanını, qırıb yerin damarını, günə bir mənzil, teyyi-mənazil, nağıllarda mənzil olmaz, qız əlində güllər solmaz, dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi, dağların dabanıynan, yolların qırağıynan, az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar, dərə-təpə düz getdilər, iynə yarım yol getdilər. Bir də baxıb gördülər çarıxlarının dabanı deşilib, əsalarının da üçü yeyilib. Bildilər ki, mənzilə çatıblar. O yana bu yana boylanıb gördülər yaxında bir koma görükür, getdilər ora sarı. Qapını döymək istəyəndə qabaxlarına bir küp qarısı çıxdı. Deyirlər qarılar cürbəcür olurlar. Qarı var mat-matı, qarı var çarğatı, qarı var mamılı-matan, yük üstə yatan, şıllaq atan, qarı var plov yeməz, üzü gülməz, dabanı çatdax, baldırı çılpax, ipəyi qarı, köpəyi qarı, yaxasıaçıx, ombası batıx, tumanı cırıx, dişləri qırıx, işləri fırıx, küpə girən, buzov minən, sərçə yeyən. Bu qarı bunlardan bir az yaxşı idi. Məlik qarını saxlayıb dedi:

– Qarı nənə, qalmağa yerimiz yoxdu, bir gecəliyə bizi Allah qonağı saxlayarsanmı?

Qarı dedi:

– Allaha da qurban olum, onun bəndəsinə də, ay oğul, Allahdan gizlin deyil, bəndədən nə gizlin, qalmağa yerim var, amma yeməyə çörəyim yoxdu.

Məlik dedi:

– Ay qarı nənə, zərər yoxdu, təki yer olsun, yemək tapmax hasandı.

Məlik cibinnən bir qiymətli ləl çıxardıb verdi qarıya, dedi:

– Qarı nənə, apar bu ləli xırdala, ayınnan-oyunnan al gətir, yeyək.

Qarı ləli görən kimi gözləri az qaldı kəlləsinə çıxsın. Qarı sevinə-sevinə düz getdi şəhərdə bir vəzirgan varıydı onun dükəninə. Ləli ona verib dedi:

– Vəzirgan qardaş, al buna bir az yemək-içmək ver, qalanını da xırdala qaytar.

Vəzirgan lələ baxıb gördü bu elə qiymətli daşdı ki, bunu xırdalasa pulunu qarı təkcə apara bilməyəcək. Odu ki dedi:

– Qarı nənə, get yeddi hambal gətir, pulunun artığını apar.

Qarı bu sözü eşidəndə elə bildi ki, vəzirgan onu ələ salır. Qarı öz-özünə, ürəyində dedi:

– Yaxşı, sən ki, məni ələ salırsan, gedib yeddi hambal gətirərəm, özlərinə də tapşıraram sizi vəzirgan çağırır, pulunuzu da özü verəcək. Vəzirgan bunların pulunu verməz, başlayarlar dalaşmağa. Onda mən də qıraxdan durub deyərəm:

Daşı-daşa,
Dırnax daşa,
Siz dalaşa,
Mən tamaşa.

Qarı bu fikirnən gedib yeddi hambal çağırdı. Vəzirgan hambalların dalına yeddi kisə pulnan şey yüklədi. Qarı gördü xeyir a, vəzirgan düz deyirmiş. Qarı hambalları gətirdi evinə, yüklərini boşaltdı. Hamballar pullarını aldılar, çıxıb getdilər.

Məliknən keçəl qarını dilə tutub qılığına girdilər. Keçəl dedi:

– Qarı nənə, bizim bir işimiz var, əgər onu düzəltsən, sənə o qədər ləl-cavahirat verərik, onu xırdalasan, pulunu yığıb-yığışdıra bilməzsən.

Qarı dedi:

– Oğul, elə bu verdiyiniz pul da mənim bəsimdi. Nəyimə lazımdı, bugün-sabah ölüb gedəcəm, vərəsəm yox, zadım yox. Deyin görüm mənnən nə istəyirsiniz?

Keçəl dedi:

– Biz firəng padşahının qızını gətirmək istəyirik, amma bilmirik necə gedək, nə eləyək?

Qarı dedi:

– Oğul, burdan gedərsiniz düz bazara, orda bir nəccar var, axtarıb onu taparsınız. Bu siz deyən açar, qapı qayıran nəccarlardan deyil, o taxtadan, dəmirdən at, qoç, quş düzəldir, özü də içinə yay qoyur, piçini buranda at qaçır, qoç oynayır, quş uçur. Gedib ona deyərsiniz ki, sizə qızıldan bir qoç qayırar, altdan da içinə adam girməyə qapı qoyar. Nəccar qızıl qoçu düzəldənnən sonra gətirərsiniz yanıma, dalısını mən evdə sizə öyrədərəm.

Qarı sözünü deyib qurtaran kimi Məliknən keçəl gedib həmən nəccarı tapdılar. Böyük bir minnətdən, yalvar-yapışdan sonra nəccarı razı saldılar ki, bir qəşəng qızıl qoç düzəltsin. Nəccar üç günün içində

qızıldan-gümüşdən bir qoç düzəltdi ki, adam baxanda ağlı başınnan çıxırdı. Bu qoca ləl-cavahiratdan, yaqutdan, mirvaridən o qədər bəzək-düzək vurmuşdu ki, gün kimi par-par parıldayırdı. Məliknən keçəl nəccara çoxlu daş-qaş verib qoçu gətirdilər evə. Qarı qoçu görüb dedi:

– İndi bilin və agah olun. Bu qoçun içi boşdu, altdan qapağı var. Məlik girər qoçun içinə, orda onun piçi var, keçəl də qıraxdan qoçu başlayar danışdırıb oynatmağa. Elə ki, keçəl deyəndə qızıl qoçum oyna görək. O saat Məlik qoçun piçini burar, həmi qoç oynayar, həmi də içəridə özü hay-küy salar. Ancaq qoçu firəng torpağında səzb deyilən bir meydan var, orda oynadarsınız. Camaat hamısı yığılar qoçun başına. Bu səs-sorax gedib çatar padşahın qızının qulağına, o, qoçu sizdən pulnan alar. Onda Məlik qoçun içində qalar. Gecə qız yatanda qoçun içinnən çıxıb qızı görər.

Qarı hər şeyi öyrədənnən sonra dedi:

– Bala, Məlik, gəl bir qoçun içinə gir, vara-vurd eləyək, görək yerləşirsənmi?

Məlik qoçun qarnına girdi, qapısını bağladı. Keçəl də qoçun ipini çəkə-çəkə onu o ki, var oynatdı. Qarı gördü işlər yaxşıdı, dedi:

– Oğul, daha yubanmax vaxtı deyil, yolçu yolda gərək, durun gedin həmin meydana, dediklərimin hamısını eləyin.

Məlik çıxardıb qarıya iki dənə də qiymətli ləl verdi, dedi:

– Al bunları da xırdala, ömrünün axırına kimi yesən qurtarmaz.

Qarı dedi:

– Oğul, sən ki, məni dünya malınnan qəni elədin, sənə dua eləyəcəm, işin rastına düşsün. Bir də oğul, heç fikir eləmə, bu keçəl nə qədər sənin yanındadı işin gətirəcək, o keçəlin qaraçuxası hələ qabaxda gedir. Odu ki, sənə də qorxu yoxdu.

Bəli, Məliknən keçəl qızıl qoçu götürüb başladılar getmək binasın qoymağa. Gethaget, gethaget, gəlib çatdılar səbz meydanına. Məlik girmişdi qoçun içinə, keçəl də minbir hava çalıb qoçu oynadırdı. Qoçun tamaşasına o qədər camaat yığışmışdı ki, ağac atsan yerə düşməzdi.

Həmin gün firəng padşahının qızının qarabaşı da bazarda şey almağa getmişdi, gördü hamı səbz meydanına gedir, o da getdi, adamları yara-yara bir təhər qabağa çıxdı. Qoçun oynamağını görəndə heyran qaldı. Qız qoça o qədər tamaşa elədi ki, bir də gördü qarannıx düşdü. Tez qaça-qaça gəldi xanımın yanına. Xanım qarabaşın gec gəlməyinnən qəzəblənmişdi, dedi:

– Mən səni şey almağa göndərmişəm, gedib gecənin yarısı gəlirsən, gör sənin başına nə iş gətirəcəm?

Qarabaş xanımın əl-ayağına döşənib dedi:

– Xanım, əgər mən görəni sən də görsən, gec gələrdin.

Xanım dedi:

– De görüm nə görübsən?

Qız səbz meydanında keçəlin qoç oynatdığını elə şirin-şirin söylədi ki, xanımın da xoşuna gəldi.

Gecəni yatdılar, səhər tezdən hələ camaat yığışmamış padşah qızı başının dəstəsi qırx incə belli qıznan gəldi səbz meydanına.

Keçəl gördü ki, qırx incə belli qız gəldi, bunların içində bir gözəl var ki, adam baxanda ağlı başınnan çıxır. Tez əyilib qoçun qulağına dedi:

– Məlik, gözünü sil əməlli bax, deyəsən sənin dediyin qız özü gəlib çıxıb.

Qoçun göz yerində iki deşik varıydı. Məlik ordan baxıb gördü ki, qız nə qız, elə bil Allahtaala onu xoş gündə, xoş saatda yaradıb. Aya deyir sən çıxma, mən çıxım, günə deyir sən çıxma, mən çıxım, gəl məni gör, dərdimnən öl. Can alan, incə miyan, nazik bədən, sünbül nişan, aşiq öldürən, rəng solduran nazənin sənəm, qaşlar qara, elə bil qüdrəti-ilahinin qələmiynən çəkilib, gözlər qara, kiprikləri yaydan çıxmış ox kimi, burnu hind fındığı, saçlar qap-qara şəvə kimi, incə belli, sərv boylu, şux duruşlu, ceyran yerişli, maral baxışlı, ləbləri qızıl gülün yarpağı kimi, yanaxlar yaqutun qıraxları kimi, elə bil qar üstə qan çilənib, dişlər inci-mirvari kimi. Mərmər sinəsində, naznazı ipək paltarın altınnan bir cüt şamama baş qaldırıb mənəm-mənəm deyir.

Məlik qızın üzünə baxan kimi elə bil qızın iki kipriklərinnən bir cüt ox ayrılıb düz dəydi oğlanın ürəyinin başınnan.

Keçəl nə qədər oxudusa, gördü qoç oynamır. Bildi ki, Məlik qızı görüb ürəyi gedib. Bu tərəfdən də padşah qızı keçələ dedi:

– Bəs qoç niyə oynamır?

Keçəl dedi:

– Xanım, qoçum bu gün su içməyib, susuzdu, odu ki, oynamır, indi su verərəm içər, sonra oynayar.

Tez keçəl qoçun ağzınnan bir qab su tökdü ki, Məlik ayılsın. Bir təhər onu ayıltdı dedi:

– Məlik sən neyləyirsən, qız gözləyir. Özünü toxtat.

Məlik yarı dilnən, yarı himnən başa saldı ki, qızı görüb özümnən getmişdim. Qərəz, bir az keçəndən sonra Məlik özünə gəldi, dedi:

– Ölmək ölməkdi, xırıldamax nə deməkdi!

Başladı dünənkindən də yaxşı oynamağa. Qoç xanımın çox xoşuna gəldi, keçəli çağırıb dedi:

– Keçəl, sənə gündə yüz tümən verərəm, qoçu ver aparım, bir neçə gün bizdə oynasın.

Keçəl dedi:

– Xanım, verərəm, amma şərtim var gərək ona razı olasan. Gərək qoçu heç yerə buraxmayasan, təkcə öz otağında saxlayasan, gündə də onun qabağına bir qab aş, bir parç də su qoyasan.

Xanım dedi:

– Ay sağ olmuş, mənim əlimdə o nədi ki, lap gündə ona o qədər aş verərəm ki, heç ömründə görməmiş ola.

Xanım keçələ yüz tümən verib dedi:

– Keçəl, di qoçu götür gedək.

Keçəl qoçu apardı düz xanımın otağına, özü çıxıb gəldi şəhərdə bir karvansarada qaldı.

Məlik qızın eşqindən qoçu o qədər oynatdı, tamam yoruldu. Axşamatan qız qoça tamaşa elədi, çox xoşuna gəldi. Qız çörəyini yedi, bir boşqab da aşdan qoçun qabağına qoydu. Xanımlar, qarabaşlar yer saldılar, padşah qızı soyunub girdi yerinə yatmağa. Gecədən bir xeyli keçmiş Məlik gördü ki, acıb, qoçun içinnən çıxıb boşqabdakı aşı ədəb-ərkannan yedi, bir parç da su içdi. Məlik ayağının ucunda, yavaş-yavaş gəldi qızın yanına, əyilib al yanaxlarınnan bir cüt öpüş alıb çəkildi, gedib girdi yenə qızıl qoçun içinə.

Səhər açıldı, qız yuxudan oyandı, baxıb gördü qoçun qabağındakı aşı yeyiblər. Elə bildi ki, onu qızlar yeyib. Qarabaşları çağırıb dedi:

– Deyin görüm, bu qoçun qabağındakı aşı kim yeyib?

Qızlar hamısı and-aman eləyib dedilər:

– Xanım, vallah bizim xəbərimiz yoxdu.

Qarabaşlar gedənnən sonra xanım güzgüyə baxıb gördü yanaxlarına ləkə düşüb. Qaldı məəttəl ki, görəsən bu nə olan işdi. Qız qızıl qoçdan şübhələndi. Öz-özünə dedi: Bu gecə gərək qoçu güdəm.

Axşam oldu, yatmax vaxtı gəldi. Qız soyunub yerinə girdi. Qoçun qabağına qarabaşlar bir nimçə aş, bir parç su qoyub getdilər. Padşah qızı özünü yuxuluğa vurdu. Bir də gördü qoçun içinnən bir gözəl oğlan

çıxdı, oturub çox mərifətlə aşı yedi, üstən də bir parç su içdi, sonra da yavaş-yavaş, ayağının ucunda yeriyə-yeriyə gəlib əyildi ki, qızın üzünnən öpsün. Birdən qız sıçrayıb yerdən qalxdı, dedi:

– Əyə, zalım oğlu, bura quş quşluğuynan uçub gələ bilmir, sən kimsən, nəçisən, bu saat cəlladları çağıraram, səni yetmiş yeddi şaqqa edərlər.

Məlik dedi:

– Ey nazənin mələk, mən elə bura gəlmişəm ölməyə, sənin yanında ölmək mənə hər şeydən artıxdı.

Məlik belindən xəncərini siyirib dedi:

– Xanım, sən heç zəhmət çəkib cəllad-zad çağırma. Mən sənin yolunda bu saat burda özümü öldürərəm, sənə xoş olar.

Qız dedi:

– Oğlan, hələ bir əl saxla, söylə görüm bura niyə gəlibsən, niyə özünü öldürürsən?

Məlik şəkli tapdığı vaxtdan ta bu günə kimi olan işlərin hamısını bir-bir söylədi, sonra da dedi:

– Ey gözəl qız, mən sənin dərdinnən dəli-divanə olmuşam, ya gəl mənə, ya da özümü burda öldürəcəm.

Qız gördü ki, oğlan deyəsən əsil-nəcabətli adama oxşayır; özü də sür-sifətdən də pis deyil, odu ki, razı oldu. Belə qərara gəldilər ki, qaçsınlar.

Səhər açıldı. Keçəl gəldi ki, xanımdan qoçun pulunu alsın, içəri girib gördü. Məlik qoçun içindən çıxıb qızla söhbət eləyir. Məlik keçəli görən kimi dedi:

– Keçəl, hazırlaş, sabah tezdən qızı götürüb xəlvət aparacayıq.

Bu xəbəri eşidəndə keçəl sevindiyindən bilmədi neyləsin.

Qız keçələ bir dəst zər-zibadan paltar geydirib axşamüstü göndərdi padşahın ilxıçısının yanına, əlinə də bir namə yazıb verdi ki, bu adama üç yaxşı at verərsən gətirər. Keçəl gedib naməni baş mehtərə verdi. Mehtər ən yaxşı atlardan üçünü seçib verdi keçələ. Qıznan Məlik də vəzndən yüngül, qiymətdən ağır şeylərdən götürüb çıxmışdılar yola keçəlin qabağına. Yolda bunlar rastlaşdılar, hərəsi atın birinə minib başladılar getməyə. Gəlib çıxdılar şəhərin qırağına. Şəhərin dörd tərəfi hündür hasarnan hörülmüşdü. Şəhər darvazalarının ağzında çoxlu qoşun var idi, buradan keçmək mümkün deyildi. Hərəsi əlinə bir qılınc keçirdi, başladılar vuruşmağa. Gördülər qoşunu qırmağnan qurtarmaq

olmayacaq. Odu ki, qapıçıları öldürüb qaçdılar. Firəng padşahına xəbər getdi ki, ey taxtı tarac olmuş, nə durubsan, qızını qaçırtdılar. Padşah bütün qoşuna əmr elədi ki, yerdə də olsa, göydə də olsa, gərək onları tutub gətirəsiniz.

Məlikgil ata suvar olub quş kimi uçmaxda olsun, qoşun da onları qovmaxda, gəlib Məlikgil yenə həmən dəryaya çatdılar. Qız gördü qoşun elə yetirhayetirdi. Odu ki, dedi:

– Ey Məlik, görürsənmi atamın qoşunu cinni Cəfər qoşunu[4] kimi gəlir, bizə çatan kimi səni öldürəcəklər, indi nə eləyək?

Keçəl dedi:

– Xanım, qorxmayın, mən ölməmişəm, bu saat sizi keçirərəm dəryanın o tərəfinə, qoşun hamısı gəlib qalar bu tərəfdə.

Keçəl sözünü qurtaran kimi gedib qara daşı qaldırdı, altındakı cilovu çıxardıb atdı suya, o saat üç ayaxlı at dəryadan çıxdı, üçü də atın belinə minib dəryanı keçdilər. Qoşun özünü o vaxt yetirdi ki, bunlar dəryadan çıxmışdılar.

Keçəl dəryanın o tərəfinə çıxannan sonra cilovu aparıb yenə qoydu qara daşın altına. Bir az piyada yol getmişdilər ki, bir də gördülər əvvəlki meşəyə buraxdıqları atlar budu göy çəməndə otlayırlar. Tez keçəl öz atına mindi, Məlik də öz atına minib qızı tərkinə aldı. Başladılar getməyə, gəlib çıxdılar həmən dərvişlərin qalaçasına. Elə qalaçanın qapısına yaxınlaşan kimi yenə iki əl gəlib bunların atlarını apardı tövləyə, özlərini də evə. Bunlara yemək-içmək gəldi, yeyib qurtarannan sonra yer salındı, girib yatdılar. Bütün bu işləri iki əl görürdü, adamlar özləri gözə görünmürdülər. Məliknən qız o qədər yorğun idilər ki, başlarını yasdığa qoyan kimi daş kimi yatdılar. Keçəli də yaman yuxu tuturdu. Gördü o da yatacax, tez baş barmağın çərtib içinə duz basdı, barmağının ağrısınnan yata bilmədi. Amma gözünü yumub özünü yuxuculluğa vurmuşdu, bilirdi ki, yenə dərvişlər gələcək. Gecədən xeyli keçmiş bir də gördü qapılar taybatay açıldı, əvvəlcə əlində təsbeh olan dərviş, sonra əsalı dərviş, lap axırda da əlində qılınc olan dərviş içəri girdilər.

Dərvişlər bir salavat çevirib əyləşdilər. Əli qılınclı dərviş gəlib bunların hərəsinin başının üstündə üç dəfə qılıncını endirib qaldırdı. Gördü hamısı yatıb, keçəl də gözünün birini yumub o biri gözünün ucuynan baxırdı. Bu dəfə də əli qılınclı dərviş dedi:

– Gəlsənə bunları öldürüm, qızı da əllərinnən alax?

Əli təsbehli dərviş dedi:

– Sən bu insafsızlığınnan deyəsən əl çəkməyəcəksən. Bu yazıxlar nə zülmnən gedib qızı gətiriblər, hələ innən belə də başları nə bəlalar çəkəcək, yenə də onlardan əl çəkmək istəmirsən.

Elə dərviş bu sözü deyən kimi keçəl yerinnən sıçrayıb tutdu onun ətəyinnən, yalvar-yapış eləyib dedi:

– Ağa dərviş, səni and verirəm o qibləyə, de görüm bunnan sonra bizim başımızda nə iş var?

Dərviş dedi:

– Oğul, siz burdan gedənnən sonra Məlik bu qıznan toy eləyib səni yaddan çıxardacax, amma sən acıx eləmə, dostluxda möhkəm ol, səbr elə, axıratan onnan üz döndərmə. Toy gecəsi bir təhər özünü sal onların gərdəyinə. Özü də al sənə bir sehirli qılınc bağışlayıram, bunu da həmişə üstündə gizlət. Elə ki, gərdəyə girdin, Məliknən qız yatıb yuxuya gedənnən sonra görəcəksən ki, çıraxdan bir çırtdağ atıldı. Çırtdağ yerə düşən kimi getdikcə böyüyüb, yekə bir əjdaha[5] olacax. Bu qılıncnan həmən əjdahanı iki bölüb öldürərsən. Əjdahanın bir parçası su çarhovuzuna, bir parçası da padşahın taxtının altına düşəcək. Məlik yuxudan ayılıb səni gərdəyin içində əli qılınclı görəndə elə biləcək ki, onu öldürüb qızı aparmağa gəlibsən. Odu ki, səni tutub zindana saldıracax, sonra da asdıracax. Sən bu işlərin heç birini gərək söyləməyəsən Məlikə, söyləsən daş olacaxsan.

Dərviş sözünü qurtarıb yoldaşlarını da götürüb getdi.

Səhər açıldı, keçəl Məlikə heç nə demədi, yol başlayıb gəldilər öz vilayətlərinə. Məliyin atası oğlunun gəldiyini eşidib böyük şadlıq elədi, toy çaldırdı, qonaxlıq düzəltdi, qızı oğluna aldı. Toy gecəsi oğlan gəlinin gərdəyinə girəndə keçəl özünü bir təhər ora saldı. Qıznan oğlan yatannan sonra keçəl gördü doğrudan da dərviş dediyi əjdaha peyda oldu. Əjdaha nə əjdaha, heç düşmənimə də rast olmasın, başı dam boyda, dili beş arşın, buynuzları nizə kimi, ağzınnan bir od püskürürdü ki, elə bir dəmirçi kürəsidi. Əjdaha ağzını açdı ki, keçəli çəksin kamına, keçəl gördü lüppültüynən gedir, tez qılıncı siyirib ilişdirdi əjdahanın ağzınnan. O saat iki parça oldu. Dərviş deyən kimi hər parçası gedib bir yerə düşdü.

Məlik ayılıb başının üstündə keçəli gördü. Ondan nə soruşdusa, keçəl cavab vermədi. Məlik keçəldən şübhələnib onu zindana saldırdı.

İş o yerə gəldi ki, keçəli asası oldular. Onu dar ağacının yanına gətirib kəndiri boynuna salanda Məlik dedi:

– Keçəl, ürəyində nə sözün varsa de!

Keçəl dedi:

– Məlik, əgər mən sözümü desəm daş olacam, deməsəm də öldürəcəklər.

Camaat hay-küy saldı ki, gərək keçəl sözünü desin.

Keçəl başladı dərvişlərin öyrətdiyi sözləri, özünün gördüyü işləri bir-bir danışdı. Keçəl sözünü qurtaran kimi dönüb oldu bir qara daş. Camaat buna məəttəl qaldı. Həm də keçələ yazıxları gəldi.

Qız gördü ki, keçəl yoldaşlıxda sədaqətli, mərd adamdı. Amma əri Məlik namərdlik eləyib. Odu ki, dedi:

– Məlik, əgər keçəli təzədən dirildib adam eləməsən, sənnən boşanıb gedəcəm atamın yanına.

Məlik dedi:

– Yaxşı, indi mən neyləyim?

Qız dedi:

– Necə ki, keçəl sənin yolunda cəfa çəkib, sən də onun yolunda əzab çək, get dərvişlərin yanına, gör onlar bir çarə tapa bilərlərmi?

Məlik əlacsız qalıb yol başladı üç dərvişin qalaçasına getməyə. Gethaget, gəlib çatdı həmən tilsimli qalaçaya, əzab-əziyyətlə dərvişləri tapıb onlardan kömək istədi. Əli əsalı dərviş dedi:

– Məlik, sən namərd adamsan, keçəl sənə o qədər yaxşılıq elədi, əvəzində sən onu asdırmaq istədin, mən sənə kömək eləyə bilmərəm.

Məlik üzünü qılınclı dərvişə tutub onnan kömək istədi. Bu dərviş də dedi:

– Yoldaşına xain çıxan adama mən bircə kömək eləyə bilərəm ki, onun başını bədənnən ayıram, ölüb canı qurtara.

Məlik işləri belə görəndə gözləri yaşardı, tutduğu işə peşiman oldu. Əli təsbehli dərviş dedi:

– Məlik, mən sənə kömək eləyərəm, amma gərək necə ki, keçəl sənin yolunda cəfa çəkmişdi, sən də onun yolunda canından keçəsən, onda dostluğun qədrini bilərsən.

Dərviş dedi:

– Mən keçəli diriltməyin sirrini sənə deyərəm, amma bir şərtim var, gərək əvvəlcə onu yerinə yetirəsən, sonra mən o sirri deyəm.

Məlik dedi:

– Şərtin nədi?

Dərviş dedi:

– Sən gərək gedib, qiblə tərəfdə bir şəhər var adına Yəmən[6] şəhəri deyirlər. Orda Əhmədlə Məmməd adında iki dost var, onların sirrini öyrənib gəlib mənə deyəsən, sonra da mən sirrimi deyəcəm.

Məlik dərvişlərin yanından çıxıb başladı yol getməyə, az getdi, çox getdi, dağlar aşdı, dərələr keçdi, gedib Yəmənə çatdı. Gördü şəhərin kənarında bir çoban qoyun otarır. Amma özü namaz qılır. Məlik yavaş-yavaş çobana yaxınlaşdı, gördü çoban namaz qılmağı əməlli bilmir. Elə bircə kəlmə: ağ qoyun, qara qoyun, başımı yerə qoyum, Allahü əkbər, – deyib başını yerə qoyur. Məlik gözlədi, çoban namazı qurtarannan sonra soruşdu:

– Ay çoban qardaş, bəlkə sən biləsən buralarda Əhmədnən Məmməd adında iki dost var, onlar harda olurlar?

Çoban dedi:

– Elə mən onların qoyunlarını otarıram. Odu bax, o uzaxda görünən hündür imarət onlarındı.

Məlik bir xeyli gedib həmən yerə çatdı. Qapını döydu. Qapıya Əhməd özü çıxdı. Məlik xəbər aldı:

– Bura kimin evidi?

Əhməd dedi:

– Mənim.

Məlik dedi:

– Mən qərib adamam, qalmağa yerim yoxdu, özü də siznən işim var. Məni bir gecəliyə qonax saxlarsanmı?

Əhməd dedi:

– Qardaş, qonağa gözüm üstə yerim var, buyurun içəri.

Əhməd qonağı apardı evə. O üzdən-bu üzdən söhbət eləyənnən sonra ortalığa yemək gətirildi. Əhməd qonağa yemək təklif elədi. Məlik əlini süfrəyə uzatmadı. Kişi nə qədər elədisə, Məlik yemədi. Əhməd dedi:

– Niyə mənim çörəyimi yemirsən?

Məlik dedi:

– Qardaş, Allahdan gizlin deyil, bəndədən nə gizlin.

Mən gəlmişəm sənnən dostun Məmmədin sirrini öyrənəm əgər bu sirri deməsən əlimi süfrəyə uzadan deyiləm.

Əhməd gördü ki, qonağı çox tərs adamdı, sirri deməsə, əlini süfrəyə uzatmayacax. Odu ki, dedi:

– Ey qonaq, mənim sirrimi öyrənməkdən nədi məqsədin?

Düzünü desən sirrimi sənə açaram.

Məlik bütün başına gələn əhvalatları biz sizə söylədiyimiz kimi söylədi. Əhmədin qonağa yazığı gəldi, dedi:

– Qardaş, mütəkkəyə dirsəklən, mən öz sirrimi sənə açım.

Məlik mütəkkəyə söykənib Əhmədə qulaq asırdı. Əhməd deyirdi:

– Qardaş, mənim cavanlıxda çoxlu dostlarım varıydı. Gündə bir dostumnan keyf çəkib gün keçirərdim. Bir gün atam dedi:

– Oğul, sənin bu qədər dostun var, heç onları bir sınayıbsanmı?

Mən dedim:

– Ata, yox, mən bilirəm ki, onlar mənim yaxın dostlarımdı. Görmürsənmi hər gün gəlirlər yanıma, məni güldürürlər, darıxmağa qoymurlar, özlərindən də heç bir pislik görməmişəm.

Atam dedi:

– Oğul, sən hələ uşaxsan, adam hər üzünə gülənə dost deməz. Onların çoxusu yemək dostudu, indi az-çox dövlətimiz var. Çibin şirəyə yığılan kimi onların da çoxu yeməyə içməyə gəlir, gülür, danışır, sən də elə bilirsən ki, səni istəyib gəlirlər. Sən gəl bir-bir bu dostlarının ürəyini sına.

Atamın bu sözünnən sonra günlərin birində bir qoyun öldürüb saldım bir çuvala, ağzını da bağlayıb aldım dalıma, axşam şər qarışanda düşdüm qapı-qapı bu dostlarımın evinə, qapını döyüb dostumu çağırdım. Dostum qapıya çıxanda çuvalı yerə qoyub dedim:

– Ey mənim dostum! Bu gün əlimnən bir xata çıxıb, vurub padşahın adamlarınnan birini öldürmüşəm. İndi onun meyidini bu çuvala salıb gətirmişəm ki, sizdə gizlədəm, sən nə deyirsən?

Dostum qaşqabağını töküb dedi:

– Vallah doğrudu, mən sənnən dostam, amma belə şeyləri mən məhləmə qoya bilmərəm. Qorxuram üstü açıla, padşah dərimə saman təpə.

Mən nə qədər yalvar-yapış elədimsə, dostum razı olmadı, axırda qapını üzümə bağlayıb dedi:

– Canım əl çək yaxamnan, qələt elədim ki, sənnən dost oldum, indi olmuram.

Çuvalı dalıma götürüb bütün dostlarımın qapısına getdim. Əhvalatı söyləyən kimi hamısı qapını üzümə bağlayıb məni qovdular. O gecə düz otuz doqquz dostumun evinə getdim, heç biri məni evinə yaxın qoymadı. Kor-peşman qayıdıb gəlirdim evimizə, birdən yadıma düşdü

ki, yolun qırağında mənim bir köhnə tanışım var. Onunla o qədər də yaxın deyildim. İstədim bunun qapısını döyəm, ürəyimə gəldi ki, gecə-gündüz evimdə yeyib-içən dostlarım mənim bu dar günümdə mənə yiyə durmadı, bu mənə necə yiyə durar? Birdən lənət şeytana deyib, qapını döydüm, incavara kişi özü çıxdı. Salamlaşıb dedim:

– Vurub padşahın bir adamını öldürmüşəm, indi onu gizlətməyə yer tapmıram, gəlmişəm sənin üstünə ki, mənə bir köməklik eləyəsən.

Kişi dedi:

– Əvvəla sən adam öldürməkdə çox pis iş görübsən. Daha olan olub, keçən-keçib, indi gərək sənə kömək eləyəm. Kişi bel, külüng götürüb dedi:

– Düş qabağıma, gedək meyidi şəhərin qırağında bir yerdə basdırax.

Biz ikimiz də yol başlayıb getdik. Bir az gedənnən sonra kişi çuvalı mənnən aldı ki, sən yorulubsan, ver bir az da mən götürüm. Mən çuvalı vermək istəmədim, amma zornan əlimdən aldı. Gedib bir balaca arxın qırağına çatdıx. Bu arxın lap böyründə bir çuxur qazıb çuvalı yerə basdırdıx, üstünü torpaxlayandan sonra kişi dedi:

– Dostum, gəl bu arxı bir balaca bəridən qazax, su düz meyidin üstünnən axsın. Heç kimin ağlına gəlməsin ki, burda bir şey var.

İkimiz də arxı bir azca bəridən qazıb əydik, su düz qazdığımız yerin üstünnən getdi. Sonra mən kişidən çox razılıx elədim, qayıtdım evimə. Sabah açıldı, getdim həmən dostumun yanına ki, ona yenə razılıx eləyəm. Dedilər evdə yoxdu, filan bəyin toyuna gedib. Öz-özümə fikirləşdim ki, bu, dostluxda sədaqətli adama oxşayır. İndi də qoy bunun söz saxlayan olub-olmamasını yoxlayım. Odu ki, düz getdim həmən dostum gedən toy məclisinə. Gördüm şəhərin nə ki mənəm-mənəm deyən adamları var hamısı burdadı. Düz girdim içəri, gördüm dostum yuxarı başda əyləşib. Dostumun adı Məmməd idi. Səsimi boğazıma salıb dedim:

– Ə, sənin atan belə, anan belə, bir çıx eşiyə, gör sənin başına nə oyun gətirəcəm.

Dostum mənim bu sözümnən heç keyfini də pozmadı dedi:

– Ə, Əhməd, yeri get, arxayın ol, söymürsən, nə istəyirsən de, qorxma, demərəm ki, su nəyin üstündən axır.

Mən dostumdan bu sözü eşidən kimi başa düşdüm ki, bu çox möhkəm adamdı.

O günnən Məmmədə məhəbbətim bir idisə, oldu min. Gediş-gəlişimiz günü-günnən artdı. Bir gün Məmməd yenə bizə gəlmişdi oturmuşdux küləfirəngidə çay içirdik. Birdən küçədən mənim nişanlım anasıynan getdiyi yerdə Məmməd onu gördü. Məmməd bu barədə mənə bir kəlmə də söz deməyib birdən-birə çıxıb getdi. O günnən mən onu həmişə fikirli görürdüm. Nə qədər eləyirdim dərdini mənə demirdi. Axırı bir gün xəncəri çıxardıb dedim:

– Əgər dərdini mənə deməsən, özümü öldürəcəm. Məmməd gördü doğrudan da mən xəncəri soxacam qarnıma.

Odu ki, dedi:

– Əhməd, Allahdan gizlin deyil, bəndədən nə gizlin, sizin küləfirəngidə oturanda küçədən bir qız keçirdi, onun məhəbbətini salmışam ürəyimə, indi dözə bilmirəm.

Mən o saat başa düşdüm ki, Məmməd mənim nişanlımı görübdür.

Heç bu işin üstünü vurmadım, dedim:

– Məmməd, bu nə çətin işdi ki, sən fikir çəkirsən? Bir həftəyətən o qızı sənə alaram.

Məmmədi sakit eləyib düz gəldim evə. Ata-anama əhvalatı söylədim ki, bəs belə, dostum Məmməd mənim nişanlıma aşiq olub, mən gərək qızı ona verəm. Ata-anam nə qədər dedilər ki, ay oğul elə də iş olar? Gəl sən bu sevdadan əl çək!

Xəncəri çəkib dedim:

– Vallah bu işi Məmmədə bildirsəniz özümü öldürəcəm.

Ata-anam qorxub sakit oldular. O günnən toy tədarükünü gördük. Sabah toydu deyəndə atamnan anamın dərddən ürəkləri partladı, öldülər. Qohum-qardaş yığışdı, başladılar ağlaşmaya. Məmməd bilməsin deyin mən adamlara tapşırdım ki, yası saxlayaq toydan sonraya, hər kəs ata-anamın öldüyünü Məmmədə bildirsə, onun başını bədənindən ayıracam.

Səhər açıldı. Məmmədin heç nədən xəbəri yox idi, toy başlandı, qızı gəlin apardıx. Sonra gəlib xəlvətcə, səssiz-küysüz ata-anamı dəfn elədim.

Bu əhvalatı nişanlıma da dedirtmişdim. O da Məmmədə bu haqda heç nə demirdi. Amma qız xifətdən dura bilmirdi. Odu ki, Məmmədə dirənir ki, mən bu şəhərdə qalmax istəmirəm, gəl köçək ayrı bir yerə gedək. Belə bir iş elə bil Məmmədin də ürəyinnən imiş. Ev-eşiklərini də satıb, ata-anasını, bacısını da götürüb köçürlər özgə bir vilayətə.

Aradan bir müddət keçdi. Gördüm ki, mənim nişanlımı öz əlimnən özgəsinə verməyimi hamı bildi, başladılar mənə rişxənd eləməyə. Bu sözə dözə bilmədim. Bir bacım qalmışdı, onu da götürüb getdim özgə bir vilayətə. Düşdüm qəribçiliyə, heç yerdə iş-güc tapmadım, əlimdə olan pulum-param da qurtardı, cır-cındır paltarın içində qaldım. Bir də öyrəndim ki, dostum Məmməd bu şəhərdə olur. Yeməyə bir tikə çörəyimiz yox idi, mən cəhənnəmə, bacım acınnan taqətdən düşmüşdü. Fikirləşdim ki, gedim heç olmasa Məmmədi tapım, bir az ondan borc alım. Soraxlaşa-soraxlaşa gedib qapısını tapdım. Gördüm arvadıynan çıxıb gedirlər. Yavaşca onu bir yana çəkib dedim:

– Qardaş, hal-qəziyyə gəlib bu şəhərə çıxmışam, pulum, yerim yoxdu, mənə bir az əlborcu ver.

Gördüm Məmməd heç üzümə də baxmaq istəmədi, eləcə çıxardıb beş-on tümən pul verdi, sonra çıxıb getdi. Mən Məmmədi belə soyux görəndə istədim pulunu təpəsinə vurum, fikirləşdim ki, bacım yazıx acınnan ölür, heç olmasa bu pula bir az şey-şüy alım aparım yesin.

O gecə gedib bacı-qardaş karvansarada qaldıx. Səhər tezdən bir də gördüm bir arvadla bir cavan qız gəlib mənə dedilər:

– Oğul, görürəm siz qərib adama oxşayırsınız. Bizim burda yeddi otağımız var, hamısı boşdu, gedək siz də olun mənim uşaxlarım, ana-bala kimi bir yerdə dolanax.

Mən gördüm ki, buralarda onsuz da ev-zad tapmax mümkün deyil, bir də yeməyə heç nə tapmıram, evə pulu hardan tapacam. Razı oldum, durub arvadın evinə getdik. O günnən arvad bizə öz uşaxları kimi baxdı.

Bir gün evdən çıxıb bazara gedirdim. Bir də gördüm bir qoca kişi qabağımı kəsib dedi:

– Oğul, mən sənin atana on iki kisə qızıl borcluydum, indi öyrənmişəm ki, o ölübdü, sən də onun oğlusan. Odu ki, al, bu pullar sənə çatacax.

İstədim almayam, kişi əl çəkmədi:

– Oğul, elə şey olmaz, məni kişinin yanında şolüzümmə eləmə.

Pulu aldım, gətirib xərcləyib dolandıx. Bir gün oturmuşdux, birdən mənə ev verən arvad dedi:

– Ay oğul, sən görürsən üzümüz-gözümüz sənə necə öyrənib, mənim də qızım yekələnib, ərə gedəsi olub, elə gəl Allahın əmriynən qızımı verim sənə, toyunuzu da özüm eləyim.

Mən çox götür-qoydan sonra razı oldum. Toy tədarükü görüldü. Sabah toydu deyəndə qızın anası dedi:

– Oğul, indi de görüm toya kimləri çağırax?

Mən dedim:

– Vallah mən burda qərib adamam, heç kimi tanımıram, kimi istəyirsən çağır.

Arvad razı oldu, adamları çağırdı, məclis quruldu. Adamlar bir-bir, iki-iki xonçalı-zaddı toya gəlirdilər. Lap axırda Əhməd gördü ki, köhnə dostu Məmməd də arvadıynan toya gəldi. Bunlar gətirdikləri xonçanı yerə qoyanda Əhməd səsləndi ki, onların xonçalarını qaytarın, mənə lazım deyil, namərd adamdılar. Camaat hamısı bu işə məəttəl qaldı, dedilər:

– Əhməd, axı bir bizi başa sal görək ki, bunun taxsırı nədi, sən onun xonçasını qaytarırsan?

Əhməd əhvalatı axıra kimi, hətta nişanlısını Məmmədə verdiyini, ata-anasının dərddən çərləyib öldüyünü, Məmmədin bu şəhərdə ona üz vermədiyini belə söylədi. Camaat istədi Məmmədi qovsun, Məmməd dedi:

– Camaat, bir az səbr eləyin, hamısını söyləyim, görün o haxlıdı, ya mən?

Məmməd dedi:

– Əhməd hər nə dedisə, düz deyir, onlar hamısı olub, o mənə çox yaxşılıx eləyib, amma mən də onun əvəzini çıxmışam. Mənim onun nişanlısını almaxda məqsədim onu sınamax idi, həmin günnən onun nişanlısı necə bizə gəlibsə, eləcə də durub. Mən ona bacı gözüynən baxmışam. Qaldı Əhməd deyir ki, yolda mən ona eləcə pul verib üzünə baxmamışam, o da düzdü. Mən gördüm Əhməd cırıx-cındır paltarın içində dilənçiyə oxşayır, nişanlısı onu bu kök də görüb tanımasın, deyibən mən qəsdən ona soyuxlux görsətdim. Amma sonra atama on iki kisə qızıl verib ona yolladım, anamı öyrətdim gedib Əhmədi özünə oğulluğa götürdü, həmən o evində qaldığı adam mənim anamdı, bu gün toyunu elədiyimiz qız da mənim doğmaca bacımdı, Əhmədə veririk. İndi Əhmədin nişanlısını da gətirmişəm, istəyir öz nişannısını alsın, istəyir bacımı.

Mən gördüm ki, Məmmədin dediklərinin hamısı doğrudu. Odu ki, dedim:

– Məmməd, kişinin sözü bir olar. Elə əvvəldən nişanlımı sənə vermişəm, o sənin, bacın da mənim.

Camaat hamısı bizim bu dostluğumuza əhsən dedi. O vaxtdan biz bu şəhərə köçüb burda şenniy salmışıx. Oğul, indi bil, agah ol ki, bizim sirrimiz bu idi.

Məlik bir də baxıb gördü xoruzlar banlayır, səhər açılır. Kişidən çox razılıx eləyib, atını minib qayıtdı dərvişlərin yanına. Başladı ki, Əhmədnən Məmmədin sirrini söyləməyə, dərvişlərin biri dedi:

– Oğul, gəl sən heç əziyyət çəkib o sirri söyləmə, onsuz da biz onların hamısını bilirik.

Məlik dedi:

– Ağa dərviş, siz ki, bu sirri bilirdiniz, bəs məni niyə ora göndərirdiniz?

Dərviş dedi:

– Oğul, biz gördük sən keçəl kimi dostun qədrini bilmədin, heç nəyin üstə onun ölümünə bais oldun, səni ora göndərdik ki, get gör dünyada nə cür sədaqətli dostlar var. İndi burdan gedərsən, sənin arvadın hamilədi, onnan bir uşağın olacax. O uşağı aparıb keçəlin sinəsinin üstün də başını kəsərsən. Uşağın qanı axan kimi keçəl axsırıb diriləcək, bədəninin daşı da tamam töküləcək.

Dərviş əlavə bir şüşə sehirli su, bir də bir quş lələyi verdi ki, uşağın başını kəsəndən sonra bu lələynən o sudan uşağın boğazına çəkərsən, o da dirilər.

Məlik sehirli suynan lələyi də götürüb sevinə-sevinə gəldi evlərinə. Dərviş deyənlərin hamısını elədi. Keçəli diriltdi, uşağı sağaltdı, öz bacısını da keçələ verib yeddi gün, yeddi gecə toy elədi.

Onlar yeyib-içib yerə keçdilər, siz də yeyin-için ömür sürün.

Göydən üç alma düşdü, biri mənim, biri nağıl söyləyənin, biri də özümün. Mən sağ, siz salamat, siz yüz yaşayın, mən iki əlli, hansı çoxdu siz götürün, yerdə qalanını verin mənə.

## YUSİFLƏ SƏNUBƏR

Biri varıymış, biri yoxuymuş, keçmiş əyyamda iki qardaş varıymış. Qardaşların ikisi də padşahıymış. Böyük qardaş öz vilayətlərində, o biri qardaş da ayrı bir vilayətdə padşahlıx eləyirmiş.

Bu iki padşahın heç birinin övladı olmurmuş. Günlərin bir günü böyük qardaş kiçik qardaşı qonax çağırdı. İki qardaş bu qonaxlıxda yeyib-içib şadlıq elədilər. Gecənin yarısı qonaxlıq qurtardı, adamlar hərə öz evinə getdi, təkcə iki qardaş qaldılar bir yerdə. Qardaşlar ikisi də bir-birinin üzünə baxıb ah çəkdilər. Kiçik qardaş dedi:

– Ey qardaş, əvvəlcə sən ah çəkdin, de görüm dərdin nədi?

Böyük qardaş dedi:

– Bundan da böyük dərd olarmı ki, bizim bu qədər var-dövlətimiz, cahi-cəlalımız ola, amma bircə övladımız olmuya ki, ölüb gedənnən sonra yerimizdə otura, çırağımızı yandıra.

Kiçik qardaş ona ürək-dirək verib dedi:

– Neyləyək, bizim baxtımıza belə yazılıbmış, görəsən nə günahımız varıymış ki, belə olmuşuq. Gəl bu gündən fağır-füqəraya, kasıb-kusuba əl tutax; nəzir-niyaz paylayax, ehsan verək, bəlkə Allahın rəhmi gələ bizə də bir övlad verə.

Qardaşlar o gündən öz əhdlərini yerinə yetirdilər. Qazanlar asdılar, ac qarınları doydurdular, yetim-yesiri söyündürdülər.

Günlərin bir günündə bu iki qardaş evdə oturub dərdləşirdilər. Bir də gördülər ki, küçədə qapının ağzında bir dərviş oxuyur ki, səsinnən

adamın tükləri biz-biz olur. Padşah əmr elədi ki, gedin o dərviş babanı gətirin mənim yanıma. Adamlar gedib dərvişi gətirdilər padşahın yanına.

Dərviş qapıdan içəri girən kimi, ədəb-ərkanla baş əyib salam verdi. Padşah dərvişə yer göstərdi. Dərviş kəşkülünü[1], təbərzini yerə qoyub əyləşdi. Dedi:

– Şahim, mənə görə nə qullux?

Padşah dedi:

– Baba dərviş heç, gördüm çox qəşəng oxuyursan, odu ki, çağırdım sənə pay verəm.

Dərviş gülüb dedi:

– Qibleyi-aləm sağ olsun, mən pay alan dərvişlərdən deyiləm, pay verən dərvişlərdənəm.

Padşah dedi:

– Baba dərviş, sən mənə nə pay verə bilərsən?

Dərviş dedi:

– Ürəyində nə mətləbin olsa de, qorxma. Padşah bir ah çəkib dedi:

– Eh baba dərviş, biz iki qardaşın mətləbi elədi ki, sən dərdimizə əlac eləyə bilməzsən.

Dərviş gördü padşah ona inanmır, sözü uzatmayıb çibindən iki dənə alma çıxartdı. Hərəsini bir qardaşa verib dedi:

– Doğrudu, siz dərdinizi mənə demədiniz, amma mən bilirəm. Bu almaları yarı bölüb hərəniz öz övrətinizlə yeyərsiniz. Doqquz ay, doqquz gündən sonra birinizin oğlu, birinizin də qızı olacax. Onda gəlib adlarını da özüm qoyacağam.

Dərviş sözünü qurtaran kimi, iki qardaş bir-birinin üzünə, bir də əllərindəki almaya baxdılar. Başlarını qaldıranda gördülər dərviş nə gəzir, elə bil gördükləri yuxuymuş. Tez qapını açıb çıxdılar məhəlləyə ki, dərvişi axtarsınlar. Hər yeri ələk-fələk elədilər, dərvişi tapa bilmədilər. Kor-peşman gəlib oturdular.

Axşam hər iki qardaş almaları öz arvadlarıynan yarı bölüb yedilər.

Bəli, deyirlər ki, nağıllarda mənzil olmaz. Ay dolandı, həftə keçdi, doqquz ay, doqquz günün tamamında hər iki qardaşın arvadları bari həmillərini yerə qoydular. Böyük qardaşın bir qəşəng oğlu, kiçiyin də gözəl bir qızı oldu. Oğlanla qız gözəllikdə elə bil bir almaydı yarı bölünmüşdü. Bu şad xəbər hər yerə yayıldı. İki qardaş böyük bir məclis düzəltdi. Bütün vəzirlər, vəkillər, darğalar, qazılar hamısı bu məclisə yığıldı. Yedilər, içdilər, şadlıx elədilər.

Elə bu vaxtıydı ki, bir də gördülər yenə küçədə bir dərviş səsi gəlir. Padşah o saat əmr elədi ki, gedin görün o köhnə dərvişdisə, gətirin bura. Adamlar gəzib gördülər ki, bu bir kasıb dərviş babanın biridi. Odu ki, gətirmək istəmədilər. Dedilər:

– Dərviş baba, neynirsən buralarda?

Dərviş bunların ürəyini bilirdi deyə dedi:

– Eşitdim ki, bu gün padşahın qonaxlığı var. Odu ki, dedim kasıb adamın biriyəm, gedim bir az oxuyum, bəlkə puldan-paradan verələr.

Padşahın adamları dedilər:

– Baba dərviş, padşah hər dərvişi öz məclisinə buraxmaz, get sən ayrı yerdə oxu, bəlkə bir az puldan-paradan alasan.

Dərviş dedi:

– İndi ki, belə oldu, mənim dilimnən padşaha deyin ki, dərvişi geyimiynən yox, onun işiynən, əməliynən tanıyarlar. Mən haman dərvişəm, gəlmişəm uşaqların adlarını qoymağa. O ki, mənə belə üz görsətdi, içəri getmərəm. Oğlanın adını Yusif[2], qızın da adını Sənubər qoydum.

Adamlar gəlib dərvişin dediklərini padşaha söylədilər.

Padşah bu sözləri eşidən kimi, öz əməlindən peşman olub, başına-dizinə döydü. Dad-fəryad elədi ki, ay aman, yerdə də olsa, göydə də olsa, o dərvişi tapın, gətirin yanıma.

Hər yeri axtardılar, dərviş tapılmadı ki, tapılmadı.

Aradan bir az keçmiş məclis dağıldı. İki qardaş əllərini göyə qaldırıb dua elədilər ki, indi arzumuza çatdıq. Uşaxların da adını dərviş dediyi kimi qoydular. Böyük qardaş dedi:

– Qardaş, saçımıza-saqqalımıza dən düşüb, belimiz əyilib, bugün-sabah düşüb eləcəyik. Biz ölələndən sonra Allah bilir övladlarımızın başına nə gələcək, hansı padşahın övladlarıynan evlənəcəklər? Var-dövlətimiz kimə qismət olacax? Yaxşısı budu ki, elə bu ad günündə sənin qızınla mənim oğlumu göbəkkəsmə nişanlayax, bizdən sonra da var-dövlətimiz onlara qismət olsun.

Kiçik qardaş böyük qardaşın məsləhətinə razı olub Yusiflə Sənubəri göbəkkəsmə elədilər.

O gündən uşaxlara tayaçılar, lələlər tutuldu. Biz eşitmişik ki, uşaq aynan-ilnən böyüyər, amma bunlar günbəgün, saat-basaat böyüdülər. Yusiflə Sənubər həddi-buluğa yetib, gəlib on dörd yaşa çatdılar. Yusif elə bir gözəl oğlan olmuşdu ki, üzünə baxan deyirdi bir də baxaydım.

Göyçəklikdə Sənubər də əmisi oğlunnan geri qalmırdı.

Bir gün Yusif dədəsindən izn alıb əmisigilə gəzməyə getmişdi. Yusif əmisiynən öpüşüb-görüşəndən sonra nökər-nayıbla əmisinin Gülüstan bağını gəzməyə çıxdı. Bağ nə bağ, gül gülü, bülbül də bülbülü çağırırdı. Bir tərəfdə lalə, yasəmən, bir tərəfdə də bənövşə, ağ gül, sarı gül. Qızıl gülün ətri adamı valeh eləyirdi. Bağın ortasında ağ mərmərdən gözəl bir çarhovuz varıydı. Qırx yerdən su fəvvarə vururdu.

Yusif çarhovuzun yanına yaxınlaşanda nə görsə yaxşıdı? Gördü ki, əmisi qızı qırx incə belli xanımla çarhovuzun qırağında əl-üzlərini yuyurlar. Yusif qızı görən kimi bir könüldən min könülə əmisi qızına aşiq oldu. Sənubər də Yusifin gözəlliyinə heyran qalıb o da ona vuruldu. Bir az bağda gəzib dolanandan sonra Yusif qayıtdı evlərinə.

Yusif evlərinə qayıdandan sonra əmisi qızının eşqinnən azarlayıb yorğan-döşəyə düşdü. Ata-anaları Yusifin halını pərişan görüb soruşdular:

– Oğlum, de görək sənin dərdin-azarın nədi? Sənə nə olub?

Yusif əvvəlcə istədi dərdini deməsin. Gördü ki, yox, anası əl çəkmir. Əlacsız qalıb dərdini anasına söylədi. Anası dedi:

– Oğlum, o sənin göbəkkəsmə nişanlındı, sən niyə fikir çəkirsən?

Arvadı əhvalatı ərinə dedi. Elə həmin günü Yusifin atası qardaşına xəbər göndərdi ki, bəs hazırlaşsın, uşaxlarımızın toyunu eləyək. Toy tədarükü görüldü. Yeddi gün, yeddi gecə toy oldu. Axırıncı gün Sənubəri gəlin gətirib oğlanın evinə qoydular. Gecənin bir vaxtı toy qurtardı. Adamlar dağılışıb evlərinə getdilər. Evin bir küncündə qızla oğlana gərdək qurdular.

Yusif qapını açıb girdi evə. Gərdəyi açıb, qızı görən kimi tappıltıynan üzü üstə yıxıldı yerə. Sənubər elə bildi ki, əmisi oğlunun ayağı ilişib yıxıldı. Gözlədi ki, indi durar. Gördü yox, bu, durana oxşamır. Özü gəlib onu durğuzmaq istəyəndə, gördü ki, əmisi oğlu elə bil dünənnən ölübmüş. Qız o saat qəşş eləyib, ürəyi getdi.

Eşikdə qızın yengəsi, vəkili ha gözlədilər, gördülər heç səs-səmir gəlmir. Axırda yengə dözə bilmədi, içəri girib, gördü Yusif ölüb, qız da ah-zarnan göz yaşı tökür. Bu qara xəbər o saat oğlanla qızın ata-anasına çatdı. Bütün şəhər qara geyinib yas saxladı. Çox ağlayıb-sısqayandan sonra gəldilər ki, oğlanı aparıb basdırsınlar. Sənubər meyidi qucaqlayıb dedi:

– Əmi, mən Yusifdən doymamışam, izin ver onun meyidini qırx gün saxlayım?

Əmisi razı oldu. Yusifin meyidini qızın gəlin otağında saxladılar. Sənubər hər gün meyidə ətirdən, dərmandan vurub, sabahdan axşama kimi göz yaşı tökdü. Bütün qohum-qardaş yığılıb qıza nə qədər dəlil-dəlayil elədilərsə o, ağlamaqdan əl çəkmədi.

Yusifin ölümündən otuz doqquz gün keçmişdi. Qızlar Sənubəri bir ölüm-zülümnən dilə tutub bağa apardılar ki, heç olmasa bir az eyni açılıb, dərdi dağılsın. Sənubər bağda bir az o üzə, bu üzə gedib evə qayıtdı, gördü ki, Yusifin meyidi yoxdu. Ağlaya-ağlaya əmisinin yanına gedib Yusifin meyidini istədi. Əmisi and-aman elədi ki, bizim meyiddən xəbərimiz yoxdu. O günnən kəndbəkənd, şəhərbəşəhər adam salıb Yusifin meyidini axtardılar. Tapa bilmədilər ki, bilmədilər. Aradan bir xeyli keçənnən sonra Sənubərin atası gəlib qızını aparmaq istədi. Qız dedi:

– Ata, mən heç yerə getməyəcəyəm. Səndən bir xahişim var. Yeddi yolun ayrıcında mənə bir imarət tikdirərsən. İçində hər cür yemək-içmək olsun. Özümə də qırx qulnan qarabaş verərsən, onlar da mənə hayan olar.

Atası dedi:

– Qızım, bu imarəti tikdirməkdə məqsədin nədi?

Sənubər dedi:

– Mehriban ata, mən həmən imarətdə yeddi yol ayrıcından keçib gedən adamların hamısını qonax saxlayacağam. Yedirdib-içirdəcəm. Sonra da bütün gördüklərini eşitdiklərini danışdıracağam, bəlkə Yusifdən bir soraq tapa bildim.

Hər iki qardaş Sənubərin fikrinə razı oldular. Ona gözəl bir imarət tikdirib özünü də ora köçürdülər. Qız evə köçən kimi hər yolun ayrıcında bir gözətçi qoydurdu ki, kimi görsəniz, mənim yanıma gətirərsiniz.

Bəli, o gündən bu yoldan kim keçirdisə onu gətirirdilər imarətə. Əvvəlcə yedizdirib, içizdirib, hamamda çimizdirib, təzə paltar geyindirərdilər. Sonra da gətirərdilər Sənubərin hüzuruna. Sənubər də onlardan gördüklərini, eşitdiklərini xəbər alardı. Amma öz sevgilisindən heç bir soraq tuta bilmirdi. Sənubər yoldan keçənləri öz imarətinə gətirib danışdırmaqda olsun, sizə kimdən xəbər verim, kimdən xəbər verim, üç qardaşdan.

Uzaq bir vilayətdə üç qardaş varıymış. Bunların qoca analarından başqa heç kimləri yox imiş. Özləri də çox kasıbmışlar.

Bir gün bunlar eşitdilər ki, özgə bir torpaxda bir qız yeddi yolun ayrıcında böyük bir imarət tikdirib, yoldan gəlib keçənlərin hamısını yedirdib, geydirib, sonra da onlardan gördüklərini, eşitdiklərini soruşur. Qardaşlar fikirləşdilər ki, elə biz də gedək orda bir az yeyək, içək, həm də üst-başımızı düzəldək.

Böyük qardaşla ortancıl qardaş analarından izin alıb həmən yerə getmək istədiklərini bildirdilər. Kiçik qardaş başladı yalvarmağa ki, məni də özünüzlə aparın. O, nə qədər elədisə böyük qardaşları razı olmadılar. Bunlar kiçik qardaşı evdə qoyub yola düşdülər. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, bir də baxıb gördülər ki, budu ha, balaca qardaşları ley kimi onların dalınca gəlir.

Bir az deyinəndən sonra kiçik qardaşlarını da özlərinə qoşub başladılar yol getməyə. Az getdilər, çox dayandılar. Dağlar aşdılar, çaylar keçdilər. Gəlib bir qalın meşəyə çıxdılar. Elə bil heç bu meşəyə bəni-insan ayağı dəyməmişdi. İlan-çayan, qurd-quş, çaqqal-canavar, ayı, şir, pələng bir nərə çəkirdilər, bir ulaşma varıydı ki, az qalırdı adamın bağrı çatlasın. Yazıq qardaşlar fikirləşdilər ki, elə bizimki də buracanıymış. O, üzə, bu üzə vurnuxub bir zağa tapdılar. Üçü də zağaya girib, bir küncdə büzüşdülər. Elə yenicə zağaya girmişdilər ki, bir də gördülər hava qaraldı, göy guruldadı, şümşürəy oynadı, ildırım çaxdı, elə bir tufan qopdu ki, az qaldı yer-göy dağılsın. Leysan yağışı elə tökürdü ki, ucunnan tut çıx göyə. Gördülər zağadan çıxmaq mümkün deyil, elə oradaca yatdılar. Səhər sübh tezdən durub gördülər hava açılıb, gün çıxıb, yağış kəsib, yel dayanıb, özləri də bir qəşəng çəmənzarın, gül-çiçəyin içindədilər ki, elə bil behişdi. Bir də gördülər üç dənə quş uça-uça gəlib bir yekə ağacın başına qondu. Quşlar hərəsi bir dəfə qanad çalıb, dönüb oldular pəri. Sən demə bunlar üç bacı pəri qızlarıymış. Pəri qızların böyüyü söylədi:

– Ay bacılı-bacılı, niyə durubsunuz? Süfrə açıb yemək hazırlayın.

Bacılar o saat heçdən bir süfrə düzəltdilər ki, dünyada nə nemət desən, hamısı orda var idi. Böyük pəri yenə dedi:

– İndi də mənim amanatımı gətirin.

O saat ortancıl pəriynən kiçik pəri uçub uca bir ağacın başından qızıllı, gümüşlü bir tabut gətirdilər. Böyük bacı tabutun böyründən bir çubux götürüb, tabuta vurdu, dedi: "Açıl tabut, açıl". Tabut o saat açıldı. Sonra çubuğu içindəki meyidə vurub dedi:

– Oyan Yusif, oyan!

Bunu deyən kimi, tabutdan bir gözəl oğlan çıxıb oturdu süfrənin qırağında. O qədər yeyib-içdilər, gülüb danışdılar ki, tamam yoruldular.

Qızlar süfrəni yığışdırdılar. Böyük bacı çubuğu oğlana vurub dedi:

– Öl Yusif, öl!

Oğlan o saat tabuta yıxılıb öldü. Qız çubuğu bu dəfə də tabuta vurub dedi:

– Örtül tabut, örtül!

Tabut o saat örtüldü. Bacılar tabutu götürüb ağacın başında gizlətdilər. Sonra qızlar üçü də quş cildinə girib, uçub getdilər.

Bu əhvalatı üç qardaş zağadan görüb tamam məəttəl qalmışdılar. Quşlar gedəndən sonra qardaşlar zağadan çıxıb başladılar yol getməyə. Yeddi gün, yeddi gecə yol gedənnən sonra gəlib çıxdılar həmin yeddi yolun ayrıcına. Qızın adamları diydivannan bunları görən kimi, apardılar imarətə. Əvvəlcə yedirdib-içirdənnən sonra, çimizdirib hərəsinə bir dəst təzə paltar geydirdilər. Sonra gətirdilər Sənubərin yanına. Qardaşlar gördülər ki, evdə heç kim yoxdu, amma ortadan bir pərdə çəkilib. Gözlədilər ki, gərək indi bura kim gələcək. Bir də gördülər pərdənin dalınnan bir qız səsi gəldi ki:

– Ey Allahın bəndələri, gördüyünüzdən, eşitdiyinizdən nə bilirsinizsə danışın.

Böyük qardaşla ortancıl qardaş gördüklərinə heç kimin inanmayacağını bilib, danışmaq istəmədilər. Kiçik qardaş başa düşmədi, elə bildi qardaşlarının yadından çıxıb, odu ki, dedi:

– Ay qardaşlar, meşədə gördükləriniz nə tez yadınızdan çıxıb, onu danışsanıza.

Qardaşlar ona nə qədər him-cim elədilərsə, başa düşmədi.

Qız burda bir əhvalat olduğunu duyub dedi:

– Oğlan, gördüklərini sən söylə.

Oğlan gördüyü pəri qızların əhvalatını başdan-ayağa Sənubərə danışdı. O, Yusifin adını çəkəndə Sənubər bərkdən bir ah çəkib, şappıltıynan yerə yıxıldı.

Hannan-hana qul-qarabaşlar Sənubər xanımı özünə gətirdilər. Qardaşlar bu əhvalata məəttəl qaldılar. Sənubər xanım bir təhər udquna-udquna uşaqdan xəbər aldı:

– Sən o tabutun yerini bilirsənmi?

Uşaq dedi:

– Xanım, bilirəm, meşənin içindədi.

Sənubər xanım çoxlu qızıl, gümüş verib, qardaşlara dedi:

– Qoyun bu uşaq mənnən gedib tabutun yerini mənə görsətsin, sonra gətirib sağ-salamat özünüzə verərəm.

Böyük qardaşla ortancıl qardaş çoxlu qızıl, gümüş alıb analarının yanına getməkdə olsunlar, bu tərəfdən də Sənubər bir dəstə qoşun götürüb, uşağı da qabağına salıb gəldilər həmin meşəyə tərəf.

Az getdilər, çox getdilər, axırı gəlib çıxdılar həmin meşəyə. Uşaq qabağa düşüb başında tabut olan ağacı axtarmağa başladı. Uşaq o ağacın dibindən, bu ağacın dibindən səkə-səkə tabut olan ağacı tapıb qıza görsətdi. Qoşun əhli o saat tabutu ağacın başından yerə endirdi. Uşaq tabutun böyründəki çubuğu götürüb üç dəfə vurub Dedi:

– Açıl tabut, açıl!

Qapaq o saat açıldı. Sonra çubuğu meyidə vurub dedi:

– Oyan Yusif, oyan!

Yusif yuxudan oyanıb oturdu. Sənubər özünü Yusifin üstünə atıb onu qucaxladı. Bütün qoşun bunları görüb xəlvətə çəkildilər.

Yusiflə Sənubər gecə sabahatan bir yerdə qaldılar. Sabaha yaxın Yusif gözünü açıb dedi:

– Gəl məni də götür, tez burdan qaçax. Əgər ləngisən bir də məni görə bilməyəcəksən.

Sənubər dedi:

– Əmi oğlu, bütün bu meşənin içi qoşunla doludu. Kim səni mənim əlimdən ala bilər. Mən bu sirri öyrənmək istəyirəm. Görüm o üç qız kimdi?

Yusif dedi:

– İndi sözümə baxmadın, bunun altını çəkəcəksən. Tez ol məni ağacın başında gizlət, bu saat pəri qızları gələcəklər.

Sənubər əlindəki ağacla oğlanı yuxuya verib, tabutun ağzını örtüb, qoşuna əmr elədi ki, tabutu ağacın başına qoyun. Tabutu yenə ağacın başına qoydular. Özləri də çəkilib bir tərəfdə gizləndilər. Çox çəkmədi ki, birdən bərk tufan qopdu, yel əsdi, göy guruldadı, yer tərpəndi, ildırım şaqqıldadı. Bir yağış tökdü, bir yağış tökdü ki, az qaldı düzdünyanı sel aparsın. Birdən-birə hava açıldı, gün çıxdı, hər tərəf çilçıraqban oldu. Bir də gördülər üç pəri quşlar yerə qondular. Onlar donlarını dəyişib oldular gözəl-göyçək qız. Böyük pəri kiçik bacılarına dedi:

– Di tez olun, yemək-içmək hazırlayın, mənim amanatımı da gətirin.

Bacılar əvvəlcə süfrə salıb yemək-içmək hazırladılar. Sonra tabutu gətirib bacılarının qabağına qoydular. Böyük pəri tabutu görən kimi dedi:

– Bu tabuta bəni-insan əli dəyib, götürün buradan bir dəfəlik elə bir yerə gedək ki, orda bəni-insan olmasın.

Üç bacı pərilər tabutu götürüb, göyün üzünə qalxdılar. Bir göz qırpımında yox olub getdilər.

Bütün bu əhvalatı görən Sənubər əmisi oğlunun sözünə baxmadığına peşman oldu. Başına-gözünə döydü, dərdi birə on qat artdı. O günnən Sənubər ayağına dəmir çarıx geyib, əlinə də dəmirdən bir əsa aldı. Uşağı da, qoşunu da götürüb əmisi oğlunu təzədən axtarmağa getdi. Bəli, nağıllarda vaxt çox tez gələr. Sənubər əmisi oğluynan meşədə görüşəndən doqquz ay keçmişdi. Vaxtı tamam idi. Bari həmilini yerə qoyub, gözəl-göyçək bir oğlan doğdu. Oğlan bəeyni dədəsinə oxşayırdı. Anası oğlanın adını balaca Yusif qoydu. Ay dolandı, il keçdi, balaca Yusif boy atıb böyüdü. Bunlar yenə də Yusifi axtarmaxdan əl çəkməmişdilər. Gecə-gündüz onu axtarırdılar. Dağda-daşda, orda-burda o qədər yüyürüb yortmuşdular ki, üst-başları tamam tökülmüşdü. Cındırlarınnan cin ürkürdü. Bu kökdə şəhərə girməyə utanırdılar. Odu ki, axşamı salıb, özlərini şəhərin qırağında bir qarının evinə yetirdilər.

Yaxşı deyiblər, qarı var ipək, qarı var köpək, qarı var küpəgirən, qarı var öküz minən, amma bu qarı imannı qarılardandı. Sənubərgil içəri girib, qarıya dil-ağız elədilər. Bir az pul verib hərəsi özünə köhnə paltar istədi. Qarı oğlunun, qızının paltarlarından bunların hərəsinə bir dəst geyindirdi. Sənubər qarıdan gecələməyə yer istədi. Qarı dedi:

– A qızım, elə yaxşı oldu, oğlumnan qızım burda yoxdu. Elə onlar gələnə tək qalarsınız yanımda.

O gündən Sənubər, balaca Yusif, bir də oğlan qarını yanında qaldılar. Sənubər hələ meşədə olanda qoşunu da buraxmışdı ki, çıxıb getsin. Onlar da hərəsi bir tərəfə dağılıb getmişdi.

Bir gün Sənubər saçından bir qiymətli ləl çıxardıb oğlu Yusifə dedi:

– Oğul, apar bunu ver padşaha, xırdalasın, gələndə bir az şeydən-şüydən al gətir, yeyək.

Balaca Yusif ləli götürüb getdi padşahın yanına. Darvazanı açıb içəri girdi. Qapıçılardan padşahın yerini soruşdu. Padşahın yerini ona göstərdilər. Yusif pilləkənlə yuxarı çıxanda vəzir onu gördü, dedi:

– Oğul, hara gedirsən? Bura padşahın otağıdı, sənin buralarda nə işin?

Balaca Yusif əlindəki ləli görsədib dedi:

– Bunu xırdalamağa gedirəm.

Vəzir əlin lələ uzadıb dedi:

– Ver mən xırdalayım.

Yusif ləli verməyib dedi:

– Padşahın özünə xırdaladacam.

Vəzir nə qədər dil tökdüsə uşaxdan ləli ala bilmədi. Axırda çarnaçar qalıb, onu padşahın yanına buraxdı. Yusif padşahın yanına gəlib ləli ona uzadıb dedi:

– Anam deyir bunu xırdalasın.

Padşah vəziri çağırıb dedi:

– Vəzir, bu ləli al xırdala!

Vəzir ləli alıb baxdı, gördü heç bunun misli-bərabəri yoxdu. Yavaşca padşahın qulağına dedi:

– Şahim, bu ləl o qədər qiymətlidi ki, sənin xəzinəndəki qızıl bunun qiymətini ödəməz.

Padşah dedi:

– Xəzinəmdə nə qədər qızıl varsa, ver aparsın.

Vəzir uşaxdan yanıxlıydı deyən padşahın qulağına bir də pıçıldadı:

– Şahim, bu ləldən heç yerdə tapılmır. Sən o uşağa denən, getsin birini də gətirsin.

Padşah dedi:

– Oğul, bu dəfə gələndə ləlin birini də gətir.

Vəzir oğlanı yanına salıb gətirdi xəzinəyə. Ona bir xeyli qızıl verib yola saldı.

Uşax bazardan bir az şeydən-şüydən alıb bikeyf gəldi anasının yanına. Sənubər oğlunu keyfsiz görüb dedi:

– Oğul, sənə gələn qada-bala mənə gəlsin. De görüm sənə nə olub belə?

Yusif dedi:

– Ana, padşah dedi bu ləldən birini də gətir.

Sənubər o saat əlini saçının altına atıb bir dənə də ləl çıxardıb verdi oğluna. Balaca Yusif ləli gətirib verdi padşaha. Padşahın bu işdən çox xoşu gəldi. Uşağın başını sığalladı, üzünə güldü. Vəzirin bu işə paxıllığı tutdu. Öz-özünə dedi. "Padşah bu vaxtatan mənim uşaq-

larımın heç üzünə gülməyib. Amma bu uşağı bir dəfə görməynən onun başını sığallayır. Gələcəkdə bu mənim başıma çox əngəllər aça bilər. Yaxşısı budu elə indidən başını batır”.

Vəzir padşaha yaxınlaşıb dedi:

– Şahim, sən bilirsən ki, gərək padşahın özünə layiq imarəti ola. Sən özün böyük padşahsan, adın-sanın dillərdə dastan olub, amma özünə layiq imarətin yoxdu. Mən istəyirəm sənin elə bir imarətin olsun ki, öz-özünnən işıx versin.

Padşah dedi:

– Vəzir, mən belə imarəti hardan ala bilərəm?

Vəzir dedi:

– Şahim, divlər padşahının məmləkətində şam ağacları var, mərmər daşlar var, onlar işıx verirlər. Mən görürəm bu uşax çox fərasətli, qoçaq oğlandı, göndər o dediklərini gətirsin, imarəti mən tikdirərəm.

Padşah dedi:

– Vəzir, bu vaxtatan heç bir padşahın qoşunu gedib o şeyləri gətirə bilməyib. Divlər onların hamısını qırıb-çatıb. Bu bir tikə uşaq o şeyləri necə gedib gətirə bilər?

Vəzir dedi:

– Onun uşax olmağına baxma. Bu şeyləri gətirə bilsə bircə o gətirəcəkdir. Sən ona de ki, əgər gətirməsən boynunu vurduracağam.

Padşah Yusifi yanına çağırıb, əhvalatı ona danışdı. Özü də dedi:

– Sənə qırx gün möhlət verirəm. Dediklərimi gətirməsən boynunu vurduracağam.

Yusif padşahın yanından çıxıb gəldi anasının yanına. Sənubər oğlunu yenə bikeyf görüb soruşdu:

– Oğul, yenə niyə bikeyfsən?

Yusif dedi:

– Padşah mənə əmr elədi, gərək qırx günətən gedib divlər padşahından öz-özünə işıx verən şam ağaclarıynan mərmər daşları gətirəm. Əgər gətirməsəm boynumu vurduracaq. İndi mənə izin ver gedim ora. Məni qırx gün gözlə, gəldim, gəldim, gəlmədim, bil ki, ölmüşəm.

Sənubər oğluna dua, sana eləyib yola saldı. Dedi:

– Oğul, get, yolun uğur olsun!

Balaca Yusif heybəsini doldurub başladı yol getməyə. Az getdi, çox getdi, gəlib bir bulaq başına çatdı. Bulaxda əl-üzünü yuyub bir az sərinlədi, istədi ki, ayağa durub getsin. Bir də gördü onu öz adıynan

çağırırlar. Dönüb geri baxanda, gördü bir nurani qoca[3] başında göy əmmamə, belində qurşax, əynində qara çuxa, əlində əsa, ağ saqqal bir qoca düz onun yanında dayanıb. Qoca dedi:

– Oğlum, hardan gəlib, hara gedirsən?

Yusif dedi:

– Padşah məni divlər məkanından şam ağacı gətirməyə göndərib. Əkər qırx günətən gətirə bilməsəm boynumu vurduracaq.

Nurani qoca dedi:

– Oğlum, bu vaxtatan meydanda gərdiş eləyib nər kimi nərildəyən Rüstəm Zallar[4], mənəm-mənəm deyən padşahlar qoşunnan, əsləheynən divlər məkanından şam ağacı gətirə bilməyiblər. İndi sən tək gedib neyləyə biləcəksən?

Yusif dedi:

– Ey baba, neyləyim, padşah əmridi, getməsəm öldürəcəklər, yaxşısı budu elə gedim, nə olar, olar.

Nurani qoca dedi:

– Oğul, indi ki, gedirsən, mənim nəsihətimə qulaq as. Oğul, getdiyin yer qırx ağaclıq yoldu. Qırx ağaclıq mənzil gedəndən sonra qabağına bir böyük dağ çıxacaq. Dağın təpəsində divlər məmləkətinin qoruxçusu kərə divə rast gələcəksən. Kərə div səni görən kimi nərə çəkib üstünə cumacax. Sən onunla tutaşıb güləşərsən, əgər onu yıxa bilsən, onda div sənə yalvarıb deyəcək:

– Ey bəni-insan, məni öldürmə, sənin qulun olum.

Onda sən kərə divi öldürməzsən. Onun sənə çox xeyri dəyər. Neçə ildi ki, o əsirdi. Kərə divdən keçənnən sonra, bir xeyli gedib, bir mağaraya rast olacaxsan. Mağaranın içinnən bir qara div çıxıb, əlində qılınc sənə hücum eləyəcək. Sən fürsəti fovta verməyib onu öldürərsən. Amma gərəh axırda onun başını öz qılıncıynan kəsəsən. Yoxsa təzədən dirilər. Elə ki, qara divin başını kəsdin onu bir torbaya salıb özünlə apararsan. Lap axırda divlər padşahına rast olacaqsan. Padşahın yanına girib haman başı onun qabağına atarsan. Divlər padşahı bu əhvalatı görən kimi səni yemək istəyəcək. Onda onunla da güləşib, vuruşarsan. Elə ki, onu yıxdın, başını kəsmək istəyəndə div yalvarıb deyəcək:

– Ey bəni-insan, amandı, başımı kəsmə, nə istəyirsən verim.

Onda divdən nə istəsən hamısı hazır olacaq. Amma div anasının südünə and içməmiş, onun sinəsinin üstündən durmazsan.

Qoca çuxasının altından bir qılınc çıxardıb, Yusifə verdi. Dedi:

– Oğul, al bu qılıncı belinə bağla, bu səni çox xatalardan qurtarar.

Yusif qılıncı belinə bağladı. O, başını qaldırıb yuxarı baxanda gördü qoca qeyb olub; bu işə məəttəl qaldı, başladı yol getməyə. Az getdi, çox getdi, gəlib həmən dağın dibinə çatdı. Birdə gördü dağın təpəsindən nəriltiynən, gurultuynan bir heyvərə div gəlir ki, adam baxanda az qalır bağrı çatlasın. Divin əlində bir topbuz var ağırlığı yüz batman. Bu div həmən qocanın dediyi kərə div idi. Kərə div dedi:

– Ey bəni-insan, sən bilmirsənmi bura dinlər məkanıdı? Bura quş gəlsə qanad salar, qatır gəlsə dırnaq tökər. Sən nə ürəynən gəlib buralara çıxıbsan. İndi bu saat mən sənə bir topbuz vuracağam, yapışıb yernən bərabər olacaxsan.

Yusif əvvəlki Yusif deyildi. Böyüyüb on dörd yaşında nər kimi bir pəhlivan olmuşdu. O, divə dedi:

– Ey kərə div, çox oyan-buyan eləmə, əgər hünərin varsa güləşək. Kim kimi yıxsa, o onun başını kəssin.

Kərə div razı oldu. Əvvəlcə başladılar küştü tutmağa, heç birinin gücü çatmadı. Sonra dizləriynən dırnaqlarıynan başladılar yeri kotan kimi eşməyə, yenə bir-birinə güc eləyə bilmədilər. Axırda Yusif bir nərə çəkib əl atdı kərə divin kəməndinə, qaldırıb başının üstdə üç dəfə fırladıb, yerə elə vurdu ki, yer tərpəndi. O saat sinəsinə cumub qılıncı siyirdi. Başını kəsmək istəyəndə kərə div gözünün yaşını leysan yağışı kimi töküb dedi:

– Gəl sən Allaha bax, Tanrıya bax, məni öldürmə. Neçə illərdi padşah məni əsir eləyib, buraların gözətçisi qoyub, heç yerə tərpənə bilmirəm, balalarımın gözü yoldadı. Mənim sənə çox köməyim dəyər.

Yusifin divə yazığı gəldi, başını kəsmədi.

Div Yusifdən çox razılıx elədi, bir çəngə də tükündən verib dedi:

– Harda dara düşsən bu tükü yandır, o saat hazır olacam. Nə istəsən yerinə yetirərəm.

Yusif buradan çıxıb, yol başladı getməyə. Elə bir az getmişdi, bir də gördü mağaranın içindən bir qara div çıxıb nərildiyə-nərildiyə ona sarı gəlir. Div Yusifi görən kimi dedi:

– Çoxdan idi adam ətinnən ötəri burnumun ucu göynəyirdi. Allah səni mənə yaxşı yetirdi. Yeyərəm, heç olmasa bir balaca ağzım dada gələr.

Yusif gördü yox, bu yaman zorba divdi. Odu ki, fürsəti fovtə verməyib başladı vuruşmağa. Hər ikisi qılınclarını siyirib üç gün, üç gecə

qılınc çaldılar. Gördülər qılıncdan bir şey çıxmır. Başladılar güləşməyə. Yeddi gün, yeddi gecə güləşdilər. Yusif gördü fənd işlətməsə divi öldürə bilməyəcək, odu ki, divə bir badalax vurub kəlləsi üstə yıxdı yerə, tez sinəsinin üstə çıxıb, qılıncını çəkdi boğazına. Başını bədənindən ayırıb atdı kənara. Getdi ki, başı götürsün, geri dönüb gördü qara div təzədən dirilib qalxıb ayaq üstə. Tez barmağın dişlədi ki, ay gidi, qoca dediyi düzüymüş, gərək başını öz qılıncıynan kəsəydim. Yusif təzədən cumdu qara divin üstünə. Elə bir nərə çəkdi ki, dağ-daş lərzəyə gəldi. Ya mədəd deyib qara divin arxasını vurdu yerə. Tez onun öz qılıncı ilə başını kəsib saldı torbaya. Yusifin birdən yadına düşdü ki, kərə div ona tük verib, Tez tükü yandırdı. O saat kərə div hazır oldu. Dedi:

– Qardaş, mənə görə nə qullux?

Yusif dedi:

– İstəyirəm məni aparasan divlər padşahının olduğu yerə.

Yusif qara divin başını da götürüb, mindi divin dalına, kərə div tənur eləyib, qalxdı göyün yeddi qatına. Nəriltiynən, gurultuynan uça-uça Yusifi aparıb qoydu divlər padşahının məkanında. Sonra Yusifnən öpüşüb, görüşüb geri qayıtdı. Özünə də tapşırdı:

– Bax, gördüyün imarət, divlər padşahınındı. Ora tamam tilsimdi, sehirlidi. Sən ora gedəndə hər nə görsən eşitsən tərsinə eləyərsən. Açıq qapı görsən örtərsən, örtülü qapı görsən açarsan, özü də nəbadə, nəbadə geri baxasan.

Div sözünü qurtaran kimi qalxdı havaya. Yusif kərə divdən ayrılıb gəldi qalaçanın qapısının ağzına. Gördü qapı örtülüdü, əl atıb açdı. Girdi içəri. Qabağına qırx pilləkən çıxdı. Pilləkənlərin biri qızıldan, biri gümüşdən. O, bu pilləkənlərlə yerin altına enəndə, hər tərəfdən səs gəldi: “Yusif dayan, Yusif dayan”. Yusif bu səslərə fikir verməyib qırx pilləkəni aşağı endi. Gördü qırx otaq var, hamısının qapısı açıx. Yusif otaqlardan keçdikcə hamısının qapısını örtdü. Qırxıncı otağın qapısı örtülüydü. O, onu açıb istədi içəri girsin, gördü otaqdan bir xorultu gəlir, az qalır səsdən adamın qulağı tutulsun. İstədi irəli getsin, gördü yox, yel bunu geri atır. Bir azdan sonra istədi geri getsin, gördü yox, yel bunu indi irəli çəkir. Qaldı məəttəl ki, bu nə olan işdi? Əlini gözünün üstünə qoyub bir az o üzə, bir az bu üzə baxıb gördü ki, otağın küncündə bir bədheybət div yatıb, burnu dəmirçi körüyü kimi yel buraxır. Demə nəfəs alanda Yusifi çəkirmiş, buraxanda itələyirmiş.

Yusif fikirləşdi ki, yox, bu deyəsən o divlərdən deyil, bunun yeddi başı var, hər başında yeddi buynuzu var, hər ağzında yetmiş yeddi dişi var. Div yetmiş yeddi adamın kəlləsini bir çatıya düzüb, muncux əvəzinə boğazından asmışdı. Qulaqları o qədər yekə idi ki, birini altına salmışdı, birini üstünə, burnundan tana əvəzinə on batman dəmir asılmışdır. O qədər tükləri var idi ki, elə bil meşədi. Yusif bir təhər divarın qırağıynan divin dalına keçib, istədi onu öldürsün. Sonra fikirləşdi ki, yatdığı yerdə divi öldürmək mərdlikdən deyil. Yaxşısı budu qoy oyadım, ya ona verən Allah, ya mənə verən Allah... Yusif qılıncını siyirib, soxdu divin dabanına, başladı ovub las-las ətini çıxartmağa. Div heç gözünü də açmadı. Quyruğunu tərpədib dedi:

– Ay andıra qalasan çibin, ayağımı niyə qıdıxlayırsan?

Divin quyruğu Yusifə elə dəydi ki, yeri zol durdu. Yusif bu dəfə də əl çəkmədi. O, yenə qılıncıynan divin ayağını ovdu. Div istədi çibini bu dəfə də qovsun, gözünü açıb gördü başının üstündə bir pəhlivan durub. Div əvvəlcə əllərini qaldırıb başladı gərnəşməyə. Sümükləri elə xırtıldadı ki, elə bil min illik bir çinar ağacını yerindən qopartdı. Div dedi:

– Ey bəni-insan, sən nə cürətlə bu məkana gəlib çıxıbsan? Heç ömründə div görmüsənmi? Bu saat səni bircə tikə eləyib dişimin dibinə atacağam.

Div belə deyəndə Yusif torbanın ağzını açıb, qara divin başını atdı onun qabağına, dedi:

– Niyə görməmişəm. Sənin qoruxçun kərə divi özümə qul eləmişəm, qara divin başını kəsib gətirmişəm. İndi də səni öldürməyə gəlmişəm.

Div bu sözü eşidən kimi gözləri çıxdı kəlləsinə, başladı o üzə, bu üzə gərdiş eləyib, nərə çəkməyə. Yusif qollarını çərməyib atıldı divin üstünə. Yeddi gün, yeddi gecə Yusif divlə güləşdi. Axırda gördü yox, deyəsən olmayacax, bu divə qılınc-zad kar eləmir, tamam başdan-ayağa tilsimdi. Odu ki, ora-bura baxıb başladı divin canını axtarmağa. Bir də gördü divin taxçasında bir şüşə var. Bildi ki, divin canı ordadı. Əl atıb şüşəni götürdü, yerə vurub sındırdı. Divin o saat əl-ayağı boşalıb yerə yıxıldı, şüşənin içindən bir göyərçin çıxdı. Yusif tez göyərçini tutub, istədi başını üzsün, divlər padşahı ahu zar eləyib, dedi:

– Ey bəni-insan, səni and verirəm öz ananın südünə, gəl sən o göyərçinin boğazını üzmə, mənim canım ondadı. Məndən nə istəyirsənsə əvəzində de, verim.

Yusif dedi:

– Göyərçinin boğazını üzmərəm, amma mənə iki şey verəsən, özü işıx verən şam ağacları, bir də mərmər daşları. Əgər bu şeyləri verərsənsə, ananın südünə and iç, sənə inanım.

Div anasının südünə and içəndən sonra Yusif göyərçini buraxdı. Divlər padşahı o saat əmr eləyib bütün divləri başına yığdı. Onlara tapşırdı ki, Yusif nə qədər şam ağacı, mərmər daşı istəyirsə verib, onu istədiyi yerə aparın. Kərə divi də qulluxdan azad eləyib Yusifə bağışladı. Elə həmən gün divlər Yusifin dediyi şeyləri hazır eləyib, yola düşdülər. Yusif də divlərdən birinin dalına minib, gəldi öz şəhərlərinə. Divlər bir gecənin içində həmən qəsri tikib geri qayıtdılar. Gecənin yarısı vəzirnən padşah gördülər ki, hər yer çilçıraqban olub, elə bil gün çıxıb. Padşah dedi:

– Vəzir, bu nə möcüzədi, gecənin bu vaxtında belə işıx, elə bil gün çıxıb.

Vəzir barmağını dişləyib dedi:

– Qibleyi-aləm sağ olsun, bu olsa-olsa Yusifin işi olacaq, yəqin o, özü işıx verən imarəti tikdirib qurtarıb.

Padşah o saat adam göndərib əhvalatı öyrəndi ki, bəli, Yusif doğrudan da gəlib həmin imarəti tikdirib. Adam göndərib Yusifi çağırtdırdılar. Yusif gəlib ədəb-ərkanla baş əyib dedi:

– Padşah sağ olsun, sənin əmrini yerinə yetirmişəm, imarət hazırdı. İndi gedək bax.

Vəzirlə padşah gedib imarətə baxanda ağızları açıla qaldı. Yusifin bu şücaəti padşahı heyran elədi. Amma vəzir yaman dilxor oldu. Vəzir elə oradaca padşahı bir qırağa çəkib qulağına dedi:

– Heç insafdan deyil, belə bir imarətin ola, amma içində üç bacı pərilər olmaya. Əgər o, üç bacı pəriləri də bura gətirdə bilsən, dünyada heç bir dərdin-qəmin olmaz, onlarnan keyf çəkib gün keçirərsən.

Padşah dedi:

– Vəzir, mən pəri qızlarını hardan tapa bilərəm?

Vəzir dedi:

– Şahim, bu cür gözəl bir qəsri tikdirən adam pəri qızlarını da tapıb gətirə bilər. Yusifə əmr elə gedib gətirsin. Əgər gətirmək istəməsə, boynunu vurdur.

Padşah üzünü Yusifə tutub dedi:

– Oğlum, bu imarəti ki, tikdirmisən, çox sağ ol. Amma indi gedib gərək üç bacı pəri qızlarını da bura gətirəsən. Qırx gün sənə möhlət verim. Gətirməsən, boynunu vurduracağam.

Yusif padşahın yanından çıxıb, yenə bikef evlərinə qayıtdı. Anası oğlunun sür-sifətinə baxan kimi başa düşdü ki, padşah yenə görəsən nə tapşırıb. Dedi:

– Oğul, padşah səni indi hara göndərir?

Yusif dedi:

– Padşah indi də məni üç bacı pəriləri gətirməyə göndərir. Qırx günə kimi tapıb gətirməsəm, boynumu vurduracaq. İzin ver gedim.

Sənubər oğlunun boynunu qucaxladı, üz-gözündən öpüb, xeyir-dua verib yola saldı. Özünə də dedi:

– Oğul, bil, agah ol, sənin atanı əsir eləyən həmən üç bacı pərilərdi. Əgər onları tapa bilsən, atanı onların əlindən almamış geri qayıtma.

Yusif az getdi, çox getdi, gəlib yenə həmən bulağın başına çatdı. Yenə bir az sudan içib sərinlədi. Bir də gördü həmən nurani qoca peyda oldu. Qoca dedi:

– Oğul, səfərin indi haradı?

Yusif dedi:

– İndi də üç bacı pəriləri gətirməyə gedirəm.

Qoça dedi:

– Oğul, bu yol çox qorxulu yoldu. Bura gedər-gəlməz deyirlər. Yaxşı olar qayıdasan, getməyəsən. Amma görürəm, sən bu sevdadan əl çəkən deyilsən. İndi ki, gedirsən, get, amma sözlərimə yaxşı qulaq as. Gedəndə əvvəlcə qabağına bir dərya çıxacaq. Boğulmağınnan qorxma, vur özünü suya. Bir az gedəndən sonra qabağına od-alov çıxacaq, görəcəksən hər yer od tutub yanır. Nə badə qorxub geri çəkiləsən. Gözünü yum, özünü vur odun içinə. Burdan da qurtarandan sonra qabağına o qədər ilan-çayan, çəmbərquyrux, şir, pələng, əjdaha çıxacaq ki, ayax basmağa yer tapmiyacaqsan. Hamısı ağzını açıb üstünə cumacaq. Heç qorxmazsan ha! Başını aşağı salıb, onları ayaqlaya-ayaqlaya keçib gedərsən. Bir də gözünü açıb görəcəksən ki, iki yolun ayrıcındasan. Bu yolların biri qiblə tərəfə, günçıxana, o biri də günbatana gedir. Sən gün çıxan tərəfə gedərsən. Qabağına bir bulax çıxacaq. Haman dediyin o üç bacı pərilər hər gün o bulağa çimməyə gəlirlər. Sən çalış onların donunu[5] yandır. Ondan sonra nə desən razı olacaxlar.

Yusif qocadan razılıx eləyib, başladı yol getməyə. Yeddi gün, yeddi gecə yol gedənnən sonra qabağına bir dərya çıxdı. Gördü bu dəryanın nə ucu var, nə bucağı. Özünü vurdu dəryaya, başladı suyu keçməyə. Yusif getdikcə dəryanın suyu da çəkilirdi. O, ayağını suya basdıxca, ayağının altı quruyurdu. Bir neçə gündən sonra dəryanı keçib qurtardı... İndi də qabağına od-alov çıxdı. Hara baxdısa elə gördü düz-dünya od tutub yanır. Əvvəlcə oda girməyə ürək eləmədi. Birdən qocanın sözü yadına düşdü. Gözünü yumub, özünü vurdu alovun içinə. Yusif alovun içinnən getdikcə qabağına aydınca yol çıxırdı. Bir də baxıb gördü ki, odun içindən qurtarıb. Bir az gedəndən sonra qabağına bir cəzirə çıxdı. Gördü bu cəzirədə o qədər ilan-çayan, şir, pələng, qurd, əjdaha, elə bədheybət əcayib-qərayib heyvanlar var ki, adam baxanda az qalır ciyər-öfgəsi ağzına gəlsin. Bunlar hamısı ağzını açıb Yusifin üstünə töküldülər. Yusif başını aşağı salıb, bunları heç vecinə də almadı. Başladı getməyə. Bir də gözün açıb, bir bulağa rast oldu. O saat başa düşdü ki, tilsimli yolları keçib qurtarıb. Bir az bulağın başında çörək yeyib, sudan içdi. Gördü yaman yuxusu gəlir. Fikirləşdi, yerdə yatsam gəlib qurt-quş yeyər. Bulağın başında bir dağdağan ağacı varıydı, çıxıb orda yatdı. Yusif burda yatmaqda olsun, sizə kimnən xəbər verim, üç bacı pərilərdən.

Üç bacıların kiçiyi bardağı götürüb, bulağa suya gəlmişdi. Əyilib bardağı dolduranda gördü Yusif suyun içində yatıb. Qız məəttəl qaldı, axı Yusifi evdə yata-yata qoyub gəlib. O, nə tez gəlib bu suyun içinə girdi. Tələsik evə gəlib gördü Yusif qızıl taxtın üstündə xorhaxorla yatır. Əhvalatı bacılarına söylədi. Qızların üçü də əvvəlcə gəlib evə baxdılar. Gördülər Yusif yatır. Sonra da gedib bulağa baxdılar. Gördülər Yusif doğrudan da suyun içində yatıb. Bu işə mat-məəttəl qaldılar. Böyük bacı dedi:

– Bacılı-bacılı, gəlmişkən gəlin həmi çimək, həm də Yusifi sudan çıxardax. Görək nə həngamədi?

Pəri qızları donlarını çıxardıb, girdilər suya. Şappıltıya Yusif ağacın başında yuxudan oyandı. Baxıb gördü pəri qızları suyun içindədilər. O, fürsəti fovta verməyib, tez ağacdan düşdü. Pəri qızlarının donlarını götürdü. Pəri qızları suda nə qədər Yusifi axtardılarsa tapmadılar. Sudan çıxıb, donlarını geymək istəyəndə gördülər donları yoxdu. Qızlar başladılar donlarını axtarmağa, Yusif dedi:

– Ey pəri qızları, havayı yerə axtarmayın, paltarınız məndədi. Mən gəlmişəm sizi aparmağa.

Qızlar nə qədər yalvar-yapış elədilər ki, donumuzu ver geyək; sonra hara deyirsən gedək.

Yusif dedi:

– Xeyr, keçəl suya getməz.

Qızlar gördülər ki, yalvarmaqdan bir şey çıxmır. Axırda əlacları kəsildi, dedilər:

– Oğlan, indi ki, belə oldu, sən deyən olsun, donumuzu ver, heç olmasa gedək bizə, evdə amanatımız var, onu da götürək, hara deyirsən gedək.

Elə Yusifə bu lazım idi. O, razı olub dedi:

– Onda ananızın südünə and için, sonra donlarınızı verim.

Qızlar analarının südünə and içdilər. Yusif onların donlarını verdi. Yusif üç bacı pərilərə qoşulub, getdi onların evinə. Bacılar o saat yemək hazırlayıb, süfrə saldılar. Başladılar çörək yeməyə. Yusifin dədəsi də burada idi. Amma dədə-bala hələ bir-birini tanımırdı. Dədə-oğul bir-birinə o qədər oxşayırdı ki, elə bil bir almaydı yarı bölübsən. Pərilərin böyük bacısı Yusifdən xəbər aldı:

– Ay oğlan, axı bir de görək sən kimsən, hardan gəlib, hara gedirsən?

Balaca Yusif, pəri qızlarının dədəsini aparmağınnan başlamış ta bu günə kimi başlarına gələn bütün qəzavü-qədərin hamısını bir-bir söylədi. Böyük Yusif başa düşdü ki, bu onun öz oğludu. O, oğlunu qucaxladı, üz-gözündən öpüb dedi:

– Oğul, sən mənim doğmaca balamsan.

Pəri qızları bunları belə görəndən sonra tutduxları işə peşman oldular.

Böyük bacı dedi:

– İndi hara deyirsiniz gedək.

O saat balaca Yusif divin verdiyi tükü yandırdı. Bir də gördülər kərə div nəriltiynən-gurultuynan gəlib durdu balaca Yusifin qabağında, dedi:

– Yusif, qardaşım, mənə görə nə qullux?

Yusif dedi:

– Bizi öz torpağımıza apar.

Kərə div bir nərə çəkdi. O saat hər tərəfdən divlər tökülüb gəldilər. Hərəsi bunların birini dalına alıb qalxdılar göyə. Buludların arasıynan uça-uça gəldilər Yusifin anası olan padşahın torpağına. Yusif bunları da götürüb getdi anasının yanına.

Anası uzaqdan oğlunu görüb, sevinə-sevinə yüyürdü oğlunun qabağına. Yusif dedi:

– Ana, bu yanımdakıları tanıyırsanmı?

Sənubər dedi:

– Yox ay bala, bunlar kimdi?

Balaca Yusif dedi:

– Ana, bu dədəmdi, bunlar da pəri qızları.

Sənubər diqqətnən baxıb gördü ki, doğrudan da əridi. Sevindiyindən qəşş eləyib ürəyi getdi. Hannan-hanna ayılıb ilan kimi sarmaşdı ərinin boynuna. Sənubər başına gələn bütün əhvalatı ərinə danışdı. Sonra üç bacı pərilər Sənubərin ayağına döşənib, ondan aman istədilər. Sənubər bunların günahından keçdi. Sənubər həmən gün bir məclis düzəltdi. Yedilər, içdilər, şadlıx elədilər. Sabahı günü balaca Yusif pəri qızlarını çağırıb dedi:

– Padşah məni sizi gətirmək üçün göndərmişdi. İndi durun, gedək sizi aparım. Əgər aparmasam padşah mənim boynumu vurduracaq.

Böyük bacı dedi:

– Yusif, sən bir yollux bil, agah ol, bizi aparıb padşaha versən, o sənnən əl çəkməyəcək, bu dəfə səni elə yerə göndərəcək ki, gedib qayıtmayacaqsan. Tilsimlərdə batıb qalarsan. Yaxşısı budu sən padşahı öldür.

Yusif gördü qız düz deyir. Odu ki, kərə divi divlər padşahının üstünə göndərib, ondan kömək istədi.

Aradan bir gün keçdi. Yusif bir də gördü hər yeri toz-duman basdı. Bir nərilti, gurultu qopdu ki, gəl görəsən. Baxıb gördü divlər padşahı öz qoşunlarıynan gəlir. Yusif qabağa çıxıb, divlər padşahıynan görüşdü. Divlər padşahı dedi:

– Yusif, mənə görə nə qullux?

Balaca Yusif dedi:

– Bu torpağın padşahı mənim düşmənimdi. Əmr elə qoşuna onu öldürsünlər.

Divlər o saat hücum eləyib padşahı, vəziri, vəkili parça-parça elədilər. Qoşunu tamam qırıb çatdılar. Balaca Yusif atasını padşah qoydu,

özü vəzir oldu. Üç qardaşın balacası ki, anasının yanında qalırdı, onu da vəkil elədi.

Toy tədarükü başlandı. Böyük Yusif taxta çıxandan sonra özünün, Sənubərin ata-anasının dalınca adam göndərib onları da çağırdı. Yeddi gün, yeddi gecə toy elədi. Pəri qızların kiçiyini oğlu Yusifə, ortancılını arvadına hayan olan balaca oğlana aldı.

Toydan sonra Yusif divlər padşahını öz torpağına, əmisiynən ata-anasını da öz vilayətlərinə yola salıb, təzədən Sənubərlə ömür sürüb gün keçirməyə başladı.

Göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, biri də özümün.

## MOLTANI PADŞAHI

Biri varıydı, biri yoxuydu, bir padşah varıydı. Bu padşah çox zülmkar, həm də yaman şorgöz idi. Harda bir gözəl gəlin, qız görsə ona aşiq olub tirtap yıxılarmış yerə. Tez vəzirini çağırtdırıb deyərmiş:

– Vəzir, nə olur-olsun, gərək o qızı mənə alasan.

Moltanı padşahının əcayib xasiyyətləri varıymış. Bir gün belə bir hökm veribmiş ki, hər kəs evlənsə qabaqca gərək aldığı qızı üç gün padşahın hərəmxanasında saxlasınlar, sonra evlənsin. Hər kəs bu hökmdən çıxarsa padşah onu odda yandırarmış.

Padşah çox zülmkar idi deyin öz rəiyyətindən qorxurdu. Odu ki, dağın başında möhkəm bir qala tikdirib barigahını köçürmüşdü ora. Padşahın bir barigahı var idi ki, adam baxanda ağlı gedirdi: bağı-bağçası, gülü-bülbülü, fil sümüyündən yeddi qat otaxları. Amma evinin qabağında bir təndir vardı ki, burdan həmişə alov çıxardı. Kim padşahın əmrindən çıxsa, onu həmin odun içinə atıb yandırardılar.

Bu şəhərdə Canı Yağub adlı bir çoban varıydı. Canı Yağub öz əmisi qızına uşaq vaxtından göbəkkəsmə nişanlı idi. Bu qız çox gözəl idi. Üzü on beş gecəlik ay kimi parpar parıldayırdı. Yanaxları alma kimi, qaşları, gözləri qap-qara şəvə kimi. Danışanda da adamın lap ağlını başından çıxardırdı.

Bir gün padşah şikardan qayıdırdı, yolda həmin qızı görüb bir könüldən min könülə ona aşiq oldu. Tez vəziri çağırıb dedi:

– Vəzir, o qıza aşiq olmuşam, tez bir tədbir tək, onu alım.

Vəzir dedi:

– Qibleyi-aləm, bir özünə toxtax ver, öyrənək görək kimin qızıdı, sonra işlər asandı.

Vəzir bir təhərnən padşahı şəhərə gətirdi. Vəzir çox ağıllı, ədalətli adam idi; özünün də padşahdan zəhləsi gedirdi. Odu ki, gecəynən oğlunu göndərib əhvalatı Canı Yağuba xəbər verdi. Canı Yağub elə həmən keçə qızın kəbinini kəsdirib apardı öz evinə. Bəli, səhər darğalar padşaha xəbər apardılar ki, bəs Canı Yağub sənin əmrini pozub qızı hərəmxanaya gətirməyib evlənib. Padşah o saat əmr elədi ki, çoban Canı Yağubu tutub gətirsinlər. Səhər tezdən Canı Yağubu tutub gətirdilər. Padşah cəlladlara əmr elədi ki, onu oda atıb yandırsınlar.

Hələlik Canı Yağubu burada qoyax, sizə xəbər verək qızdan. Qız çox ağıllı-kamallı idi. O bilirdi padşah Canı Yağubu öldürdüb sonra onu alacax. Odu ki, həmin gün bir az çörək götürüb evdən qaçdı. Yazıx bilmirdi ki, hara qaçsın, elə bir cığırı tutub gedirdi. O qədər getdi ki, gəlib bir meşəyə çatdı. Geçə qurt-quş yeməsin deyə çıxıb bir ağacın başında yatdı. Səhər gözünü açanda gördü başının üstündə bir zümrüd quşu dayanıb. Demə bu ağacın başı zümrüd quşunun yuvası imiş. Quş dilə gəlib dedi:

– Ey qərib qız, gəl sən heç yana getmə, elə qal burada, mənim də balalarımda gözün olsun. Sənə yaxşılığım dəyər. Nə çətin işin olsa əlac edərəm.

Qız razı olub Zümrüd quşunun yanında qaldı. Sonra başına gələn bütün əhvalatları quşa nağıl elədi.

Quş dedi:

– Ey qız, sən qırx tulux su hazırla, onlarım hamısını bağla bir-birinə. Gedib Canı Yağubu ölümnən xilas eləyəcəm.

Qız qırx tulux suyu hazır elədi. Quş tuluxları caynağına alıb başladı göynən uçmağa. O qədər getdi ki, axırda gəlib çatdı Moltanı padşahının barigahına. Bu o vaxt idi ki, cəlladlar Canı Yağubu əli-ayağı bağlı gətirib oda atırdılar. Vəzir padşahın qabağında baş əyib nə qədər yalvardısa da Canı Yağubun günahından keçmədi. Cəlladlar onu bir çuvala salıb düz odun içinə atdılar. Elə bu vaxt Zümrüd quşu göydən dimdiyiynən tuluxları bir-bir deşib hamısının suyunu boşaltdı odun üstünə. Göydən o qədər su töküldü ki, padşahın sönməz odu söndü. Hamı bu işə məəttəl qaldı. Vəzir yenə irəli yeriyib dedi:

– Qibleyi-aləm, gördünmü bu yazığın günahı yoxdu. Günahı olsaydı belə möcüzə olmazdı.

Padşah bu möcüzədən sonra Canı Yağubu öldürmədi, amma onu öz torpağından qovdu. Canı Yağub da yol başlayıb az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib çatdı həmin zümrüd quşunun yuvasına. Baxıb gördü öz əmisi qızı da buradadı, sevindiklərindən hər ikisinin gözləri yaşardı, bir-birini qucaqlayıb duz kimi yaladılar. Zümrüd Canı Yağubu da öz yanında saxladı.

Bunları burda qoyax, görək padşah necə oldu. Moltanı padşahının bir oğlu, bir də qızı var idi. Oğlu yenicə evlənmişdi, qızı hələ ərə getməmişdi. Padşahın saçına dən düşmüşdü, amma yenə şorgözlüyündən əl çəkməmişdi. İndi də oğlunun arvadına aşiq olmuşdu. Padşah tez-tez gəlinini yanına çağırıb onun başını sığallayırdı, öz arvadı nə bişmiş bişirirdisə yemirdi, deyirdi:

– Ay sənə çor dəysin, bu nədi bişirirsən? Qoy gəlinim bişirsin.

Yazıx gəlin də əvvəllər bu işdən heç nə başa düşməyib, qaynatasının sözünnən çıxmırdı. Ona hər cür bişmiş bişirirdi. Bir gün belə, beş gün belə, axırda gəlin padşahın kələyini başa düşdü. Amma qorxusundan ərinə heç nə deyə bilmədi. Qız padşahın kələyini biləndən sonra daha onun yanına getmədi. Padşah gördü nə qədər ki, oğlu sağdı, gəlinini ələ gətirə bilməyəcək. Odu ki, oğlunu öldürmək fikrinə düşdü.

Padşah vəziri çağırıb dedi:

– Vəzir, gərək oğlumun başını əkib, onun arvadını mənə alasan.

Vəzir təəccüblənib dedi:

– Padşah sağ olsun, belə də namərdlik olar? Ata da öz oğlunun arvadını alar? Nə istəyirsən elə, mən bu işə məhəl qoya bilmərəm.

Vəzirin sözləri padşaha toxundu, cin vurdu kəlləsinə, dedi:

– Vəzir, sən həmişə mənim əmrimdən boyun qaçırdırsan, bu günnən səni baş vəzirlikdən çıxardıb qoydum vəkil.

Vəzir yenə padşaha baş əyib dedi:

– Hökm sizindi, nə istəyirsiniz eləyin.

Padşahın vəkili çox kələkbaz, həm də yaltax adam idi. Özü də çoxdan istəyirdi ki, baş vəzir olsun. Padşah həmin vəkili özünə baş vəzir elədi. Köhnə vəziri də vəkilin yerinə keçirtdi. Padşah təzə vəziri yanına çağırıb əhvalatı ona söylədi. Vəzir o saat dedi:

– Qibleyi-aləm sağ olsun, bu nə çətin işdi ki, mən onu elə bu gün elərəm, sən özünü yalandan azarlılığa qoy, oğlunu yanına çağırtdır,

sonra da göndər mənim yanıma, daha dalısıynan işin olmasın. Mən onu elə yerə göndərim ki, bir də ömründə qayıtmasın.

Padşah o saat oğlunu yanına çağırtdırıb dedi:

– Oğul, yaman bərk azarlamışam, ölüm yasdığındayam, istəyirsən ki, mən yaxşı olum, get vəzirin sözünnən çıxma, o mənim dərmanımı bilir.

Oğlan atasının sözünə inanıb gəldi vəzirin yanına.

Vəzir oğlanı görən kimi onu dilə basıb dedi:

– Ey kiçik şahzadə, əgər atanın dirilməyin istəyirsənsə, gərək gedib Səməndər[1] bağının çiçəyini tapıb gətirəsən. Atan onu iyləsə o saat yaxşı olacax.

Oğlan vəzirin sözünə razı olub düz gəldi evlərinə. Əhvalatı arvadına söylədi. Qız dedi:

– Ay yazıx, atan səni qəsdən ölümə göndərir ki, gedib qayıtmayasan, sonra da məni özünə arvad eləyə, gəl sən bu səfərə getmə.

Oğlan dedi:

– Kəs səsini, utanmazın biri, mənim atama şər atma.

Oğlan sözünü deyib düşdü yola. Az getdi, çox getdi, gəlib çıxdı bir meşəyə. Baxdı ki, uzaxda bir qalaça görünür, başladı qalaçaya sarı getməyə, ha getdisə çata bilmədi. Başını qaldırıb qalaçaya baxanda elə bildi ki, budu burdadı, amma nə qədər gedirdisə qalaça ondan bir o qədər uzaxda görünürdü. Düz qırx gün, qırx gecə yol getdi, gəlib qalaçaya çata bilmədi. Demə bu qalaça tilsim imiş. Axırda yorulub meşədə bir ağacın dibində oturdu. Bir də gördü ki, çoban Canı Yağubnan nişanlısı budu burda, yanlarında da Zümrüd quşu. Canı Yağub oğlanı tanıdı, qılıncını çəkib onu öldürmək istədi. Zümrüd dilə gəlib dedi:

– Canı Yağub, ürəyindəki fikri çıxart getsin, o da sənin kimi padşahın kələyinə keçib.

Canı Yağub zümrüd quşunun sözünə baxıb qılıncını taxdı qınına. Quş dedi:

– Oğlan, hardan gəlib, hara gedirsən?

Oğlan dedi:

– Atam xəstədi, ona Səməndər bağının çiçəyini aparmağa gəlmişəm, nə qədər axtarıram, tapa bilmirəm.

Quş dedi:

– Ey cavan, gəl bu sövdadan əl çək, atan səni qəsdən ölümə göndərib.

Oğlan quşun sözünə baxmayıb dedi:

– Mən atama söz vermişəm, bu yolda öldü var, döndü yoxdu.

Quş gördü yox, bu cavan olsa da, çox mərd adamdı. Odu ki, dedi:

– Ey oğlan, Səməndər çiçəyi Şam qalasındadı, ora da tilsimlidi, sən nə qədər yaxınlaşsan, o qədər do ora səndən uzaxlaşacax. Səni ora mənnən savayı heç kim apara bilməz.

Quş qanadlarını açıb dedi:

– Otur belimdə, gözlərini də yum.

Oğlan Zümrüd quşunun qanadları arasında oturub gözlərini də yumdu. Quş göyə qalxıb üç gün, üç gecə yol getdi, aparıb oğlanı həmən qalaçanın yanında yerə qoydu dedi:

– Bax, o qapının yanındakı oxu, yayı bir ağacnan götürərsən. Qapının başında yanan şam var. Bu oxnan o şamın yanan yerini vurarsan, nə badə şamın özünü vurasan, onda yanıb kül olarsan. Özü də çalış birinci oxda vur. Əgər üç oxa şamın odunu keçirəmməsən, daş olacaxsan.

Quş tükünnən də bir çəngə qopardıb oğlana verdi ki, harda dara düşsən yandırarsan, gəlib sənə kömək edərəm.

Zümrüd quşu sözünü qurtarıb qalxdı havaya.

Oğlan Zümrüd quşu dediyi kimi bir ağacnan qapının yanından asılmış oxu, yayı götürüb qapının üsdə yanan şamı nişan aldı. Birinci oxu atanda ox şamın yanından keçdi. O saat oğlan dizinə qədər daşa döndü. İkinci oxu atanda o da şama dəymədi, oğlan qurşağa qədər daş oldu. İstədi üçüncü oxu atmasın. Bir xeyli fikirləşdi ki, mərd adam yolunnan, sözünnən dönməz, ölsəm də, qalsam da gərək şamın odunu söndürəm. Odu ki, oxu çilliyə qoyub şamın odunu nişan aldı. Oxu bu dəfə düz dəyib şamın odunu keçirdi. O saat bir nərilti, gurultu qopdu. Oğlan baxdı ki, ayağının daşları töküldü, qapı öz-özünə açıldı. Oğlan ehtiyatla içəri girdi. Gördü ki, burda quş iliyi, can dərmanı, hər nə desən var. Amma uzaxdan hər nəyə baxırsan par-par parıldayır. Gəl məni gör, dərdimdən öl deyir. Elə ki, yaxına gedirsən, adamı bürkü vurur, az qalır yansın. Dünyada nə qədər gül-çiçək varsa, hamısından burda var. Hər çiçək yeddi cür rəng verir, özü də hamısı qarın içindədi. Hara baxırsan qardı. Bağın ortasında böyük bir su hovuzu var, hovuzun qırağında qarın üstündə adam boyda gözəl bir quş yatıb ki, tükünün hərəsi min rəngə çalır. Amma bu quşun gözünnən yaş tökülür. Bağda o qədər gül-çiçək var ki, adam bilmir Səməndər çiçəyi hansıdı.

Oğlan çox yorulmuşdu, bir ağacın dibində uzanıb mürgülədi. Bir də gördü ki, iki göyərçin gəlib həmən ağaca qondu. Göyərçinlər oğlanı görüb öz-özlərinə dedilər:

– Bacılı-bacılı, bilirsənmi bu oğlan kimdi?

O biri göyərçin dedi:

– Bacılı-bacılı, bilirəm, bu, moltanı padşahının oğludu. Gəlib ki, Səməndər çiçəyi aparsın, amma bilmir ki, hansı çiçəyi dərsin.

O biri göyərçin dedi:

– Ay bacılı, gərək o oğlan o qədər gözləyə ki, Səməndər quşu od tutub yana, onun külünün içinnən bir qor kimi yumurta çıxa, o külün qırağınnan bir çiçək göyərə, o çiçək Səməndər çiçəyidi. Özü də onu köklü qopartmax olmaz, onda o adam özü də yanıb kül olar. Gərək çiçəyi elə qoparda ki, kökü yerdə qala.

Göyərçinlər sözlərini deyib uçdular. Oğlan bu sözlərin hamısını eşidirdi. Odu ki, gəlib həmin hovuzun qırağında gizləndi. Bir də gördü ki, Səməndər quşu qarın üstünnən pərvaz eləyib uçdu, göyə qalxan kimi hər yeri od tutdu, başladı yanmağa. Özünü vurdu su hovuzuna, başladı suyun içində də yanmağa, yenə sudan çıxıb qarın içinə girdi. Qar da onun odunu keçirə bilmədi. O qədər yandı ki, tamam külü çıxdı. Külün ortasında bir balaca qor işıldayırdı. Qor yavaş-yavaş böyüyüb bir yumurta oldu. Külün qırağınnan bir çiçək göyərdi. Oğlan tez yerindən qalxdı, çiçəyi elə qopartdı ki, kökü yerdə qaldı. Düz birbaş qapıdan çıxıb gəldi atasının torpağına. Getdi evlərinə, gördü arvadı yoxdu. Səməndər çiçəyini götürüb gəldi atasının yanına. Yaltax vəzir oğlanı görüb padşaha xəbər verdi ki, tez yorğan-döşəyə gir, oğlun çiçəyi gətirib gəlib. Vəzir gedib oğlanı atasının yanına gətirdi. Oğlan atasına baş əyib Səməndər çiçəyini verdi. Bir xeyli söhbətdən sonra oğlan vəzirnən çıxıb getdi. Oğlan dedi:

– Vəzir, mənim əhli-yalım evdə yoxdu, bəlkə biləsən hara gedib?

Vəzir hiyləgər dilini işə salıb dedi:

– Hal-qəziyə, sənin arvadın atana şər atıb ki, guya onu almax istəyir. Padşahın da qəzəbi tutub, onu zindana saldırıb.

Oğlan inanıb bir söz demədi.

Oğlan gedəndən sonra padşah vəziri çağırtdırıb dedi:

– Vəzir, oğlum qayıdıb gəldi, bir tədbir tök onun başını batırax.

Vəzir dedi:

– Padşah sağ olsun, bu dəfə onu elə yerə göndərim ki heç sümüyü də tapılmasın.

Vəzir padşahı öyrətdi ki, çağır oğlunu de ki, oğul sənin gətirdiyin bu çiçəyi iyləyəndə bir az yaxşı oluram. Amma hələ ayax tutub yeriyə bilmirəm. Rəmmallar deyir ki, rəml alması[2] yesən tamam cavanlaşıb sağalacaxsan. İndi mənim diriliyimi istəyirsənsə, get rəml alması tap.

Oğlan atasının sözünnən çıxmayıb razılıx verdi. Elə həmin gün yola düşüb rəml alması axtarmağa getdi. Az getdi, çox getdi, axırda yoruldu. Birdən yadına düşdü ki, ay gidi, Zümrüd quşunun qanadını yandırım, gəlib mənə kömək eləsin. Tez quşun tükünü oda tutdu, tükün iyinə Zümrüd quşu o saat gəlib dedi:

– Oğlan, mənə nə qulluq?

Oğlan dedi:

– Atam indi də məni rəml alması gətirməyə göndərib, yerini tapa bilmirəm.

Quş dedi:

– Oğlan, mən keçən dəfə də dedim, atan səni ölümə göndərir, sən inanmadın. Bu dəfə də sənə kömək eləyəcəm. Amma üçüncü dəfə atan səni öldürdəcək, çalış ələ düşmə. İndi yolun sağ tərəfiynən gedərsən, qabağına böyük bir dağ çıxacaq. Orda qoca bir abid var, ondan soruşarsan, o sənə yolunu öyrədər.

Quş sözünü deyib getdi. Oğlan başladı quşun dediyi dağa sarı getməyə. O qədər getdi ki, gəlib çatdı həmən dağa. Gördü burda bir qoca kişi var, tək-tənha ömür sürür. Oğlan qocadan rəml almasının yerini xəbər aldı. Qoca abid dedi:

– Mənim yüz yaşım var, hələ rəml almasını görməmişəm, eşitməmişəm; get, o biri dağda mənnən böyük qardaşım var, bəlkə o bildi.

Oğlan bir neçə gün təzədən yol gedib ikinci dağa çatdı. Gördü burdakı qoca lap əldən düşüb. Qocaya yaxınlaşıb ondan rəml almasının yerini soruşdu. Qoça abid dedi:

– Mənim üç yüz yaşım var, hələ rəml almasını görməmişəm, eşitməmişəm. Üçüncü dağda mənim böyük qardaşım var, onun yeddi yüz yaşı var, get onun yanına, bəlkə o bildi.

Təzədən oğlan yeddi gün, yeddi gecə yol gedib, hündür bir dağın başında qoca abidi tapdı. Bu abidin üzünə baxan ona on iki yaş verərdi. Oğlan abiddən rəml almasının yerini xəbər aldı. Abid dedi:

– Oğlan sənə üç sual verəcəm, cavab verə bilsən gedib rəml almasını gətirəcəksən. Biri budur: o nədi ki, uzaxdan hər şeyə can verir, yaxınına gedəndə onu külə döndərir?

Oğlan bütün elmləri oxuyub açarını qoymuşdu çibinə, odu ki, dedi:
– O gündü uzaxdan adama can verir, yaxına gedəndə yandırıb yaxır.
Qoca dedi:
– Bəs o nədi ki, bir ovuc içərsən can verər, içinə düşərsən öldürər?
Oğlan dedi:
– O sudu ovuc-ovuc içərsən can verər, dəryaya düşərsən öldürər.
Qoca dedi:
– Bəs o nədi ki, yavaş əsib yandırar, bərk əsəndə söndürər.
Oğlan cavab verdi:
– O yeldi, meh vuranda odu püfləyib yandırar, bərk əsəndə söndürər.
Qoca dedi:
– Oğlum, əhsən, suallarımın hamısına düz cavab verdin. İndi sən rəml alması gətirməyə layiq oğlansan.

Qoça özünün dağda bəsləyib saxladığı yel atının balasını, bir də barmağındakı üzüyün birini oğlana verib dedi:

– Al, bunları sənə bağışladım. Bu yel atı səni hər xatadan-baladan qurtarıb düz rəml dağına aparacax, yolda sənə ilan-çayan, hər nə rast olsa üzüyün qaşını tutarsan onların gözünə, hamısının gözü qamaşa-cax, sənə yol verəcəklər. Özü də rəml almasını əlinlə dərmə, bir ucu haça ağac tapıb dərərsən.

Oğlan qocanın əlinnən öpüb yola düşdü. Yel atı quş kimi uçurdu. O qədər getdilər ki, yolda qabaxlarına ilanlar, çayanlar, əjdahalar çıxıb onu öldürmək istədilər. Oğlan üzüyün qaşını bunların gözünə tutan kimi hamısının gözü qamaşıb geri çəkildi. Oğlan çox çətinliklə gedib bir dağın ətəyinə çıxdı. Gördü bura bir qoruğa oxşayır. Hər yer yam-yaşıldı. Özü də yeddi başlı bir div hər qoluna yeddi dəyirman daşı ke-çirib buraların qoruğunu çəkir. Oğlan üzüyü tez divin üzünə tutub, yel kimi atını sürdü. Div elə bildi gün düşür. Odu ki, gözünü açmadı. Oğlan bir azca da getmişdi, gördü dağın başından meyvələrin bir ətri gəlir ki, adam valeh olur. Baxdı ki, burda dünyadakı bütün meyvələrin hamısından var. Tez bir haça ağac tapıb bir alma dərdi. O saat alma ağacı dilə gəlib dedi:

– Ay haray, qoymayın məni dərdilər.
Hər yerdən səs gəldi:
– Səni kim dərdi?
Ağac dedi:
– Məni ucu haça ağac dərdi.

Cavab gəldi ki:

– Yalan demə, ağac da ağacı dərərmi?

Oğlan almanı götürüb mindi yel atına, düz gəlib çıxdı öz vilayətinə. Gördü ki, şəhərdə bir hay-küy var, nə təhər. Bir adama yaxınlaşıb soruşdu ki, bu nə səs-küydü. Dedilər ki, padşah şikardan qayıdır. Oğlan yaxınlaşıb gördü öz atasıdı. Amma oğlan özünü tanıtdırmadı. Atası evə gedən kimi almanı götürüb getdi onun yanına. Yenə vəzir oğlanı görən kimi tez özün salıb padşahın yanına dedi:

– Evin yıxılmasın, nə durubsan dur gir yerə, oğlun rəml almasını da gətirib gəlib.

Padşah o saat yorğan-döşəyə girib başladı hıqqıldamağa. Oğlan gəlib atasıynan görüşəndən sonra almanı qoydu onun qabağına.

Padşah dedi:

– Oğul, sən gedəndən heç yerimnən tərpənə bilməmişəm. Sənin yolunu gözləyirdim.

Oğlan dedi:

– Ata, niyə yalan deyirsən, bəs indicə şikardan gələn kim idi?

Padşah bu sözü eşidən kimi, oğlunu qovub dedi.

– Sən nə cürətnən mənə belə cavab qaytarırsan, itil gözümün qabağından.

Sonra da vəziri yanına çağırıb dedi:

– Vəzir, nə olur-olsun, oğlumu öldürməlisən.

Vəzir dedi:

– Şah sağ olsun, bu ki rəml almasını gətirdi, hara yollasan qayıdıb gələcək, əmr ver boynunu vurdurax ki, atasına şər atıb.

Bəli, padşah o saat əmr verdi ki, sabah oğlunun boynunu vursunlar. Padşahın köhnə vəziri əhvalatı eşidib, gecəynən özünü saldı zindanbanın yanına, padşahın möhrünü göstərib dedi:

– Padşah məni göndərdi ki, oğlunu aparım, bir-iki kəlmə sözü var desin, sonra yenə gətirəm.

Zindanban inanıb oğlanı buraxdı. Vəzir oğlanı da götürüb getdi o biri zindanbanın yanına, yenə padşahın möhrünü görsədib dedi:

– Ey zindanban, padşah deyir ki, gəlinimi gətirin yanıma, bir-iki kəlmə ona sözüm var.

Bu zindanban da sözə inanıb arvadı buraxdı. Vəzir yolda bütün əhvalatı nağıl elədi. Oğlan dedi:

– Vəzir, bəs indi nə eləyək?

Vəzir dedi:

– Oğlum, qaçıb bu vilayətdən uzaxlaş, yoxsa sabah atan sənin boynunu vurduracax.

Vəzirdən çox razılıq eləyib ondan ayrıldılar. Elə gecəynən oğlan gəlib evdən qoca abidin bağışladığı atı da götürdü, arvadını da tərkinə alıb başladı getməyə. Yolda arvad dedi:

– Yaxşı, indi biz hara gedirik?

Oğlan dedi:

– Yolumuzun üsdündə bir meşə var. Orda Zümrüd quşu olur. Atamın zülmünnən qaçanların hamısı gedib o quşa pənah gətirir. Biz də gəl gedək ora.

Qız razı oldu. Yeddi gün, yeddi gecə yol gedib çatdılar həmən yerə. Gördülər burda o qədər adam var, heç sayı-hesabı yoxdu. Quş görən kimi oğlanı tanıdı. Ər-arvad başladılar burdakı adamlara qoşulub gün keçirməyə.

Bəli, bir neçə vaxt keçdi. Padşah hər yerə adam salıb oğlunu axtartdı, amma heç bir soraq tapmadı. Bu zalım oğlu padşahın evdə aman-zaman, gözünün ağı-qarası bircə qızı qalmışdı. Qız yenicə on beş yaşına çatmışdı, qız nə qız, elə bil on beş gecəlik ay parçasıydı. Padşahın hər yerdən əli üzülüb indi də öz qızını almax xülyasına düşmüşdü. Odu ki, bir gün qızını yanına çağırıb dedi:

– Ay mənim qəşəng qızım, de görüm bir bağban gözəl bir meyvə ağacı əkə, onu on beş il becərib bəsləyə, onun hər bir əzab-əziyyətinə dözə, həmən ağac bar gətirəndə onun meyvəsini yeməyə bağbanın haqqı var, ya yox?

Qız dedi:

– Ata, həlbəttə, bağbanın öz yetirdiyi meyvələrdən yeməyə haqqı var.

Qız bu sözləri deyən kimi padşah ona afərin söyləyib dedi:

– Qızım, əhsən, indi hazırlaş bu günlərdə toyumuzu edək.

Qız bu söhbətdən heç nə başa düşməyib dedi:

– Ata, nə toy?

Padşah dedi:

– Qızım, o bağban ki deyirdim, o mənəm, sən də mənim yetirdiyim həmən meyvəsən. Səni özgəyə ərə verincə elə özüm niyə almıram.

Qız əvvəlcə elə bildi atası zarafat eləyir. Amma sonra gördü yox, işlər ayrı cürdü. Yazıx qız oradan qaça-qaça gedib çıxdı atasının bax-

çasına. Bir ağacın altında oturub başladı ağlamağa. Elə bu vaxt padşahın köhnə vəziri bağı gəzirdi. Bir də gördü ki, padşahın qızı ağacın altında təkcə oturub gözünün yaşını sel kimi axıdır. Vəzir yavaşca qıza yaxınlaşıb dedi:

– Qızım, bu nə haldı, sənə nə olub?

Qız çox çalışdı ki, dərdini deməsin, amma olmadı, vəzir əl çəkmədi. Axırda qız başına gələn əhvalatı vəzirə söylədi.

Vəzir başını silkələyib dedi:

– Qızım, sənin atan elə zalım adamdı ki, heç kimə rəhm eləməz. Əgər o deyəni eləməsən səni öldürəcək. Odu ki, gəl sən bir nökər paltarı gey, mən səni bir təhər nökər adıynan saxlayım, görək axırı hara çıxır.

Qız dedi:

– Vəzir, mən bilirəm sən çox rəhmli adamsan, məni ölüncə evində saxlarsan. Amma atam bu işi bilsə səni də mənə qatıb öldürdər. Mən sənin qanına bais olmax istəmirəm. Yaxşısı budu elə baş götürüb bu xaraba vilayətdən uzaxlaşım.

Bəli, bir xeyli götür-qoydan sonra bu qərara gəldilər ki, qız baş götürüb qaçsın. Vəzir dedi:

– Qızım, sənin atanın zülmünnən qaçanların hamısı gün çıxan tərəfdə, bir meşədə zümrüd quşu var, onun yanına gedirlər. Gəl sən də ora get, bəlkə qardaşını da orda tapdın.

Qız vəzirin sözünə razı olub elə həmin gün ayağına bir dəmir başmax geyib, əlinə bir dəmir əsa alıb paltarını dəyişib, başına da bir qoyun qarnı keçirib başladı gün çıxan tərəfə getməyə. Düz qırx gün, qırx gecə yol getdi. Dərələr aşdı, çaylar keçdi, gəlib bir meşəyə çatdı. Həm yorulmuşdu, həm də yaman susuz idi. Gördü meşədə su şırıltısı gəlir. Bir az gedib gördü qəşəng bulaxdı, suyu dumduru göz yaşı kimi. Əyilib doyunca su içdi. Bir az da meşədən dağ alması, əzgil yığıb yedi. Sonra göy otun üstündə uzanıb başladı mürgüləməyə.

Demə padşahın zülmünnən qaçanların hamısı elə bu meşədəymiş. Həmin adamlardan ikisi gəzə-gəzə atlarını sulamağa gəlirmişlər. Bulağın qırağına çatanda görürlər burda bir keçəl yatıb.

Tez keçəli oyadıb dedilər:

– Ay keçəl, hardan gəlib, hara gedirsən? Bəs qorxmursanmı bu meşədə səni qurt-quş yeyər?

Qız dedi:

– Heç, yol adamıyam, elə bu tərəfə gedirəm.

Atlılar dedilər:

– Ay keçəl, deyəsən sən Moltanı padşahının vilayətinnən gəlirsən, de görək orda nə var, nə yox?

Qız dedi:

– Mən heç o padşahın adını da eşitməmişəm.

Atlılar dedi:

– Yalan deyirsən.

Qız dedi:

– Yaxşı eləyirəm yalan deyirəm, sizə nə?

Atlıların keçələ acığı tutdu, onu zornan qabaxlarına qatıb düz gətirdilər öz məskənlərinə, öz başçılarının yanına. Qız gördü ki, onu öz qardaşının yanına gətirdilər, heç üstünü vurmadı.

Atlılar öz böyüklərinə dedilər:

– Bu keçəl yaman kələkbaz adama oxşayır, özü də bizi aldadır, hardan gəlib, hara getdiyini də düz demir. Odu ki, tutub sənin yanına gətirmişik.

Padşahın oğlu dedi:

– Ay keçəl, sən kimsən, hardan gəlib, hara gedirsən?

Qız dedi:

– Mən bir keçəl babanın biriyəm, özüm də Moltanı padşahın bir binamus oğlu var, onu axtarıram, tapıb öldürəm.

Oğlan bu sözü eşidən kimi qəzəblənib əl atdı qılınca ki, keçəli öldürsün. Keçəl dedi:

– Əl saxla, gücün mənə çatmasın, namuslu oğlansan get atanı öldür!

Qız başındakı qoyun qarnını çıxardıb atdı. Oğlan baxıb gördü bu öz bacısıdı. Tez onu qucaxlayıb alnından öpdü. Sonra dedi:

– Bacı, o nə sözüydü mənə dedin?

Qız dedi:

– Atam indi də məni almax istəyirdi, gücnən qaçıb qurtarmışam.

Oğlan bu sözləri eşidən kimi cin vurdu başına, öz-özünə dedi: "Ölmək-ölməkdi, xırıldamax nə deməkdi".

Oğlan çoban Canı Yağubu da götürüb Zümrüd quşunun yanına getdi. Əhvalatı ona söyləyib dedi:

– Ey zümrüd quşu, mən atamı öldürüb bu zülmü yer üzünnən götürmək istəyirəm. Sən nə deyirsən?

Quş dedi:

– Ey şahzadə, bu lap yaxşı fikirdi, gərək onu sən çoxdan eləyəydin. Sözümə qulaq as, bütün buradakı adamların hamısını özünnən götürüb, get atanın vilayətinə, atanın köhnə vəzirini tap, əhvalatı ona söylə, o sənə qılınc qalxan versin, sonra hücum eləyib atanı öldürərsən. Yoxsa əliboş onun qabağına getmək olmaz. Çünki onun güclü pəhlivanları, qoşunu, qılıncı-qalxanı var.

Oğlan razı olub öz qoşunuynan bacısını da götürüb yol başladı öz vilayətinə getməyə. Çox gedib az dayandılar, az gedib çox dayandılar, ta ki, gəlib çatdılar Moltanı padşahın torpağına. Şəhərin kənarında çadırları qurub başladılar gözləməyə. Oğlan paltarını dəyişib düz gəldi atasının köhnə vəzirinin yanına, özünü nişan verib tanıtdı. Çoxdan belə bir günü gözləyən vəzir gecəynən xəzinənin ağzını açıb padşahın nə ki qılıncı-qalxanı, əmudu, nizəsi varıydı, hamısını payladı adamlarına.

Bunları burada qoyax, sizə kimnən xəbər verək, padşahdan. O gecə padşah yuxuda gördü ki, bir meşənin ağacları hamısı adam olub bunun şəhərinin üstünə qaranlıx kölgə saldılar. Padşah o saat əmr elədi ki, tez bu ağacları kəssinlər. Qoşun töküldü, nə qədər axtardılar bir dənə balta tapmadılar ki, ağacları kəssinlər. Axırda padşah qılıncını çəkib ağacları özü kəsmək istədi. Elə bir ağaca endirən kimi qılıncı iki bölündü. Padşah qəzəblənib elə qışqırdı ki, öz səsinə yuxudan oyandı. Səhərə kimi qorxudan padşahın gözünə yuxu getmədi. Durub qapıya çıxdı ki, vəzirin dalınca adam göndərsin, gördü doğrudan da şəhərin qırağında bir qaranlıq var ki, lap meşəyə oxşayır. Bəli, vəzirnən vəkilin dalınca adam getdi ki, padşah sizi çağırır. Hamı tələsik yığıldı padşahın başına. Padşah yuxunu söyləyib, tədbir istədi. Hələ yuxunu yozmamış bir qasid xəbər gətirdi ki, bəs padşah sağ olsun, oğlun qoşunla gəlib səni davaya çağırır. Padşah tez əmr elədi ki, qoşun silahlansın. Nə qədər axtarırlarsa, bir dənə də qılınc-qalxan tapılmadı. Qoşun tamam qaldı əli boş. Padşah başa düşdü ki, bu, işdə köhnə baş vəzirin əli var. Odu ki, burda vəzir, orda vəzir, axtardılar, gördülər vəzir nə gəzir. Qoşun qaldı əli qoynunda. Uzaxdan padşahın oğlu gördü ki, qoşun yaraqsızdı, fikirləşdi ki, bu mərdlikdən deyil ki, əliboş, yaraxsız qoşuna hücum edəsən. Odu ki, bir adam göndərib ismarladı ki, padşah, mənim davam səninlədi, qoşunu havayı yerə qırdırma, gəl ikimiz çıxax meydana, vuruşax.

Padşah gördü ayrı əlac yoxdu, razı oldu. Bəli, padşahnan oğlu girdilər meydana. Tamam üç gün, üç gecə bir-birinə qılınc çaldılar, heç biri qalib gələ bilmədi. Hər ikisi yorulub bir tərəfə düşdülər. Padşah bilirdi ki, üzbəüz oğlunu öldürə bilməyəcək. Odu ki, hiyləyə əl atdı, qəfildən daldan oğluna qılınc vurub öldürmək istədi. Xoşbəxtlikdən oğlan bunu görüb tez qalxanı qabağa verdi. Qılınc qalxana dəyib iki bölündü. Oğlan yerindən qalxıb atasına qeyznən elə bir qılınc vurdu ki, başı yeddi ağac geri düşdü. Əhvalatı görən qoşun təslim oldu. Oğlan padşahın zalım vəzirini də öldürüb özü taxta çıxdı. Atasının köhnə baş vəzirini özünə yenidən baş vəzir, çoban Canı Yağubu da vəkil elədi. Oğlan xəzinənin ağzını açıb camaata payladı. Bacısını yanına çağırıb dedi:

– Bacı, bax, sənin intiqamını aldım, indi kimə istəyirsən gedə bilərsən.

Qız dedi:

– Qardaş, baş vəzir bizə çox yaxşılıq eləyib, onun oğlu da özü kimi ağıllı, ədalətli adamdı.

– Məsələ aydındı, – deyə qardaşı cavab verdi.

Vəzirin oğlu belə günü çoxdan gözləyirdi. Elə həmin gün toy tədarükü görüldü. Yeddi gün, yeddi gecə toy elədilər. Onlar yeyib-içib yerə keçdilər, siz də yeyin, için, xoş gün keçirin.

# BƏNİDAŞ ŞƏHƏRİNİN SİRRİ

Raviyani əxbar, nağilani asar, şirin şəkər, xoş göftar, Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan, iki qoz, bir girdəkan.

Biri varıymış, biri yoxuymuş, bir padşah varıymış. Bu padşahın varı-dövləti, cahi-cəlalı həddən aşıbmış, amma övlad üzünə həsrət imiş, nə oğlu varıymış, nə də qızı. Gecə-gündüz fikirləşirmiş ki, mən öləndən sonra yerimdə kim padşahlıx eləyəcək. Odu ki, vəzirini çağırıb dedi:

– Sənə qırx gün möhlət verirəm, hardan olur-olsun gərək mənə bir oğul tapasan, tapmasan boynunu vurduracam.

Vəzir qaldı məəttəl, bilmədi nə desin. Kor-peşman evinə qayıdıb başladı fikirləşməyə. Nə qədər elədi bir yol tapa bilmədi.

Vəzirin üç qızı varıydı. Axırda bu qərara gəldi ki, elə qızlarımın birinə oğlan paltarı geyindirim, onu aparım verim padşaha, axırı nə olar-olar. Vəzir böyük qızını yanına çağırıb dedi:

– Qızım, padşaha oğul olarsanmı?

Qız dedi:

– Ata, sən razı olsan, olaram.

Ata-bala razılaşdılar. Vəzir qızına dedi:

– Qızım, indi dur sən oğlan paltarı geyin, özü də qılıncdan-qalxandan götür yola düşək.

Qız o saat durub oğlan paltarı geyindi, belinə qılınc bağlayıb əlinə qalxan götürdü, başına dəbilqə keçirdi, başladılar ata-bala padşahın imarətinə sarı getməyə. Yolun bir tinində vəzir dedi:

– Qızım, sən burda gözlə, yadımdan çıxıb. Padşahın bir naməsi var, evdə qalıb, gedim onu gətirim, sonra gedək.

Qız razı oldu. Vəzir tez aralıx yolnan gəlib evdə paltarını dəyişdi, əlinə qılınc, qalxan alıb, üzünə niqab salıb gəldi qızının yanına, özünü tanımamazlığa qoyub dedi:

– Ey oğlan, sənin nə həddin var burda mənim yolumun üstündə dayanıbsan, bu saat səni iki parça eliyəcəm. Götür qılıncını gəl vuruşaq.

Qız atasını tanımadı. Qorxub qılıncı, qalxanı yerə atdı, başladı yalvarmağa. Vəzir üzünnən niqabı açıb özünü qızına tanıtdı. Qız başa düşdü ki, atası onu yoxlamaqdan ötəri belə eləyirmiş. Vəzir qızını evinə gətirib dedi:

– Bala, sənnən padşaha oğul çıxmaz. Amma bu sirri o biri bacılarına demə!

Vəzir bu dəfə də ortancıl qızını çağırıb dedi:

– Qızım, padşaha oğul olarsanmı?

Qız sevinə-sevinə dedi:

– Ata, niyə olmuram.

Vəzir ortancıl qızını da oğlan paltarına geyindirib qılınc, qalxan verib özüynən apardı. Yolda şəhərin kənarında, qəbiristanlığın yanında qızına dedi:

– Qızım, burda gözlə, padşahın naməsi yadımnan çıxıb evdə qalıb, gedim onu gətirim.

Qız heç bir söz demədi, başladı getməyə, elə beş-on addım getmişdi ki, vəzir gördü qızı qışqıra-qışqıra atasının dalınca gəlir. Vəzir dayanıb dedi:

– Qızım, sənə nə oldu, belə qışqırıb qaçırsan?

Qız dedi:

– Ata, mən burda tək dura bilmirəm, qorxuram, məni vəhmə basır.

Vəzir qızının qorxaqlığını görüb elə ordan düz gətirdi evlərinə, özünə də dedi:

– Bala, sənnən də padşaha oğul çıxmaz.

Vəzirin bircə ümidi kiçik qızına gəlirdi. Kiçik qızını çağırıb dedi:

– Qızım, padşaha oğul olarsanmı?

Qız dedi:

– Atayi-mehriban, səbəb nədi ki, mənə bu sözü deyirsən?

Vəzir gördü yox, kiçik qızı çox ağıllıdı, özü də hər şeyi, hər sirri bilmək istəyir. Odu ki, padşahla olan söhbətini qızına danışdı. Qız bir

xeyli fikirləşəndən sonra razı oldu. Bəli, kiçik qız da altdan geyib üstdən qıfıllandı, üstdən geyib altdan qıfıllandı. Oğlan paltarında belində qılınc, əlində qalxan, atasının yanına düşüb başladılar padşahın imarətinə sarı getməyə. Yolda yenə bir xarabalıqda vəzir dedi:

– Qızım, sən burda gözlə, mən bu saat qayıdıram.

Qız razı oldu. Vəzir tez evə gəlib paltarını dəyişdi, üzünə niqab çəkib əlinə qılınc-qalxan aldı, düz gəldi qızının yanına. Qız atasını tanımadı. Vəzir dedi:

– Ey oğlan, sən nə cürətnən mənim yolumun üstündə da yanıbsan, bu saat sənin başını bədənindən ayıraram. Onda görərsən ki, dünyada necə oğullar var.

Qız özünü itirməyib dedi:

– Ə, nə çox basıb-kəsirsən, kişisən irəli gəl, görək kim kimin başını bədəninnən ayırır.

Qız sözünü qurtarmamış qılıncını çəkib hücum elədi.

Atası gördü yox, işi əngəldi, əgər özünü tanıtmasa qızı onu öldürəcək. Odu ki, üzündən niqabı götürdü. O saat qız atasını tanıyıb dedi:

– Atayi-mehriban, bu nə işdi eləyirsən, bəlkə elə vurub səni öldürəydim.

Vəzir dedi:

– Qızım, sənin şücaətini yoxlamaq istəyirdim. Çox yaxşı oldu ki, sınaxdan çıxdın. İndi doğrudan da səndən padşah oğlu çıxar.

Vəzir qızını götürüb düz gəldi padşahın yanına, baş əyib dedi:

– Qibleyi-aləm sağ olsun, bu cavan oğlan sizə oğul olmaq istəyir, baxın görün xoşunuza gəlirmi?

Şah baxıb gördü cavan nə cavan, yemə, içmə, xətti-xalına, gül camalına tamaşa elə. Padşah vəzirə xeyli ənam verib cavanı götürdü özünə oğulluğa. Vəzirin oğlan paltarı geyinmiş qızını apardılar padşahın evinə.

Padşahın arvadı yaman soyuğ adam idi. Oğlanı görən kimi bir könüldən min könülə aşiq oldu ona. Oğlanı çağırtdırıb dedi:

– Gərək sən məni alasan, yoxsa sənin dərdinnən dəli divanə olacam.

Oğlan dedi:

– Axı sən mənim anamsan.

Arvad dedi:

– Mən ana-mana bilmirəm, gərək məni alasan, əgər almasan, səni elə yerə yolladacam, heç sümüyün də tapılmasın.

Arvad nə qədər yalvardı, hədələdisə oğlanı razı sala bilmədi ki, bilmədi. Arvad elə həmin gündən özünü vurdu azarlılığa. Üç-dörd dənə quru yuxanı kürəyinin arasına qoyub girdi yorğan-döşəyə. Ərini çağırtdırıb dedi:

– Məndən daha sənə arvad olmaz, elə azarlamışam ki, tamam sümükləriməcən xurd-xəşil olub, inanmırsan bir qulaq as, gör bədənimdə nə xışıltı var.

Arvad yerin içində arxası üstə o üzə, bu üzə çevrildikcə, yuxalar xırtaxırt əzildikcə deyirdi:

– Görürsənmi sümüklərim nə cürə xışıldayır.

Padşah arvadın kələyinə inandı, soruşdu:

– Bəs sənin dərmanın nədi, de, tapım?

Arvad dedi:

– Mənim dərmanımı bircə tapsa sənin oğlun tapacax. Göndər onu gedib Bənidaş şəhəri padşahının arvadının əlindəki çubuğu gətirsin. Mən o çubuğu əlimə alsam o saat sağalıb ayağa qalxaram.

Padşah o saat oğlunu çağırıb dedi:

– Oğul, görürsənmi anan bərk xəstədi. Gərək gedib Bənidaş şəhərinin sirrini öyrənəsən, həm də padşahın arvadının əlindəki sehirli çubuğu gətirəsən. Ananın dərmanı o çubuğdadı.

Oğlan çox fikirləşdi, götür-qoy elədi, gördü ki, ayrı əlac yoxdu. Getməsə arvad onu öldürtdürəcək. Odu ki, padşaha baş əyib dedi:

– Ey atayi-mehriban, sən məni ölümə də göndərsən gedərəm.

Bəli, oğlan geyinib-keçinib, qılınc, nizə götürüb, yol tədarükü görüb mindi ata. Ayaq üzəngidə, diz qabırğada, günə bir mənzil, teyyi-mənazil, burda aynan, günnən, orda şirin dilnən, dərələrdən sel kimi, təpələrdən yel kimi. Badeyi-sərsər kimi, gəlib çıxdı yeddi yolun ayrıcına, gördü bir qoca abid yorulub yolun qırağında bir qara daşın üstündə oturub nəfəsini dərir. Oğlan abidi görən kimi atdan düşüb salam verdi. Dedi:

– Ey abid baba, mən cavanam, yorulmaram, gəl sən min ata, hara gedirsənsə ora qoyum, sonra mən yolumnan qayıdıb gedərəm.

Abid dedi:

– Qızım, məndən narahat olma, özüm burda oqurmuşam ki, yolu azanlara yol görsədim.

Qızı təəccüb götürdü ki, bu mənim qız olduğumu nə bildi. Odu ki, dedi:

– Abid baba, mən oğlanam, bəs niyə mənə qız dedin?

Abid dedi:

– Qızım, mən hər şeyi bilirəm. Səni atan oğlan adına padşaha oğulluğa verib, padşahın arvadı da sənə aşiq olub, sən onun könlündən keçəni eləməyibsən deyin səni gedər-gəlməz səfərə göndərib. İndi bil və agah ol, sənin getdiyin şəhərdə tamam hər şey daşa dönüb. Şəhərə girəndə görəcəksən ki, ağaclar, evlər, insanlar, heyvanlar, hamısı tey daşdı. Şəhərin lap ortasında bircə adam görəcəksən. o da yarıya kimi daş, qurşaxdan yuxarı adam. Sən şəhərin sirrini bircə ondan öyrənəcəksən. O adama yaxşılıq elə. o susuzluqdan yanır, ona həftədə bircə dəfə su verirlər. Sən ona çoxlu su ver, hər sirri sənə açar. Amma şəhərə girəndə hər yerdən inilti, nərilti, gurultu, zarıltı eşidəcəksən, nə badə dönüb geri baxasan, o dəqiqə sən də daş olacaxsan, geri dönüb baxmazsan. Görəcəksən ki, şirlər, pələnglər, əjdahalar, ilanlar üstünə gəlib səni dağıtmaq istəyir. Onda da geri çəkilmə, həmişə irəli yeri, sən irəli yeridikcə onlar yoxa çəkiləcək.

Qız gördü abid yerin altını da bilir, üstünü də. Bir söz deməyib abidin əllərini öpüb, xudahafizləşib düşdü yolun ağına. Gethaget, gethaget, o qədər getdi ki, çatdı həmən Bənidaş şəhərinə. Şəhər darvazası hündür bir yerdəydi, özü də tamam taybatay idi, qız darvazadan içəri baxıb gördü ki, şəhər elə sakitdi, elə sakitdi ki, elə bil qəbiristanlıxdı. Nə bir, səs var, nə səmir. Çivin uçsa səsini eşitmək olar. Şəhərdə nə bir inni var, nə cinni. Hər nə varsa hamısı daş olub. Qız elə ki, ayağını darvazadan içəri qoydu, o dəqiqə bir hay-küy, bir gurultu qopdu, az qaldı qulağı tutulsun. Baxdı ki, hər yerdə bunu adıynan səsləyirlər. İstədi dönüb geri baxsın, birdən abidin sözləri yadına düşdü. Qız heç nəyə fikir verməyib şəhərin lap içinə girdi. Gördü ki, böyük bir imarətin qabağında yarıya qədər daş olmuş bir adam var. Ona yaxınlaşıb baş əydi, salam verdi. Gördü susuzluxdan yazığın dili-dodağı çat-çat olub, tez atdan düşüb ona su gətirdi. Bu adam suyu başına çəkib bir oxay çəkdi. Sonra dedi:

– Bala, bura neçə illərdi insan ayağı dəymir. Sən nahax gəldin, qaç canını qurtar, yoxsa səni də daşa döndərərlər.

Qız dedi:

– Mən daş olmaqdan qorxmuram, gəlmişəm buranın sirrini öyrənəm, səni də bu əzabdan qurtaram.

Yarı daşa dönmüş adam dedi:

– Ey oğlan, onda mənim qabağımdakı daşa dönmüş güllərin dalında gizlən, bir azdan sonra hündürboylu bir arvad gələcək, əlində də haça bir çubux, çubuğu həmin gül ağacına söykəyib mənə bir qab su verəcək, onda sən gül ağacının arasından onun çubuğunu oğurla, o mənə su verəndə qabı əlindən alıb yerə vuracam, arvad əyilib qabı gətirəndə tez daldan onun qollarını bərk bur, nə qədər yalvarsa buraxma, bütün daşa döndərdiyi adamların hamısını diriltsin, sonra burax. Qorxma, onun ki, çubuğunu əlinnən aldın, daha heç kimi daşa döndərə bilməz. Amma onun nəfəsində bircə qarğışı qalacax, sənə nə qarğasa o saat o olacax.

Kişi sözünü yenicə qurtarmışdı ki, bir də gördü arvad gəlir. Qız tez gizləndi. Gördü bu başdan-ayağa tamam qara geyinmiş hündürboylu adamdı. Arvad gəlib kişi deyən kimi elədi. Əlindəki çubuğu gül ağacına söykədi. Qız tez çubuğu oğurladı. Sonra yarı daşa dönmüş adama su verəndə, kişi su qabını yerə vurdu. Arvad donquldana-donquldana əyilib qabı götürmək istəyəndə qız daldan arvadın qollarını bərk-bərk burdu. Arvad nə qədər yalvardısa da qız buraxmadı, dedi:

– Əgər bu şəhərin daşa dönmüş adamlarını diriltməsən səni buraxmayacağam.

Arvad gördü yox, özündən zalımına rast gəlib, əlacı kəsildi, bir sehr oxudu, bütün daşa dönmüş adamlar dirildilər.

Qız arvadı buraxdı. Arvad geri çəkilib qarğış elədi ki, səni görüm oğlansansa dönüb qız olasan, qızsansa dönüb oğlan olasan.

Qız elə o saat dönüb oldu anadangəlmə oğlan.

Yarıya kimi daşa dönmüş adam tamam daşdan azad olub oğlana dedi:

– Bala, indi de görüm mənnən nə istəyirsən, sənə verim?

Oğlan dedi:

– Sənnən heç nə istəmirəm. Ancaq bircə bu sirri mənə deyinən görüm, bu şəhər niyə belə başdan-ayağa daşa dönmüşdü? Bunu arvad niyə eləmişdi?

Kişi dedi:

– Bala, bil və agah ol ki, mən bu şəhərin padşahı idim. Bu da mənim arvadım idi. Mənim ilxımın içində dərya atı cinsindən iki kök atım varıydı. Onları ayrıca bir tövlədə bəsləyirdim. Günlərin birində tövləyə getmişdim, baxıb gördüm atlar qan-tərin içində, özləri də

arıxlayıb çöpə dönüblər. Mehtəri çağırıb danladım ki, niyə atlara yaxşı baxmırsan? Mehtər and-aman eləyib dedi:

– Şah sağ olsun, gecə-gündüz onlara kişmiş, xurma yedizdirirəm, mənim heç bir günahım yoxdu.

Ürəyimə xof düşdü ki, bəlkə gecə atları minib ora-bura gedirlər. Qoy bir güdüm görüm bunlar niyə arıxlayır. Bir gecə mehtəri yanıma çağırıb dedim:

– Sən gəl paltarını ver mən geyim, bu gün atlara özüm baxacam, özün də heç kimin gözünə görünmə.

Mehtər ayrı paltar geyib öz köhnə şalvarını, çuxasını, papağını verdi mənə. Axşam şər qarışanda evdə arvada dedim:

– Mən bu gecə evə gəlməyəcəm, vəzirgildə yatacam.

Bu sözləri deyib düz gəldim atların yanına, qarannıxda bir küncdə gizləndim. Gecədən xeyli keçmiş bir də gördüm öz arvadım budu gəldi tövləyə, dedi:

– Mehtər, tez atları yəhərlə!

Mən o saat atları yəhərlədim. Hər ikimiz atlara minib yola düşdük. Bir xeyli getmişdik gördüm ki, hara getdiyimizi bilmirəm. Odu ki, bəhanə ilə dedim:

– Xanım, at vurub gözümə qan sağalıf, yolu əməlli görmürəm, bu dəfə qabağa sən düş, mən dalca gəlim.

Arvad razı oldu. O qabaxda, mən də dalca gedirdik. Bir xeyli gedənnən sonra bir qəbiristanlığın yanında atdan düşdük. Arvad məni atların yanında qoyub, düz getdi qəbiristanlığın içinə, bir sərdabanın ağzındakı daşı itələyib girdi içəri, mən də qarabaqara qəbirlərin dalınca onu pusurdum. Sərdabanın deşiyindən baxıb gördüm ki, içəridə bir bədheybət qul var. Arvadım həmən qulun qucağında bir keyfdədi ki, gəl görəsən. Bir istədim elə oradaca girib ikisini də qılıncnan doğrayam. Sonra fikirləşdim ki, olan olub, keçən-keçib. Qoy bu sirri tamam öyrənim, sonra ikisini də öldürərəm.

Bəli, aradan bir xeyli keçdi, arvadım qulun yanınnan çıxıb yornux-arnıx gəldi atların yanına, əlində də qəribə bir çubux. Birdən dilim dinc durmadı, dedim:

– Xanım, o nə qəşəng çubuxdu, onu hardan tapdın?

Xanım üzümə qışqırıb dedi:

– Mən sənə deməmişəm, gərək məndən heç nə soruşmayasan?

Mən tez barmağımı dişlədim ki, hə, yəqin mehtər bu əhvalatlardan xəbərdar imiş, amma mənim bu şərtdən xəbərim yox imiş. Odu ki, dedim:

– Xanım, bağışla, yadımnan çıxmışdı ki, sənnən heç bir sirri xəbər almaq olmaz.

Bu əhvalatdan sonra hər ikimiz ata minib başladıx geri qayıtmağa. Bir az gedənnən sonra mən dedim:

– Xanım, məni bağışla, atamdan mənə yadigar qalmış bir üzüyüm varıydı. Üzük barmağımnan düşüb atları saxladığım yerdə, sən yavaş-yavaş atı sür get, mən üzüyümü tapım, gəlib sənə çataram.

Xanım razı oldu. Mən qayıdıb altdan bağladığım xəncərimi çıxardıb girdim sərdabaya, qulun başını kəsib qoydum xurcunuma, düz qayıtdım arvadımın yanına. Sabah xoruz banına yaxın obaşdannıx vaxtıydı, çatdıx evimizə. Arvad getdi evə, mən də atları tövləyə bağlayıb, paltarımı dəyişib gəldim evə. Gördüm arvadım gecə geydiyi libasını hələ əyninnən çıxartmayıb. Odu ki, fürsəti fota verməyib dedim:

– Arvad, bu nə vaxtın geyimidi, bu tezlikdə hara belə hazırlaşırsan, yoxsa gedən yerin var?

Arvadım dedi:

– Hə, axşam evə gəlməmişdin deyin yaman yuxumu qarışdırmışdım, ürəyim sənin yanında qalmışdı. Dura bilmədim, geyindim ki, gedim görüm sənin başına nə iş gəlib ki, səni yuxuda görmüşəm.

Baxıb gördüm arvadımın üzündə üç-dörd yerdən ləkə var, dedim:

– Arvad, üzündəki bu ləkələr nədi?

Arvadım tez güzgüyə baxıb dedi:

– Bunu yəqin yatanda cür-cücü dişləyib, yeri qalıb.

Gördüm ki, elə-belə deməynən gecəni əhvalatı bunun boynuna qoymax olmayacax. Odu ki, dedim:

– Arvad, gecə mən də səni yuxuda görmüşəm, söyləyim qulax as.

Başladım gecəki əhvalatı bir-bir söyləməyə. Mən söylədikcə arvadım rəng verib, rəng alırdı, amma özünü elə tutmuşdu, heç elə bil bu işlərdən xəbəri yox idi. Mən yuxunu söyləyib qurtaran kimi arvad dedi:

– A kişi, sən bilmirsənmi yuxuda gördüyün şeylər həmişə tərsinə olur.

Gördüm yox, belə işlərdən bir şey çıxmayacax, durub xurcundan qara qulun başını çıxartdım, dedim:

– Bəs buna sözün nədi?

Arvadım qulun başını görən kimi tez əlini atıb gecəki çubuğu götürdü, mən xəncəri çəkib onu öldürmək istəyəndə çubuğu atdı, çubux qılçama dəydi, o saat qurşağa kimi daş olub yerimdə qaldım. Elə bu vaxt vəzirim içəri girdi. Əhvalatı ona söylədim, arvad çubuğu indi də vəzirə vurdu. Vəzir tamam daşa döndü. Bu sirri heç kim bilməsin deyə arvadım bütün şəhər camaatını daşa döndərdi. Hər gün gəlib mənə zülm eləyib, həftədə də bir dəfə su verir. Nə qədər yalvarırdım, arvad, ya məni tamam daş elə, ya da azad elə. Deyirdi ki, sən mənim sevgilimi öldürübsən, gərək sənə hər gün cəhənnəm əzabı verəm. İndi bil və agah ol, mən bu şəhərin padşahı, bu da mənim arvadımdı. Bənidaş şəhərinin sirri də sənə söylədiklərimdi.

Oğlan şahdan çox razı qalıb dedi:

– Sən ki, bu sirri mənə söylədin, əvəzində nə yaxşılıx deyirsən eləyim.

Padşah dedi:

– Elə o əlindəki çubuğu vur arvadıma, qoy boğazına kimi daşa dönsün. Ömrü boyu əzab çəksin, görsün camaata nə zülm eləyibmiş. Yaxşı deyiblər ki, nə tökərsən aşına, o da çıxar qaşığına.

Oğlan çubuxnan vuran kimi arvad boğazına kimi daşa döndü. Oğlan padşahla halallaşıb başladı öz vilayətinə getməyə. Gecə-gündüz yol gedib çatdı evlərinə. Əvvəl atasıynan görüşdü. Atası dedi:

– Qızım, işlər şuluxdu, padşah Hindistan padşahının qızını sənə nişanlayıb, özü də gözləyir ki, sən gələn kimi toyu başlasın. İndi axı sən qızsan, bu işin axırınə cür olacax. Padşah əhvalatı başa düşsə səni də, məni də öldürəcək.

Oğlan dedi:

– Ata heç keyfini pozma, daha mən qız deyiləm, sehrkar arvad məni döndərib oğlan eləyib.

Vəzir bu işdən çox şad oldu. Oğlan atasını da götürüb padşahın yanına getdi, gətirdiyi çubuğu görsədib Bənidaş şəhərinin sirrini də başdan-ayağa danışdı. Padşah oğlunu qucaxlayıb o üzünnən, bu üzünnən öpdü.

İndi sizə kimnən deyim, padşahın yalandan azarlayan arvadından. Arvad elə ki, gördü oğlu dediyi şeyləri öyrənib qayıdıb, indi də başladı ayrı kələklər düzəltməyə. Oğlan gördü yox, bu dəfə də anasının dediyi şeyləri gətirməyə getsə, işlər uzun çəkəcək. Odu ki, açıb arvadın bütün kələklərini padşaha söylədi.

Padşah dedi:

– Oğlum, mən sənə inanıram, amma gərək bu işi özüm gözümnən görəm.

Oğlan dedi:

– Ata, onda sən evdə pərdənin dalında gizlən, mən anamnan açıxca danışım, sən də qulağınla eşit.

Padşah günüzdən pərdənin dalında gizləndi. Oğlan içəri girib anasına dedi:

– Ana, düzünü de görüm, sən doğrudan xəstəsən, ya kələkdi.

Arvad dedi:

– Əşi, nə xəstəlik, mən sənə dedim, ya gərək məni alasan, ya da sənin başını batıracam.

Oğlan dedi:

– Yaxşı, mən səni alaram, amma dur get padşahın yanına, de ki, daha xəstəliyim yaxşı olub.

Arvad bu sözü eşidən kimi yerindən dik sıçrayıb özünə yetmiş yerdən sığal verdi. Qapıdan çıxmaq istəyəndə padşah pərdənin dalından çıxıb arvadı xirtdəklədi. O saat arvadı qatırın quyruğuna bağladıb dağda-daşda sürütdürdü. Arvad tamam tikə-tikə olub çəhənnəmə vasil oldu. Sonra padşah Hindistan padşahının qızını oğluna alıb qırx gün, qırx gecə toy elətdirdi. Öz tacını da başından götürüb oğlunun başına qoydu.

## NAXIRÇI

Biri var idi, biri yox idi, Allahın bəndəsi çox idi. Bir naxırçıynan arvadı var idi. Naxırçının arvadı ölüdən yaman qorxardı. Qonum-qonşularında qocadan-qoltaxdan ölən olsaydı, az qalırdı bunun bağrı çatlasın.

Arvad günlərin birində ayağın yerə diriyib dedi:

– A kişi, gəl burdan köçək elə yerə gedək ki, oralarda ölüm-itim olmasın.

Kişi dedi:

– Ay arvad, sənin başına hava gəlib nədi? heç elə yer olar ki, orda adam ölməsin? Gəl sən bu sövdadan əl çək, üzümüz-gözümüz bura öyrəşib, evimizi-eşiyimizi buraxıb hara gedək?

Arvad elə nırx deyib durdu, əl çəkmədi ki, çəkmədi. Axırda kişinin əlacı kəsildi. Hərəsi çiyninə bir xurcun salıb başladılar getməyə. Az getdilər çox dayandılar, çox getdilər az dayandılar, dağlar aşdılar, dərələr keçdilər, doyunca sulardan içdilər, gəlib bir şəhərə çıxdılar. Şəhərin hər yerini axtardılar, gördülər burda qəbiristanlıq yoxdu. Arvad dedi:

– A kişi, deyəsən elə mən axtardığım buradı. Yəqin buranın adamları ölmürlər, odu ki, qəbiristanlıqları da yoxdu, elə qalax burda.

Ər-arvad bir dəyə qurub qaldılar burda.

Ay dolandı, gün keçdi, bir gün naxırçının arvadı azarladı. Kişi də getmişdi naxıra, qonum-qonşu bildilər ki naxırçının arvadı azarlayıb. O saat çıxıb küçədə car çəkdilər. Adamlar yığılıb arvadı kəsib alışma elədilər.

Axşam naxırçı evə gələndə gördü arvad nə gəzir, heç sümükləri də qalmayıb. Başladı hay-həşir salmağa ki, kimdi mənim arvadımı öldürən? Qonşular yığılıb naxırçını məzəmmət elədilər ki:

– A kişi, sən bura təzə gəlibsən nədi, köhnə kəndə təzə nırx qoymaq istəyirsən? Bizim adətimiz belədi ki, kim azarlasa onu kəsib yeyirik.

Kişi gördü bir az çərən-pərən eləsə, bunu da kəsib yeyəcəklər, kor-peşman gedib yatdı, sabah ala-toran vaxtı daban alıb buradan qaçdı.

Naxırçı yeddi gün, yeddi gecə yol gedib çatdı bir şəhərə. İlan vuran ala çatıdan qorxan kimi kişi o saat xəbər aldı ki, burda ölünü neyləyirlər. Dedilər ki, burda ölünü basdırırlar. Naxırçı burda qalıb naxırçılıq elədi.

Kişi bir gün naxırdan qayıdıb gələndə gördü evi adamla doludu. Xəbər aldı bu nə işdi, camaat niyə bura yığılıb? Dedilər:

– Bizim yerin adəti belədi ki, kişi arvadsız olmaz, gəlmişik səni evləndirək.

Camaat ədəb-ərkanla naxırçını evləndirdilər. Ər-arvad bir müddət gün keçirib ömür sürdülər. Günlərin birində naxırçının bu arvadı da azarlayıb öldü. Camaat yığışıb gəldilər ölünü basdırmağa. Kişiyə dedilər:

– Sən də özünə qırx günlük azuqə götür, səni də aparacayıx basdırmağa.

Kişi dedi:

– Mən ölməmişəm, bəs məni niyə basdırmax istəyirsiniz?

Adamlar dedilər:

– A kişi, deyəsən sən bizim adətimizi bilmirsən? Bizim yerdə adətdi, arvad öləndə kişini də onunla bir yerdə basdırırıx.

Kişi nə qədər dava-şava elədi, gördü yox, olası deyil, odu ki, özünə qırx günlük azuqə götürüb uzandı kəcavənin içində. Bunları apardılar bir dağda mağara kimi yerə qoydular. Mağaranın qapısını bağlayıb getdilər. Naxırçı yan-yörəsinə göz gəzdirib gördü buralar tamam meyidlə, sür-sümüklə doludu. Elə qaranlıxdı ki, göz-gözü görmür. Kişi mağaranın dibindən bir zarıltı eşitdi. Bir az gedib gördü bir arvaddı. Dedi:

– Sən kimsən?

Arvad dedi:

– Mən padşahın oğluna ərə getmişdim, o öldü, məni də diridiri onunla basdırdılar bir yerə. İndi nə ölürəm ki, canım qurtara, nə də burdan çıxıb qaça bilirəm.

Kişi çaxmaq daşını çaxıb bir az qov yandırdı. Qovu püfləyə-püfləyə onun işığına mağaranın bir küncünə getdi, başladı oranı eşməyə. Eşhaeş, eşhaeş birdə gördü bir balaca deşik açıldı, deşiyi bir az da yekələndirdi. Arvadla ikisi də ilan ağzından qurbağa qurtaran kimi mağaradan çıxıb qaçdılar. O qədər yol getdilər ki, gəlib çatdılar bir vilayətə. Demə buranın adamları gecə it olarmış, günüz adam. Bir boş otaq tapıb ora girdilər. Elə ki, gecə oldu, kişi gördü küçədə-bacada bir boğuşma var, bir didişmə var ki, qulaxlar tutulur. Naxırçı bayıra çıxdı ki, görsün bu nə hay-küydü, gördü düz-dünya dönüb itə, bu onu qapır, o bunu. Bir-ikisi də naxırçının üstünə düşüb pal-paltarını cırıxcırıx elədilər. Kişi bir təhər özünü içəri salıb qapını bağladı. Gecəni bir təhər burda qaldılar. Sabah xoruz banından qabax durub gəldilər öz vilayətlərinə. Burda ədəb-ərkanla arvad naxırçıya ərə getdi.

Ər-arvad şad-xürrəm dolanıb, gün keçirirdilər. Günlərin bir günü kişi dedi:

– Arvad, gəlsənə bir müddət gedim bir özgə vilayətə bir az puldan-zaddan qazanım, kasıbçılığın daşın atax getsin.

Arvad razı oldu, ərinin heybəsinə bir az pendirdən-çörəkdən qoyub yola saldı. Kişi gedəndə dedi:

– Arvad, mən gələnətən abır-həyaynan dolanarsan. Əgər adına bir söz desələr qayıdıb gələndə yekə tikəni qulağın boyda doğrayacam ha!

Arvad and-aman elədi:

– A kişi, elə də iş olar? Əgər məndən bir pis iş eşitsən, tikə-tikə doğrayarsan, onda qanım halaldı.

Kişi gedəndən sonra qeybdən bu arvadın yanına üç gün hər dəfə bir adam gəldi. Adamlar gecə-gündüz arvadı dəngəsər elədilər ki, yoldan çıxartsınlar. Bu adamların fikri oydu görək arvad əhdinə düzmü çıxacaq. Elə ki, gördülər arvad mərd adamdı, ağlına, namusuna söz yoxdu, çıxıb getdilər. O gündən sonra qeybdən ona hər gecə bir qızıl göndərdilər. Arvad yatardı, sabah yuxudan duranda mütəkkəsinin altını qaldırıb görərdi ki, bir qızıl var. Arvad bu qızıllarnan bərli-bəzəkli bir ev tikdirdi ki, adam baxanda ağlı heyran qaldı.

Ay dolandı, il keçdi, naxırçı qayıdıb gəldi. Öz ev-eşiyinə baxıb məəttəl qaldı. Arvadından xəbər aldı ki, bu nə həngamədi, sən bunu

nəynən tikdirdin? Arvad əhvalatı söylədi. Kişi gah bu işə inandı, gah da xofa düşdü.

Bir gün kişi bazara getdiyi yerdə qabağına bir küp qarısı çıxdı. Kişi gördü ki, bu qarı bir yazığın biridi, bel əyilib, diş tökülüb, üz qırışıb, tumanı cırıx, başmağı yırtıx. Kişi qarını götürüb gətirdi evə. Arvadına tapşırdı ki, qarıya bir az çörəkdən-çaydan versin.

Qarı bir altdan yuxarı baxıb gördü burda bir cah-cəlal var ki, adam heyran qalır. Qarı yağlı dilini işə salıb dedi:

– Ay nənən sənin qadanı alsın, sən nə yaxşı qızsan, gözəllik desən səndə, ağıl desən səndə, ev-eşik desən səndə, daha nə dərdin var?

Qarı arvadın o qədər qılığına girdi ki, durub gedəndə arvad dedi:

– Ay qarı nənə, mən də evdə hərdən yaman darıxıram, sən Allah bizə tez-tez gəl, sənin sözün-söhbətin yaman xoşuma gəldi.

Qarının kürkünə birə düşmüşdü ki, ay gidi, bu kasıb naxırçının biriydi, bu cah-cəlalı hardan düzəldib, yəqin burda bir iş var, ölsəm də, qalsam da, gərək bu sirri öyrənəm.

Qarı bir əlinə əsa, bir əlinə də təsbeh alıb naxırçı evdən çıxanda getdi onlara. Naxırçının arvadı qarının altına döşək, böyrünə mütəkkə qoydu. Qarı bir az söhbətdən sonra dedi:

– A qızım, qarı nənən sənin ağrını alsın, demək ayıb olmasın, bu cahi-cəlalı hardan düzəldibsən?

Qarı arvadın qılığına girmişdi. Arvad da açıb hamısını söylədi.

Qarının könlündən keçirdi ki, bu qızıllardan ona da versinlər. Gördü yox, qızıl-zad verən olmadı. Ürəyində dedi: "Yaxşı, gör sənin başına nə iş gətirəcəm".

Qarı durub evdən çıxanda yolda naxırçıya rast gəldi.

Naxırçı dedi:

– Qarı nənə, evimiz-eşiyimiz xoşuna gəlirmi?

Qarı dedi:

– Oğul, mənim də başımın altına cavan oğlanlar gecədə bir qızıl qoysalar ondan da yaxşı evim olar.

Bu söz kişini yaman tutdu, dedi:

– Ay qarı nənə, nə oğlan, nə zad, bəs arvadım sənə demədi qeybdən hər gecə ona bir qızıl gəlir.

Qarı dedi:

– Ə, sən lap uşaqsan, adama da qeybdən qızıl gələr? Bəs elədi, niyə mənə də gəlmir?

Qarının fitnə-fəsadından sonra kişi düz gəldi evinə, arvadını qabağına salıb apardı bir quru dərəyə. Xəncəri sinəsinə soxub öldürdü, meyidi orda qoyub qayıtdı evə.

Bəli, kişi arvadını öldürüb getməkdə olsun, görək sonra nə oldu. Elə bu vaxt quru dərənin yanından bir tacirin dəvə karvanı keçirdi. Tacir baxıb gördü dərənin dibinnən bir su axır dumduru göz yaşı kimi, elə bil lap abi-kövsərdi. Tacir məəttəl qaldı ki, görəsən bu nə möcüzədi? Buralarda dodağa sürtməyə bir damcı su tapılmazdı, bəs indi bu su hardan gəlib?

Tacirin xurcununda üç-dörd dənə quru balıx varıydı. Tacir nökərlərə dedi:

– Ay uşaxlar, o quru balıxları bu suda təmiz suya çəkin gətirin yeyək.

Nökərlər balığı suya salan kimi hamısı dirildi, başladılar su yuxarı qaçmağa. Tacir bu işə lap məəttəl qaldı. Başladılar çay yuxarı balığın dalınca getməyə. Gethaget, gedib gördülər bu su bir gözəl arvad xaylağının sinəsinnən gəlir, özü də arvadın sinəsinə xəncər soxub öldürüblər. Tacir xəncəri çəkib çıxardan kimi arvad dirildi. Tacir nə qədər eləyirsə bu sirri öyrənsin, arvad heç nə demir.

Arvad bunlara qoşulub karvanın yanınca getdi. Yolda tacir arvaddan əl çəkmədi ki, gərək mənə gedəsən. Arvad tacirin əl çəkməyəcəyini görüb şəhərin girəcəyində kişini aldadıb qaçdı. Yolda bir qoca kişiyə rast gəldi. Gördü ki, qocanın iki yetimi var, onları da başına yığıb düzün ortasında ocax qalayıb isinirlər. Qız dedi:

– Ey qoca əmi, mənim heç kimim yoxdu, yolu azıb qalmışam tək, ya məni qızlığa götür, ya da yatmağa bir yer ver.

Qoca dedi:

– Mən belə bir adam göydə axtarırdım, yerdə əlimə düşüb, gəl elə sən mənim qızım ol, bu yetimlərə də bax, mənə də kömək elə.

Qız razı oldu. Qaldı qocanın yanında. Axşam oldu, yatmax vaxtı gələndə qız dedi:

– Ay dədəlik, bəs biz harda yatacayıx? Burda ev-eşik izi görükmür?

Qoca dedi:

– A qızım, bizim evimiz olsa burda nə gəzirdik, indi durub bu saat bir dəyə quracam, hamımız doluşub içində yatarıx.

Kişi bir dəyə qurdu, hamısı dəyəyə girib yatdılar. Sabah açılan kimi qız durub başının altındakı bir qızılı kişiyə verib dedi:

– Bunu aparıb mənə bir dəst oğlan paltarı alarsan, özü də heç kimə deməzsən ki, mən qızam.

Qoca gedib bazardan bir dəst oğlan paltarı aldı. Qız paltarı geydi. O gündən hamı onu oğlan bildi.

Bu qalmağnan arvad düz qırx gün qaldı qocanın yanında. Hər gecə qızın başının altında bir qızıl peyda olurdu. Qız bu qızılların hamısını atalığına verib dedi:

– Ey atalığım, bu pullara burda bir yaxşı imarət tikdir.

Qoca qırx günün içində elə bir imarət tikdirdi ki, elə bil padşah evidi. Ev tikiləndən sonra hamısı ora köçüb keyf-damağnan günlərini keçirirdilər.

Bir gün hava çox istiydi, axşamüstü hamısı məhlədə uzanmışdılar. Birdən qoca dedi:

– Durun gedək evdə yatax, indicə yağış yağacax.

Qız dedi:

– Nədən bilirsən ki, yağış yağacax?

Qoca dedi:

– Qızım, mən yerin altını da bilirəm, üstünü də. Mən ulduzlara baxıb gələn il nə olacax onu da deyə bilərəm.

Qız dedi:

– Yaxşı, onda de görüm gələn il nə olacax?

Qoca dedi:

– Gələn il qıtlıx, qəhətlik olacax.

Qocanın söz ağzınnan qurtarmamış bir yağış yağdı ki, lap ucunnan tut göyə çıx. Tez durub hamısı evə doluşdular.

Qız elə həmin günün sabahı hər yerə car çəkdirdi ki, kimin nə qədər buğdası varsa gətirib artıx qiymətə satsın mənə. Camaat bu sözü eşidən kimi taxıllarını gətirib baha qiymətə qıza satdılar. Qız taxılların hamısını alıb doldurdu anbarlara.

Aradan bir il keçdi. Qocanın dediyi düz çıxdı. Şəhərdə bir aclıq oldu, bir aclıq oldu ki, az qalırdı adam adam əti yesin. O saat qız şəhərə adam saldırıb car çəkdirdi ki, gəlin filan yerə, ucuz qiymətə buğda satıram, hər yerdən adamlar qarışqa kimi axıb gəldilər. Qız adamların çoxuna taxılı müfdə verib yola salırdı.

Qız baxıb gördü ki, köhnə əri naxırçı, xəncəri sinəsindən çıxardan tacir də bu gələnnərin içindədi. Arvad oğlan paltarındaydı, onu tanı-

madılar. Arvad hamıya buğda verib yola salannan sonra tacirnən naxırçını evinə apardı, özlərinə də dedi ki:

– Bu gecə mənə qonaxsınız.

Kişilər razı oldular. Axşam qız bunlara bir yaxşı qonaxlıq elədi. Çörək, xörək yeyilib qurtarandan sonra dedi:

– Qonax qardaşlar, mən görürəm ki, gecə uzun, vaxt da çoxdu, gəlsənə bir az söhbət eləyəsiniz, qulax asax?

Naxırçı dedi:

– Lap yaxşı olar.

Tacir dedi:

– Onda nədən başlayax?

Arvad dedi:

– Elə hərə öz başına gələn əhvalatdan birini danışsa yaxşıdır.

Əvvəlcə naxırçı arvadıynan evlənib axırda onu öldürməyinnən danışdı. Sonra tacir, həmən arvadın sinəsinnən xəncəri çəkib çıxartdığını, arvadın sonra qaçmağını söylədi.

Arvad dedi:

– İndi o qızı görsəniz tanıyarsınızmı?

Kişilərin ikisi də dedi ki, tanıyarıx.

Arvad keçib o biri evdə paltarını dəyişib gəldi bunların yanına. Naxırçıynan tacir qaldılar mat-məəttəl. Əvvəlcə öz gözlərinə inanmadılar, sonra gördülər elə bu həmən arvadın özüdü.

Arvad bütün başına gələn əhvalatların hamısını bir-bir söylədi. Naxırçı elədiyi işə peşiman olub başını saldı aşağı.

Arvad tacirə çoxlu buğda bağışlayıb yola saldı. Təzədən kəbin kəsdirib, toy eləyib naxırçıya ərə getdi. Öz vilayətlərinə gedib, ömür sürüb gün keçirdilər.

## LOĞMAN

Biri varıydı, biri yoxuydu, bir zalım padşah varıydı. Camaata o qədər zülm eləmişdi ki, hamı gecə-gündüz ona qarğış eləyirdi. Camaat o qədər qarğamışdı ki, padşah azara düşmüşdü, rəngi sapsarı, ölü rənginə oxşayırdı, üzü-gözü yupyumru şiş tökmüşdü, qarnında xərçəng peyda olmuşdu. Dünyada nə qədər həkim-təbib varıydı, hamısı gəlib baxmışdı, amma heç biri yaxşı eləyə bilməmişdi. Padşah gələn həkimlərin hamısıynan şərt bağlamışdı ki, əgər onu yaxşı eləsələr çoxlu ənam alacaxlar, yox, yaxşı eləyə bilməsələr onda boyunları vurulacax. Nə qədər həkim gəlirdisə, padşahın dərdinə əlac eləyə bilmirdi. Cəlladlar o saat həmin həkimlərin boynunu vururdular. Padşah o qədər həkim öldürtdürmüşdü ki, yekə bir qəbiristanlıx düzəlmişdi. Axırda xəbər gedib Loğmana çatdı ki, nə durubsan, dünyada həkim qalmadı, padşah hamısını qırıb tərk elədi. Loğman soraxlaşa-soraxlaşa düz gəldi padşahın yanına. Padşahnan şərt bağlayıb işə başladı. Loğman dedi:

– Şah sağ olsun, sənin qarnında xərçəng var. Mən səni sağaldaram, amma gərək oğlunun öldürülməsinə icazə verəsən. Sənin dərmanın oğlunun qanıdı.

Padşah bu sözü eşidən kimi az qaldı dəli olsun, gözləri çıxdı kəlləsinə. Dedi:

– Gözümün ağı-qarası bircə oğlum var, mən bu işə necə razı ola bilərəm?

Loğman dedi:

– Özün bil, razı olmazsan çıxıb gedərəm.

Padşah razı olmadı ki, olmadı. Loğman vəziri, vəkili bir tərəfə çəkib dedi:

– Mən yalandan belə deyirəm. Oğlanın başını kəsməyəcəm, onun əvəzinə bir qoyun başı kəsəcəm. Bu haqda nəbadə padşaha bir söz deyəsiniz ha, onda onu sağaltmaq olmaz. İndi siz gedin padşahı bu işə razı salın ki, oğlunun başını kəsməyə icazə versin.

Loğmanın bu sözünnən sonra vəzir, vəkil padşaha yalvar-yapış elədilər:

– Qibleyi-aləm sağ olsun, sən gəl taxtı-tacı buraxıb camaatı başsız qoyma. Bir oğul nədi ki, bu cahi-cəlalı ona verirsən. Evlənərsən, təzədən övladın olar. Sən gəl razı ol.

Hərə bir tərəfdən yalvar-yapış eləyib padşahı razı saldılar. Loğman oğlanı gətirib atasının gözünün qabağında əl-ayağını bağladıb yıxdı yerə, əlinə pıçağı alıb oğlana sarı getdi ki, guya başını kəsir. Padşah qışqırıb dedi:

– Heç olmasa oğlumun başını gözümün qabağında kəsməyin.

Loğman dedi:

– Padşah sağ olsun, ayrı cür yolu yoxdu, gərək belə ola. İndi ki, görmək istəmirsən, onda aralığa bir pərdə tutaq.

Gətirib padşahnan oğlunun arasına pərdə tutdular. Loğman bilirdi ki, iş belə olacax, odu ki, oğlana göz vurub dedi:

– Dostum, indi tez bura bir qoyun gətirt, mən qoyunun başını kəsdikcə sən başla səs-küy salıb xırıldamağa, qoy atan elə bilsin ki, sənin başını kəsirəm.

O saat qoyun hazır oldu. Loğman başladı pərdənin dalında qoyunun başını kəsməyə, oğlan da xırhaxır salmışdı. Padşahın yanında da vəzir, vəkil onu bir təhər sakit eləyirdilər. Loğman kəsdiyi qoyunun qanınnan bir kasa doldurub padşahın hüzuruna apardı, dedi:

– Əgər sağalmaq istəyirsənsə, al bu qanı iç.

Padşah nə qədər elədi içə bilmədi. Axırda Loğman barmaxlarını qana batırıb padşahın üzünə çilədi. Padşah o saat qusdu. Ağzınnan bir yekə xərçəng düşdü. Loğman dedi:

– Ey padşah, daha canın qurtardı, bu günnən sən oldun sapbasağ.

Sonra Loğman pərdəni açıb padşahın oğlunu özünə görsətdi. Padşah gördü oğlu budu gülür. başa düşdü ki, kəsilən qoyunun başı imiş. Padşah dedi:

– Loğman, bu nə sirridi sən elədin?

Loğman dedi:

– Sənin dərmanın təkcə bu idi, əgər belə eləməsəm səni sağalda bilməzdim.

Hamı Loğmana afərin deyib dua elədi. Padşah ona çoxlu xələt verdi. Vəzirnən vəkil də Loğmanın ayağına düşüb dedilər:

– Ey Həkimi-Loğman, bizim də dərdimizə əlac elə.

Loğman dedi:

– Sizin dərdiniz nədi?

Vəzir dedi:

– Mənim başımda qurt var, həmişə ağrıyır.

Vəkil də dedi:

– Mənim də beynimdə qurbağa var, elə hey quruldayır.

Loğman dedi:

– Vəzir, sən düz deyirsən, başında qurt var. Amma vəkil yalan deyir, fikrinə gətirir ki, beynimdə qurbağa var, elə bilir ki, doğrudan da var. Beyində qurbağa olmaz.

Qərəz, Loğman bunların hər ikisini hamama aparıb dedi:

– Mən sizə burda müalicə edəcəm.

Əvvəlcə vəkilə bir az bihuşdarı verib onu yuxulatdı. Sonra başının dərisinnən bir balaca çərtib qan çıxardı. Bir boşqaba da bir qurbağa ölüsü qoyub üstünü də qana batırdı. Sonra vəkilin başını bərk-bərk sarıyıb ayıltdı. Vəkil baxıb gördü ki, başı sarıxlı, qabağında da qanlı bir qurbağa balası. Elə bildi ki, bunu onun başınnan çıxardıblar. Odu ki, dedi:

– Ay Loğman, sənin əlinə qurban olum, nə yaxşı eləyib qurbağanı başımnan çıxartdın, indi tamam rahatlandım.

Vəzir bu əhvalatların hamısını görürdü. Elə bilirdi ki, onunku da belə asanlıqla keçəcək.

Loğman vəziri qabağında oturdub bihuşdarı verəndə vəzir dedi:

– Həkim, neyləyirsən bihuşdarı verirsən, burda nə var ki. Mən elə-belə də dözərəm.

Loğman başa düşdü ki, vəzir yuxarıdan baxırmış, odu ki, mən elə-belə də dözərəm.

– Hə, elə sən düz deyirsən, burda nə çətin iş var ki, sənə bihuşdarı verim.

Bəli, Loğman vəzirin kəlləsini çəkic-kəlbətinlə tamam iki yerə ayırdı, gördü beynində yekə bir qurt var. İstədi maqqaşnan qurdu götürsün. Birdən hamamın bacasından Loğmanın şagirdi qışqırıb dedi:

– Usta, maqqaşı isit, sonra qurdu götür.

Loğman gördü ki, şagirdi yuxarıdan xəlvətcə baxır, tez maqqaşı qaynar suda bərk qızdırdı, qurdun başınnan tutub kənara atdı. Sonra xəstənin başını yenə bitişdirib bərk sarıdı. O günnən vəzirin də başının ağrısı tamam kəsdi. Loğman hamamnan çıxanda şagirdini çağırıb dedi:

– Bala, de görüm sən niyə dedin ki, usta, maqqaşı qızdır?

Şagird dedi:

– Usta, mən gördüm ki, qurdun çoxlu əl-ayağı var. Sən soyux maqqaşnan qurdu götürəndə o əl-ayağıynan beyindən bərk-bərk yapışacaqdı ki, onu qopartmasınlar. Beyin də zərif bir şey olduğunnan zədələnə bilərdi. Amma isti maqqaş qurda dəyən kimi onun bədənini yandıracaqdı, o saat qurdun əl-ayağı boşalıb heç yerdən tuta bilməyəcəkdi, sən də asanlıqla onu götürəcəydin.

Loğman dedi:

– Əhsən oğlum, mən bilirəm ki, sən çox ağıllı həkim olacaxsan.

Bu işdən sonra Loğmanın şücəti hər yerə yayılmışdı. Odu ki, canıbaşı ağrıyan qaçıb gəlirdi onun yanına. Loğman bütün xəstələri düzürdü yanına, bir-bir üzlərinə baxıb hamısının dərdini deyirdi. Bir gün Loğman otuz doqquz xəstənin hamısının dərdinin dərmanını tapdı, amma birinin üzünə baxıb dedi:

– Oğul, sənin dərmanın məndə yoxdu, get özünə çarə tap.

Kişi kor-peşman qayıdıb evinə, arvadına dedi:

– Arvad, mənim dərdim gör necədi ki, Loğman da ona çarə eləyə bilmədi, baş götürüb gedirəm, harda öləm-öləm.

Arvadı nə qədər yalvar-yapış elədi ki, getmə, kişi razı olmadı. Baş götürüb getdi. Az getdi, çox dayandı, çox getdi, az dayandı, dağlar aşdı, təpələr keçdi, gəlib bir düzəngaha çıxdı. Gördü acınnan qılçalarında taqət yoxdu ki, getsin. Göydən yağış elə tökürdü ki, sel kimi. Göy guruldadı, ildırım çaxdı, birdən-birə şaqqıltı qopdu, yekə bir qoz ağacının başına ildırım düşdü. Ağaç o saat yanıb külə döndü. Ağacın başınnan yerə ildırım vurmuş bir göy qarğa düşdü. Taqətdən düşmüş xəstə acından dayana bilməyib ölü qarğanı yedi. Qarğanı yeyəndən sonra kişi gördü ki, gözünə bir az işıx gəldi. Başladı yenə yol getməyə, yolda bu dəfə də bir çobana rast gəldi. Aclıx kişini əldən salmışdı. Çobandan bir az süd istədi. Çoban südü sağmağa qab tapmadı. Gördü ki, yerdə bir qırıx kəllə sümüyü var, südü ona sağıb verdi. Xəstə canını dişinə tutub bir təhər bu südün yarısını içdi. Qabın içində bir az süd

qalmışdı. Onu da qırağa qoydu ki, əlacsız qalsa onu da içsin. Elə yenicə kəlləni yerə qoymuşdu, bir də gördü ki, bir qara ilan gəlib südün qalanını içdi, sonra da hamısını təzədən kəllənin içinə qusdu. İlan süd-nən bərabər yamyaşıl zəhərini də tökmüşdü. Kişi bu əhvalatı gözüynən görmüşdü. Öz-özünə dedi: "Mənim ki dərdimə dərman yoxdu, ölüb gedəcəyəm, qoy elə bu zəhərli südü içim, bir yolluq canım qurtarsın". Bu fikirnən südü çəkdi başına. Ha gözlədi, gördü ölmür. Ayağa qalxıb gördü xəstəliyi tamam gedib, lap anadangəlmə olub. Düz gəldi Loğmanın yanına, dedi:

– Loğman, sən deyirdin ki, mənim dərmanım yoxdu, bəs necə oldu ki, mən sağaldım?

Loğman dedi:

– Qardaş, mən hardan alaydım ildırım vurmuş göy qarğanın ətiynən qara qulun kəlləsindəki südün içinə qusmuş ilan zəhərini ki, sənə verə idim? Bunlar sənin dərmanın idi.

Kişi Loğmandan bu sözləri eşidəndə lap mat qaldı, doğrudan da onun böyük həkim olduğunu gördü. Kişi Loğmanla qardaş olub onun yanında qaldı.

Loğman çox qocalmışdı, daha tez-tez xəstələrin evinə gedə bilmirdi. Kimin xəstəsi olsaydı onu gəlməyə də qoymurdu ki, birdən yolda soyux-zad dəyər. Odu ki, evdəki xəstənin nəbzinə bir ip bağladıb bir ucunu öz olduğu yerə gətirdərdi. Əvvəlcə ipi qulağına tutub, sonra da bir o yana, bir bu yana oynadıb xəstənin dərmanını deyərdi.

Bu şəhərdə bir ayrı da həkim var idi. Bu həkim Loğmanı yoxlamaxdan ötəri camaatı öyrətdi ki, mən bir kələk işlədəcəm, əgər Loğman onu başa düşsə, doğrudan da çox böyük həkimdi, yox, başa düşməsə, onu şəhərdən qovub biabır eləyərik. Camaat sözbir olub küçədən yenicə beş bala doğmuş taqətsiz, arıx bir pişik tutdular. Pişiyin ayağına bir ip bağlayıb ipin o biri ucunu da apardılar Loğmana.

– Həkim, de görək bizim xəstəmizin dərmanı nədi?

Loğman kəndiri qulağına tutub bir az oyana, bu yana tərpədib dedi:

– Bu xəstə yenicə beş bala doğub, özü də acınnan taqətdən düşüb, ona bir neçə siçan tutub yedirtmək lazımdı.

Camaat bu sözü eşitcək Loğmanın ağlına heyran qaldı, onun həkimlər həkimi olduğunu bir daha təsdiq etdilər.

Camaatla gələn həkim gördü ki, Loğmanın hörməti bir idisə, innən belə on qat artacax. Paxıllıx ona güc elədi. Həkim dedi:

– Loğman, mən də sənin kimi həkiməm, özü də elə dərmanlarım var ki, onların səndə heç biri də yoxdu, amma camaat hamısı bir balaca başı ağrıyanda qaçıb sənin yanına gəlir. İnnən belə heç mənim adımı da çəkən olmayacax. Bir şəhərdə iki həkim olmaz. Bir də ki, iki qoçun başı bir qazanda qaynamaz. Ya bu şəhərdə sən qal, ya da mən.

Loğman buna bir altdan-yuxarı baxıb dedi:

– Ey həkim, fikrini bir azca açıx de, görüm nə istəyirsən?

Həkim dedi:

– Loğman, gəl şərtləşək, ikimiz də zəhərli dərman hazırlayax. Mənim dərmanımı sən iç, səninkini də mən. Kimin dərmanı güclü olsa, o biri öləcək. İkimizdən birimiz qalarıx.

Loğman bu şərtə razı oldu. Hər ikisi çəkilib öz evlərinə getdilər. Həkim kişi evinə gedən kimi yeddi-səkkiz dərmanı bir-birinə qatıb elə bir zəhər hazırladı ki, daşın üstünə tökəndə daş yeddi yerdən parçalandı.

Həkimi qoyax evdə, görək Loğman neylədi? Loğman davacat otağına gedib, bir həvəngdəstə götürdü, içinə bir parça keçə qırığı salıb başladı döyməyə. Loğman həvəngdəstədə keçə qırığını o qədər döyəclədi ki, bir də gördü sabah açılır. Bu tərəfdən də həkimin ürəyi dayanmadı ki, gedim görüm Loğman nə elədi. Həkim yavaş-yavaş qapıya yaxınlaşıb başladı qulaq asmağa. Gördü elə Loğman həvəngdəstədə dərman döyəcləyir. Öz-özünə fikirləşdi ki, ey dili-qafil, mənim dərmanım bir saatın içində düzəldi. Amma Loğman dünənnən çalışır, hələ qurtarmayıb. Gör bunun dərmanı nə qədər güclü olacax. Həkimin qorxudan ürəyi partladı, tappıltıynan yerə yıxılıb öldü. Tappıltıya Loğman eşiyə çıxdı, gördü ki, həkim ölüb. Əhvalatı başa düşdü. Dedi:

– Ey həkim, mən hələ sənə dərman verməmişdən öldün. Həvəngdəstədə döydüyüm bir tikə keçə qırığı səni bu günə salanda, gör mənim hazırladığım zəhər neyləyərdi.

Bu əhvalatı hamı bildi. Loğmanın ağlına heyran qaldılar.

## KƏSİK BAŞ

Biri varıydı, biri yoxuydu, Allahın bəndəsi çoxuydu. Bir şəhərdə bir vəzirgan varıydı. Bu vəzirgan həmişə uzax ölkələrə gedərdi. Alverdən qayıdıb gələndə, gəmiynən dəryadan keçəndə bir də gördü ki, gəmiyə bir şey dəydi. O saat dərya təlatümə gəldi, bir tufan qopdu, bir tufan qopdu ki, elə bil qiyamət qiyam elədi. Gəmi suyun üzündə o üzə, bu üzə elə yırğalanırdı ki, elə bil bu saat batacaydı. Vəzirgan bir də gördü suda bir baş öz-özünə deyir:

– Otuz doqquzunun boynunu vurmuşam, qırxıncını da vurummu?

Vəzirgan elə bildi bu suda boğulan bir adamdı. Ürəyində dedi ki, əgər dəryadakı təlatüm dayansaydı bu adamı çıxarıb özümlə aparardım. Elə vəzirganın ürəyinnən bu fikir keçən kimi təlatüm dayandı. Vəzirgan əlin atıb sudakı başdan yapışıb kənara çıxartdı. Gördü bir kəsik başdı, bədəni yoxdu. Vəzirganı təəccüb götürdü, istədi başı suya atsın, gördü dərya yenə təlatümə başlayır. Odu ki, dediyi sözünün üstündə durdu. Başı bir torbaya salıb gətirdi evinə. Evdə torbanın ağzını açanda gördü baş dönüb olub bir ovuc kül. Bu işə lap məəttəl qaldı. Arvadına tapşırdı ki, nəbadə bu torbanın ağzını açasan ha! Vəzirgan hara gedirdisə, torbanı özüynən aparırdı.

Bir gün vəzirgan yenə səfərə çıxmışdı, torba yadından çıxıb evdə qalmışdı. Arvad ev süpürəndə bir də gördü torba kişinin yadından çıxıb evdə qalıb, tez qızını çağırıb dedi:

– A qızım, dədən həmişə gedəndə bu torbanı da apardı, indi yadınnan çıxıb evdə qalıb, tez ol torbanı götür, yüyür dədənin dalınca, torbanı ver ona.

Qız torbanı götürüb gedəndə yolda elə bil şeytan ona dedi bir aç bax, gör torbada nə var ki, dədən onun ağzını açmağa qoymur. Qız bir az ayax saxlayıb torbanın ağzını açdı, gördü içində bir ovuc kül var, barmağını külə batırıb dilinə vurdu, gördü heç nə təmi vermir. Torbanın ağzını bağlayıb aparıb dədəsinə verdi.

Qız qayıdıb evlərinə gəlməkdə olsun, vəzirgan da yol getməkdə. Vəzirgan bir xeyli gedənnən sonra yolda qabağını kəsib dedilər ki, evin yıxılmasın, hara gedirsən, şəhərə girsən səni öldürəcəklər. Vəzirgan xəbər aldı:

– Nə olub ki, adamları öldürürlər?

Bir nurani qoca kişi vəzirganın qulağına dedi:

– Ey vəzirgan, bil və agah ol, bu şəhərin padşahı qızını ərə vermək istəyirmiş, öz adətlərinə görə qızının yanına iki göyərçin göndərir, biri erkək, biri də dişi. Qız dişi göyərçini yanında saxlayıb erkək göyərçinin qanadlarını, tükünü yolub geri qaytarır. Padşah bunun nə demək olduğunu bilmir. Əmr eləyir ki, bütün bilikli adamlar yığılıb bu sirri açsınlar. Sirri aça bilməyənlərin boynunu vururlar. İndi şəhər tamam yasa batıb, qorxudan şəhərə heç kim girmir.

Bəli, tacir bu əhvalatı eşidən kimi geri qayıdıb düz evinə gəldi. Gördü ki, ey dili qafil, qızı boyludu. Arvadından soruşdu:

– Arvad, bu nə əhvalatdı?

Arvadı and-aman elədi ki, qızda heç bir günah yoxdu, bu olsa-olsa möcüzədi.

Bu şəhərdə mötəbər bir rəmmal varıymış. Kişi rəmmalı çağırıb bu işin sirrini öyrənmək istədi. Rəmmal kitabını açıb, bir cam su gətirtdi, suya bir güzgü, bir açar, bir az da duz tökdü. Əl ağacıynan camın kənarına cız çəkdi. Ağacı o yana, bu yana hərlədib cama vurdu. O saat kitabın bir varağı öz-özünə açıldı. Rəmmal həmin varağa baxıb dedi:

– Vəzirgan, sənin qızın heç bir kişi görməyib, o, küldən hamilə olub.

Kişi qızını yanına çağırıb dedi:

– Qızım, de görüm mən evdə olmayanda o torbanın ağzını açmamısan ki?

Qız başını aşağı salıb dedi:

– Ata, açmışdım, gördüm içində bir ovuc kül var, barmağımı batırıb dilimə vurdum.

Vəzirgan işi başa düşdü, öz-özünə dedi: "Allaha təvəkkül, görək axırı nə olur".

Bir neçə ay keçənnən sonra qızın bir oğlu oldu. Uşax aynan, ilnən yox, saatnan, günnən boy atdı. Az vaxtın içində böyüyüb yekə bir oğlan oldu.

Vəzirgan yenə həmən ölkəyə ticarətə gedirdi. Bu dəfə nəvəsini də özüynən aparırdı. Gəlib həmən şəhərə çatanda gördülər ki, yenə hamı qara geyib. Vəzirgan istədi ki, geri qayıtsın. Nəvəsi soruşdu:

– Baba, de görüm niyə qayıdırsan?

Kişi əvvəlcə istədi deməsin, gördü yox, oğlan əl çəkmir. Odu ki, əhvalatı başdan-ayağa kimi söylədi. Oğlan dedi:

– Baba, mən bu sirri açacam.

Vəzirgan dedi:

– Ay bala, ora bütün dünyadan bilici rəmmallar, ağıllı adamlar, iyid pəhlivanlar gedib, heç biri bu sirri aça bilməyib, padşah hamısının boynunu vurdurub. İndi sən bir tikə uşaq gedib neyləyəcəksən?

Vəzirgan çox dedi, oğlan az eşitdi, axırda kişi əlacsız qalıb onu apardı padşahın yanına. Oğlan ədəb-ərkannan padşaha baş əyib dedi:

– Padşah sağ olsun, izin versən qızının sirrini açaram.

Padşah dedi:

– Oğlan, əgər sirri açdın, qızı verəcəm sənə, yox, aça bilməsən boynunu vurduracam.

Oğlan razı olub dedi:

– Mən bu sirri açacam, amma bir şərtim var, gərək sirri açmaq üçün padşahlığını üç günlüyə mənə verəsən.

Padşah razı oldu. Oğlan padşahın yerinə keçən kimi vəzir-vəkili, padşahın bütün adamlarını başına yığıb dedi:

– İndi mən sizə bir əhvalat söyləyəcəm, siz də qulaq asın, görün axırı nə olur.

Oğlan dedi:

– Bir padşahın qızıl qəfəsdə bir tutu quşu varıymış. Bu quşa baxmağı padşah öz vəzirinə tapşırıbmış. Bir gün vəzir görür ki, quş yaman xarab olub, tez gedib padşaha xəbər verir. Padşah gəlib quşa baxanda, quş dilə gəlib deyir:

– Mən qırx ildi bu qəfəsdəyəm, heç o qədər darıxmırdım, amma indi uzax bir yerdə qardaşımın toyu olacax, o yadıma düşüb, xüfətimnən az qalır bağrım çatdasın. Mən də toya getmək istəyirəm. Padşah deyir:

– Əgər qırx gün möhlət versəm, yenə qayıdıb gələrsənmi?

Quş deyir:
– Gələrəm.
Padşah quşun bu sözünnən sonra üzünü vəzirə tutub deyir:
– Vəzir, sən nə deyirsən, möhlət verimmi, quş qayıdıb gələrmi?
Vəzir deyir:
– Padşah sağ olsun, quş ki dilə gəlib danışdı, o yalançı çıxmaz, qayıdıb gələr.
Padşah deyir:
– Vəzir, quşu buraxıram getsin, əgər qırx günə gəlməsə boynunu vurduracam.
Vəzir razı olur, quşu buraxırlar. Qırx gün tamam olur, quş gəlib çıxmır. Padşah o saat vəzirin boynunu vurdurur. Qırx birinci günü quş özünü yetirir Padşah quşdan gec gəlməyinin səbəbini xəbər alanda quş deyir:
– Bərk xəstələnmişdim, qırğılar, ütəlgilər yolumu kəsdilər. Odu ki, dönüb uzax yolnan gələsi oldum.
Oğlan üzünü padşaha tutub dedi:
– İndi de görüm, o padşah vəzirin boynunu vurdurmağına peşman oldu, ya olmadı?
Padşah dedi:
– Əlbəttə, peşman oldu.
Oğlan dedi:
– Onda padşah, sən də məndən bu sirrin səbəbini xəbər alma, desəm sən də peşman olacaxsan.
Padşah əl çəkmədi ki, gərək peşman olsam da, olmasam da deyəsən. Oğlan dedi:
– Onda bir əhvalat da söyləyim, sonra deyərəm. Bir padşahın bir qu quşu varıymış. Bu quş hər yeri gəzib yenə gələrmiş padşahın yanına. Bir gün qu quşu padşahın bağına dimdiyində bir alma toxumu gətirir, bağbanın gözünün qabağında toxumu yerə salır. Aradan xeyli vaxt keçir, toxum göyərib qəşəng bir alma ağacı olur. Bağban almalardan birini dərib yeyir ki, görsün dadı neçədir. Kişi almanı yeyən kimi dönüb on beş yaşında bir oğlan olur. Bağban sevindiyinnən bilmir nə eləsin, tez almanı dərib nimçəyə düzür, oğluna verib padşaha göndərir. Yolda vəzir uşağa rast gəlir, xəbər alır ki, apardığın nədi? Uşax əhvalatı vəzirə danışır. Xain vəzir almaları uşağın əlinnən alıb əvəzində zəhərli almalardan nimçəyə düzüb uşağa verir. Uşax heç nə başa düş-

məyib almaları padşaha aparır. Padşah almaları xoşlayıb yemək istəyəndə vəzirini də çağırır:

– Vəzir, bağban gör nə yaxşı almalar göndərib, gəl yeyək.

Vəzir üzünə hiylə niqabı çəkib deyir:

– Padşah sağ olsun, mənim gözüm bu almalardan su içmir. Əvvəlcə özün yeməmiş, birini ver ayrı adam yesin, sonra özün yeyərsən.

Bu söz padşahın ağlına batır. Tez bir qara qul çağırıb almadan birini ona verir. Qul almanı yeyən kini ölür. Padşah o saat qəzəblənib uşaxdan xəbər alır:

– Bu almanı bağban haradan alıb?

Uşax deyir:

– Padşah sağ olsun, atam deyir ki, bu almanın toxumunu sənin qu quşun gətirib əkib.

Bu söz uşağın ağzınnan çıxan kimi padşah qu quşunun boğazını üzüb öldürür. Sonra tez bağbanı hüzuruna çağırtdırır. Bağban gəlib padşahın hüzurunda deyir:

– Qibleyi-aləm sağ olsun, mənə görə nə qullux?

Padşah hirslənib deyir:

– Bu nədi, zəhərli almaları mənə göndəribsən ki, yeyib öləm!

Bağban deyir:

– Şahım, zəhərli alma nədi? Bu alma elə bir almadı ki, onu yeyən qoça dönüb on beş yaşında cavan olur. Özü də bunun toxumunu sənin qu quşun gətirib əkib. İnanmırsan gedim bağdan o almalardan yenə gətirim, bax gör elədi, ya yox?

Padşah bağbana icazə verir ki, gedib alma gətirsin. Kişi gedib bir neçə alma gətirir. Padşah birini yeyir, o saat dönüb olur on beş yaşında oğlan. Özü də bu işə təəccüb qalır. Bilir ki, almaları dəyişiblər. Üzünü uşağa tutub deyir:

– Bala, yolda almaları sənnən alan olmadı ki?

Uşax yolda vəzirlə olan əhvalatı danışır.

Padşah başa düşür ki, almaları vəzir dəyişib. O saat əmr eləyir, vəziri zindana salırlar. Oğlan üzünü yenə padşaha tutub dedi:

– İndi deyin görüm o padşah qu quşunun boğazını üzdüyünə peşiman oldu, yoxsa yox?

Padşah dedi:

– Əlbəttə, peşiman oldu.

Oğlan dedi:

– Padşahım, gəl sən də mənnən həmən sirri soruşma, yoxsa sən də peşman olacaxsan.

Padşah yenə də əl çəkmədi, elə dediyini dedi ki, gərək nə olur-olsun, sən qızımın sirrini mənə açasan. Oğlan gördü padşah əl çəkmir, odu ki, dedi:

– Yaxşı, indi ki, belə oldu, mən qızının erkək göyərçini yolub buraxmağının sirrini açaram.

Oğlan əmr elədi ki, camaat yığılsın, çünki üç gün padşahlıx etməyə ixtiyarı varıydı. Sonra adam göndərib padşahın qızını başının qırx incə belli xanımlarıynan gətirtdi meydana. Camaatın qabağında oğlan bir də dedi:

– Padşah bax, peşman olacaxsan, həmi qızın əldən gedəcək, həmi də bu vaxtatan binamus olduğun bilinəcək.

Padşah inadından əl çəkmədi. Oğlan dedi:

– Yaxşı, indi ki, belə oldu, mən işə başladım, – deyib qılıncını çəkdi. Qızın yanınca gələn qırx incə belli qızları bir-bir soyundurdu. Hamı baxıb gördü ki, bunların otuz doqquzu cavan oğlanlardı, qırxıncısı isə padşahın öz qızıdı. Oğlan otuz doqquz aşnanı bir-bir soyundurduqca boynunu vururdu. Qırxıncı padşahın qızı soyundu.

Oğlan dedi:

– Padşah sağ olsun, otuz doqquzunun boynunu vurmuşam, qalıb qırxıncı, bunun da boynunu vurummu?

Padşah dedi:

– Mən bu binamusluğu götürə bilmərəm, onun da boynunu vur.

Oğlan üzünü qıza tutub dedi:

– İndi ölüb gedirsən, heç olmasa sirri aç, söylə, qoy atan bilsin.

Qız dedi:

– Ata, mən erkək göyərçini ona görə yolub buraxdım ki, mənə erkək lazım deyil, özümün erkəyim var.

Qız bu sözü deyib qurtarandan sonra oğlan onun da boynunu vurdu və üzünü padşaha tutub dedi:

– Padşah sağ olsun, mən bilirəm ki, sən indi peşman olmusan ki, niyə qızının sirrini açıb özünü biabır elədin.

Göydən üç alma düşdü, biri mənim, biri sənin biri də bacadan baxanın.

## UŞAX PƏHLİVAN

Biri varıydı, biri yoxuydu, bir pinəçi varıydı. Bunun uşağı yoxuydu. Bir ər, bir arvad idilər. Bu kişi hər gün gün çıxanda durub gedərdi pinəçiliyinə, axşam gün batanda gələrdi evlərinə. Günlərin bir günü şər qarışan vaxtı pinəçiynən arvadı evdə oturub övlad dərdi çəkirdilər. Bir də gördülər ki, qapının ağzında bir qoca dərviş peyda oldu. Dərviş bir qəsidə oxuyurdu ki, adamın tükləri biz-biz olurdu. Kişi tez qapını açıb dərvişi evə apardı. Bir az söhbətdən sonra dərviş dedi:

– Yaman susamışam. Uşağı göndər bir cam su gətirsin.

Ev yiyəsi dərvişdən bu sözü eşidən kimi rəngi-rufu qaçıb bir ah çəkdi. Dərviş o saat başa düşdü ki, kişi sonsuzdu, övladı yoxdu. Tez cibindən bir alma çıxardıb ev sahibinə verdi, özü də tapşırdı ki, almanı arvadıynan yarı bölüb yesinlər, övladları olacax. Pinəçi bu işə çox şad oldu, sevinə-sevinə dedi:

– Ağa dərviş, bəs sənə nə pay verim ki, yaxşılığınnan çıxım?

Dərviş dedi:

– Mən pay alan dərvişlərdən deyiləm, pay verən dərvişlərdənəm. Sağ-salamat qalın, mən getdim.

Elə dərvişin söz ağzınnan qurtaran kimi, baxıb gördülər dərviş çoxdan qeybə çəkilib. Ər-arvad almanı yarı bölüb yedilər. Aradan doqquz ay, doqquz gün keçdi. Pinəçinin arvadı bari-həmlini yerə qoyub, bir qəşəng oğlan doğdu. Oğlan nə oğlan, Rüstəm Zal heç onun əlinə su da tökməyə layiq deyildi. Biz eşitmişik uşax aynan, ilnən böyüyər, amma bu uşax günbəgün, saatbasaat boy atıb çinara dönmüşdü. Yeddi

yaşında atlını atdan salırdı. Qolunda bir güc varıydı ki, küçədə hansı uşaxnan zarafatlaşsa ya belini, ya da qolunu sındırardı. Qonum-qonşu lap bunun əlinnən təngə gəlmişdi. Odu ki, gedib padşaha şikayət elədilər. Padşah pinəçini çağırıb, qulaxburması verdi ki, uşağının ipini çək, əgər bir də nadinclik eləsə, başını bədəninnən ayırdacam. Elə həmin gün pinəçinin oğlu küçədə uşaxlarnan oynayanda vəkilin oğlunun belini sındırdı. Xəbər padşaha çatan kimi, əmr elədi ki, uşağı gətirib başını bədəninnən ayırsınlar. Padşahın adamları gəlib nə qədər elədilər uşağı apara bilmədilər. Axırda beş-on yerdən sarıyıb atlara bağlayıb çəkdilər. Uşağı atlar sürüdükcə, o da yoldakı ağacların hansına əl atırdısa ki, özünü saxlasın, ağaclar köhlü-köməcli qopub əlində qalırdı. Axırda bir yekə ağacı dibindən çıxardıb özüynən padşahın yanına apardı. Padşahın baş vəziri çox uzaxgörən adam imiş. Gördü ki, bu uşaxda olan qüvvət padşahın heç bir pəhlivanında yoxdu, dedi:

– Padşah sağ olsun, sən gəl bu uşağı öldürtmə, vaxt gələr bizə lazım olar. Gəl bunu verək zorxanada[1] pəhlivanlar öyrətsinlər.

Vəzirin sözü padşahın ağlına batdı, uşağı göndərdi pəhlivanların yanına. O günnən padşahın adlı-sanlı pəhlivanları uşağı ox atmağa, nizə tutmağa, əmud vurmağa öyrətdilər. Ay dolandı, il keçdi, uşax elə bir zor pəhlivan oldu ki, heç kim onu yerindən tərpədə bilmədi. Bunun adı-sanı hər yerə yayıldı.

Bunu burada qoyax, sizə kimnən xəbər verək, firəng padşahından. Firəng padşahı tez-tez bu padşahın torpağına basqın eləyib, bac-xərac alarmış. Elə bu vaxt gəlib xəbər gətirdilər ki, firəng padşahı şəhəri üzük qaşı kimi mühasirəyə alıb, bac-xərac istəyir. Padşah vəzir-vəkili, bütün əyan-əşrəfi yığıb tədbir istədi. Çox götür-qoydan sonra vəkil dedi:

– Gəlin uşax pəhlivanı göndərək, gedib onları əzsin.

Vəzir bu tədbirə razı olmayıb dedi:

– Doğrudu, uşax pəhlivan qüvvətlidi, amma onu davaya göndərsək, bizə gülərlər. Deyərlər gör bu yekə ölkədə bir pəhlivan tapa bilməyiblər, südəmər uşağı göndəriblər. Bir də hələ o uşaxdı, tələynən, kələynən onu tutarlar. İndidən onu düşmənin əlinə verməyək. Bir gün gələr ki, bizə lazım olar.

Padşahın pəhlivanlarının hamısını göndərdilər davaya. Firəngin qoşunu bunları tamam qırıb çatdı.

Böyük məsləhət-məşvərətdən sonra gördülər ki, ayrı əlacları qalmayıb, uşax pəhlivana dedilər:

– Gəl sən çıx qoşunun qabağına, düşmənlə vuruş.

Uşax pəhlivan dedi:

– Nə qoşun, nə dava, onlar mənə neyləyib ki, gedib dalaşım. Mən dava-şava bilmirəm.

Gördülər ki, elə bu doğrudan da heç nə başa düşmür. Vəzir dedi:

– İndi mən onu göndərim, siz də baxın.

Uşağın bir dəst paltarı varıydı ki, onu bir pəhlivan gücnən götürə bilərdi. Özü də məşq eləyəndə həmişə onu geyərdi. Bu dəfə məşqə bir az qalmış vəzir əmr elədi ki, onun paltarını gizlətsinlər, Özünə də desinlər ki, firəng padşahının qoşunları apardı.

Bəli, vaxt gəldi, uşax pəhlivan məşq eləməyə gedəndə nə qədər axtardısa paltarını tapa bilmədi. Dad-haray saldı ki, bu saat mənim paltarımı verin.

Vəzir irəli yeriyib dedi:

– Oğul, sənin paltarını düşmənin qoşunu zornan alıb apardı. İndi gəl qılıncdan-qalxandan götür, get paltarını al, onları da qılıncdan keçir.

Vəzirin sözü uşağın xoşuna gəldi. O saat dedi:

– Mənə qılınc, at verin, bu saat gedib onları hamısını qırıb çatacam.

Padşah əmr elədi ki, ona qılınc gətirsinlər. Nə qədər möhkəm qılınc gətirdilərsə, uşax əlinə alıb bir o ucunnan, bir bu ucunnan tutub əyən kimi iki bölündü. Padşahın xəzinəsində qılınc qalmadı, hamısını qırdı. Axırda padşahın yadına düşdü ki, xəzinədə babasından qalma bir qılınc var ki, ağırlığınnan onu heç kim götürə bilmir. İki pəhlivan göndərib qılıncı bir müsiybətnən gətirtdilər. Uşax qılıncı əlinə alıb bir az əyib, atıb-tutub dedi:

– Daha neyləyim, bunu da qırsam, onda qılıncsız qalacam, qılınc olmayan yerdə bu da bir qılıncdı, – deyib bağladı belinə. Sonra buna at gətirdilər. Əlini hansı atın belinə qoydusa o saat atın beli qırıldı. Padşahın ilxısında nə qədər at vardısa, hamısını uşax şil-küt elədi. Axırda birdən yada düşdü ki, padşahın dərya atını gətirsinlər. Bu at yernən, göynən əlləşirdi, ayrıca qalaçada saxlanırdı. Atın yemini damın üstündən tökürdülər, heç kim yaxın gedə bilmirdi.

Vəkilin uşax pəhlivandan zəhləsi gedirdi deyin fikirləşdi ki, elə yaxşı olar, qoy bunu göndərək atı gətirməyə, at vurub öldürər. Uşax atı görən kimi qaşqasının arasınnan bir yumrux ilişdirdi ki, at o saat səndirləyif az qaldı yıxılsın. Uşax tez təkaltılı-zaddı yəhəri atın belinə

basıb, sıçrayıb mindi. Hamı onun bu iyidliyinə heyran qaldı. Uşax pəhlivan atını minib özünü vurdu qoşuna ki, verin mənim köynəyimi! Qılıncı sağdan vurub soldan çıxdı, soldan vurub sağdan çıxdı. Qoşun qaçıb dağıldı. Firəng padşahı gördü yox, bu yaman güclü pəhlivandı, onunla bacarmayacax, odu ki, başladı hiyləyə.

Firəng padşahının bir cadugər qızı varıymış, bütün tilsimləri öyrənib, açarını cibinə qoyubmuş. Padşah qızını çağırıb dedi:

– Qızım, bu pəhlivan bütün qoşunumu qırıb tərk elədi. Gör bunu bir təhər tora sala bilərsənmi?

Qız dedi:

– Ata, o, mənim əlimdə.

Bəli, qız bir rəml atıb, fala baxıb gördü ki, bu pəhlivan yeddi yaşında bir uşaxdı. Hələ küçədə-bacada uşaxlarnan yalax-qoz[2] oynayası vaxtıdı. Odu ki, uşax şəklinə düşüb dedi:

– Ay qoçaq oğlan, məni tanıyırsanmı?

Uşax dedi:

– Sən kimsən?

Qız dedi:

– Mən sizin məhlədə həmişə gəlib sən yalax-qoz oynayanda yanınızda durardım. İndi yaman oynamaq istəyirəm. Gəl bir yalax-qoz oynayax.

Qız uşağın boş damarınnan tutmuşdu deyin uşax o saat atdan düşüb yerdə yalax qazdı. Başladılar qıznan yalax-qoz oynamağa. Qız fürsəti fota verməyib sürməyə[3] sehr cadu oxuyub püflədi göyə. O saat uşax tilsimə düşdü. Tirtap yıxılıb yatdı. Qız o saat qoşuna xəbər verdi. Yeddi böyük pəhlivan gəlib uşağı gücnən yerdən qaldırıb apardılar. Uşax bir də gözün açıb gördü ki, əl-ayağı tamam zəncirnən sarımsarım olub. Ha əlləşdi, zəncirləri qıra bilmədi.

Hər gün firəng padşahının qızı uşağı dilə tuturdu ki, gəl sən bizim tərəfimizdə qal. Uşax elə nırx deyib dururdu ki, mən dədəmin, anamın yanına gedəcəm. Düz bu qalmağnan uşax pəhlivan yeddi il əli-qolu kündəli zindanda qaldı. Uşax gəlib on dörd yaşında bir nəhlivan oldu. On dörd yaşında pəhlivanın qabağında dayanmaq asan iş deyildi. Oğlan bir güc verib zəncirləri parça-parça elədi, başladı zindandan çıxıb getməyə. Firəng padşahına xəbər çatdı. Padşah o saat əmr elədi ki, qoşun uşax pəhlivanı tutub gətirsin. Uşax pəhlivan baxıb gördü ki,

uzaxdan böyük qaraltı gəlir, heç qoyun sürüsü də bu boyda olmaz. Bir az da gözünü uzağa zilləyib gördü ki, bu gələn qoşundu. Başa düşdü ki, onu tutmağa gəlirlər. Bu o vaxt idi ki, uşax pəhlivan hündür bir dağın başındaydı. Qoşun lap gəlib uşax pəhlivana çatdı. Başladılar dağa dırmaşa-dırmaşa ona ox atmağa. Uşax pəhlivan gördü dağın başı yekə-yekə qayalarnan, daşnan, kəltənnən doludu. Başladı ev boyda qayaları dağın başından diyirləməyə. Hər dəfə bir yekə qayanı diyirləyəndə əlli-altmış adam birdən xurd-xəşil olurdu. Qoşun başçısı baxıb gördü yox, beləliknən onu tutmaq olmayacax. Odu ki, başladı uşax pəhlivanı dilə tutmağa ki, gəl sən dağın başından düş yerə, nə istəyirsən verək. Uşax pəhlivan dedi:

– Mənə heç nə lazım deyil. Mən öz yerimizə, dədəmin, anamın yanına gedəcəm. Əgər mənə yaxın gəlsəniz, hamınızı qırıb tökəcəm.

Qoşun başçısı gördü yox, doğrudan da kim ona yaxın getsə şil-küt olacax. Odu ki, kor-peşman başdadı geri qayıtmağa. Bu tərəfdən də uşax pəhlivan az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlib bir şəhərə çatdı. Gördü camaat hamısı şəhər meydanına tərəf gedir. Soruşdu ki, nə var? Dedilər ki, bu gün uşax pəhlivanın atasını dar ağacınnan asacaxlar. Uşax pəhlivan xəbər aldı ki, axı onu niyə asırlar? Dedilər:

– Padşahın vəkilinin evini yarıbdı. Vəkil də padşaha şikayət eləyibdi deyin padşah əmriynən onu asırlar.

Uşax pəhlivan bu sözləri eşidən kimi başa düşdü ki, bura öz şəhərləridi, asılan da öz dədəsidi. Cin vurdu kəlləsinə, özünü yetirdi düz meydana. Gördü ki, doğrudan da dar ağacı qurulub. Meydanın bir tərəfində də taxtın üstündə padşah, vəzir, vəkil, qoşun böyükləri, pəhlivanlar əyləşiblər. Təbil çalındı, hamı o yan, bu yana boylanmağa başladı. Başdan-ayağa qırmızı geyinmiş iki bığıburma cəllad dədəsini qabaxlarına salıb dar ağacının yanına gətirdilər.

Uşax pəhlivan dədəsini görən kimi pələngə döndü, özünü yetirdi dədəsinin yanına, dedi:

– Dədə, qorxma, mən ölməmişəm, de görüm bu nə işdi?

Qoca kişi əli-qolu bağlı başladı gözləri yaşarmağa, dedi:

– Oğul, sən uşaxlıxda vəkilin oğlunu yıxıb qolunu sındırmışdın. Sən gedənnən sonra vəkil oğlunun hayıfını almaxdan ötəri mənə şər atıb ki, onun evini yarmışam. Bu qoca vaxtımda yerimdən tərpənə bilirəm, mən necə ev yara bilərəm. Padşah da o zalımın sözünə inanıb məni dar ağacınnan asdırır.

Uşax pəhlivan dədəsinin bu sözünü eşidən kimi əl atdı cəlladların xirtdəyinə, elə sıxdı ki, başları bədənlərindən ayrıldı. Özünü yetirib padşahı yaxaladı, istədi boğub öldürə, vəzir uşax pəhlivanı tanıyıb dedi:

– Oğul, sən gəl padşahı öldürmə, onda sənnən onun nə tafotun olar. Sən də olarsan ədalətsiz, zalım.

Oğlan vəziri tanıyıb, onun sözünə qulax asdı. Elə oradaca vəkili dar ağacına çəkib boğazından asdı. Padşahın tacını da başından götürüb qoydu vəzirin başına. Dedi:

– Ey vəzir, sən insaflı adamsan. Belə yelbeyin, hər yalana aldanandan padşah olmaz. Sən özün padşah ol, camaatı da incitmə.

Bu iş elə camaatın da ürəyinnən idi. Camant istədi köhnə padşahı daşa bassın. Vəzir qoymadı, dedi:

– Camaat, padşaha bundan artıq zülm olmaz ki, onu taxtı-tacdan atalar. İndi qoyun o da qara camaatın içində dolanıb isti-soyuğu, aclığı-toxluğu, haqqı-nahaqqı gözləriynən görsün. Öz tutduğu işləri yadına salsın. Onda gündə on dəfə ölüb diriləcək.

Təzə padşah uşax pəhlivanla atasını götürüb öz yanıncan apardı. Öz qızını da uşax pəhlivana verib onu qoşun böyüyü təyin elədi. Başladılar ömür sürüb gün keçirməyə.

# İSKƏNDƏR ZÜLQƏRNEYN

Biri varıydı, biri yoxuydu, bir padşah varıydı. Bu padşah nə qədər arvad alırdısa, övladı olmurdu ki, olmurdu. Padşah bütün rəmçiləri, dərvişləri, həkimləri çağırmışdı ki, ona əlac eləsinlər. Heç biri bir əlac eləyə bilməmişdi. Padşah xüfətinnən heyva kimi sapsarı saralmışdı. Bir gün yatmışdı, aləmi-röyada gördü kü, bir pirani qoca kişi başının üstündə dayanıb deyir:

– Ey padşah, sən kimi alsan övladın olmayacax, bircə İsfahan padşahının qızını alsan, ondan sənin bir övladın olacax.

Padşah yuxudan ayılan kimi vəzir-vəkili, əyan-əşrəfi başına yığıb yuxusunu onlara söylədi, tədbir istədi. Vəzir dedi:

– Padşah sağ olsun, burda elə bir çətin iş yoxdu. Elçi göndərək, gedib qızı istəsinnər.

Padşah dedi:

– Birdən qızı vermədilər, onda?

Vəzir dedi:

– Padşahım, sənin adın-sanın yeddi iqlimə məlumdu, adını eşidəndə padşahlar yata bilmirlər, kimin cürəti çatar ki, sənin qabağına çıxa bilsin? Verməz, onun torpağını at torbasında daşıdıb dəryaya tökərik.

Bəli, vəzirin tədbirini hamı bəyəndi. Həmin gün vəzir kəcavəni bəzədib öz adamlarıynan İsfahana yola düşdü.

Az gedib, çox gedib çatdılar həmən şəhərə. Ədəb-ərkannan padşahın elçi daşının üstündə kəcavəni qoydular yerə. Padşahın adamları tez gedib xəbər apardı ki, hansı padşahınsa adamları elçi daşının üstündə

oturublar. Padşah əmr elədi ki, gedin onları gətirin içəri. Gedib elçiləri gətirdilər padşahın hüzuruna. Elçilər əhvalatı tamam başdan-başa danışıb padşahın qızını istədilər.

Qızın atası dedi:

– Doğrudu, qızım mənim sözümnən çıxmaz. Mən kimə versəm o gedər, amma qızımın üç şərti var. Gərək sizin padşah o şərtləri yerinə yetirə, sonra razılıx verək.

Padşah əmr elədi, qızı gətirdilər, əhvalatı atası qızına söylədi, dedi:

– Qızım, indi sənin fikrin nədi?

Qız dedi:

– Mehriban ata, sən məni ilana da versən razı olaram, amma icazə versən onlara üç şərtim var, ondan sonra tamam razılıx verərəm.

Elçi gələn vəzir dedi:

– Qızım, şərtlərini de görək nədi?

Qız dedi:

– Birinci şərtim odu ki, gərək onunla at minib, ox atam, ikinci şərtim odu ki, qılınc vurub güləşəm, üçüncü şərtim də budu ki, gərək padşah mənim suallarıma cavab verə.

Elçilər razı olub qızın sözlərini gedib öz padşahlarına söylədilər. Padşah bu xəbəri eşidən kimi cin vurdu beyninə ki, Allahın işinə bax, bir qız mənə meydan oxuyur, mən qızın ayağına gedib onunla güləşsəm nə deyərlər? Yaxşısı budu ki, qoşun çəkim, dava eləyim. Vəzir dedi:

– Şahım, dava eləyib qoşunu qırdırmağın nə xeyri var, əvvəlcə gəl qızın təklifini yerinə yetirək, işdi bu baş tutmasa, onda dava eləyərik.

Padşah dedi:

– Axı ay vəzir, mənə yaraşmaz ki, durub gedəm qızın ayağına.

Vəzir dedi:

– Şahım, gəl sən təğyiri-libas ol, get, de ki, məni padşah göndərdi ki, əvvəlcə mənnən at minib ox atsın. Əgər məni ötə bilsə sonra padşah özü gələr.

Bu tədbir padşahın ağlına batdı. Həmən gün təğyiri-libas olub bir dəstə adamnan düşdü yola, gəlib çıxdı İsfahana. Qıza xəbər göndərdi ki, gəlsin. Bəli, qız hazırlaşıb altdan geyinib, üstdən qıfıllandı, əlinə ox, qalxan alıb, belinə qılınc bağladı. Bir dəstə adamla gəldi padşahın yanına, dedi:

– Məni istəyən sənsənmi?

Padşah dedi:

– Yox bacı, məni padşah əvvəlcə göndərdi ki, görsün sənin mənə gücün çatırmı? Əgər mənə gücün çatsa ondan sonra padşah özü gələcək. Yoxsa hər xırda-xuruş işlərdən ötəri padşah bura gəlməz.

Qız istədi geri qayıtsın, fikirləşdi ki, camaat nə bilir əhvalat nə yerdədi, hamı deyəcək yəqin qız qorxdu. Bir də cıdır düzünə, meydana o qədər adam yığılmışdı ki, iynə atsaydın yerə düşməzdi. Hamı bilirdi ki, qızla onu istəyən padşah at sürəcək. Bəli, hər ikisi atlanıb at çapdılar, biri-birindən qabağa keçə bilmədilər. Atın üstündə üzüyün içindən ox keçirdilər. Sonra başladılar bir-birinə qılınc vurmağa, gördülər qılıncdan da bir şey çıxmadı, əl atdılar qurşax tutdular, dizləriynən yeri kotan kimi eşdilər. Çox çətinliknən padşah qızın kəmərindən yapışıb vurdu yerə. Padşah dedi:

– İndi sözün nədi?

Qız dedi:

– Sözüm yoxdu, amma de görüm sən kimsən?

Padşah açıb əhvalatı söylədi.

Qız dedi:

– Onda üçüncü şərtimi də yerinə yetirsən, razılıx verərəm.

Padşah dedi:

– Nədi şərtin?

Qız dedi:

– Dünyada ən gözəl nədi?

Padşah dedi:

– Ən gözəl könül sevəndi.

Bu söz qızın xoşuna gəldi. Qız razılıx verdi.

Bəli, əhvalat qızın atasına məlum oldu. Ədəb-ərkannan yeddi gün, yeddi gecə toy eləyib qızı verdilər padşaha.

Padşah qızı alandan doqquz ay, doqquz gün sonra bir qəşəng oğlu oldu. O saat tayaçılar tutuldu, gecə-gündüz bu uşağa baxıb böyütdülər.

Uşağın adını İskəndər qoymuşdular. İskəndərin uşaxlıqdan bircə eybi varıydı. Təpəsinin ortasınnan bir buynuz çıxmışdı. Başına uzun bir şiş papax qoyardı ki, buynuzu görükməsin. Bəli, dayələr İskəndəri böyüdüb boya-başa çatdırdılar. İskəndər bütün elmlərin sirrini tamam-kamal öyrənib açarın qoymuşdu cibinə.

İş belə gətirdi ki, İskəndərin atası öldü. Gətirib oğlunu yerində padşah qoymax istədilər. Padşahın paxıl vəzirlərindən biri dedi:

– Bizim dədə-baba qaydamız var, gərək quş uçurdax, kimin başına qonsa, onu da padşah seçək.

Elə də elədilər. Quşu uçurtdular. Quş düz gedib qondu İskəndərin başına. Gətirib atasının yerində onu padşah qoydular. İskəndər elə bir padşah oldu ki, adı-sanı hər yerə yayıldı. İskəndər yetmiş yeddi ölkədən baci-xərac alırdı. Bütün padşahlar onun adını eşidəndə tir-tir titrəyirdilər. İskəndərin şəhərində hər həftə bir dəllək ölürdü. Heç kim bu sirdən baş çıxara bilmirdi. Demə İskəndər hər dəfə bir dəllək çağırıb başını qırxdırandan sonra öldürtdürürmüş. Şəhərdə dəllək qalmamışdı, hamısını öldürüb quyuya atdırmışdı. Padşah bir gün yenə vəzirini yanına çağırıb dedi:

– Vəzir, başımı tük basıb, bir dəllək tap, gəlib qırxsın.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, şəhərdə dəllək qoyubsan ki, çağırım?

Padşah dedi:

– Bilmirəm, hardan olur-olsun tap gətir.

Vəzir əlacsız qalıb, getdi kənddən bir çoban dəllək tapdı. Dəlləyi fikir götürdü. Bilirdi ki, ora gedən dəlləklərin heç biri geri qayıtmır. Amma səbəbini bilmirdi. Dəlləyin varı-yoxu bircə qoça anası varıydı. Anasıynan halallaşıb gəldi padşahın yanına, əli əsə-əsə onun başını qırxdı və başının ortasında olan şiş buynuzu gördü. Dəllək elə ki, padşahın başını qırxıb qurtardı, gördü ki, onu da öldürmək istəyirlər. Padşaha yalvardı ki, qoca anama yazığınız gəlsin, məni ona bağışlayın.

İskəndər dedi:

– Əgər bu sirri saxlayıb heç kimə deməsən, səni öldürmərəm, işdi, bir adam bu sirri bilsə, o günü sənin başını bədənindən ayıracam.

Oğlan and-aman eləyəndən sonra onu buraxdılar.

Dəllək beş həftə bu sirri içəri verib uddu. Fikir onu sapsarı saraltmışdı, günü-gündən əriyib çöpə dönmüşdü. Anası iə qədər yalvarırdı ki, oğul, axı sənin dərdin nədi belə saralıb-solursan, de, bəlkə əlac elədim.

Oğlu dedi:

– Ana, bu sirri heç kimə deyə bilmərəm.

Anası çox yalvardı, yaxardı, yenə demədi. Axırda dəllək gördü sirr qarnını deşir. Gedib meşədə bir yumuşax yerdə torpağı eşib bir çuxur qazdı, ağzını çuxura tutub üç dəfə yavaşcadan dedi: “İskəndərin buynuzu var, buynuzu”. Sonra çalanı yenə torpağnan doldurdu. Aradan bir neçə ay keçdi, həmən çaladan çoxlu qarğı çıxdı. Vaxt oldu ki, bir

çoban gəlib burdan keçəndə həmən çalada bitən qarğılardan kəsib tütək qayırdı, başladı çalmağa. Hansı havanı çaldısa elə tütəkdən səs gəldi ki, İskəndərin buynuzu var, buynuzu. Çoban qaldı məəttəl ki, bu nə sirdi.

Günlərin birində İskəndərə xəbər gətirdilər ki, hər yerə yayılıb ki, İskəndərin buynuzu var, buynuzu. İş o yerə çatıb ki, çobanların tütəyi də bu havanı çalırlar. İskəndər bu sözləri eşidən kimi cin atına minib əmr elədi dəlləyi əli-qolu bağlı gətirsinlər. Cəlladlar o saat oğlanı tapıb gətirdilər, şahın hüzuruna. Şah dedi:

– Necə olub sirri hamı bilir?

Dəllək and-aman elədi ki:

– Sirri heç kimə deməmişəm.

Padşah dedi:

– Düzünü de!

Dəllək dedi:

– Padşah sağ olsun, gördüm dərd qarnımı yırtır, axırda gedib meşədə bir çala qazdım. Əyilib bu sözləri o çalaya dedim, sonra da üstünü torpaxladım, bundan savayı heç kimə bir söz deməmişəm.

Padşah başa düşdü əhvalat nə yerdədi. O gündən padşahın adı qaldı İskəndər Zülqərneyn.

İskəndər, qəzəbindən od tutub yanırdı. Vəzirini çağırıb dedi:

– Vəzir, qoşunu hazırla, uzax bir yerə səfərə çıxacam.

Vəzir xəbər aldı:

– Şahim, xeyir ola, nə səfərdi?

İskəndər dedi:

– Vəzir, eşitmişəm zülmətdə dirilik suyu var, kim onu içsə ölmür, sağ qalır.

Vəzir İskəndərin xasiyətini bilirdi deyin heç nə demədi. Həmin gündən tədbir töküb hazırlıx gördü. Nə qədər bilici adamlar, dünya görmüş qocalar vardısa İskəndər hamısını yığıb məsləhət-məşvərət elədi, heç biri ora getmək üçün bir yol tapa bilmədi. İskəndər dedi:

– Yaşı ötmüş, dünya görmüş qocalardan daha kim qalıb bura gəlməmiş?

Dedilər ki, filan yerdə üç yüz yaşında bir qoca var, yerinnən tərpənə bilmir, pambığın içində saxlayırlar, bircə ona deməmişik.

İskəndər dedi:

– Vəzir, dur gedək o qocanın yanına.

İskəndərlə vəzir gedib qocanı tapdılar, əhvalatı ona söylədilər. Qoca dedi:

– Oğul, zülmət dünyasına iki adamdan savayı heç kim gedib çıxa bilməyib.

İskəndər dedi:

– Qoca, kimdi onlar?

Qoca dedi:

– Biri Xizr[1], biri də Axirət zaman.

İskəndər dedi:

– Qoca, bəs mən necə, gedə biləcəm, ya yox?

Qoca dedi:

– Oğul, gedəcəksən, amma qayıdandan sonra öz qılıncının altında öləcəksən.

İskəndəri fikir götürdü, amma öz-özünə dedi: "Ölsəm də, qalsam da gedəcəm".

İskəndər qocadan zülmətin yolunu soruşdu. Qoca dedi:

– Oğul, ora yeddi il, yeddi ay gecə-gündüz yol gedəcəksən, yolda qayış baldırlara, ilan-çayana, əjdahalara rast olacaxsan. Gedib bir yerə çıxacaxsan ki, ordan o üzə atlarınız getməyəcək. Düşüb atların nalını sökərsiniz. Sonra gedib bir qarannıx dağa çıxacaxsınız, orda bir bulax var, özünlə bir ölü balıx götürərsən, o bulağa çatanda ölü balığı atarsan suya, əgər dirilsə onda bilginən ki, dirilik suyunu tapıbsan.

İskəndər qocanın yanından çıxıb qoşunuynan, dəm-dəsgahıynan başladı zülmətə getməyə. Az getdilər, çox dayandılar, çox gedib az dayandılar, gəlib bir cəzirənin düzünə çıxdılar. Bu cəzirədə o qədər ilan, əjdaha varıydı ki, addım atmağa yer yoxuydu. Qoşun başladı bunları qıra-qıra getməyə. Amma bu ilan-çayan qoşunun yarısını öldürdü. Birtəhər ölüm-zülümnən burdan çıxıb getdilər. Qabaxlarına qalın meşə çıxdı. Elə yenicə atlardan, dəvələrdən düşüb bir az meşədə rahatlanmax istəyirdilər, bir də gördülər hər tərəfdən şirlər, pələnglər, ayılar, qurdlar-quşlar, bütün vəhşi heyvanlar bunlara hücum elədi. İskəndər Zülqərneyn gördü ki, burdan tez çıxmasalar tamam qırılıb qurtaracaxlar. Gecəynən başladılar getməyə. Bir xeylax gedənnən sonra gəlib bir dağın başına çıxdılar. Nə qədər atları sürdülərsə heç biri yerdən tərpənə bilmədi. Atların ayaxları yerdən qopmurdu, elə bil mıxlamışdılar. O saat qocanın sözü düşdü yadlarına. Atlardan düşüb nallarını sökdülər. Təzədən atlanıb başladılar getməyə. Gedib elə bir yerə

çıxdılar ki, hər yer tamam zülmətin içindəydi, göz-gözü görmürdü. İskəndər bir təhər şamnan, çaxmax-qonan, iməkləyə-iməkləyə axtarıb bir bulax tapdı, tez balığı suya saldı. O saat balıx dirilib başladı üzməyə.

İskəndər barmağını dişlədi ki, bura zülmət dünyasıdı, bu bulax da zülmət suyudu. Tez ovcunu doldurub doyunca sudan içdi. Sonra qayıtdı ki, bir qabdan-zaddan gətirsin ki, sudan doldurub aparsın. Bir də gələndə nə qədər axtardısa bulağı tapa bilmədi. Təzədən atlanıb başladılar geri qayıtmağa. Elə ki, İskəndər zülmət dünyasından çıxıb gördü on beş yaşında oğlan olub, özü də tamam quşların, heyvanların, otların, çiçəklərin, ağacların dilini bilir. Bu işə İskəndər bir tərəfdən sevinirdi, bir tərəfdən də qəmgin olurdu. Çünki qoca demişdi ki, sən abi-həyat suyunu içsən də öləcəksən. İskəndər içdiyi sudan başqa, bir bulax da varıydı, həmişəlik abi-həyat o bulaxdaydı ki, İskəndər ondan içə bilməmişdi. Bəli, bunlar elə bir yerə gəlib çıxdılar ki, hər yer daş-kəsək, qaya-qaltan idi. Yaman yorulmuşdular. İskəndər Zülqərneyn dincəlmək üçün yer axtarırdı. Axırda böyük bir qayanın dibində yatmaq istədi. Baxdılar ki, padşahın üstünə gün düşür, nizələrinin, qılınclarının ucunu yerə sancıb başlarını bir-birinə söykədilər, üstünə tirmə şal atdılar ki, kölgə olsun. Bu səs-səmirə İskəndər yuxudan ayıldı, gözlərini açıb gördü nizədən, qılıncdan buna çadır qurublar. O saat barmağını dişlədi ki, qoça deyən söz deyəsən düz çıxacax, mənim ölümüm yaxınlaşıb. Elə bu fikirnən durub çadırın altınnan qaçmax istədi. Birdən göy guruldadı, ildırım çaxdı, gurultuynan göydən bir ifritə[2] endi. İfritə İskəndərin başının üstündəki dağ boyda qayanı itələyib saldı çadırın üstünə, İskəndər Zülqərneyn qayanın altında qalıb əzik-əzik oldu. Bütün qoşun tökülüb qayanın altından İskəndəri yarımcan çıxartdılar. İskəndər bir ah çəkib vəsiyyət elədi.

Vəzir, vəkil, qoşun əhli İskəndərin meyidini götürüb qayıtdılar öz vətənlərinə. İskəndər vəsiyyət eləyəndə demişdi, mən harda ölsəm, öz torpağımda dəfn eləyərsiniz. İskəndəri öz vətəninə gətirdilər. Bütün şəhər əhli başdan-ayağa qara geyindi. Çox böyük cahi-cəlalnan İskəndəri kəcavəyə qoyub aparırdılar. Amma qəribə bir möcüzə oldu. Ölünün qolunu nə qədər tabutun içinə qoyurdularsa, yenə qolu tabutdan eşiyə çıxırdı, ovucu da açıx qalmışdı. Bu işə hamı məəttəl qalmışdı. Axırda gedib əhvalatı İskəndərə zülmət dünyasının yolunu görsədən qocaya dedilər.

Qoca dedi:

– Oğlum, gedin onun ovcuna yerdən bir xışma torpax tökün. Onun gözü torpaxdan doymayıbdı.

Bəli, qoca dediyi kimi gəlib yerdən bir xışma torpax götürdülər. Torpağı meyidin ovcuna tökən kimi ovuc yumuldu, qol da çəkildi tabutun içinə. Padşahı dəfn eləyəndən sonra qırx gün, qırx gecə ehsan, xeyrat verdilər.

İndi sizə kimnən deyim, İskəndər Zülqərneynin anasınnan. İskəndərin anası oğlunun ölümünə dözə bilmirdi. Hər gün gedib qəbirin üstünə döşənib ağlayırdı. Günlərin birində arvad yenə qəbirin üstünə döşənib ağlayanda yerin altından səs gəldi ki, ey insan, axı sən ağlamaxdan bizi yordun, de görək hansı İskəndəri istəyirsən?

Arvad dedi:

– Mən İskəndər Zülqərneyni istəyirəm.

Bu dəfə İskəndər cavab verdi:

– Ana, mən elə bilirdim ki, dünyada təkcə mənəm. Amma onu bil ki, burda məndən də aşağıda, yerin yeddi qat təkində o qədər İskəndərlər yatır ki, heç sayı-hesabı yoxdu. Dur get evinə, ağlamaxdan heç nə çıxmaz.

İskəndərin anası oğlunun bu sözlərini eşidəndən sonra düz gəldi evlərinə. Burda nağıl tamam oldu, qazan aşla doldu, toxlar yedi, aclar doydu.

## GÖY TƏPƏ GÖYƏRDİ, ƏRİM MƏNİ DÖYƏRDİ

Biri varıymış, biri yoxuymuş, bir kasıb qız varıymış. Bu qızın bir boyu-buxunu varıymış ki, lap pəhlivan kimi, özü də çox qoçax qızıymış. Gündə üç əppək para yeyib, üç kələf yarım da yun əyirərmiş. Elə ki, yeməyi bir gün az olurmuş, işləyə bilməzmiş, yaman gödəmbuliymiş. Günnərin birində bu qız üç əppəyi yeyir, amma parası çatmır. Odu ki, çıxıb damlarının üstünə qışqırıb ki, üçünü yedim, param vay, üçünü yedim, param vay. Elə bu hində bir tacir dəvə karvanıynan yolnan gedirmiş. Kişi qıza məəttəl qalıb qonum-qonşudan soruşur ki:

– Bu niyə belə eləyir?

Qonşulardan biri deyir ki:

– Bu qız gündə üç əppək para yeyib, üç kələf yarım da yun əyirir. Bu gün üç əppək yeyib, parası çatmayıb, odu ki, belə şivən qopardır.

Tacirin qız xoşuna gəlir, həm də fikirləşir ki, elə yaxşı olar, mən alverə gedəndə o da evdə yun əyirər, satıb bir az da ordan qazanaram. Tacir qızın qonşusuna deyir:

– Gəlsənə onu mənə alasan.

Qonşusu tacirin sözünə razı olur. Əhvalatı gedib qıza danışır. Qız deyir:

– Mən tacirə gedərəm, amma şərtim var, gərək ona əməl eləyə.

Qonşu deyir:

– Şərtin nədi?

Qız deyir:

– Gedib tacirə deyərsən ki, mən ona ərə gedəcəm, hər nə desə eləyəcəm. Amma gərək məni çox işlətməyə. Əgər çox işlətsə onda dönüb qarayüyrük olacam.

Qonşu arvad qızın sözlərini gəlib tacirə söyləyir. Tacir öz-özünə deyir: "Adam da dönüb qarayüyrük olarmı? Yəqin məni sınamaq istəyir". Odu ki, qızın təklifinə razı olur. Bəli, elə həmən günün sabahı tacir toy eləyib qızı alır. Bir gün keçir, beş gün keçir, tacirnən qız şad dolanırlar. Günlərin bir günü tacir arvadına deyir:

– Arvad, indi bir ev dolusu yun qoyub gedirəm alverə mən gələnə kimi bu yunu əyirib qurtararsan.

Arvad deyir:

– A kişi, bəs nə vaxt gələcəksən?

Tacir deyir:

– Bax, odu evimizin dalındakı təpə göyərəndə gələcəm.

Tacir arvadıynan halallaşıb dəvələrini yükləyib başlayır yol getməyə.

Tacir gedəndən sonra arvad baxıb görür ki, bir ev dolusu yunu ölənətən əyirib qurtara bilməyəcək. Odu ki, elə hərdən bir az əyirib gündə üç əppək para yeyib gününü keçirir. Bir gün baxıb görür təpə göyərib. Canına qorxu düşür ki, yunu əyirib qurtara bilməyib, ha çalışırsa gündə üç kələf yarımdan artıx əyirə bilmir. Başı o qədər qarışır ki, çörək bişirməyə də vaxt tapmır. Odu ki, xamır yoğurub hər çiyninə bir gündə yapışdırır, əlində də iplik, çıxır damın üstünə. Başlayır haray təpməyə:

– Göy təpə göyərdi, ərim məni döyərdi.

Sonra haf-huf eləyib çiynindəki kündələrin hərəsinnən bir dişlək alıb, bir az da yun əyirir.

Bunu burda qoyax, sizə xəbər verək Çəzən padşahının oğlundan. Bu padşahın oğlunun boğazında neçə il imiş ki, sümük qalıbmış, heç bir həkim-təbib onu sağalda bilmirmiş. Odu ki, hər yeri gəzdirirlərmiş ki, bəlkə buna bir əlac tapıla. Elə bu vaxt o vaxt idi ki, arvad damın üstündə: "Göy təpə geyərdi, ərim məni deyərdi", – deyib çiynindəki kündələrdən dişləyib hay-küy salmışdı. Padşahın oğlunu həmən küçədən dəm-dəstgahnan gəzməyə aparırdılar. Oğlan neçə il idi qəm dəryasına qərq olmuşdu həmişə bikeyf idi, heç üzü gülmürdü. Oğlan arvadın bu hay-şivənini görüb özünü saxlaya bilmir, bərkdən bir şaqqıltı

çəkib gülür, sümük boğazından gedir. Hamı baxıb görür ki oğlan danışır. Bəli, vəzir, vəkil bu işə sevinib şadlıq edirlər. Şahzadə deyir:

– Camaat, bu arvad məni güldürməsəydi, sümük boğazımnan getməzdi. İndi məni istəyən ona xələt versin.

Camaat arvada xələt vermək istəyəndə arvad deyir:

– Ey oğlan, sənnən heç bir şey istəmirəm. Ərim gedəndə bir ev dolusu yun qoyub gedib. Özü də tapşırıb ki, mən gələnə kimi bu yunu əyirib qurtararsan. İndi ki, mənə yaxşılıq eləmək istəyirsən, adamlarına tapşır mənim yunumu əyirsinlər.

Padşahın oğlu o saat əmr eləyir. Bir günün içində yunun hamısını əyirib qurtarırlar. Aradan iki-üç gün keçənnən sonra tacir gəlib görür ki, arvad yunun hamısını əyirib qurtarıb. Deyir:

– Ay arvad, sən nə qoçaxsan, daha bu şəhərdə bizdən dövlətli adam olmayacax, elə mən hər səfərə gedəndə sən bu boyda yun əyirib parça toxusan, var-dövlətimizi yığıb yığışdırmaq olmaz.

Arvad başa düşür ki, əgər əri bir də alverə getsə, yenə bir ev dolusu yun qoyub gedəcək, o da yunu əyirib qurtara bilməyəcək, bütün kələklərinin üstü açılacax. Odu ki, arvad başlayır ərinə kələk gəlməyə. Əri evdən çıxan kimi bir qarayüyrüy tutub bir camın altında gizlədir. Kişi evə gələn kimi arvad xəlvətcə camı qaldırıb qarayüyrüyü buraxır. Qarayüyrüy başlayır evdə gəzməyə. Arvad qarayüyrüyü görən kimi başlayır onun boyunu söyməyə ki:

– Bıy ay xala, sən xoş gəlibsən, səfa gətiribsən, sənə qurban olum, quru yerdə niyə gəzirsən, gəl döşəyin üstündə otur.

Kişi bu əhvalatı görüb lap məəttəl qalır. Deyir:

– Arvad, sən dəli olubsan, nədi, qarayüyrüyə niyə xala deyirsən?

Arvad deyir:

– A kişi, dəli niyə oluram. Bu mənim əsil doğma xalamdı. Bizim cinsimiz belədi. Əvvəlcə qəşəng olurux, elə ki, evdə-eşikdə çox işdədik, onda dönüb qarayüyrüy olurux. Mənim bu xalamın əri də tacirdi. Həmişə alverə gedəndə bu yazığa o qədər yun əyirtdirirdi ki, axırda xalam dönüb olub qarayüyrüy.

Kişi deyir:

– Arvad, sən də çox işləsən belə qarayüyrüy olarsan?

Arvad deyir:

– Bəs nə? Bizim cinsimiz belədi.

Kişi də bir az ağıldan yüngül imiş deyin bu sözə inanıb deyir:

– Arvad, qadan alım, daha innən belə nə işləmə, nə də qarayüyrüy olma. Elə özüm gedib qazanaram, bir təhər dolanarıx.

Bəli, günlər, aylar gəlib keçir, tacir yenə alverə gedir. Bu dəfə arvada heç bir iş tapşırmır. Tacir gedəndə arvadını həmli qoyub gedir. Özü də deyir:

– Arvad, bu dəfə bazarım bazar olsa, lap tez qayıdacam.

Amma iş tərsinə gətirir. Aradan bir ay, üç ay, yeddi ay keçir, tacirdən heç bir soraq çıxmır. Arvad axırda ərini axtarmağa başlayır.

Tacir gedəndə tövlədə bir qılçası sınıx at qoyub gedibmiş. Arvad atın ayağına gündə təpitmə döşəyib sağaldırmış. Elə ki, atın ayağı sağalır, arvad atı minib yola düşür. Az gedir, çox gedir, dağlar aşır, dərələr keçir, gəlib çıxır bir meşəyə. Demə bu hində arvadın vaxtı tamammış, düz tacir gedəndən doqquz ay, doqquz gün, doqquz saat keçirmiş. Arvad yavaşca atdan düşüb bir uşax doğur. Uşağı ləçəyinə büküb şəlləyir dalına, yenə sıçrayıb minir atına, başlayır yol getməyə. Demə bu vaxt padşah öz adamlarıynan meşədə ova çıxıbmış, arvadın sakitcə doğub, yenə ata mindiyini görürmüş. Arvad gedənnən sonra padşah öz-özünə fikirləşib deyir:

– A kişi, belə də iş olar? Mənim arvadım hələ doğmağına qırx gün qalmış əlini ağdan-qaraya vurmur, ipək yorğan-döşəyin içində naz-qəmzəynən, gah hıqqıldayır, gah zıqqıldayır, nökər, qarabaş onun başına fır-fır fırlanır. Doğannan da qırx gün sonra həngamə qopardır ki, ay öldüm, ay getdim, burda yeriməyin, orda oturmayın, ay yemirəm, ay içmirəm. Amma bu arvad heç belə eləmədi. Bu necə olan işdi. Deməli mənim arvadım yalandan eləyir. Gərək gedənnən sonra onun başına bir oyun açam ki, əlləzinəni əzbərdən oxuya.

Bəli, padşah çoxlu quşdan, heyvandan ovlayıb imarətinə qayıdır. Meşədə gördüyü bütün əhvalatı arvadına söyləyib onu bərk danlayır. Arvad nə qədər eləyirsə, padşahı inandıra bilmir. Axırda deyir:

– Yaxşı, mən sənə görsədərəm ki, bu niyə belə olur.

İş elə gətirir ki, padşah uzax səfərə gedəsi olur.

Padşahın da bir bağı varıymış ki, misli-bərabəri yox imiş. Dünyanın bütün meyvəsi, gülü, çiçəyi burda varıymış. Bağda hərəsi min rəngə çalan güllərin, çiçəklərin ətri adamı valeh eləyirmiş. Ağaclardakı meyvələrə baxanda adamın ağzının suyu axırmış. Sarı bülbüllər,

tutuquşular, tovuz quşları da bağın gözəlliyini birə min artırırmış. Padşah səfərə çıxanda bağbanı hüzuruna çağırtdırıb deyir:

– Bağban, bağa yaxşı fikir ver, ağacları vaxtında sula, qoyma yanıb tərk olmağa.

Bağban ədəb-ərkannan baş əyib gedir. Bu tərəfdən də padşah yaraxlanıb-yasaxlanıb, bir xeylax da qoşun götürüb, başlayır yol getməyə. Padşah gedən kimi arvadı bağbanı çağırıb deyir:

– Bağban, ərim gələnə kimi bağdakı ağaclara, güllərə, çiçəklərə bir damcı da su verməyəcəysən.

Bağban deyir:

– Xanım, axı onda hamısı quruyar, bəs padşaha nə cavab verərəm?

Arvad deyir:

– Sənin işin yoxdu, onun cavabını mən verəcəm. Sənə nə deyirəm, onu elə.

Yazıx bağban əlacsız qalıb arvadın sözünə qulaq asır. Ağacları sulamır. Yayın qızmarında bağ tamam yanıb tərk olur. Aradan bir xeyli keçmiş padşah səfərdən qayıdıb gəlir. Baxıb görür bağ tamam quruyub, bir çəngə ot da qalmayıb. Bağı belə görəndə cin vurur beyninə. O saat əmr eləyir ki, bağbanı gətirsinlər. Gedib bağbanı gətirirlər. Padşah onu görən kimi yerindən qəzəblə qalxıb deyir:

– Kişi, mən gedəndə demədimmi bağdan muğayat ol? İndi sənin dərinə saman təpdirim, sən də bax.

Bağban yenə ədəb-ərkannan baş endirib deyir:

– Qibleyi-aləm, mənim heç bir taxsırım yoxdu, bu işləri eləyən sənin öz arvadındı, çağır ondan xəbər al, hamısını desin.

Padşah tez arvadını çağırıb deyir:

– Arvad, bu nə əhvalatdı?

Arvad deyir:

– A kişi, burda nə böyük iş var, bağban ağaclara su verməyib, onlar quruyub da.

Padşah arvadının bu sözünə təəccüb eləyib deyir:

– Arvad, sən dəli olubsan, nədi, susuz da ağac bitər?

Arvad deyir:

– Bəs meşədəki ağacları heç kim sulamır, onlar niyə qurumur?

Padşah deyir:

– Ay arvad, axı meşədəki ağaclar elə öyrəniblər, ona görə də qurumurlar.

Arvad deyir:

– Mən elə sənnən bu sözü istəyirdim. Yadındadımı meşədə bir arvadın doğub, sonra da ata minib getdiyini görmüşdün. Gəlib məni danlayırdın ki, bəs sən niyə elə deyilsən. Mən sənə nə qədər deyirdim ki, o arvad elə öyrənib, mən də belə. Sən sözümə fikir vermirdin. İndi gördünmü sənin bağındakı ağaclara su verməyəndə quruyur, amma meşədəki ağacları heç sulamırlar, onlar böyüyüb qol-budax atır. İndi mən sənin bağındakı ağaclar kimi tərbiyə almışam. O arvad da meşədəki ağaclar kimi. Odu ki, belə əzmə-büzmə olmuşam.

Padşah görür ki, arvadı yaman yerdə tutub. Bir söz deməyib bağbanı da buraxır.

Bunları burda qoyax, sizə kimnən xəbər verək, tacirin arvadınnan. Arvad o qədər yol gedir ki, gəlib çıxır bir şəhərə. Öyrənir ki, ərinin dəvələri padşahın qoruğuna girdiyinə görə tutub zindana salıblar. Arvad nə qədər eləyirsə, onu nə ərinin yanına buraxırlar, nə də padşahın hüzuruna aparırlar. Axırda arvad fikirləşir ki, bu padşahın hər işi tərsinədi, mən yaxşılığnan onun yanına getmək istəyirəm, buraxmırlar, indi ki, belə oldu, pislik elə, bəlkə tutub aparalar. Odu ki, atını vurur padşahın qoruğuna. O qədər o üzə, bu üzə çapır ki, tamam qoruğu alt-üst eləyir. Qoruxçular arvadı tutub gətirirlər padşahın yanına. Əhvalatı da olduğu kimi danışırlar. Padşah deyir:

– Arvad, sən nə cürətnən mənim qoruğuma at salıbsan?

Arvad deyir:

– Ey padşah, mən yalan bilmirəm, öldürsən də düzünü deyəcəm. Mənim ərimi tutub salıbsan zindana, nə qədər elədim ki, sənin yanına gəlib dərdimi deyəm, buraxmadılar. Mən gördüm ki, düzdüknən sənin torpağında iş getmir, odu ki, başladım sənə pislik eləməyə, öz-özümə dedim ki, heç olmasa padşahı görə bilməsəm də, tutub zindana salacaxlar, bəlkə orda ərimi görə bildim. Bəli, qəsdən qoruğa girdim, indi doğrudan da məni sənin yanına gətirdilər.

Padşah bərk qəzəblənmişdi deyin əmr eləyir ki, bunu da aparın salın zindana. Arvadı aparmaq istəyəndə deyir:

– Ay padşah, səni bir adam ölümnən qurtarsa ona neylərsən?

Padşah deyir:

– Onu dünya malınnan qəni elərəm.

Arvad deyir:

– İndi ki elədi, bəs niyə məni zindana salırsan, mən həmən arvadam ki, sənin boğazında sümük qalmışdı, mənə baxıb gülənnən sonra sümük boğazından getdi, təmiz sağaldın.

Arvad yaşmağını bir az açıb üzünü görsədir. Padşah onu tanıyan kimi əmr eləyir ki, gedin taciri zindandan çıxardın.

Gedib taciri azad edirlər. Ər-arvad görüşüb öpüşürlər.

Kişi deyir:

– Arvad, sən hara, bura hara?

Arvad bütün əhvalatı ərinə söyləyir. Hər ikisi evlərinə gəlib keyf-damağnan günlərini keçirib, dövranlarını sürürlər.

Göydən üç alma düşdü, biri mənim, biri nağıla qulaq asanların, biri də tacirin arvadının.

## YUXU

Biri varıymış, biri yoxuymuş, qədim zamanlarda bir padşah varıymış. Bu o qədər zülmkarmış ki, rəiyyət onun əlindən lap təngə gəlibmiş. Padşah öz tutduğu əməlləri bildiyinə görə həmişə camaatdan sayxın gəzərmiş. Başının ustünnən bir sərçə də uçanda elə bilərmiş ki, düşməndi. Bütün fikri-zikri özünü qorumaqmış.

Bir gün padşah yuxuda gördü ki, onu götürüb atdılar dəyirmanın boğazına. Qolu-qılçası qopub aralandı, bədəni də suda axa-axa getdi. Yuxudan ayılıb öz-özünə toxtax verdi ki, yəqin məni qara basır. Səhərisi gün gecə yatanda yenə həmən yuxunu gördü, bərk qorxdu. Sübh olcax vəzir-vəkili, bütün əyanları çağırıb yuxunu onlara söylədi. Yuxunu hərə bir cür yozdu. Axırda bütün rəmmalları çağırdılar. Qoca bir rəmmal fala baxıb dedi:

– Padşah sağ olsun, sənin taxt-tacın əlinnən çıxacax, özün də aləmdə rüsvay olacaxsan.

Padşah çox götür-qoydan sonra bu fikrə gəldi ki, taxt-tacdan əl çəkib bir qürbət ölkəyə getsin, bəlkə camaatın nəzərində rüsvay olmasın. Odu ki, arvadını, iki oğlunu götürüb bir gecə xəlvətcə qaçdı. Bunlar çox getdilər, az dayandılar, az gedib çox dayandılar, axırda bir meşəyə yetişdilər. Qarannıx qarışdığına görə meşədə qaldılar. Gecənin bir vaxtı bunların yanına bir kişi gəlib yalvardı ki, hal-qəziyyə bizim karvanımız bu yaxınlarda mənzil salıb, yanımızda bir həmli arvad var, ağrı çəkir, bizdən utanır, doğa bilmir. Arvadına izin ver o, doğana kimi gedib onun yanında otursun. Padşah razı oldu. Kişi arvadı götürüb karvana

sarı getdi. Aradan xeyli keçdi. Padşah ha gözlədi, gördü arvad gəlmədi, axırda uşaqların əlinnən tutub arvadını çağırmağa getdi Nə qədər axtardısa, arvadını tapa bilmədi. Nə karvan? Nə arvad? Elə bil bunlar yuxuymuş. Lələ köçüb yurdu qalıb. Qərəz, padşah arvadınnan əl üzüb, iki oğlunun əlinnən tutdu, başladı fikirli-fikirli yol getməyə. Bir müddət gedənnən sonra uşaxların biri geridə qaldı. Bir canavar uşağı ağzına alıb qaçdı. Padşah nə qədər elədisə, uşağı canavarın ağzından ala bilmədi.

Xoşbaxtlıqdan uzaqdan bir ovçu bunu görürmüş, canavar ordan keçəndə ovçu onu vurub uşağı ölümdən qurtardı, sonra evinə gətirib yaralarına məlhəm qoyub sağaltdı. Bu əhvalatdan padşahın xəbəri olmadı. O, elə bildi ki, canavar uşağı yedi. Müxtəsər, padşah əlacsız qalıb o biri oğluynan başladı getməyə. Gəlib böyük bir çayın qırağına çatdılar. Çaydan keçəndə o biri uşağı da su axıdıb apardı. Padşah nə qədər çalışdısa, uşağı tuta bilmədi. Uzaxda qoca bir kişi dəyirmana su açırmış, bir də görür ki, suda bir uşax axır, tez onu tutub kənara çıxardır. Sonra evinə aparıb özünə oğulluğa götürür.

Biçarə padşahın əli taxt-tacından, arvaddan, övladlarından üzülüb, düzün düzündə tək-tənha qaldı, öz-özünə dedi:

– Atalar yaxşı deyib, "Nə əkərsən, onu da biçərsən". Mən rəiyyətimə zülm eləməsəydim, indi başıma da bu işlər gəlməzdi.

Padşah çox pəjmürdə dayanıb tutduğu əməllərdən peşman olmuşdu. Elə bu vaxt bir də gördü ki, bir nurani qoca buna sarı gəlir. Qoca yaxınlaşıb salam verdi. Padşah qocanın salamına cavab verib başını aşağı saldı. Qoca dedi:

– Ey qərib, görürəm çox bikeyfsən, de görüm dərdin nədi?

Padşah dedi:

– Ey qoca, sən mənim dərdimə çarə eləyə bilməzsən.

Pirani kişi əl çəkmədi ki, gərək dərdini deyəsən.

Padşah başına gələn qəzavü-qədəri əvvəldən axıra kimi söylədi. Pirani kişi dedi:

– Ey padşah, sən rəiyyətinə zülm elədiyinə görə işin dolaşığa düşüb. Əhd elə ki, bu dəfə padşah olsan heç kimə zülm eləməyəcəksən, həm də fağır-füğəranın, kasıb-kusubun, əlsiz-ayaqsızların qarnını doyuracaxsan.

Qoca sözünü tamam eləyib qeybə çəkildi. Padşah ha baxdı gördü qoca nə gəzir, elə bil yuxu görürmüş, tez barmağını dişlədi ki, ay gidi, bu pirani qoca imiş. Odu ki, qocanın dediyi kimi sidq ürəynən əhd

elədi. Sonra başladı yol getməyə. Gəlib bir şəhərə çatdı. Demə bu şəhərin padşahı yenicə ölübmüş. Padşahı dəfn eləyənnən sonra adətlərinə görə camaat yığılıb dövlət quşu uçurdular. Quş o saat gəlib padşahın başına qondu. Bunu görəndə vəzir-vəkil hay-küy saldı ki, yox, bu səhv olub, dilənçidən padşah olmaz, o məmləkəti idarə edə bilməz. Odu ki, quşu bir də uçurdular. Quş havada o yana, bu yana dolanıb yenə padşahın başına qondu. Üçüncü dəfə quşu genə uçurdular, bu dəfə də gəlib həmən adamın başına qondu. Axırda əlacları kəsilib bu kişini özlərinə padşah seçdilər.

Padşah bu səfər taxta çıxandan sonra öz əhdini yerinə yetirdi. Harda kasıb-kusub varsa ona qızıldan-gümüşdən verib yola saldı.

Bir gün padşah öz qoşunuynan ova çıxmışdı, yolda qabağına bir ovçuynan, cırıx-cındır paltarda bir uşax çıxdı. Padşah atının başını saxlayıb bunlardan kim olduqlarını soruşdu. Qoca dedi:

– Padşah sağ olsun, mən kasıb bir ovçuyam, quşdan-zaddan vurub bir təhər dolanıram. Yanımdakı da yetim uşaxdı, baxanı yoxdu, onu da özümə hiyən-höyür saxlayıram.

Padşah gördü ki, bu uşax zirək, həm də qəşəngdi, dedi:

– Qoca, görürəm sən kasıbsan, bu uşağa baxmaq sənə çətindi. Gəl uşağı ver aparım, ilxıda atlara qarovul çəksin.

Padşah kişiyə bir ovuc qızıl verdi. Kişi razı oldu, uşağı padşaha verdi. Padşah xeyli gəzib, çoxlu ov ovladı. Qayıdanda yolda bir dəyirmanın yanında atlardan düşüb bir az dinclərini almağa başladılar. Padşah yerə dirsək vurub uzanmışdı. Bir də gördü ki, bir cavan uşaq yekə bir dəyirman daşını dığırlaya-dığırlaya gətirir. Baxdı ki, bu daşı onun pəhlivanları yerinnən güclə tərpədə bilərlər. Amma bu uşax elə bil top oynadır. Uşax həm də çox gözəl idi, padşahın xoşuna gəldi. Dəyirmançını yanına çağırtdırıb uşağın kim olduğunu xəbər aldı. Kişi dedi:

– Padşah sağ olsun, bu bir yetim uşaq idi, gətirib özümə oğul eləmişəm.

Padşah dəyirmançıya da xeyli qızıl verib bu uşağı da aldı. Padşah hər iki uşağı gətirdi öz barigahına. Xidmətçilərə də tapşırdı ki, onlara yaxşı qulluq etsinlər.

Bəli, aylar, günlər gəlib keçdi. Bir gün padşahın şəhərinə bir karvan gəldi, karvanbaşı bir qədər qiymətli şeylərdən padşaha hədiyyə göndərdi. Padşah da karvanbaşını axşama barigahına qonax çağırdı. Karvanbaşı padşahdan rica etdi ki, bir-iki nəfər qarovul göndərsin ki,

karvana oğru-əyri dəyməsin. Padşah satın aldığı iki cavan qulluqçusuna əmr elədi ki, gedib karvana qarovul çəksinlər. Bu iki nəfər gedib karvanın yanında qurulmuş çadırın böyründə başlayırlar qarovul çəkməyə.

Gecənin bir vaxtı qarovulçulardan biri dedi:

– Qardaş, gəl başımıza gələn qəzavü-qədəri danışaq ki, yuxumuz gəlməsin.

Qarovulçulardan biri başladı:

– Mənim atam padşah idi. Bir gün gecə yatanda bir qorxulu yuxu görür. Rəmmallar yuxunu yozurlar ki, padşahın taxtı tərac olacax, rəiyyəti də ondan üz döndərəcək. Odu ki, atam bu xatadan qurtarmaq üçün taxt-tacdan əl çəkib uşaxlarını, arvadını götürüb özgə bir vilayətə gedir. Yolda bir karvana rast gəlir, karvanbaşı atamı aldadıb anamı götürüb qaçır.

İkinci qarovulçu bu sözləri eşidən kimi oğlanı qucaxlayıb dedi:

– Sən mənim qardaşımsan, mən də həmən padşahın oğluyam.

Demə çadırın içindəki arvad elə bu uşaxların anasıymış. O da həmən sözləri eşidirmiş. Odu ki, yüyürüb bunları qucaxladı:

– Ey mənim tifil balalarım, mən sizin tacir aparan ananızam.

Arvad uşaxları götürüb çadıra apardı. Bir xeyli dərdləşəndən sonra orda yatdılar.

Sübh tezdən tacir gəlib gördü ki, çadırda arvadının yanında iki cavan oğlan yatıb. Tez geri qayıdıb, padşaha şikayət elədi ki:

– Sənin gecə göndərdiyin adamlar mənim arvadımın yanında yatıb, onlara cəza ver.

Padşah onların üçünü də hüzuruna gətirtdi. Arvadla uşaxlar başlarına gələn qəzanı söylədilər. Padşah bu əhvalatı eşidən kimi yerindən qalxıb hər üçünü qucaxlayıb dedi:

– Mən həmən padşaham, sən mənim arvadım, bular da uşaxlarımdı.

Padşah zülm eləməyəcəyinə əhd elədiyinə görə tacirə başqa cəza vermədi, ancaq öz vilayətindən qovdu. O gündən bir yerdə şad yaşayıb, xoş ömür sürməyə başladılar.

## ZƏNGİ

Deyirlər ki, qədim zamanlarda Bilbis[1] şəhərində bir padşah varıymış. Günlərin bir günündə bu padşah yatıb aləmi-röyada görür ki, İsfahan şəhərində bir hammalın Zəngi adında bir oğlu olacaq, uşax on iki yaşına çatanda vurub onu öldürəcək. Padşah bu yuxunu görən kimi yerindən dik atılıb tez vəziri yanına çağırtdırır, dili tutula-tutula, təngnəfəs yuxunu ona söyləyib dedi:

– Vəzir, görəsən bu yuxu düzdürmü?

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, qoy bir rəmmal çağırım, yuxunu yozsun.

Bəli, o saat şəhərdə nə qədər falabaxan, cindar, rəmmal vardısa hamısını çağırtdırdılar. Bunların biri tasa baxdı, biri açar saldı, biri suya baxdı, axırda biri kitaba baxıb dedi:

– Şahım, bu yuxu düzdü, doğrudan da səni bir uşax öldürəcək.

Padşahın qorxudan bədəninə üşütmə düşdü, odu ki, dedi:

– Bəs buna bir tədbir!

Rəmmallar dedilər:

– Şahım, bizim gücümüz ancaq bu yuxunu yozmağa çatar, ayrı heç bir tədbirimiz yoxdu.

Padşah bu sözü eşidən kimi qəzəbindən az qaldı əlini gəmirsin, gözləri çıxdı kəlləsinə. O saat qırmızı geyinib çıxdı taxta. Əmr elədi ki, rəmmalların boynu vurulsun. Yazıx rəmmallar düşdülər əl-ayağa ki, ey şah, bizim günahımız nədi ki, bizi öldürürsən? Padşah heç nəyə qulaq asmayıb elə dediyini dedi. Axırda rəmmallardan biri gördü yox,

bu zalım oğlu bunların hamısının boynunu vurduracax, odu ki, yalandan kitabı o üzə, bu üzə varaxlayıb dedi:

– Şahım, bunun bir yolu var, gedib o uşağı tapıb öldürəsən.

Bu söz padşahın ağlına batdı. Rəmmalları öldürməyib buraxdı. Aradan bir neçə gün keçəndən sonra padşah təğyir-libas olub qiymətdən ağır, vəzindən yüngül bir xeyli ləl-cavahirat götürüb düşdü İsfahan şəhərinə yola. Az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlib çıxdı İsfahana. İsfahan elə bir böyük şəhər idi ki, nə ucu varıydı, nə də bucağı. Şəhərin bir küncündə bir dükən açdı, başladı dükəndə gününü keçirməyə. Bir gün, beş gün belə dolandı. Günlərin birində onun dükəninə bir hammal gəldi. Padşah bu hammalnan o qədər söhbət elədi ki, bir də gördülər axşamdı. Hammal tez ayağa durub dedi:

– Ağa, daha mən gedim evə, təzə bir oğlum olub, görüm neçədi.

Padşah bu sözü eşidən kimi dedi:

– Kişi, oğlunun adını nə qoyubsan?

Hammal dedi:

– Uşağın adını Zəngi qoymuşam.

Padşah bu adı eşidəndə rəngi sapsarı zəfərana döndü. Qollarının qarısı sıxıldı, qılçası taqətdən düşdü, heç bir söz deyə bilmədi, tamam nitqi tutuldu. Hammal durub gəldi evlərinə.

Sizə kimnən deyim, uşaxdan. Uşax nə uşax. Saat-basaat, günbəgün böyüyüb boy atırdı. Bir ayın içində üç yaşında uşağa dönmüşdü. Heç kim onun qolunu qatlıya bilmirdi. Bir oturuma yeddi adamın çörəyini yeyirdi.

Padşah dükəndə oturub öz-özünə fikirləşdi ki, ey dili qafil, mən boş-boşuna bu dükəndə nəyə oturmuşam? Yaxşısı budu gedim uşağı tapım, bəlkə başını batıra bildim. Soraxlaşa-soraxlaşa gedib hammalın evini tapdı, qapını döyüb kişini çağırdı. Hammal baxıb gördü dükənçidi, dedi:

– Ağa, nə əcəb, mənə qulluğun?

Padşah dedi:

– Heç bir qulluğum yoxdu, elə oturmuşdum dükəndə, birdən yadıma düşdün, gəldim.

Hammal padşahı apardı evinə. Padşah içəri girən kimi uşağı aldı qucağına, başladı boyunu söyməyə. Uşax əlini qundaxdan çıxardıb qəfildən padşaha bir sillə vurdu ki, yer-göy onun başına hərləndi. Padşah lap yəqin elədi ki, onun qənimi bu uşaxdı ki, var. Padşah evə bir nəzər salıb gördü hammalın heç nəyi yoxdu, kasıb adamdı. Odu ki, dedi:

– Qardaş, sən gəl bu uşağı mənə sat, özü ağırlığında qızıl verrəm. Hammala tamah güc elədi, uşağı özü ağırlığında qızılnan dəyişdi. Padşah uşağı götürüb, dükəni də yığışdırıb getdi öz torpağına. Uşağı vəzirinə verib dedi:

– Vəzir, al bu da haman yuxuda gördüyüm uşax, apar öldür, qanlı köynəyini də gətir mənə görsət.

Vəzir uşağı alıb apardı bir meşəyə, istədi öldürə, gördü uşax dil açıb deyir:

– Ey vəzir, padşahın ağlı yoxdu, bəs sənə nə olub, mənim taxsırım nədi ki, öldürürsən?

Vəzir gördü uşax düz deyir. Özü də uşağın dil açıb danışması ona təəccüb gəldi. Bəzir uşağı meşədə bir ağacın dibində yerə qoydu, bir dovşan vurub uşağın köynəyini də onun qanına batırıb gətirdi padşaha ki, uşağı öldürdüm, bu da qanlı köynəyi. Padşah vəzirin sözünə inanıb ürəyi sakitləşdi.

Vəzirnən padşah burda qalsın, sizə kimnən deyim, bir az da uşaxdan. Elə ki, vəzir uşağı ağacın altında qoyub getdi, Zəngi durub yavaş-yavaş meşədən çıxdı, gəlib bir naxırçıya rastlaşdı. Naxırçı uşağı görüb dedi:

– Bala, kimin oğlusan, hara gedirsən?

Uşax dedi:

– Ata-anamı itirmişəm. Heç bilmirəm hara gedirəm.

Naxırçı dedi:

– Bala, mənə oğul olarsanmı?

Uşax dedi:

– Olaram.

Naxırçı uşağı götürüb gəldi evlərinə, arvadına dedi:

– Arvad, bu uşağı meşədən tapmışam, deyirəm saxlayax, özümüzə oğul eləyək.

Arvad da bu işə çox sevindi. Zəngi ta gəlib on iki yaşına çatdı. Elə güclü pəhlivan olmuşdu ki, hansı ağaca qol salsaydı kökündən qopardıb atardı.

İndi eşidin bir neçə kəlmə də padşahdan. Padşahın qolunun altı yaman sancırdı ki, birdən uşax ölməz, gələr. Odu ki, tezdən yenə rəml atanları çağırtdırıb dedi:

– Baxın görün, uşax ölüb ya durur?

Rəmmallar hamısı rəm atıb dedilər:

– Qibleyi-aləm sağ olsun, uşax ölməyib sağdı. Bu dəfə həm səni, həm də oğlunu öldürəcək, qızını da özünə arvad eləyəcək.

Padşahın canına üşütmə düşdü. Çoxlu qoşun götürüb düşdü dağı-daşı gəzməyə ki, bəlkə uşağı tapıb öldürə. Gəlib həmən meşəyə çıxdılar. Natərəstlikdən həmən gün Zəngi də meşədən odun qırıb aparırdı. Zəngi gördü ki, qoşunun ağzı açıldı, elə bil cinni-Cəfər qoşunudu. Qoşun gəlib bunun yanından keçəndə, onun yığdığı odun atların ayaxları altında dağıldı. Zənginin bu işə acığı tutdu. Əlinə bir yekə dəyənək alıb kəsdi qoşunun qabağın ki, mənim odunumu niyə dağıdırsınız. Qoşun bunu tutmaq istəyəndə Zəngi dəyənəyi işə saldı, başladı qoşunu şilküt eləməyə. Padşah irəli yeriyib gördü ki, ey dili-qafil, bu həmən uşaxdı. Tez qoşunu dağıdıb başladı uşağı dilə tutmağa ki, sən yaxşı uşaxsan, qoçaxsan, mənim yaman xoşuma gəlirsən. Uşax padşahın şirin dilinə aldanıb dəyənəyi qoydu yerə. Padşah dedi:

– Bala, kimin oğlusan, eviniz hanı?

Uşax padşahı yanına salıb apardı naxırçının yanına. Padşah naxırçını dilə tutub dedi:

– Kişi, görürəm sən kasıb adamsan, uşax da yaxşı uşaxdı, gəl buna özü ağırlığında qızıl verim, ver mənə aparım, buna bütün elmləri oxudum, əməlli-başlı adam olsun.

Naxırçı pula susduyuf uşağı verdi padşaha. Padşah uşağa dedi:

– Bala, indi biz gedirik özgə səfərə, səni göndərirəm öz şəhərimizə, gedərsən oğlumun yanına. Sən nə istəsən, oğlum hamısını hazır eləyər.

Padşah o saat oğluna bir namə yazdı ki, bu uşax bizim qatilimizdi, ora çatan kimi bunu iki şaqqa elətdirərsən. Naməni də qasidə verib uşağı onunla yolladı oğlunun yanına. Uşağnan qasid az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar, gəlib çatdılar şəhərin qırağına. Yolda qasid bərk azarladı. Naməni uşağa verdi ki, mən gedə bilmirəm, apar özün ver padşahın oğluna. Zəngi də yol gəlib yorulmuşdu. Gördü burda bir qəşəng bağ var. Bağın barısından aşıb düşdü içəri ki, bir az dincəlsin. Yuxu onu tutdu, elə gül ağacının yanında yatdı, kağız da qaldı sinəsinin üstündə. Demə bura padşahın qızılgül bağçasıymış. Padşahın qızı gəlibmiş bağa gəzməyə. Qızın yolu düşür qızılgül xiyabanının yanınnan. Bir də görür ki, burda bir oğlan yatıb, yemə, içmə, xətti-xalına, gülcamalına tamaşa elə. Qaşları kaman, qap-qara kirpikləri elə uzundu ki, tamam gözünün üstünü örtüb, yanaxlar qırmızı alma kimi qıpqırmızı, boyu elə bil sərv ağacı. Özü də sinəsinin üstündə bir namə var. Qız ayağının ucunda yavaş-yavaş gəlib gördü namənin üstündə öz atasının möhürü var, tez naməni götürüb oxudu. Qız bir kö-

nüldən min könülə oğlana vurulmuşdu deyin tez ayrı namə yazdı. Özü də yazdı ki oğul, bu uşax sənin yanına çatan kimi onu al qumaşdan geyindirib buraxarsan. Qız həmin naməni qatlayıb qoydu oğlanın sinəsinin üstünə. Oğlan bir azdan sonra ayılıb, axtara-axtara getdi padşahın oğlunun yanına, naməni verdi ona. Padşah oğlu oxuyan kimi oğlanı başdan-ayağa bəzəndirdi. Aradan bir az keçənnən sonra padşah səfərdən qayıdıb gəldi. Gördü ay gidi, uşax sappasağdı. Oğluna dedi:

– Oğul, bu nə əhvalatdı?

Oğlu atasının naməsini görsətdi. Padşah qaldı məəttəl ki, görəsən bu işi kim eləyib. İş-işdən keçmişdi deyin üstünü vurmadı. Padşah vəzirnən sözü bir yerə qoydu ki, uşağın başını batırsınlar. Aşbaza da tapşırdı ki, sabah mənə yemək gətirməyə kim gəlsə, baltaynan vurub öldürərsən. Sabah açıldı, padşah Zəngini çağırıb dedi:

– Oğul, bu gün aşbazdan mənim xörəyimi sən gətir.

Oğlan baş əyib o saat razı oldu. Əlinə məcməyi alıb getdi ki, xörək gətirsin, yolda padşahın oğlu rast oldu. Padşah oğlu gördü uşax aşbazın yerini bilmir, məcməyini alıb dedi:

– Görürəm aşbazın yerini tanımırsan, bu gün qoy mən aşbazdan xörəyi alım gətirim, burdan sən apar atama.

Padşah oğlu əlində məcməyi, getdi aşbazın yanına, elə qapıdan girəndə aşbaz baltanı elə ilişdirdi ki, oğlanın başı o saat düşdü yerə. Zəngi gözlədi, gördü oğlan qayıtmadı, gedib aşbazdan xörəyi istədi. Aşbaz məcməyini doldurub verdi Zəngiyə. Zəngi xörəyi gətirib padşaha verəndə padşah dedi:

– Oğul, qabaxca məcməyini kim apardı?

Oğlan dedi:

– Padşah sağ olsun, sizin oğlunuz apardı.

Padşahın gözləri çıxdı kəlləsinə, bildi ki, ölən öz oğludu. Padşah vəziri çağırıb dedi:

– Vəzir, cəlladları çağır bu məlunu öldürsünlər.

Əhvalatdan padşahın qızı xəbər tutdu. Gedib Zəngiyə xəbər verdi. Zəngi əlinə bir qılınc keçirib dedi:

– Padşah, mən sənin bütün kələklərini bilirəm, odu ki, səni mərdmərdanə öldürmək istəyirəm. Qılıncını götür vuruşax.

Padşah öz gücünə bələd idi, odu ki, əkilmək istədi. Zəngi macal verməyib qılıncı onun təpəsindən endirdi. Padşah cəhənnəmə vasil oldu. Zəngi padşahın qızını da alıb özü taxta çıxdı.

# ƏZAZİL PADŞAH

Qədim əyyamlarda bir padşah varıymış. Bu padşah yaman əzazilmiş, Firon[1] onun yanında heç nəymiş. Elə fikri-zikri qoşun hazırlamaq, adam öldürmək imiş. Padşah belə bir əmr veribmiş ki, üç-dörd yaşında uşaxların hamısını yoxlasınlar, hansı uşax zəyifdi, şikəstdi, elə ordaca öldürsünlər. Bir xeyli müddət padşah uşaxları qırdırdı. Amma bu tədbir də onun acığının qabağını ala bilmədi. Padşah bu dəfə də fikirləşdi ki, düz-dünya doludu qoca-qoltaxnan; davada, qaça-qaçda əl-ayağa dolaşırlar. Əmr verdi ki, harda qoca arvad-kişi varsa, öldürsünlər.

Həmən vilayətdə İmran adında bir cavan oğlan yaşayırdı. Onun gözünün ağı-qarası bircə qoca atası varıydı. İmran atasını o qədər çox istəyirdi ki, onun yerinə özü ölümə gedərdi. İmran qorxurdu ki, padşahın adamları gəlib onun atasını da öldürərlər. Odu ki, atasını götürüb şəhərdən çıxdı, gecəykən dağnan-daşnan gedib bir meşəyə çatdı. Bir bulağın yanında qaranlıq bir mağara tapdı, atasını mağarada gizlədib dedi:

– Ata, sən burda qal, mən hər üç günnən, beş günnən bir sənə yemək gətirib verərəm, təki sən padşah cəlladlarının əlinə düşməyəsən.

Atası razı oldu. İmran onun əlini öpüb, gözləri doluxsunmuş qayıtdı evlərinə. İmran hər dəfə ova çıxmaq mahnasıynan atasına lavaşdan, yumurtadan, toyuxdan gətirirdi.

Bunları burda qoyax, sizə xəbər verək padşahdan. Padşah bir gün qoşun götürüb vəziriynən ova çıxmışdı. Yolu bir çay kənarından düşdü. Çayın üstündə nuh əyyamından qalma bir körpü varıydı, amma

bu körpü o qədər qəşəng idi ki, elə bil günü bu gün tikilmişdi. Padşah körpüdən keçəndə gözü sataşdı suya, baxıb gördü suda bir qız şəkli görünür. Qız nə qız, yemə, içmə, xətti-xalına, gül camalına tamaşa elə! Elə bil ki, on beş gecəlik bir ay parçası. Padşah bir könüldən min könülə aşiq oldu qıza, əlini çibinə salıb bir xışma qızıl çıxartdı, atdı suya, o saat su bulandı, qızın şəkli gözdən itdi. Padşah əlini ürəyinə qoyub tirtap yıxıldı yerə. Vəzir padşahı bir təhərnən ayıldıb dedi:

– Qibleyi-aləm sağ olsun, sənə nə oldu ki, birdən-birə özünnən getdin?

Padşah dedi:

– Vəzir, çayda bir qız gördüm, ağlımı başımnan çıxartdı. Nə olursa olsun, gərək o qızı tapıb mənə alasan!

Vəzir dedi:

– Qibleyi-aləm, bir qız nədi ki, ondan ötəri ürəyin gedir. Bu çox asan işdi. Səhərdən bir əmr verərsən cavanlar düşüb qızı çaydan taparlar.

Vəzirin bu sözündən sonra padşah bir az özünə gəldi, daha ova getməyib geri qayıtdı. Elə həmən gün əmr verdi ki, şəhərdə nə qədər cavan adam varsa, gərək bir-bir çaya düşüb qızı tapa. Kim qızı sudan çıxartsa, ona böyük ənam veriləcək, tapa bilməyənin boynu vurulacax.

Bəli, o gündən bütün şəhərin cavanları bir-bir suya düşüb qızı axtarırdılar. Heç kim tapa bilmirdi. O saat da başını bədənindən ayırıb bir tərəfə atırdılar. Padşah qırdırdığı adamların kəlləsindən başı ulduzlara dəyən bir minarə tikdirmişdi.

Günlərin birində cəllad gəlib İmrana xəbər verdi ki, indi də sənin vaxtındı, sabah suya girib qızı sən axtaracaqsan. Bu xəbəri eşidən kimi İmranı fikir götürdü. Bilirdi ki, o da qızı tapa bilməyəcək, onun da boynunu vuracaqlar. İmran öz ölümündən qorxmurdu. Atasının acınnan ölməyindən qorxurdu. Əgər onu öldürsəydilər, atasına çörək aparan olmayacaqdı. Cəllad gedəndən sonra İmran bir xurcun yemək götürüb atasının yanına getdi, xurcunu verib dedi:

– Ata, daha mən sənin yanına gələ bilməyəcəm.

Qoca dedi:

– Oğul, niyə gələ bilməyəcəksən?

İmran bütün əhvalatı atasına söylədi.

Qoca dedi:

– Oğul, onnan ötəri çox fikirləşmə, mən o sirri öyrədərəm, gedib canını qurtararsan. Qız suyun içində deyil. O, həmin körpünün altında

ağılagəlməz yerdə qoyulmuş bir şəkildi. Gün çıxannan-çıxana şəklin kölgəsi suya düşür, adamlar elə bilir ki, suyun içində qız var. Bu şəklin əhvalatı çox uzundu. Qədim zamanlarda bu yerlərin padşahının oğlu firəng padşahilə dava eləyirmiş. Firəng qoşunlarını qıra-qıra düz şahın imarətinin qabağına kimi gedibmiş. Demə firəng padşahının qızı küləfirəngidən baxırmış. Oğlan qızı görən kimi bir könüldən min könülə aşiq olur. Elə bu vaxt qız da oğlanın şücaətinə bənd olur, evlənirlər. Günlərin birində firəng padşahının adamları qızı tapırlar. Bir gün qız qırx incə belli xanımnan bu çayın yanından keçəndə onu zornan oğurlayıb qaçırdırlar. Qız körpüdən keçəndə özünü atır suya, boğulub ölür. Bu əhvalatdan sonra padşahın oğlu qızın şəklini çəkdirib körpünün altında bir yerdə gizlədir. İndi həmən şəklin kölgəsidi suya düşür, hamı elə bilir ki, qız suyun içindədi.

İndi sən gedərsən suya girəndən sonra körpünün altında günçıxan tərəfə baxarsan, şəkil ordadı, götürüb verərsən padşaha, özünü də başa salarsan ki, sudakı qız həmən şəklin kölgəsidi.

Kişi sözünü qurtaran kimi oğlu atasıynan xudahafizləşib evə gəldi. Səhər açılcaq padşahın adamları onu körpünün yanına apardılar. İmran əhvalatdan xəbərdar idi deyin səssiz-küysüz soyunub girdi suya. Körpünün altında o yana, bu yana gedib, əl atdı yuxarıdan şəkli götürdü çıxdı kənara. Şəkli padşaha verib dedi:

– Bax, qibleyi-aləm sağ olsun, sənin suda gördüyün qız bu şəkildi, körpünün altınnan suya kölgəsi düşürdü, səndə elə bilirdin qız sudadı.

Padşah İmrana bir az baxşeyiş verib dedi:

– Oğlan, indi de görüm, sən bu sirri hardan öyrəndin?

İmran istədi deməsin, gördü yox, olmayacax, dedi:

– Padşah sağ olsun, qorxuram düzünü desəm, cəza verəsən, amma cəza versən də mənim özümə ver, atamnan işin olmasın, onda düzünü deyərəm.

Padşah dedi:

– Düzünü de! Amandasan.

Oğlan dedi:

– Bu sirri mənə qoca atam öyrətdi.

Padşah dedi:

– Bəs mənim cəlladlarım onu öldürməmişdilər?

İmran dedi:

– Xeyr, o vaxt qocaları qıranda mən atamı aparıb bir mağarada gizlətmişdim.

Padşah bir az fikrə getdi, istədi bu qocanı da öldürtsün. Vəzir insaflı adamdı. Padşahın fikrini başa düşüb dedi:

– Qibleyi-aləm, siz qocaları nahax yerə qırdırırsınız, görürsünüzmü heç kimin bilmədiyi sirləri onlar açır. Gəl sən bu əmrdən əl çək.

Bu söz padşahın ürəyini yumşaldıb qocaları öldürməkdən əl çəkdi. Həmən şəkli də gətirib öz imarətindən asdı.

Vəzir bilirdi ki, günlərin birində padşahın yenə dəlisi tutacaq, ya dava eləyəcək, ya da adam asdırıb, göz çıxardıb qan tökəcək. Yaxşısı budu ki, elə padşahı bir təhər öldürüb camaatı onun əlindən qurtarım.

Padşahın yataq otağı vəzirin otağına bitişik idi. Vəzir öz otağından padşahın yatdığı taxtın altına bir deşik açdı, uzun bir qarğının içəridən düyünlərini deşib hazır saxladı. Axşam oldu, gecə padşah yatanda vəzir öz otağınnan qarğını uzatdı onun taxtının altına, başladı əcayib səsnən deməyə:

– Ey padşah, yatıbsan oyan, oyaxsan eşit, bil və agah ol. Körpünün altınnan şəklini gətirdiyin qız dirilib suyun içində səni gözləyir. O, pərilər padşahının qızı Mələk xanımdı. Əgər onu almaq istəyirsənsə, bu saat yerinnən durub get körpünün üstünnən özünü at suyun içinə, qorxma, sənə ölüm yoxdu. Üzmək bilməsən də qız səni kənara çıxardacaq, onu da götürüb gecəynən gətirərsən öz imarətinə. Amma bu sirri heç kimə demə, özün təkcə gedib suya tullan, yanında adam olsa, qız onnan qaçıb özünü görsətməz.

Vəzir bu sözləri dedikcə padşah məəttəl qaldı. Durub tez divarı tıqqıldadıb vəziri yanına çağırdı. Vəzir özünü bilməməzliyə vurub dedi:

– Padşahım, gecənin bu vaxtı, xeyir ola, nə var ki, məni hüzuruna çağırırsan?

Padşah dedi:

– Vəzir, qulağıma belə bir səs gəldi ki, dur get körpüdən tullan suya, ordakı qız səni gözləyir. Mən elə bildim ki, yuxu görürəm, amma gördüm ki, yox, bu yuxu deyilmiş.

Vəzir dedi:

– Şahım, burda bir sirr var, əgər yuxu da olmuş olsa, sən etiqadını bərk tut, get suya tullan. Mən xəlvətcə sənin dalınca gəlib kənarda gizlənərəm. Əgər birdən sudan çıxa bilməsən, o saat özümü sənə yetirərəm.

Vəzir padşahı lap inandırmışdı. Padşah dedi:

– Vəzir, mən getdim, sən də dalımca gəl.

Padşah düz gedib çıxdı körpünün üstünə, başladı suya baxmağa. Körpü çox hündür idi, ürəyi gəlmirdi hoppanmağa. Vəzir uzaxdan himnən başa saldı ki, nə durubsan, qorxma, at özünü suya, gəlirəm. Padşah gözlərini yumub şappıltıynan atıldı suya, elə bir-iki qol atan kimi batdı suyun dibinə, boğulub öldü. Vəzir yavaşca qayıtdı öz imarətinə. Səhər açıldı, padşahın meyidini sudan tapıb gətirdilər. Vəzir camaatı başa saldı ki, padşah qızın eşqinnən dəli olub, gecə xəbərsiz-ətərsiz gedib sudan qızı axtaranda boğulub ölüb.

Vəzir bu sözləri deyəndə camaat cıqqırını da çəkmədi. Hamı ürəyində sevinirdi.

Vəzir həmən gün İmranın atasını da tapıb gətirtmişdi. Elə camaatın yanında padşahın tacın qocanın başına qoyub dedi:

– Camaat, bu gündən sizin padşahınız bu qoca olacaq.

Hamı sevindi. O gündən vəzirnən qoca padşah camaatnan xoş rəftar eləyib ömür sürdülər. Vəzir də öz qızını İmrana verdi. Yeddi gün, yeddi gecə toy eləyib murad hasil elədilər. Siz də muradınıza çatasınız.

## AĞILLI QIZ

Həkan-həkan içində, qoz girdəkan içində, dəvə dəlləklik eylər, köhnə hamam içində.

Biri varıydı, biri yoxuydu, bir padşahnan vəzir varıydı. Padşah yaman darhövsələydi, amma vəzir ağıllı, səbirli, dünyagörmüş bir qocaydı.

Bir gün padşah ovdan qayıdanda yolda bir qılçası axsaq, bir gözü kor qarıya rast gəldi. Qarıya yazığı gəldi, çağırıb ona pul vermək istədi. Dedi:

– Ay qarı, buralarda nə gəzirsən, işin-peşən nədi?

Qarı dedi:

– Mənim peşəm ev tikmək, ev yıxmaqdı.

Padşah dedi:

– Sən nəsən ki, ev tikib, ev yıxasan.

Qarı dedi:

– Bala, sən hələ bilmirsən ki, arvad yıxmayan ev min il tikili qalar?

Padşahın bu sözdən xoşu gəlmədi.

Vəzir dedi:

– Qibleyi-aləm, arvad düz deyir.

Padşah dedi:

– Yox, yalan deyir.

Padşahın üç qızı varıydı. Qızlarını başına yığdı, böyük qızına dedi:

– Bala, de görüm evi arvad tikər, ya kişi?

Böyük qız dedi:

– Həlbəttə, kişi.

Sonra padşah ortancıl qızına üzünü tutub dedi:

– Qızım, sən nə deyirsən?

Ortancıl qız dedi:

– Ata, arvad nədi ki, onun tikdiyi ev də nə ola? Həlbəttə, evi kişi tikər.

Padşah bu dəfə də üzünü kiçik qızına tutub dedi:

– Qızım, bəs sən nə deyirsən?

Kiçik qız dedi:

– Ata, evi arvad tikər.

Bu söz padşaha yaman toxundu. Odu ki, dedi:

– İndi ki, belə oldu, səni evsiz-eşiksiz lütün birinə verəcəm. Ondan sonra baxarıq sən neçə ev tikəcəksən.

Şəhərin lap kənarında qoca bir qarının topal oğlu varıydı. Adına da topal Əhməd deyərdilər. Əhməd o qədər acizdi ki, heç yerindən tərpənmək istəmirdi. Padşah qoca qarını yanına çağırtdırıb dedi:

– Qarı, mən kiçik qızımı sənin oğluna verirəm, apar onu da, get.

Qarı dedi:

– Ay padşah, tasaddığın olum, sənin qızın hara, mənim oğlum hara? Oğlumun əynində bir paltarı var, cırığınnan cin çıxır. Yeməyə bir tikə çörəyi yoxdu. Oğlum o qızı necə saxlayacax?

Padşah dedi:

– Qarı, sənin işin yoxdu. Apar, qızı verdim sənin oğluna.

Qarı kor-peşman qızı yanına salıb gətirdi evlərinə. Əhvalatı oğluna danışdı. Əhməd bu işə lap məəttəl qaldı. Qız evə gələndən sonra baxıb gördü ki, Əhməd o qədər ərincəkdi ki, heç yerinnən tərpənmək istəmir, çörəyini də elə yatdığı yerdə yeyir. Odu ki, padşah qızı birinci gün süfrəni evin lap yuxarı başında saldı. Əhmədi çağırdı ki, durub gəlsin çörək yeməyə. Əhməd nə qədər yalvardı ki, mənim payımı gətirin yerimdə yeyim. Qız razı olmadı. Əhməd gördü yox, acınnan öləcək, əlacı kəsilib sürünə-sürünə süfrənin qırağına gəldi. Çörək yeyib qurtaran kimi yenə gedib girdi yerinə. Qız hər gün süfrəni evin yuxarı başında salıb Əhmədi ora çağırardı. Bir neçə günnən sonra Əhməd daha özü durub gedirdi süfrənin başına. Qız gördü Əhməd bir az qoçaxlaşıb. Bu dəfə süfrəni baxçada, göy otun üstündə saldı. Əhmədi çağırdı. Əhməd

yenə getmək istəmədi. Qız gedib onu itələyə-itələyə bir təhər evdən çıxartdı. Əhməd çörəyini yeyib yenə getdi evə. Belə-belə qız hər gün süfrəni həyətdə salıb Əhmədi ora aparırdı. Aradan bir neçə gün keçəndən sonra padşah qızı Əhmədi küçəyə çıxartmaq istədi. Əhməd fındığı, qozu yaman xoşlayırdı. Qız evdən küçə qapısına qədər qoz, fındıx töküb Əhmədə dedi:

– Ay mitilin biri, evdə oturub neyləyirsən? Durub bu fındığı, qozu niyə yığmırsan?

Əhməd durub bir təhər fındığı, qozu yığışdıra-yığışdıra düz küçə qapısından çıxdı. Elə bu vaxt küçədə qodu-qodu[1] oynayırdılar. Əhmədin xoşu gəldi, bir az da irəli gedib qodu-qoduya baxdı. Sonra qayıdıb evə gəldi. Padşahın qızı elə ki, gördü Əhməd küçəyə çıxmağı örgəndi, başladı:

– Gərək gedib işləyəsən.

Əhməd dedi:

– Axı mən nə iş görə bilərəm?

Qız dedi:

– Sən çıx küçəyə, denən ki, ay iş gördürən, ay iş gördürən. Kim sənə yaxınlaşıb bir söz desə get, o sənə iş gördürəcək.

Əhmədi bir təhər küçəyə çıxartdı. Əhməd yolun ortasında durub hərdən bir: “Ay iş gördürən” deyirdi. Birdən bir kişi gəlib Əhmədə dedi:

– Oğul, mənim bir bağım var, gəl onu bellə, hər gün sənə bir şahı pul verərəm.

Əhməd kişinin yanına düşüb getdi. Axşama kimi onun bağında yer bellədi, bir şahısını alıb gəldi. Yolda gördü ki, pişik satırlar. Bir şahını verib pişiyi aldı. Əhməd evə gələndə padşah qızı dedi:

– Əhməd, nə qazandın?

Əhməd dedi:

– Bir şahı qazanmışdım, onu da verib bu pişiyi aldım.

Qız dedi:

– Əhməd sabahdan gərək sən səfərə çıxasan, gedib hər yeri görəsən.

Əhməd dedi:

– Mən səfərə nə cürə gedə bilərəm?

Qız dedi:

– Sabah gedərsən bazara, yolun qırağında dayanıb gözləyərsən. Görəcəksən ki, dəvə karvanları gedir. Gedib karvanbaşıya deyərsən ki, məni də özünnən apararsanmı, sizə köməyim dəyər. Onda onlar razı olsa, qoşulub gedərsən.

Səhər açıldı. Əhməd qız deyən kimi elədi. Gedib yolun kənarında gözlədi. Gördü ki, dəvə karvanları gəlir, gedib karvanbaşıya dedi:

– Məni də özünnən apararsanmı?

Karvanbaşı dedi:

– Elə apararam, elə bir adam göydə axtarırdım, yerdə əlimə düşdü.

Demə karvanbaşı karvanın qabağında belə bir adam apararmış. Yolda bir səhralıq varıymış, ordan keçəndə karvanın suyu tamam qurtararmış. Həmin səhrada bir quyu varıymış. Karvanbaşı özüynən götürdüyü adamı həmən quyuya sallayıb ordan su çıxardarmış. Sonra quyudakı adam geri qayıtmazmış.

Karvanbaşı Əhmədi özüynən götürüb yola düşdülər. Az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar, dağlar aşdılar, sular keçdilər, gəlib həmən səhraya çatdılar. Suları tamam qurtarmışdı. Adamlar, dəvələr susuzdan yanırdılar. Karvanbaşı Əhmədə dedi:

– Bala, gəl səni sallayax quyuya bir az su çıxart.

Əhmədin heç nədən xəbəri yoxuydu deyin razı oldu. Belinə ip bağlayıb salladılar quyuya. Əhməd quyunun dibinə düşüb belindən kəndiri açdı. Bir xeyli gedib axan bir çaya rast gəldi, tuluxları doldurub hayladı ki, çəksinlər. Elə tuluxları yenicə çəkmişdilər ki, birdən nərilti qopdu, Əhmədi bir isti vurdu ki, az qaldı bağrı çatlasın. Bir də gördü bədheybət bir div başının üstünü kəsib durub. Div nə div, boyu minarə, qolları çinar ağacı, buynuzları nizə kimi yeddi başlı, hər qolunda yeddi dəyirman daşı, alt dodağı yer süpürür, üst dodağı göy süpürür, ağzı dəyirman körüyü.

Əhməd istədi qaça, gördü yox, olası iş deyil. Qaçmağa yer yoxdu. Div dedi:

– Ey bəni-insan, bura quş gəlsə qanad salar, mən indi sənin ətini aşığacan, qanını qaşığacan eləyəcəm. Hara qaçmaq istəyirsən? Gəl dalımcan. Səndən bir söz soruşacam. Əgər cavab verə bildin sənnən işim yoxdu. Cavab verə bilməsən, onda öldürəcəm.

Bəli, Əhməd qorxusundan tut yarpağı kimi əsə-əsə divin dalınca gedib bir qəsrə çatdı. Qəsr nə qəsr. Hər yer zər-ziba, otaqlar qaşdaşla,

ləl-cavahiratnan dolu. Bir cah-cəlal var ki, adamın ağzı açıx qalır. Div otaxdan-otağa keçib otuz doqquz qapı açdı, qırxıncıda dayandı. İçəridə bir qızıl məcməyidəki yaşıl qurbağaya baxıb dedi:

– Ey bəni-insan, de görüm dünyada ən gözəl nədi?

Əhməd dedi:

– Ən gözəl könül sevəndi.

Bu söz divin çox xoşuma gəldi, çünki özü həmən qurbağanı sevirdi. Div Əhmədi öldürməyib buraxdı, özünə də bir narla, bir qoz bağışladı. Əhməd divdən ayrılıb düz gəldi quyunun dibinə, nə qədər səslədi, harayına çatan olmadı. Çünki karvan çoxdan getmişdi.

Sənə kimnən deyim, pişikdən. Əhməd karvanbaşıynan yola çıxanda pişiyini də özüynən gətirmişdi. Elə ki, Əhməd quyuda qaldı, karvan yola düşdü, pişik quyunun başından əl çəkmədi, quyunun qırağında o yana, bu yana gedib miyoldayırdı. Bir gün, bir gecə pişik quyunun başında miyoldaya-miyoldaya qaldı.

Səhər tezdən uzaxdan bir karvan gəldi. Karvan gəlib quyunun yanından keçəndə karvanbaşı gördü ki, bir pişik quyunun başında özünü hələk-fələk eləyir. Karvanbaşı quyuya yaxınlaşıb gördü səs gəlir ki:

– Ay yolnan keçən, məni quyudan çıxardın!

Karvanbaşı yoldaşlarını da çağırıb, kəndir sallayıb Əhmədi quyudan çıxartdı. Əhməd başına gələn qəzavü-qədəri söyləyib bunlarnan yola düşdü. O qədər yol getdilər ki, gəlib qayışbaldırların torpağına çatdılar. Karvanlarını rahatlayıb bir evdə qonaq qaldılar. Axşam oldu, süfrə salındı, ortalığa yemək gətiriləndə, ev sahibləri arvadlı-uşaxlı, hərəsi əlinə bir toxmax alıb qonaqların başının üstündə dayandılar. Qonaqlar bu işə lap məəttəl qaldılar. Elə bildilər ki, bunları öldürmək istəyirlər. Odu ki, karvanbaşı dedi:

– Ay qardaşlar, əgər bizi öldürəcəksinizsə, elə çörək yeməmişdən öldürün, canımız qurtarsın. Daha bu nə adət di ki, əvvəlcə çörək verib sonra öldürürsünüz?

Ev sahibi dedi:

– Biz sizi öldürmək fikrində deyilik. Qoyun ortalığa çörək gəlsin, onda görərsiniz ki, biz nəyi gözləyirik.

Ortalığa çörək gəldi. O saat hər tərəfdən o qədər siçan, siçovul töküldü ki, qablarda dişə çəkməyə bir sümük də qalmadı. Əli toxmaxlılar demə bu siçanları gözləyirmişlər. Toxmaxnan siçanları vurmağa

başladılar, cəmisi beş-on siçan öldürə bildilər. Qalan siçanlar tamam çörəkləri yeyib, qaçıb doldular yuvalarına. Qonaqlar bu əhvalatı görüb tamam özlərini itirmişdilər. Əhməd ev sahibinə dedi:

– Qardaş, məgər sizdə bir-iki pişik olmaz ki, gətirib evə buraxasınız?

Ev sahibi dedi:

– Qardaş, pişik nə olan şeydi? Bizim yerlərdə elə şey yoxdu.

Əhməd gördü buralarda pişik olmur. Odu ki, gedib öz pişiyini gətirdi. Təzədən yemək gətirildi. Əhməd pişiyi evə buraxdı. Siçanlar çıxan kimi pişik bunu burda, onu orda basmarlayıb, hamısını boğub öldürdü. Ev sahibi bu işə lap heyran qalmışdı. Odu ki, Əhmədnən danışıb pişiyi yeddi dəvə yükü qızılla dəyişdirdi. Əhməd qızılları, div bağışladığı narı, bir də qozu bir adama verib evlərinə yolladı. Özü karvanbaşıynan şəhərbəşəhər, kəndbəkənd gəzib alver elədi.

Bunları burda qoyaq, sizə kimnən xəbər verək, padşahın kiçik qızından. Qız Əhmədin göndərdiyi qızılları alan kimi bazardan bənna-fəhlə çağırıb yeddi mərtəbəli bir imarət tikdirdi. Bu elə bir imarət oldu ki, padşahın imarəti bunun yanında daxmaya oxşayırdı. Qız Əhmədin göndərdiyi narı kəsib yemək istəyəndə gördü ki, narın içi tamam ləl-cavahiratdı, onları xırdalayıb, evin içini tamam zər-zibaya döndərdi.

Aradan bir xeyli keçdi. Əhməd səfərdən qayıdıb gəldi. Öz evlərinin yerində yeddi mərtəbəli bir imarət gördü. Qapıdakı nökərlərdən öz evlərinin yerini xəbər aldı. Dedilər ki, sən dediyin ev elə bu imarətdi. Əhməd elə bildi onu ələ salırlar. Bir də xəbər aldı:

– Ay qardaş, məni ələ salma, düzünü de, görüm bura kimin evidi?

Bu vaxt səs-küyə Əhmədin anası qapıya çıxdı, oğlunu qucaxlayıb dedi:

– Ay oğul, yoxsa evimizi tanımırsan. Sən gedəndən sonra arvadın tikdirib.

Bəli, Əhməd evə girib cah-cəlalı gördü, heyran qaldı. Padşah qızı onu görüb qabağına çıxdı. Evi necə tikdirdiyini ona söylədi. Sonra Əhmədin göndərdiyi qozu qırıb içindən bir dəst ipəkdən padşah paltarı çıxardı. Paltarı Əhmədə geyindirib dedi:

– Əhməd, indi hazırlıq görüb atamı qonaq çağıracam. O səndən nə soruşsa, düzünü deyərsən.

Səhər oldu, qız atasını bütün başının adamlarıynan qonaq çağırdı. Padşah içəri girib gözlərinə inanmadı. Öz sarayı bunun yanında tövlə hesabındaydı. Yeyib-içəndən sonra padşah Əhməddən soruşdu:

– Deyin görüm bu cəlalı kim düzəldib, bu evi kim tikib?

Əhməd bütün əhvalatı başdan-ayağa kimi padşaha söyləyib dedi:

– Padşah sağ olsun, bu evi sənin qızın tikib.

Qız bu sözü eşidən kimi üzünü atasına tutub dedi:

– Ata, indi gördün ki, evi arvad tikər.

Padşah qızının doğru dediyini görüb başını aşağı saldı. Təzədən yeddi gün, yeddi gecə toy eləyib qızını Əhmədə verdi.

Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl söyləyənin, mən sağ, siz salamat, mən yüz yaşayım, siz iki əlli, hansı çoxdu siz götürün, qalanını mənə verin.

## CİN

Bir gün babam atını minib şəhərdən kəndə gəlirmiş, atı inciməsin deyin elə qantarğanı buraxıb atı yavaş-yavaş sürürmüş, bir də baxır ki, axşam qaranlığı düşür, kəndə hələ çox qalıb, atı nə qədər dəhmərriyir bərk sürə, görür yenə evə çatmayacaq. Bir də eşidir ki, qabaqdan səs-küy gəlir, çalmaq, oynamaq səsi də getdikcə artır. Babam fikirləşir ki, ay gidi, bura keyf məclisinə oxşayır, elə yaxşı oldu, gedərəm ora, heç olmasa məni yanlarına qoymasalar da, onların hiyəninə çəkilib bir kənarda yataram, sabah açılanda durub yola düşərəm. Elə kişi bu fikirnən gedirmiş, bir də görür ki, onu öz adıynan çağırırlar. Öz-özünə deyir: "Bunlar kimdisə məni tanıyırlar". Odu ki, ürəklənib onların yanına gedir. Görür ki, pəh, burda bir vurhavur var, bir hay-küy var, elə bil qiyamət qopur. Bir tərəfdə dirədöymə[1] oynayırlar. O biri tərəfdə çalmaq, oxumaq, yemək, içmək, bir vur çatlasındı ki, gəl görəsən.

Bunlar babamı görən kimi o saat tez onu ortaya alıb o qədər oynadırlar, güldürürlər ki, az qalır kişi özünnən gedə. Sonra da babamı oturdub, qabağına ət, şirni tökürlər, bir az da ciblərinə doldururlar ki, evinə aparsın.

Burdakılar babamın qabağına aş qoyanda tez-tez ona deyirlər ki, nə badə dilindəki sözü deyəsən, demə ha, onda məclisimiz dağılar. Kişini xof götürür ki, ey dili-qafil, bura lap cinnər yığnağına oxşayır. Özü də bunlar əcayib-qərayib şeylərdi, üzlərinə baxanda adam qorxur.

Oynayanların içində birinin tumanı lap onun arvadının tumanına oxşadığını da sezir. Tez əlini yağlı aşa batırıb tumanın ətəyinə vurur ki, yağ ləkəsi düşsün, sonra gedib evdə bu işi yoxlasın. Məclisdəkilər kişini məcbur edirlər ki, aşdan yesin. Babam bismillah deyib əlini aşa uzadanda görür ki, nə məclis, nə adam, nə toy, nə aş, Heç biri yoxdu. Özü də qəbiristanlıqda bir qəbirin üstündə oturub. Babam başa düşür ki, cinnər yığnağına düşübmüş, tez atını minib birbaş qan-tər içində gəlir evinə. Başına gələn, əhvalatı söyləyir. Tez əlini cibinə salır ki, cinlərin qoyduğu şirnini çıxartsın, baxır ki, cibindəki sümük, bir də təzək qırıxlarıdı. Sonra arvadının tumanını gətirib baxır. Görür ki, öz əlinin yağlı ləkəsi necə ki, vurmuşdu, elə də durur.

Arvad deyir:

– A kişi, dünən bu tumanı axtarırdım, tapa bilmirdim, elə öz-özümə deyirdim yəqin tumanı cinnər aparıb.

Babamın arvad-uşağı onun cinnər əlindən salamat qurtardığına sevinirlər.

Aradan bir neçə gün keçəndən sonra babam görür ki, atı yaman arıxlayıb. Nökərə tapşırır ki, ata yaxşı baxsın. Nökər deyir:

– Ay ağa, axı at neyləsin, hər gecə minib yorursan, gətirib qan-tər içində tevləyə bağlayırsan, o da arıxlayır.

Babam məəttəl qalır:

– A kişi, sən nə danışırsan, on beş-iyirmi gündən çoxdu mən ata minmirəm, utanmırsan yalan danışırsan?

Nökər and-aman eləyir:

– Ağa, vallah hər gecə atı qan-tər içində görürəm, mən də elə bilirəm sən minibsən.

Babam qalır mat-məəttəl ki, yəqin burda bir sirr var. Odu ki, başlayır bir gecə atı güdməyə. Gecədən xeyli keçmiş bir də görür ki, insana oxşar əcayib bir şey atı minib getdi, səhərə yaxın qan-tər içində gətirib tövləyə bağladı, başladı atın yalmanını hörməyə, sonra da birdən-birə qeybə çəkildi. O saat babam başa düşür ki, bunlar cinlərdi. Odu ki, günüz atın belinə qırsaqqız salıb, özü də nökəriynən tövlənin bir küncündə gizlənir. Bir də görür ki, gecənin yarısında həmən cin gəlib atı mindi. Tez hay-küy salıb onu tutmaq istəyirlər. Cin nə qədər eləyir atın belindən qopa bilmir, qıra yapışır qalır, nökər tez cinin paltarına iynə sancır. Cin iynədən qorxduğuna görə qaça bilmir. Cini

tutub evdə işlədirmişlər. Cin hər işi tərsinə eləyərmiş. Zibili eşiyə at deyəndə, cin eşikdən zibilləri evə gətirərmiş. Cin hər gün yalvararmış ki, üstündəki iynəni çıxartsınlar. Çünki cinlər iynədən qorxurlar, özü də iynəni onların üstündən çıxardan kimi qaçıb yox olurlar.

Bir gün evdə balaca qız uşağından savayı heç kim yoxuymuş. Cin uşağı alladır:

– Ay qəşəng qız, sənə alma verəcəm, gəl mənim paltarımnan iynəni çıxart, əlimə tikən batıb, onu çıxardacam.

Uşax iynəni cinin yaxasından çıxardan kimi yoxa çəkilir. Gəlib görürlər ki, cin qaçıb.

Babam bir də gözünü açıb görür ki, bunların hamısını yuxuda görürmüş.

## HİLLİLİMNƏN GÜLLÜLÜM

Bir kişiynən bir arvad varıymış. Arvadın adı Hillilim, kişinin adı Güllülüm iymiş. Bunların aman-zaman gözlərinin işığı bircə qızları varıymış. Qızlarını gəlin köçürüblərmiş, amma çoxdanıymış ki, ondan xəbərləri yoxuymuş.

Qızın dədəsi bir gün arvadına deyir:

– Ay Hillilim, qızımızı köçürdük getdi, amma heç bilmirik necə dolanır, gəl bir gün gedək görək başına nə iş gəlib, necədi.

Hillilim deyir:

– Ay kişi, əliboş burdan ora tullana-tullana nə cür gedək, çıx bazardan bir az ayınnan-oyunnan al.

Kişi deyir:

– Ay Hillilim, ayın-oyunnan sonra daha nə alım?

Hillilim deyir:

– Heç nə.

Bir az gedəndən sonra "ayın-oyun" sözü kişinin yadından çıxır bircə "heç nə" sözü yadında qalır. Bu söz də kişinin yadından çıxmasın deyə elə hara gedirsə, heç nə, heç nə deyə-deyə həmən sözü dilindən yerə qoymur. Bəli, başı qarışır, düz gedib şəhərin qırağına çıxır. Görür ki, bir adam çayda balıq tutur. Yavaşca bir daşın üstündə oturub öz-özünə deyir:

– Heç nə, heç nə!

Balıqçı torunu bir atır suya, heç nə çıxmır, iki atır, heç nə çıxmır. Görür elə bu kişi tez-tez heç nə, heç nə deyir. Elə bilir bu sözləri balıqçıya deyir, durub acığından kişini bərk döyür. Kişi deyir:

– Ay qardaş niyə məni döyürsən?

Balıqçı deyir:

– Sən mənə qarğıyırsan, toruma heç nə düşmür, mən də səni döyürəm.

Kişi deyir:

– Bəs nə deyim ki, sən məni döyməyəsən?

Balıqçı deyir:

– Deynən ki, irili-xırdalı onu, on beşi birdən.

İndi də kişi bu sözü deyə-deyə başlayır getməyə. Az gedir, üz gedir, dərə-təpə düz gedir, iynə yarım yol gedir, gedib bir ölü yerinə çıxır. Başlayır indi də burda öz-özünə "irili-xırdalı onu, on beşi birdən" deməyə. Ölü sahibi görür bu kişi ona qarğıyır.

Ev sahibi öz-özünə deyir: "Ədə, mənim dağ kimi oğlum ölüb bəs deyil, bu zalım oğlu qarğış eləyir ki, irili-xırdalı onu, on beşi birdən". Durub kişini o qədər döyür ki, az qalır canı çıxsın. Güllülüm deyir:

– Ay qardaş, döymə məni, bir də bu sözü demərəm. İndi nə deyim ki, məni buraxasan?

Ölü sahibi deyir:

– Deynən ölən bircə bu olsun, daha heç kim ölməsin.

Kişi indi də bu sözü deyə-deyə gedib bir toy məclisinə çıxır. Görür evə başı bəzəkli bir qəşəng gəlin gətirdilər. Kişi gəlinə baxa-baxa tez-tez deyir:

– Ölən bircə bu olsun, daha heç kim ölməsin.

Gəlinin nişanlısı kişinin belə dediyini eşidib, onu möhkəmcə əzişdirir, baş-gözünü yarır. Kişi deyir:

– Ay qardaşlar, bəs nə deyim məni döyməsinlər.

Adamlar öyrədir:

– A kişi, deyinən ki, Allah uzun ömür versin, oğullu-uşaqlı olsunlar.

Kişi indi də bu sözləri deyə-deyə gedib görür ki, küçədə uşaqlar it boğuşdururlar. İtlərə baxıb deyir:

– Allah uzun ömür versin, oğullu-uşaqlı olsunlar.

Uşaqlar bu sözləri eşidən kimi kişini daşa basırlar ki, adam da itə elə deyərmi?

Kişi deyir:

– Ay uşaqlar, bəs nə deyim?

Uşaqlar deyirlər:

– Deyinən ki, alaş, qıs! Bozdar, qıs!

Kişi indi bu sözləri deyə-deyə gedib bir məscidin qabağına çıxır. Görür ki, iki qazı bir-biriynən dalaşır, deyir:

– Alaş, qıs! Bozdar, qıs!

Qazılar bu sözləri eşidib od tutub yanırlar. Biri-birindən əl çəkib düşürlər kişinin üstünə. O ki, var döyürlər.

Kişi bir təhər bunların əlindən çıxıb, suyu süzülə-süzülə kor-peşman evə qayıdır. Arvadı deyir:

– A kişi, bu nə gündü düşübsən?

Kişi deyir:

– Arvad, sənin dediyini axtarmağa gedəndə döyüb məni bu günə qoyublar.

Arvad deyir:

– Mən sənə nə demişdim ki, onu axdarırdın?

Kişi deyir:

– Sən demədinmi ki, "heç nə" al.

Arvad deyir:

– Ay sənin başına kül. "Heç nə" adlı şey var? Mən dedim ki, yəni heç nə lazım deyil.

Arvad gördü əri əliboş gəlib çıxıb, durub evdən bir tulux bəhməz, bir cüt çarıx, bir az da iflik götürür. Hillilimnən Güllulüm şeyləri dallarına şəlləyib başlayırlar qızlarının evinə getməyə. Bunlar kənddən çıxıb bir quraqlıq yernən gedirmişlər. Görürlər ki, susuzluqdan yer çatlayıb. Hillilim deyir:

– A kişi, heç sənin insafın yoxdumu, görmürsənmi yer acınnan, susunnan ayrılıb, çat-çat olub. Gəl bu bəhməzdən bir az tökək, yer acınnan ölməsin.

Kişi arvadının xasiyyətini bilirdi, əgər yox desə, bütün günü başıbeyni gedəcəydi, odu ki deyir:

– Yaxşı, tuluğun ağzını aç, bir azca tök.

Arvad tuluğun ağzını açıb bəhməzin hamısını tökür yerin çatdağına Bir az da gedəndən sonra yolda bir qara qarğaya rast gəlirlər. Görürlər qarğa ayağının birini yerə qoyub, o birini qarnının altında gizləyib. Arvad yenə iki ayağını bir başmağa dürtüb deyir:

– Güllülüm, səndə nə insaf var, nə mürvət, görmürsən mi yazıq qarğanın ayağında heç nə yoxdu deyin üşüyür. ayağının birini qoyub, o birini götürür. Aparıram bu çarıxları ona verəm.

Kişi deyir:

– Ay arvad, Allaha bax, Tanrıya bax, quş da çarıx geyərmi?

Elə arvad nırx deyib durur ki, olmaz. Axırı kişi görür arvadnan bacarmır, deyir:

– Cəhənnəmə olsun çarıx da, sən də, apar ver.

Arvad aparıb çarığı qarğanın qabağına atıb gəlir. Başlayırlar yol getməyə. Gəlib bir meşəyə çıxırlar. Görürlər bir yekə ağac kötüyündən ayrılıb, çatdayıb. Arvad deyir:

– A kişi, ayaz vurub yazıx ağacı çatdadıb, bu ağacın qalın paltarı olsaydı belə ayrılmazdı. Gəl bu kələfi dolayax ağacın belinə.

Kişinin cin vurur beyninə, deyir:

– Arvad, neyləyirsən elə!

Arvad kələfin hamısını ağaca dolayıb əliboş başlayırlar qızının evinə getməyə. Bir fəməl-yəməlnən qızının evinə çatırlar, görüşüb-öpüşəndən sonra kişi yolda arvadının onun başına gətirdiyi işdəkləri bir-bir qızına söyləyir. Qızı deyir:

– Ay dədə, yaxşı ki, ərim evdə yoxdu. Bu sözləri onun yanında deyib məni biabır eləmə.

Bir azdan sonra qız bunları evdə qoyub gedir ərini çağırsın. Qız gedənnən sonra arvad baxıb görür qızının evi düm ağappaxdı. Öz-özünə deyir ki, yəqin bu ev də adam kimi azarlayıb, rəngi qaçıb, elə bil meyit kimi ağarıb. Durub bir az suynan mal peyinini qarışdırıb evi suvayır. Qızı qayıdıb görür ki, anası divarlara suvax çəkib. Deyir:

– Ana, bunu niyə belə elədin?

Arvad deyir:

– A qızım, gördüm evin rəngi qaçıb, rənglədim.

Qız görür iş-işdən keçib, odu ki, heç üstünü vurmur. Bir-iki gün keçəndən sonra qız dədəsinə deyir:

– Ay dədə, sən allah bu anamı burdan tez apar, bir az da qalsa məni biabır eləyəcək.

Kişi qızının sözünə baxıb arvadını da götürüb gəlir evlərinə.

Kişi evə gələnnən sonra gedib bir xaşa pambıq alır. Arvadına deyir:

– Arvad, bu pambığı əyir, corab toxu, satax, başımızı dolandıraq.

Kişi görür arvad əlini ağdan-qaraya vurmur.

– Ay arvad, bəs pambığı niyə əyirmirsən?

Arvad deyir:

– Ay kişi, vallah hələ hırım tutmayıb, havaxt hırım tutsa onda əyirəcəyəm.

Kişi arvadının xasiyyətinə bələd idi deyin heç nə deməyir.

Günlərin bir günündə iş belə gətirir ki, Hillilimnən Güllülüm Kürü keçirlərmiş, suyun lap ortasında birdən arvad deyir:

– A kişi, hırım tutdu, pambığı ver əyirim.

Kişi deyir:

– Kül sənin başına, mən bu suyun ortasında hardan alım pambığı ki, sən əyirəsən, evə gedəndə verərəm.

Arvad deyir:

– Axı evdə mənim hırım tutmayacaq.

Arvad evə gələndən sonra pambığı da aparıb bir gölün qırağında oturur ki, əyirsin. Görür qurbağalar qurhaqur quruldayır. Arvad deyir:

– Ay qurqur bacılar, ərim mənə pambıq verib ki, əyirəm, pambığım çoxdu, gücüm çatmır, mənə kömək eləyin.

Qurbağalar yenə başlayırlar quruldamağa. Arvad elə bilir ki, qurbağalar razıdı. Odu ki, pambığın hamısını gölə töküb deyir:

– Qurqur bacılar, sabah gəlib aparacam, tez-tez əyirin.

Sabah arvad gəlib gölün qırağında durub nə qədər çağırırsa qurbağalardan səs çıxmır. Axırda suya girib deyir:

– Siz ki, mənim pambığımı vermirsiniz, evinizdə nə tapsam aparacam.

Arvad gölün dibini nə qədər axtarırsa, heç nə tapmır. Axırda suyun dibinnən bir daş tapır. Daşı götürüb gətirir evə. Kişi deyir:

– Arvad, bu nədi əlində?

Arvad deyir:

– A kişi, pambığı vermişdim qurbağalar əyirsin. Onlar mənim pambığımı vermədilər, mən də gedib onların evindən cəhrə daşlarını götürüb gəldim.

Kişi görür bu daş deyil, tamam ləldi. Deyir:

– Arvad, bu çox qiymətli daşdı, bunu bərk saxla.

Bir gün kişi evdə yoxuymuş. Arvad görür qapıya bəhməzsatan gəlib. Gətirib daşı verib bəhməz alır. Bəhməzdən doyunca yeyir, axırıncı qurtumu içəndə yadına düşür ki, bəs ərimə bəhməz saxlamadım. Odu ki, ağzındakı bir qurtumu da ərinə saxlayır. Bir azdan sonra əri gəlir. Görür arvadın ordları dombalıb. Xəbər alır:

– Nə olub?

Arvad lal oyunu çıxardıb ağzında ona bəhməz saxladığını əl-ayağıynan başa salmaq istəyir. Kişi başa düşmür, elə hey deyir ki, de görüm nə olub? Arvad ağzın açıb ərinə cavab vermək istəyəndə birdən ağzındakı bir qurtum bəhməzi udur. Kişi əhvalatı bilib, arvadı evdən qovur.

Arvad yol başlayıb gedirmiş, birdən qabağına bir toyux çıxır. Elə bilir ki, əri toyuğu onun yanına minnətçi göndərib, deyir:

– Ay kiş-kiş bacı, zəhmət çəkmə, getmərəm.

Bir az gedəndən sonra qabağına bir pişik çıxır. Bu dəfə də deyir:

– Ay piş-piş bacı, havayı zəhmət çəkmə, gedən deyiləm.

Bir-iki addım gedəndən sonra qabağına bir it çıxır.

Bu dəfə də deyir:

– Ay ham-ham qardaş, boğazını cırma, gedən deyiləm.

Arvad görür bir dəvə buna sarı gəlir. Demə bu dəvə padşahın xəzinəsini aparan karvandan azıbmış, üstü də tamam qızılnan, daş-qaşnan dolu imiş. Arvad dəvəni görən kimi deyir:

– Ay sallax dodax, ərim kimi minnətçi göndərdi ki, qayıdam, heç biriylə getmədim, indi neyləyim, sən gəlibsən, yaxşı düşməz sənin də sözünü yerə salam, gəl gedək – deyib arvad dəvənin başın çəkə-çəkə gəlir ərinin yanına. Əri bir də görür ki, arvad yanında bir dəvə yükü qızılnan gəlib. Kişi tez dəvənin yükünü boşaldıb, dəvənin başını kəsir, arvadına tapşırır:

– Bax, əgər bir adama bir kəlmə bu haqda söz desən padşah ikimizi də dar ağacından asdıracaq.

Arvad deyir:

– A kişi, indi ki, dəvəni kəsdin, mən də qayıdıb gəlmişəm, toyumu təzədən elə.

Kişi görür ki, arvadının beyninə düşən işi eləməsə, başı cəncəl çəkəcək. Odu ki, deyir:

– Arvad, dur bu saat sənin toyunu eləyim.

Kişi arvadı salır təndirə, təndirin ağzına bir məcməyi qoyub, içinə də bir az darı tökür, sonra da toyux-cücəni düdülüyüf çağırır. Toyuxlar məcməyidəki darını dənlədikcə dınqıltı səsi çıxır. Arvad elə bilir ki, onun toyudu.

Bəli, arvad təndirdə toya qulaq asmaqda olsun. Kişi dəvənin ətini yerbəyer eləyir, sonra arvadı təndirdən çıxarır ki, gəl, daha toyun qurtardı.

Bunları burda qoyax, görək padşah itən dəvəsini necə axtarır. Dəvə itən kimi padşah bir imansız kaftar qarı tapıb deyir:

– Qarı, mənim bir dəvəmi oğurlayıblar, indi sən düş qapı-qapı dəvə əti axtar, kimdə tapsan gəl mənə xəbər ver, sənə çoxlu qızıl verəcəm.

Qarı qızıl adını eşidən kimi gözləri mişovul siçanı kimi bərəlir. O saat çarçoyunu başına salıb düşür qapı-qapı dəvə əti axtarmağa. Heç yerdə tapa bilmir. Elə qayıdıb gəlirmiş, birdən yadına düşür ki, bircə Hillilimgil qalıb. İçəri girib yağlı dilini işə salır. Kişi də evdə yoxuymuş. Qarı arvadı dilə tutub deyir:

– Ay səni görüm ərinlə qoşa qarıyasan, oğlum xəstədi, can üstədi, həkimlər deyir ki, dəvə əti yesə yaxşı olar. İndi bütün şəhəri gəzmişəm, dəvə əti tapa bilmirəm, bəlkə sizdə ola. Bircə tikə olsa oğlum yeyib sağalar, sizə duva eləyər, özü də ki, osanata keçər.

Arvadın ürəyi yumşalır, gətirib dəvənin ətindən bir pişirim qarıya verir. Qarı əti alan kimi gedib padşaha xəbər verir. Padşah o saat kişini əli-qolu bağlı gətirtdirir. Kişi əli-qolu bağlı gedəndə deyir:

– Arvad, səni görüm dilim-dilim olasan, dilini özündə saxlasaydın belə olmazdı. İndi mən gedirəm, heç olmasa qapıdan-bacadan muğayat ol.

Kişini aparırlar, nə qədər döyürlərsə boynuna heç nə qoya bilmirlər. Axırda qalırlar şübhədə ki, bunu assınlar, yoxsa yox. Bu hində bir də görürlər ki, bir arvad qapı-bacanı söküb yükləyib dalına, düz gəlir ərinin yanına.

Padşah deyir:

– Kişi, bu nə əhvalatdı?

Kişi deyir:

– Arvad, bu nədi?

Arvad deyir:

– Sən demədinmi qapıdan, bacadan muğayat ol. Mən sənin yanına gəlmək istədim, gördüm qapı-baca qaldı tək, qorxdum oğurlayıb aparalar, söküb yüklədim dalıma.

Kişi üzünü padşaha tutub deyir:

– Padşah sağ olsun, bax bu cür ağlı olan bir arvadın sözüynən məni tutub əl-ayağımı bağladıbsan, bu heç danışığını bilmir ki...

Padşah görür ki, doğrudan da arvad gicbəsərin biridi. Kişinin əl-ayağını açdırıb buraxır. Kişi arvadını qabağına salıb dannaya-dannaya evə gətirir, deyir:

– Arvad, nə qədər ki, sən ağıllanmayıbsan, elə mənim başım qiylü-qalda olacax.

Arvad cavab verir:

– Kişi, nə danışırsan? Sən məndən də betərsən. Bazara gedib heç nə üstündə şil-küt qayıtdığın yadından çıxıb?

Kişi bir az fikirləşib deyir:

– Hə arvad, düz deyirsən. Yaxşı deyiblər, su axar çuxuru tapar.

## PADŞAH VƏ DƏMİRÇİ

Biri varıymış, biri yoxuymuş, bir padşah varıymış. Bunun varının, dövlətinin həddi-hesabı yoxuymuş, lap harunluq[1] eləyirmiş. Bir gün padşah vəzirini hüzuruna çağırıb deyib:

– Vəzir, bilirsənmi nə var?

– Qibleyi-aləm sağ olsun, xeyr, bilmirəm.

– Vəzir, bax, Hatəm[2] kimi cahi-cəlal desəm məndə, qoşun desən məndə, qüvvətli pəhlivanlar desən məndə, yeddi iqlim torpağında mənim hökmüm keçir. Hansı padşahı desən onun torpağını at torbasında daşıtmağa gücüm çatar. Amma bununla belə başım fikirdən ayılmır. Gündüzlər gülürəm, danışıram, gecələr sabaha kimi fikirləşirəm ki, yavaş-yavaş saqqalıma dən düşür, günlərin birində başımı yasdığa qoyacağam. Öləndən sonra yerimdə oğuldan-qızdan bir övladım-zürüyyətim yoxdu ki, taxtı-tacımı ona tapşıram. Odu ki, deyirəm görəsən mənnən də çox fikir çəkən, dərdli adam varmı?

Vəzir söylədi:

– Şah sağ olsun, dünyada dərdsiz, fikirsiz adam tapılmaz.

Bu sözün üstündə padşahnan vəzirin arasında mübahisə başladı, o gündən padşahın adamları şəhərbəşəhər, kəndbəkənd gəzib dərdsiz adam axtardılar. Kimə yaxınlaşdılarsa, gördülər hərənin bir dərdi var. Axırda gəlib padşaha dedilər:

– Hər yeri gəzdik, dərdsiz adam tapa bilmədik.

Padşah yenə dedi:

– Vəzir, mən inanmıram, gəl təğyiri-libas olaq, çıxaq vilayəti özümüz gəzək, onda taparıq.

Bəli, padşahnan vəzir paltarlarını dəyişib düşdülər bazar-dükəni gəzməyə, ora getdilər, bura getdilər, axırda bir dükənə girib dedilər:

– Salaməleyküm!

Dükənçi dedi:

– Əleyküməssəlam. Ay siz xoş gəlibsiniz, beş gəlibsiniz, deyin görüm nə almaq istəyirsiniz, bu saat gətirim.

Padşah dedi:

– Heç bir şey almaq istəmirik, gəzirdik, elə bir az yorğunluğumuzu almaq üçün bura girdik, bir balaca söhbət eləyək, dərdimiz dağılsın.

Dükənçi qaşqabağını turşudub dedi:

– Vallah oturub danışmağnan keyfim açılası deyil.

Padşah dedi:

– Niyə?

Dükənçi cavab verdi:

– Necə niyə? Neçə vaxtdı ki, malım satılmır. Elə bil heç kimin pulu yoxdu. Mal alan da nisyə aparır, bir qəpik də pul vermir. İndi anbar dolusu malım var, amma çörək almağa pulum yoxdu. Bu halnan nə keyfim olsun.

Padşahnan vəzir gördülər yox, kişinin dərdi var. Yavaşca çıxıb getdilər. Yolda bir bağbana rast gəlib onun keyfini xəbər aldılar. Bağban ahı-zarnan dedi:

– Ay qardaşlar, nə keyfim olacax, var-yox bir bağım varıydı. Padşahın cuvarrarı suyumu kəsib bağı susuz qoyublar. Ağaclarımın hamısı quruyub, tələf olub, indi onun fikrindəyəm ki, görən neyləyim.

Padşahnan vəzir burdan da getdilər. Yolları bir ölü məclisinə düşdü. Girdilər yas məclisinə, kimə yanaşdılarsa, dərdsiz adam tapa bilmədilər. Biri dedi:

– Qızım cavan öldü, dünyadan nakam getdi.

O biri dedi:

– Gözümün ağı-qarası bircə oğlumu padşah dar ağacından asdırdı.

Padşah dedi:

– Vəzir, bura yas yeridi, burda hamı dərdli olar, gəl indi də bir toy məclisinə gedək.

Hər ikisi evdən çıxıb bir toy məclisinə getdilər. Qapıdan girən kimi gördülər çalan kim, oxuyan kim, oynayan kim, gülən kim. Bir keyf var ki, gəl görəsən. Padşah dedi:

– Vəzir, biz axtardığımızı tapsaq burda tapacayıq.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, təki elə olsun, amma bu adamların ürəyini burda bilmək olmaz, toydan sonra görərik.

Birdən padşahın gözü bir adama sataşdı, gördü ki, məclisin lap başında bığıburma bir kişi oturub, üzünə baxan kimi başlayır gülməyə, ayağa duranda qolları özündən qabağa gedir, az qalır göyə uçsun. Özü də ona nə qədər deyirlərsə ye, deyir ki, vallah elə gündə evimizdə toydu, indicə yeyib gəlirəm. Padşahnan vəzir ha istəyirdilər ki, bu adamnan danışsınlar, firsət düşmürdü. Bunlar o qədər gözlədilər ki, toy məclisi dağıldı, həmən kişi evinə gedəndə qarabaqara onun dalınca getdilər. Kişi evinə girəndən bir az sonra padşahnan vəzir qapını döydülər. İçəridən bir nəfər gəlib qapını açdı. Qapıya gələnə dedilər:

– Qərib adamıx, gecə qalmağa yerimiz yoxdu. Sizdə gecələməyə yer verərsinizmi?

Ev sahibi dedi:

– Qardaşlar, gecə vaxtı qonağı qapıdan qaytarmazlar, buyurun içəri.

Padşahnan vəzir içəri girdilər. Ev sahibi onlara yer görsətdi, oturdular. Qonaxlar baxıb gördülər ki, bu kişinin evi padşahın evindən də qəşəngdi. Padşahın evi bunun yanında ayı balasınnan tikilmiş daxmaya oxşayır. Qapısında qulu, qulluxçusu, evi başdan-ayağa ləl-cavahirat içində. Başladılar söhbətə, bir də gördülər ki, çay-çörək gəldi. Oturub çörək yeməyə başlayanda ev yiyəsi bir ah çəkdi. Padşahnan vəzir qaldılar məəttəl ki, yəqin bunun da dərdi var ki, belə ah çəkir. Odu ki, dedilər:

– Qardaş, niyə ah çəkdin?

Kişi dedi:

– Heç, elə belə.

Padşah nə qədər elədisə, kişi demək istəmədi. Axırda vəzir dedi:

– Qardaş, bizlərdə adətdi, qonağa hörmət eləyərlər, əgər sən dərdini bizə deməsən əlimizi süfrəyə uzatmayacayıx.

Kişi əlacsız qalıb dedi:

– Vallah Allahdan gizlin deyil, bəndədən nə gizlin.

Mənim çörək yeməyə qollarım yoxdu.

Vəzir dedi:

– Bəs axı biz sənin qollarını görürük.

Kişi dedi:

– O gördüyünüz mənim qolum deyil, paltarın qoluna saman doldurmuşam, odu.

Çuxanı kişinin əynindən çıxarıb gördülər doğrudan da qolları yoxdu. Vəzir bu əhvalatı görən kimi barmağını dişlədi. Padşah dedi:

– A kişi, sənin qolunu kim bu günə salıb?

Kişi dedi:

– Bizim bu zalım, ağılsız, hər yalana inanan padşahımız.

Padşah bu sözü eşidən kimi cin vurdu başına, amma özünü saxladı, dedi:

– Axı bir de görüm padşah niyə sənin qolunu kəsdirib?

Kişi dedi:

– Mənim dükənim varıydı, dəmirçilik eləyirdim, özü də ustalıqda adım çıxmışdı, hamı məni tanıyırdı. Bir gün padşahın darğası gəldi ki, padşahın əmrinə görə ona elə bir qılınc qayırasan ki, daşa vuranda iki parça eləsin, bir tük qədər də ağzı əyilməsin. Mən padşaha layiq gözəl bir qılınc qayırdım, sabahı günü oğlan gəlib qılıncı apardı. Üstündən bir gün keçmiş bir də gördüm ki, başdan-ayağa qırmızı geyinmiş iki cəllad dükənə girib elə oradaca qolumu qılıncla vurub saldılar.

Cəlladlardan biri dedi:

– Padşahı alladıb ona sınıx qılınc qayıranın qolların bax belə kəsərlər, padşah özü belə əmr eləyib.

Dedim:

– Mənim qayırdığım qılınc daşı parça-parça eləyir, bu olan iş deyil.

Cəlladlar gedib əhvalatı padşaha söyləyirlər. Padşah inanmır. Amma padşahın vəziri ağıllı adam idi. O başlayır şübhələnməyə ki, yəqin darğanın qılınca tamahı düşüb, dəyişib, əvəzinə ayrısını verib. Başlayır bu sirri öyrənməyə. Bu tərəfdən də mən hər yerdə padşahın elədiyi zülmü camaata söyləyirdim.

Padşah özünü saxlaya bilməyib dedi:

– A kişi, sənin bu boyda dərdin var idi, bəs niyə üzünə baxana elə hırıldayıb gülürdün?

Kişi dedi:

– Qonax qardaş, bir az səbrin olsun, qoy sözümü danışım, elə bu saat deyəcəydim niyə mən həmişə gülürdüm. Sözümü kəsdin. İndi deyim, onun da səbəbini bil. Elə ki, mən padşaha lənət oxumağa başladım, bu söz gedib padşahın qulağına çatdı. Bu dəfə vəziri yanıma göndərdi ki, əgər bir də mənim zalımlığımnan danışsa, onu dar ağacından asdıracam. Yox, əgər hər yerdə məni tərifləyib, gülüb-hırıl-

dasa onda onunla işim yoxdu. Vəzir padşahın bu əmrini mənə söyləyəndən sonra mən başladım üzdə həmişə yalannan gülüb-danışmağa, amma ürəyimdə iki dəfə artıx qarğış, tökməyə. Mən gördüm ki, yanıma gələn vəzir həm insaflı, həm də ağıllı adama oxşayır. Odu ki, əhvalatı olduğu kimi ona danışdım. Vəzir dedi ki, arxayın ol, bu iş olsa-olsa darğanın kələyidi, mən onu tapacam.

Padşah özünü saxlaya bilməyib bir də soruşdu:

– Qardaş, bəlkə padşahı aldadıblar. Onda nə taxsır var?

Kişi dedi:

– Qonax qardaş, niyə uşax kimi danışırsan? Elə əsil taxsır ondadı da. Bəlkə biri gəlib yalandan deyəcək ki, mənim xoruzum gündə yüz yumurta yumurtlayır, gərək padşah ona inansın. Belə padşaha ağılsız adam deyərlər. Mən özüm dəmirçi adamam, amma bilirəm ki, padşahın gərək ağıllı, tədbirli, dünyagörmüş adamları ola, onların sözlərini də eşidəndən sonra bir özü yoxlaya, bəlkə elə onu alladırlar. Nə olardı ki, ya padşah, ya da onun adamları məni yanlarına çağırıb soruşaydılar ki, ay yazıx, axı sənin taxsırın nədi? Mən də açıb düzünü deyəydim, onda qolumu da kəsməzdilər.

Padşahla vəzir bir-birinə baxıb gördülər ki, bu kişinin dərdi hamıdan çoxdu. Gecədən xeyli keçmişdi. Odu ki, başladılar yatmağa. Yerə girdilərsə də yata bilmədilər. Vəzir padşaha yaxınlaşıb yavaşca dedi:

– Qibleyi-aləm, yadınıza gəlirmi, bu kişinin qollarının kəsilməsinə siz əmr vermişdiniz...

Padşah dedi:

– Vəzir, yaxşı yadımdadı. Mən indi başa düşürəm ki, elə bütün əmrləri belə vermişəm. Lap əbləh olmuşammış. Yaxşı ki, əbabil quşları[3] mənim qoşunlarımı qırıb çatmayıblar. Öz adamlarıma inanıb, özgələrinin sözünə qulax da asmamışam. Bir də mənim torpağımdakı adamların dərdli, qəmli olmalarının da səbəbi deyəsən elə özüm olmuşam. Çünki biz rast olduğumuz adamların hamısı padşahın zülmündən danışırlar. Mən bu gündən zalımlığımdan əl çəkirəm. Bundan sonra lap atam da olsa hamıya bir göznən baxacam. Kasıb-kusuba, əlsiz-ayaqsızlara, qocalara, yetimlərə, dullara əl tutacam. Amma vəzir, gərək burdan gedəndən sonra darğanı yoxlayax.

Vəzir dedi:

– Şahım, o işi mən özüm yoxlaram.

Padşah dedi:

– Vəzir, nə yoxlamaq, gedən kimi çağırıb deyərəm qılıncı gətir, o da gətirər, sonra da boynunu vurduraram.

Vəzir dedi:

– Qibleyi-aləm, elə sənin səhvin ordadı ki, kələkbazdan doğruluq gözləyirsən. Axı o bilir ki, qılıncı gətirib sənə görsətsə, işlərin üstü açılacax, onda heç onu gətirərmi? Bu işdə tədbir lazımdı. İndi o tədbiri mən görüm, sən də bax.

Bəli, səhər açıldı, qonaxlar ev sahibinə halal-xoş eləyib gəldilər öz yerlərinə. Padşah dedi:

– Vəzir, indi tədbirini gör görək.

Vəzir dedi:

– Şahım, əmr ver ki, sabah meydanda ox atmax, qılınc vurmax, at çapmax günüdü, kimin yaxşı nəyi varsa çıxartsın. Kimin qılıncı yaxşı kəssə, atı ötsə, ona baxşeyiş veriləcək. Onda darğa da o qılıncı çıxardar, biz də tanıyarıx.

Bəli, padşah o saat əmr verdi. Səhər tezdən meydan doldu adamnan. Padşah, vəzir, vəkil, əyan, əşrəf, hamı yığıldı meydana. Şeypurlar çalındı, iyidlər meydana girdi. Kimi at çapır, kimi qılınc vurur, kimi qalxan tuturdu. Padşahnan vəzirin gözü darğadaydı. Bunlar baxıb gördülər ki, darğanın əlində bır qılınc var ki, baxanda adamın gözünü qamaşdırır. Özü də kimin qalxanına vurursa iki bölüb, bir qarış da başına yeriyir. Darğa bütün iyidlərin qalxanını qılıncıynan iki bölüb, özlərini də qanına qaltan eləyirdi. Padşah əmr elədi ki, darğanı gətirsinlər. Darğanı o saat gətirdilər. Padşah qılıncı alıb baxdı, bəli, qılınc ona qayrılan qılıncdı, hələ üstündə adı da yazılmışdı. Padşah qəzəblə darğaya dedi:

– De görüm, bu qılıncı hardan alıbsan?

Darğa istədi dana, gördü iş-işdən keçib. Taxsırını boynuna aldı.

Padşah o saat əmr elədi. Cəlladlar elə ordaca həmin qılıncnan darğanın boynunu vurub cəhənnəmə vasil elədilər.

## YETİM QIZ

Bir şəhərdə bir yetim qız varıymış. Bu qızın heç kimi yoxuymuş. Qız o qədər gözəliymiş ki, bir baxan deyərmiş ki, nə olaydı ona bir də baxaydım. Elə bil ki, huri-mələk, şəhla gözlü, şirin sözlü, hilal qaşlı, balınc döşlü, fındıx burunlu, açıq alınlı, güləbatın ətəyi, dili bal pətəyi, dişləri inci, gəl məni gör, dərdimnən öl... Bu yetim qız abır-ismətnən dolanırmış.

Bir gün qız bulaxdan su doldurduğu yerdə şəhər darğası qızı görür. Qızın gözəlliyinə vurulur. Öz-özünə deyir: "Nə olur-olsun, gərək o qızı alam". Darğa qızın dalına düşüb əhvalatı qıza söyləyir:

– Mən səni almaq istəyirəm.

Qız deyir:

– Ay darğa, sən yekə kişisən, özü də evdə arvad-uşağın var, sür-süfətindən də lap əntərə oxşayırsan, mən sənə getmərəm.

Darğa deyir:

– Mən səni zornan alacam.

Qız deyir, darğa deyir, qız razı olmur ki, olmur. Axırda darğa deyir:

– Bax, mənə gəlirsən gəl, gəlmirsən gedib qazının[1] yanına sənə şər atacam ki, mənim danamı oğurlayıbsan.

Qız deyir:

– Şər atmırsan, nə istəyirsən elə.

Darğa bir-iki toyux-cücə də götürüb gedir qazının yanına, üzünə hiylə niqabın geyib deyir:

– Qazı ağa, filan qız mənim danamı oğurlayıb, ona ağır cəza ver.

Qazı toyux-cücəni görən kimi baş üstə deyib o saat qızı çağırtdırır:

– Ay qız, utanmırsan, kişinin danasını oğurlayırsan?

– Ay qazı ağa, sən nə bilirsən ki, mən onun danasını oğurlamışam?

– Kişi özü deyir.

– Nə olsun ki, özü deyir, mən də özüm deyirəm ki, bu işdən xəbərim yoxdu, o mənə şər atır.

Qazı höcətliyinə salıb deyir:

– Ay qız, sənə deyirəm ki, kişi düz deyir.

Qız deyir:

– Qazı ağa, mən görürəm ki, səndə ədalət yoxdu. Heç şeydən xəbərin olmaya-olmaya bir şər-xətanın birinə inanıb adama cəza verirsən. İndi ki, belə oldu, nə istəyirsən elə.

Qazı bir gözaltı qıza baxıb görür ki, zalım qızı elə bil bir ay parçasıdı. Ürəyində öz-özünə deyir ki, bir təhər darğanı əksəm, elə bu qızı özüm alaram. Üzünü darğaya tutub deyir:

– Darğa, sən haqlısan, indi dur get evinə, mən bunun tənbehin özüm eləyərəm.

Darğa durub gedəndən sonra qazı deyir:

– Qızım, özün görürsən sənin cəzan böyükdü. Gəl sən mənə arvad ol, taxsırınnan keçim.

Qız deyir:

– Qazı ağa, mən oğru deyiləm, zornan məni taxsırlandırırsan, bir də lap oğru da olsam, heç sənə ərə gəlmərəm, babam yerində kişisən.

Qazı ayağa durub başlayır qıza əl atmağa. Qız görür ki, yox, qazı hadağadan çıxıbdı, ona bir şillə çəkib deyir:

– Kafdar, əlini özündə saxla!

Qız qazını vurub qapıdan çıxandan sonra qazı görür ki, gedib camaatın yanında onu biabır eləyəcək, tez durub başı odlu gedir padşahın yanına:

– Padşah sar olsun, burda bir qız var, hər yerdə yalannan yayır ki, padşah pis adamdı. Mən də çağırıb istədim ona cəza verəm, başladı mənə şər atmağa.

Padşah o saat qızı yanına çağırtdırıb deyir:

– Ay qız, bu nə işdi? Sən məni pisləyirsən?

Qız başına gələn əhvalatı tamam-kamal padşaha danışır.

Padşah da yaman şorgöz adamıymış. Görür qız çox gözəldi. O saat bir könüldən min könülə aşiq olur qıza. Padşah deyir:

– Qızım, əgər mənə gəlsən səni öldürtmərəm.

Qız görür ki, hiylə işlətməsə, bunun əlindən qurtara bilməyəcək. Deyir:

– Padşah sağ olsun, mən sənə ərə gedərəm, amma gərək heç kim hələ bu işi bilməsin. Sabah yox, biri gün axşam şər qarışanda gəl bizə, evdə təkciyəm, orda danışax.

Padşah bu işə razı olur. Qız ordan çıxıb gəlir qazının, darğanın yanına. Onları da tək-tək tutub deyir ki, sabah yox, birisi gün axşam şər qarışanda gəl bizə, evdə danışarıx.

Qız bunları burda qoyub gəlir evə, bir kənkan tapıb evin ortasında dərin bir quyu qazdırır. İki qara qazan da su qaynadır. Qız qonşularından bir qoca arvada da tapşırır ki, axşam şər qarışanda gəl bizə, söhbət eləyək. Qız bu işləri görüb qurtarır. Vaxt gəlib çatır. Hamıdan qabax darğa gəlir Qız darğanı bir az dilə tutub başlayır söhbətə, elə bu vaxt birdən qapı döyülür. Darğa deyir:

– Kimdi gələn?

Qız deyir:

– Ərimdi!

Darğa deyir:

– Bəs mən neyləyim?

Qız deyir:

– Gəl səni gizlədim.

Qız darğanın belinə ip bağlayıb sallayır evin ortasındakı quyuya ki, burda qal, sonra çəkib çıxardaram. Qız darğanı quyuya sallayandan sonra durub qapını açır. Bu dəfə də qazı içəri girir. Qız bir az qazıynan söhbət eləyir. Birdən yenə qapı tıqqıldayır. İndi də qazı deyir:

– Bəs mən harda gizlənim?

Qız onun da belinə ip bağlayıb quyuya sallayır. Sonra qapını açıb padşahı içəri buraxır. Bir azdan sonra yenə də qapı döyülür. İndi də padşah qorxuya düşür. Qız padşahı da kəndirnən quyuya sallayır. Bu dəfə gələn qızın qonşuluğundakı qarı imiş. Qız qarını içəri çağırıb bir az ordan-burdan söhbət eləyir. Qarı deyir:

– A qızım, bu qazanlar nədi asıbsan?

Qız deyir:

– Vallah bu evin ortasındakı quyuda çoxlu cür-cücü, ilan-çayan var, bu suyu qaynadıram ki, döküb onları yandıram.

Durub qarıynan qız qazanları sürüyə-sürüyə quyunun yanına gətirib suyu əndərirlər quyunun tərkinə, qaynar su padşahı, qazını, darğanı tamam yandırır.

Qarı durub gedəndən sonra qız baxıb görür ki, quyudakılar yanıb ölüblər. Kəndirin ucuna qarmax bağlayıb quyudan meyidləri bir-bir çəkib çıxardır, ağa bükür. Fikirləşir ki, mən bunları necə gizlədim? Elə bu fikirnən məhliyə çıxır, bir də görür ki, bir çoban qabarında da bir eşşək gedir. Tez çobanı çağırıb deyir:

– Çoban qardaş, mənim dədəm ölüb, aparıb onu basdırsan sənə pul verərəm, amma dərin yerə basdır, yaman üzlü ölüdü, çıxıb qəbirdən gəlməsin.

Çoban razı olur. Meyidi aparıb basdırır. Qız o gələnə kimi meyidin birini də kəfənləyib yerə uzadır. Çoban ölünü basdırandan sonra gəlib görür ki, kəfənli bir ölü da var.

Qız çobana deyir:

– Çoban qardaş, mən sənə demədimmi bu ölü yaman üzlüdü, onu dərin basdır ki, çıxıb qaçmasın.

Çoban deyir:

– Bacı, bu dəfə elə yerə aparacam ki, heç babası da gəlsə qaça bilməsin.

Çoban meyidi eşşəyə yükləyib aparır bir dağın başında hündür bir qayadan atır yerə ki, əzilsin, sonra basdırsın. Çoban meyidi qayadan atanda demə qayanın altında bir molla namaz qılırmış. Molla görür ki, göydən ölü tökülür. Namazı yarımçıq qoyub başlayır qaçmağa. Çoban qayanın başından baxıb görür ki, bir adam qaçır, elə bilir ölü dirilib qaçır, yüyürüb mollanı tutur.

– Səni gorbagor olasan, köpək oğlunun ölüsü, adamın da bir həyası olar. Niyə dirilib qaçırsan, – deyib çomağı endirir mollanın təpəsinə. Molla tir kimi düşür yerə. Çoban yer qazıb mollanı basdırır.

Çoban gələnə kimi qız ölünün birini də kəfənləyib uzadır. Çoban içəri girən kimi qız deyir:

– Ay çoban qardaş, axı mən sənə dedim bu ölü yaman həyasızdı, onu dərin yerdə basdır, amma bax, hələ səndən qabax ölü dirilib gəlib.

Çoban deyir:

– Bu zalım oğlu nə həyasızdı.

Çoban söyə-söyə ölünü eşşəyə yükləyib aparır bir dəyirmanın yanına. Meyidi salır dəyirmanın nodanına ki, çarxa ilişib tikə-tikə olsun.

Demə dəyirmançı suyun ayağında çimirmiş. Çoban elə bilir ki, bu həmən ölüdü dirilib. Tez çomağı götürüb cumur dəyirmançının üstünə o qədər vurur ki, kişinin canı çıxır.

Çoban deyir:

– Pa atonnan, əyə, bu nə həyasız ölüdü. Dəyirmanın gözünnən ölü saldım diri çıxdı.

Çoban yenə gəlir qızın yanına. Bu dəfə görür ki, daha ölü dirilib gəlməyib. Çoban qızdan haqqını alıb gedir. Qız da arxayın, asudə yaşayır. Göydən üç alma düşdü, biri mənim, biri qızın, biri də çobanın.

## KEÇƏL

Günlərin birində bir keçəl varıydı. Bu, kosasaqqal, göy-göz bir tacirə nökərçilik edirdi. Tacir həm xəsis, həm də yaman zalım adam idi. Sabahdan axşama kimi keçəli orda-burda işlədib, axşam bir həfdədən qalma quru əppək qırıxlarını zəhmət haqqı olaraq keçələ verib evlərinə yola salardı. Keçəl quru əppək yeməkdən ağzı yara tökmüşdü. Yenə bir gün axşam quru çörəyi götürüb evlərinə gələndə, yolda tacirin balaca oğlu keçələ qoşulub onlara gəldi.

Keçəlin bir qoca nənəsi varıydı. Hər axşam keçəlin gətirdiyi əppək qırıxlarını qazana qoyub üstə də su tökərdi ki, bir az yumşalsın. Keçəl lap acmışdı deyə quru əppəyi dişinə çəkib yemək istəyirdi. Əppək o qədər qurumuşdu ki, lap kəltənə dönmüşdü. Odu ki, yazığın dişinin birini çörək sındırdı. Keçəl dişini tutub ufuldadı.

Tacirin oğlu keçəlin üzünə baxıb hırıldaya-hırıldaya deyirdi:

Keçəl-keçəl baniyə,
Mindi quleybaniyə,
Getdi həkimxaniyə,
Həkimxana bağlıdı,
Keçəl başın yağlıdı,
Keçəl deyər vay başım,
Qazanda qaynar aşım.

Keçəlin nənəsi uşağa gözünü ağardıb dedi:

– Ay bala, adam elə deməz. Görmürsənmi keçəlin dişi qırılıb ağrıyır.

Uşax heç vecinə almayıb dedi:

Keçəl-keçəl noxudu keçəl,
Ayran içər, pişiyi minər,
Kəndə qaçar, divara çıxar.

Bu dəfə də arvad uşağa acıqlandı.

Uşax hırıldaya-hırıldaya dedi:

– Hə, ay nənə, demək bu noxudu keçəl deyilmiş, onda yəqin ki, daz keçəl olacax.

Uşax bu dəfə də başladı ki:

Keçəl-keçəl daz keçəl,
Balası pərvaz keçəl,
Keçəlin hindi başı,
Qoduğa mindi başı,
O toyda döyüş oldu,
Bu toyda sındı başı.

Keçəl bu sözləri eşidəndə özünü saxlaya bilmiyib əlindəki quru əppəyi çırpdı tacirin oğlunun başına. O saat uşağın başı qarpız kimi partladı. Ağlaya-ağlaya düz qaçdı dədəsinin yanına.

Keçəl dedi:

– Çəpəl oğlu çəpəl, bax keçəlin başı sınmaz, sənin başın belə partlayar.

Tacir, oğlunun qanı axa-axa gəldiyini görüb dedi:

– Oğlum, səni kim vurdu, başını kim qanına qaltan elədi?

Uşax dedi:

– Keçəl vurdu.

Tacir qəzəblənib keçəlin dalınca adam göndərdi. Keçəl adamları görüb qaçıb gizləndi. Tacirin adamları gedib xəbər apardılar ki, keçəl qaçıb. Tacir fikirləşdi ki, bu işin üstdən bir neçə gün keçəndən sonra keçəli al dilnən çağırtdırıb, gecə yatanda kilimə sarıyıb o qədər döydürərəm, ölər, aparıb kəndin qırağına ataram.

Aradan beş-on gün keçdi. Tacir keçəlin yanına adam göndərdi ki, olan-olub, keçən-keçib, uşağın başı da yaxşı olub, dursun gəlsin yenə işinə. Keçəl başa düşmüşdü ki, tacir ondan intiqam alacax, amma əlacı yox idi, durub getdi.

Bir gün keçəl çox yorulmuşdu deyə axşam evlərinə getməyib, tacirin at tövləsində yatdı. Tacir fürsəti fövtə verməyib öz adamlarından üç nəfər göndərdi ki, gedin keçəli yorğana sarıyıb gətirin yanıma. O saat tacirin adamları keçəli yorğana sarıyıb gətirdilər. Tacir dedi:

– Siz daha gedin, gərək keçəli özüm öldürəm.

Bəli, tacir təpiynən, yumruğnan, gərməşo[1] ağacıynan bu yorğana o qədər vurdu ki, yazıx keçəl lap xurdu-xəşil oldu. Tacir elə bildi ki, keçəl öldü. Odu ki, öz-özünə dedi: "Bir az yatım, gözümün hoşunu alım, sonra keçəlin meyidini aparıb gizlədim". Tacir keçəli döyməkdən o qədər yorulmuşdu ki, elə başını yerə qoyan kimi başladı xorha-xor yatmağa. Yaxşı deyiblər ki, keçəlin canı bərk olar. O, bir təhər yorğanın sarığını açıb, tacirin burnuna bihuşdarı verib onun özünü sarıdı yorğanın içinə. Tacirin paltarını da geyib çıxdı həyətə. Tacirin öz adamlarına yavaşca pıçıldadı ki, gedin keçəli ölüncə vurun. Bəli, üç nəfər adam bu yorğana o qədər təpik vurdu ki, yorğan parça-parça oldu. Bir də baxıb gördülər ki, keçəl nə gəzir, vurduqları elə tacir özüdü. Düz bir həftə tacirin bədəninə təpitmə döşədilər. Tacir ayağa qalxan kimi bir dənə də xoruz rüşvət aparıb darğaya şikayətə getdi. O saat darğa keçəli çağırtdırdı:

– Keçəl, ya gərək yüz manat cərimə verəsən, ya da bir il tacirə müftə işləyəsən, gör hansı sənə sərfədi.

Keçəlin yüz manatı olsaydı heç tacirə nökərçilik eləməzdi. Odu ki, əlacsız qalıb bir il müftə nökərçilik eləməyə razı oldu.

Tacir keçəldən lap yanıxlıydı deyə daha bu dəfə onu ev işlərində işlətməyib, öz xırmanına göndərmişdi. Yazıx keçəl səhərdən axşama kimi günün altında ac-susuz işləyirdi. Bir gün keçəl damlarının üstündə oturmuşdu. Bir də gördü ki, tacirin arvadıynan darğa barının dibində söhbət eləyir. Qulax asdı, gördü darğa tacirin arvadına dedi:

– Ay aşna, sabah mən yola qoz tökə-tökə xırmana gedəcəm, sən də bir qazan aş bişir, yerə tökülən qozları yığa-yığa gəlib məni taparsan. Aşı yeyib sonra keyfə baxarıq.

Keçəl damın üstündən bu sözləri eşitdi. Sabah tezdən durub darğanın yola tökdüyü qozları yığıb, özü işlədiyi xırmanın yoluna düzdü. Tacirin arvadı bir qazan aş bişirib başladı darğanın yerə tökdüyü qozların iziynən getməyə. Arvad az getdi, çox getdi, bir də gördü ki, qabağına öz nökərləri keçəl çıxdı. Keçəl özünü xamlığa vurub dedi:

– Xanım, hara belə?

Arvad dedi:
– Heç hara, yolu azmışam.
Keçəl dedi:
– Xanım, gəl düzünü de, yolu-zadı azmayıbsan. Əlindəki aşnan gedirsən darğanın yanına, məndən gizlətmə, hamısını bilirəm, acınnan ölürəm, gətir aşı yeyim, yoxsa hamısını ərinə söyləyəcəm.
Arvad gördü ki, keçəl əhvalatın hamısını bilir, dedi:
– Keçəl, al bu aşı da ye, amma bax heç kimə bu haqda bir söz demə.
Keçəl aşı yedi. Qabları da arvada verib yola saldı. Səhər yenə həmən vaxt keçəl damlarının üstünə çıxmışdı. Gördü darğaynan arvad danışırlar. Darğa dedi:
– Adam vədə verib gəlməz? Dünən niyə gəlmədin?
Arvad cavab verdi:
– Vallah yolu azıb, gedib ayrı yerə çıxmışdım.
Darğa dedi:
– Bu gün də yola fındıq tökəcəm, bir qazan dolma bişirib fındıx tökülən yolnan gəlib məni taparsan.
Bəli, keçəl sabah tezdən durub darğanın xırmanına gedən yola tökülən fındıxların hamısını yığıb özü işlədiyi yerə gedən yola düzdü.
Arvad əri evdən gedən kimi tez bir qazan dolma bişirib, darğanın dediyi kimi elədi. Yoldan fındıxları yığa-yığa gəlib çıxdı bir xırmana, baxdı ki, yenə dünənki yerə gəlib çıxıb, istədi geri qayıda, keçəl ot tayasının dalından çıxıb dedi:
– Xanım, Allah mənimkini yetirib, gətir dolmanı.
Arvad istədi geri qayıda. Keçəl dedi:
– İstəyirsən qayıt, onda ərinə deyəcəm.
Arvad üz-gözünü turşulda-turşulda qazanı qoydu keçəlin qabağına. Keçəl bir oturuma qazanı boşaldıb arvadı yola saldı.
Sabah ertə keçəl çıxdı damlarının üstünə, gördü darğanın qaşqabağı yernən getmiş halda gəldi divarın dibinə, bir azdan arvad da büzüşə-büzüşə gəlib çıxdı. Darğa dedi:
– Aşna, sən heç vədinə doğru çıxmadın. Dünən də gözləməkdən gözümün kökü saraldı. Sabah ərin bazara gedəndə bir südlü aş bişir, mən də bir qarpız alıb gələcəm, oturub yeyib, sonra da keyf çəkərik.
Sabah açılan kimi keçəl işə getməyib küçədəki tövlənin küncündə gizləndi. Günortaya yaxın gördü ki, darğa gəldi tacirin arvadının

yanına, içəri girib yenicə qapını bağlamışdılar ki, birdən keçəl qapını döydü. Arvad tez darğanı yük yerində gizlətdi, südlü aşnan qarpızı da taxçaya qoyub üstünü örtdü. Sonra qapını açıb dedi:

– Ay keçəl, yenə nə var bu vaxtı gəlibsən? Niyə gedib işləmirsən? Yaxşı, tacir gələr, mən ona deyərəm, sənin vayını verər.

Keçəl dedi:

– Xanım, artıx-əskik danışma, acam, gətir südlü aşnan qarpızı qoy ortalığa yeyim, gedim.

Arvad dedi:

– Keçəl, sən dəli olubsan! Nə qarpız?

Keçəl dedi:

– Xanım, mən heç nə bilmirəm, dediyim şeyləri gətirməsən, deyəcəm darğanı da çıxart.

Arvad gördü bu lap noxudu keçəldi, hər şeyi bilir. Odu ki, darğanı da yükdən çıxartdı, başladılar südlü aşı yedilər. Yeyib qurtarandan sonra keçəl dedi:

– Darğa, yadındadırmı tacir sənin yanına məndən şikayətə gələndə sən mənə yüz manat cərimə kəsdin. Mənim bir quruşum da yox idi. Odu ki, bir ildi tacirə müftə işləyirəm. İndi gərək yüz manat verəsən, verməsən bütün kələklərini açacam, camaat içində biabır olacaxsan.

Darğa gördü keçəlnən bacarmayacax, çıxardıb yüz manat verib kor-peşman getdi. Darğa gedəndən sonra keçəl arvada dedi:

– Xanım, o öz payını verdi, sən də yüz manat verməsən işin şuluxdu.

Arvad da əlacsız qalıb ərinin sandıxdakı pullarından yüz manat çıxardıb keçələ verdi. Arvad keçəlin əlindən çox yanıxlı idi. Odu ki, axşam əri evə gələndə dedi:

– A kişi, hardansa keçəlin əlinə çoxlu pul keçib. Gəl bir gələk qur, pullarını əlimnən alax.

Arvadının bu sözü tacirin xoşuna gəldi. Axşam tacir keçəli yanında oturdub dedi:

– Keçəl, mən görürəm sən yaxşı oğlansan, istəyirəm bir az pul qazanasan. Gəl hərəmiz bir yalan söz danışax, kimin yalanı böyük olsa o, o birinə yüz tümən pul versin.

Keçəl dedi:

– Ağa tacir, mən razıyam, amma gərək bu şərtimiz haqqında mənə bir qəbiz verəsən.

Tacir bir qəbiz yazıb barmağını da zəfərana batırıb, qəbizin altına basdı. Keçəl qəbizi cibinə qoyub dedi:

– Ağa tacir, başla yalanını de. Tacir dedi:

– Mənim babamın bir uzun yabası varıymış. O qədər yekəymiş ki, bu dünyada onu qoymağa elə yekə tövlə yoxiymiş. Bircə yeddinci göydə bir tövlə varıymış ki, babam yabanı ora qoyarmış.

Keçəl dedi:

– Elə bu?.. Mənim babam tısbağaya minib düz yeddinci göyə çıxıb, orada bir qarışqanın belində elə böyük bir tövlə tikibmiş ki, bütün dünyadakı yekə yabaları orda saxlayarlarmış. Rəhmətlik sənin baban da elə öz yabasını orda saxlarmış. İndi sən bax gör ki, mənim babamın tövləsi nə yekəlikdəymiş ki, elə yabaların yüzünü tuturmuş.

Tacir gördü ki, keçələ uduzub, başladı dəbbələməyə ki, elə ikimizin də yalanımız balacadı. Mübahisə o qədər qızışdı ki, bunlar darğanın yanına şikayətə getdilər. Keçəl əhvalatı darğaya danışıb tacirin verdiyi qəbizi də göstərdi.

Bir dəfə tacir darğaya xoruz gətirmişdi deyə başladı xoruzdan söhbət açmağa ki, yenə rüşvət verəcəm, işi mənim xeyrimə kəs. Darğanın keçəlin yanında sirri var idi deyə tacirə başını bulayıb dedi:

– Tacir, bu sən deyən keçəllərdən deyil, buna noxudu keçəl deyərlər, dinməz-söyləməz gətir yüz tüməni ver.

Tacir sabaha qədər möhlət alıb getdi evə, əhvalatı arvadına söyləyib dedi:

– Arvad, sabah keçəl gəlib pulu istəsə, deyərsən tacir ölüb.

Sabah gejdən keçəl tacirin qapısına gəlib arvadına dedi:

– Xanım, tacirə de ki, mənim yüz tümənimi versin!

Arvad dedi:

– Ay keçəl, tacir dünənnən ölüb.

Keçəl dedi:

– Boy yazıx tacir, o mənə vəsiyyət eləmişdi ki, öləndə onu mən yuyum.

Keçəl üz-gözünü büzüb içəri girdi. Gördü tacir lüt, anadangəlmə taxtanın üstündə uzanıb yatıb. Tez ocağa bir qazan su qoyub qaynatdı. Arvad o biri evə keçəndə, qaynar suyu tacirin təpəsindən töküb başladı yumağa, tacir qışqırıb yerindən qalxdı. Keçəl tırınqı çalıb başladı oynamağa ki:

– Mən gəlməsəydim ağam ölüb getmişdi, onu mən diriltdim. İndi gərək mənə yüz tümən də artıx verə.

Tacir gördü ki, keçəlnən bacarmayacax, əlacsız qalıb keçələ yüz tümən verdi. Keçəl pulları gətirib nənəsinə verib dedi:

– Nənə, al bu pulları bir yaxşı imarət tikdir, bir az da şeydən-meydən al, mən evlənmək istəyirəm.

Qarı dedi:

– Ay bala, kimi alırsan?

Keçəl dedi:

– Nənə, mənim çantama bir az çörək qoy, səfərə çıxıb özümə bir yaxşı qız tapacam.

Arvad keçəlin çantasına bir az çörəknən soğan qoydu. Keçəl nənəsilə xudahafizləşib başladı getməyə. Az getdi, çox getdi, iynə yarım yol getdi, gəlib çıxdı bir meşəyə. Çox yorulmuşdu. Üstübaşı da toz-torpağa batmışdı. Bir də gördü ki, qabağına bir bulax çıxdı. O saat soyunub bulağın gözündə çimdi. Sudan çıxıb paltarını geyinəndə gördü ki, bir tük tapılmayan başında indi o qədər tük var ki, heç deyiləsi deyil. Tez üzünü bulağın suyuna tutub öz şəklinə baxdı. Keçəl öz gözlərinə inanmadı. Keçəl elə bir gözəl oğlan olmuşdu ki, üzünə baxan deyərdi bir də baxım. Keçəl bu sudan doyunca bir də içib yol başladı getməyə. Qaranlıx düşmüşdü. Meşədə göz-gözü görmürdü. Keçəl gördü uzaxdan bir işıx gəlir. Düz işığı tutub ora getdi. Çatıb gördü ki, bir mağara kimi yerdi. İşıx ordan gəlir. Özünü verdi işıx gələn yerə. Mağaranın içiynən o qədər getdi ki, axırda bir otağa rast gəldi. Qapının ağzında bir ifritə qarı oturmuşdu. İfritə keçəli görən kimi dedi:

– Ey bəni-insan, anan sənin matəmində dursun, yaxşı oldu gəldin. Mənim yeddi div oğlum var, indi gəlib məndən yemək istəyəcəklər. Onlar gələnətən səni bişirib hazırlaram.

Keçəl dedi:

– Ey qarı, nə o yan, bu yan danışırsan? Sənin oğlanlarından qorxan kimdi?

Qarı başladı təndiri çathaçat qalamağa ki, Əhmədi, yəni keçəli odda bişirsin. Əhməd qarının dalından xəlvətcə bir təpik vurub saldı təndirə, ağzına da bir yekə dəyirman daşı qoydu. Qarı çığıra-çığıra təndirdə yanıb kül oldu. Elə bu vaxt birdən göy guruldadı, ildırım çaxdı, ağ dumanın içindən yeddi ağ div çıxıb gəldi. Divlər evə girib dedilər:

– Hanı anamız, evdən adam-badam iyisi gəlir, yağlı badam iyisi gəlir.

Keçəl gördü gizlənməynən canını qurtara bilməyəcək. Yükün dalından çıxıb dedi:

– Ey divlər, sizin ananız getdi bulaxdan su gətirməyə, mənə dedi ki, oğlanlarım gələndə de ki, bura yeddi düşmən gələcək, onları öldürmək üçün oğlanlarım gərək yeddi dəyirman daşını çıxardıb damın üstünə qoysunlar. Düşmənlər gəlib evə girəndə başlarına salıb hamısını öldürsünlər.

Divlər keçəlin sözünə inanıb yeddi dəyirman daşını damın lap qırağına qoydular.

Keçəl dedi:

– Ay divlər, indi gəlin bir yoxlayım görüm bu daşlar sizə kar eləyərmi?

Divlərin böyük qardaşı dedi:

– Sən nə cür biləcəksən ki, bu daşlar bizə nə cür kar eləyir?

Keçəl dedi:

– Siz hamınız baş-başa verib qapının ağzında dayanın, mən çıxıb damın üsdünnən o daşların birini salım sizin başınıza, əgər sizə kar eləsə, düşmənlərinizə də kar eləyər.

Yaxşı deyiblər, divlər axmaq olar. Bu sözə inanıb yeddisi də baş-başa dəyirman daşının altında durdular. Keçəl çıxıb dəyirman daşlarının yeddisini də itələyib saldı divlərin başına, hamısının beyni qatıx kimi olub yapışdı yerə. Keçəl damnan aşağı düşüb gördü divlər cəhənnəmə vasil olublar. Başladı otaxları gəzməyə. Gəlib bir otağa çıxdı, gördü bir gözəl qızı saçından asıblar, tez onun saçını açıb qızı yerə qoydu. Baxdı ki, bu elə gözəl qızdı, yemə-içmə xətti-xalına, gül camalına tamaşa elə. Bir könüldən min könülə bu qıza aşiq oldu. Hər ikisi sözləşib divlərin ləl-cavahiratından, qızılından xeyli götürüb gəldilər keçəlin evinə. Keçəl başına gələn əhvalatın hamısını nənəsinə söylədi. Elə həmin gün keçəl toy tədarükü gördü. Qonşularında bir xəsis molla olurdu. Çoxlu qoyunu vardı. Keçəl fikirləşdi ki, bir də uzağa gedincə elə mollanın qoyunlarından alsam yaxşıdı. Odu ki, gəlib mollanın qapısını döyüb dedi:

– Molla əmi, sabah bir xeyir işimiz var. Qoyunlarının birini mənə satarsanmı?

Molla dedi:

– Sataram, əgər qiymətini verə bilsən.

Molla iki abbasılıq qoyunu üç tümənə dedi. Keçəl dinməz-söyləməz razı oldu. Keçəl qoyunu qabağına qatıb yola düşdü. Bir-iki addım getməmiş, molla tez fikrini dəyişdi:

– Sən məni aldadıb qoyunu ucuz alıbsan, qoyunun qiyməti beş tüməndi.

Keçəl bu dəfə də dinməz-söyləməz razı oldu. Keçəl bir az getmişdi ki, molla yenə peşiman oldu, keçəli geri çağırıb dedi:

– Aşna, sən məni aldadıb qoyunu yaman ucuz aldın. Gərək qoyunun içalatını da mənə verəsən, həm də sabah iki mollaynan sizə bozartma yeməyə gələcəyik.

Keçəl buna da razı oldu. Amma ürəyində öz-özünə dedi: "Yaxşı, ay molla, əvəzini çıxaram". Molla arvadını çağırıb dedi:

– Arvad, bu gün ölü yeri olmadısa da, amma yaman qazanmışam. İki abbasılıq qoyunu beş tümənə satmışam, həm də içalatını bizə verəcək. Sabah yeməyimizi də müftə salmışam. Keçələ demişəm ki, sabah iki mollaynan sizə bozartma yeməyə gələcəm. İndi dur mənim köhnə paltarımnan birini gey əyninə, üz-gözünə də qoyunun tükündən bığ-saqqal qayır, ol molla. Arvad dedi:

– A kişi, sonra başa düşərlər, biabır olarıx.

Qərəz, molla əl çəkmədi. Sabah tezdən arvad ərinin arxalığın, çuxasın geyib, başına da bir motal papax qoydu, qoyun tükünnən də bir bığsaqqal qayırıb üzünə yapışdırdı. Düz gəldilər keçəlin evinə. Molla arvadıynan yuxarı başda, dizi üstə oturub başladı təsbeh çevirməyə. Keçəl baxıb gördü ki, molla öz arvadına kişi paltarı geydirib, özgə adam əvəzinə gətirib. Keçəl öz-özünə ürəyində dedi: "Yaxşı, ay molla, sən ki, mənə kələk qurursan, gör sənə necə kələk gələcəm". Keçəl dedi:

– Molla əmi, sənin əslin-zatın bizə məlumdu. Amma yanında gətirdiyini tanımırıq.

Molla dedi:

– Bunun da əsli-zatı molladı, özü də qardaşım oğludu.

Keçəl dedi:

– Bəs indiyə kimi hardaydı? Biz heç onu mollalar içində, camaat arasında, xeyirdə-şərdə görməmişik.

Molla bir az qızarıb-bozarandan sonra saqqalını tumarlaya-tumarlaya dedi:

– Məkkəyə oxumağa getmişdi. Elə yenicə gəlib.

Keçəl bu sözü eşidən kimi mollanın arvadını qucaxlayıb başladı üzünnən-gözünnən öpüb duz kimi yalamağa.

Molla dedi:

– Keçəl, nə qayırırsan?

Keçəl dedi:

– Molla əmi, sənin qardaşın oğlu Məkkədən yenicə gəlib, onu ziyarət eləmək savabdı.

Molla qıpqırmızı qızarıb pula dönmüşdü. Amma dinə bilmirdi. Aradan bir az keçəndən sonra keçəl təzədən arvadı qucaxlayıb marçamarç elə öpdü ki, gəl görəsən. Molla bu dəfə özünü saxlaya bilmədi, əbasının ətəyini o tərəf, bu tərəfə çəkdi, dizi üstə qalxdı, boğazını arıtdı, acıxlı-acıxlı dedi:

– Ay keçəl, görürsən ki, gədə hələ uşaxdı.

Molla ayağa qalxdı ki, arvadını götürüb getsin. Keçəl qoymadı, arvadın əlindən tutub dedi:

– Molla əmi, sənin qardaşın oğlu, ya mənim qardaşım, fərqi yoxdu. Bu gecə qardaşın oğlu mənə qonaxdı.

Mollanı od götürdü. Başladı keçəllə dalaşmağa. Keçəl mollanı itələyib qapıdan eşiyə atdı. Molla nə qədər elədi, keçəl arvadı vermədi. Axırda dedi:

– Ay keçəl, nə istəyirsən verim, mənim qardaşım oğlunu qaytar özümə.

Keçəl dedi:

– Molla, yüz tümən verməsən bu iş düzələn deyil.

Molla çox boğaz döyüşü saldı, gördü bir faydası yoxdu.

Əlacsız qalıb keçələ yüz tümən verib arvadını zornan aldı. Keçəl yüz tüməni də toydakı adamlara paylayıb, sabaha kimi keyf elədilər.

Keçəl gətirdiyi qızı alıb rahat ömür keçirdi. Onlar yeyib-içib yerə keçdilər, siz də yeyin-için, sağ-salamat olun.

## OXXAYLA ƏHMƏD

Nağıl-nuğul bilmərəm, bilsəm də söyləmərəm. Şahdan gəlmiş nökərəm, dinmə, qabırğaların sökərəm. Sizə hardan danışım, kimdən danışım, keçmişlərdə bir kişi var imiş. Bu kişinin gözünün ağı-qarası, aman-zaman bircə oğlu var imiş. Kişi oğlunu çox istəyirmiş, onu əlini ağdan-qaraya vurmağa qoymazmış.

Kişi çox kasıbçılığnan dolanarmış. Hər gün gedib dəryaya tor atıb, balıq tutarmış, tutduğu balıqları satıb, bir təhər dolanarmış. Kişinin oğlunun adı Əhməd imiş.

Bəli, ay dolanır, il keçir, Əhməd on dörd yaşına çatır. Kişi deyir:

– Oğul, mənim heç bir elmidən xəbərim yoxdur, özü də yazı-pozu bilmirəm. Ona görə də ömrüm-günüm dəryaya tor atıb, balıq tutmaqla keçib. İndi görürsən ki, qocalıb, əldən düşmüşəm. Daha tor atmağa taqətim yoxdur. Oğul, istəmirəm sən də mənim kimi olasan. Odu ki, səni oxumağa qoymaq istəyirəm. Bəlkə bir elm öyrənib, adam olasan. Mənim kimi əzab-əziyyət çəkməyəsən.

Əhməd deyir:

– Ey atayi-mehriban, buyuruq sənindi. Nə məsləhət görsən, elə də elərəm.

Kişi deyir:

– Bərəkallah oğlum, hazırlaş, bir yaxşı molla tapaq, sənə elm öyrətsin.

Ata-bala gecəni yatıb, sübh tezdən dururlar. Çantalarına bir az ayınnan-oyunnan qoyub, yola düşürlər. Az gedirlər, çox gedirlər, bu

kənd mənim, o kənd sənin, soraqlaşırlar, bir yaxşı molla tapa bilmirlər. Axırda gəlib çıxırlar meşədə bir bulağın üstünə. Kişi deyir:

– Oğul, çox yorulmuşuq. Həm də acmışıq. Gəl bu bulağın başında bir az çörək yeyib dincələk.

Ata-bala bir az şordan, çörəkdən yeyib, bulağın suyundan doyunca içirlər. Yayın isti günü sərin buz kimi bulaq suyu kişinin çox xoşuna gəlir. Suyu içib, qurtarandan sonra deyir:

– Oxxay, nə qəşəng sudu.

Elə bu söz kişinin ağzından çıxan kimi, suyun ortasından bir kişi çıxıb deyir:

– A kişi, məni çağırıb neyləyirsən, mənə görə nə qulluq?

Əhmədin atası sudan çıxan adamı görüb lap məəttəl qalır. Az qalır nitqi tutulsun. Hannan-hana özünə gəlib deyir:

– Ay qardaş, sən kimsən, mən səni nə vaxt çağırdım?

Sudan çıxan adam deyir:

– Bəs oxxay deyən sən deyildin?

Kişi deyir:

– Nə olsun ki, oxxay deyən mən idim.

Sudan çıxan adam deyir:

– Elə o olsun ki, mənim adım Oxxaydı. Sən məni çağırdın, mən də gəldim.

Kişi deyir:

– Sənin adın Oxxay imiş.

Oxxay deyir:

– A kişi, yaxşı, de görüm hara gedirsən, məqsədin nədi?

Kişi deyir:

– Vallah hal-qəziyə belədi, oğlumu oxutmaq üçün molla axtarmağa gedirəm.

Oxxay deyir:

– Mənnən yaxşı molla hardan taparsan. Ver oğlunu oxudum gələn il gəl apar. O vaxtacan cəmi elmiləri öyrənib, açarların qoysun cibinə.

Kişi razı olub oğlunu verir Oxxaya. Bir az da dil-ağız eləyib, yalvarır ki, sən allah bircə dənə oğlum var, onnan yaxşı muğayat ol.

Oxxay deyir:

– Arxayın ol. Ona elə baxacağam ki, heç ruhu da inciməsin. Nə vaxt oğlunu ürəyin istəsə, gəl bulağın başına. Sudan iç, Oxxay de, o saat oğlun yanında hazır olacaq.

Kişi oğlu ilə öpüşüb, xudahafizləşənnən sonra, başladı daban alıb, evinə sarı qayıtmağa. Oxxay da Əhmədi qoltuğuna vurub, bir ismiəzəm oxuyub, batır suyun altına. Əhməd bir də gözün açıb, görür ki, bir qalaçanın içindədi. Amma üstü-başı islanmayıb, heç elə bil suyun dibinə batan bunlar deyilmiş. Qalır məəttəl ki, görən bu nə işdi.

Bunlar qalaçaya çatan kimi Oxxay Əhmədi aparıb, bir otağa qoyur. Özünə də tapşırır ki, sənin yerin bura olacaq. Özü də çıxıb, gedir. Oxxay gedəndən sonra Əhməd qapını açıb, çölə çıxır. Ətrafa baxır, onu vahimə bürüyür. Əhməd görür ki, o, böyük bir qalaçanın içindədi. Qalaçanın bir kərpici qızıldan, bir kərpici gümüşdəndi. Bura ləl-cavahiratdan, mirvari və zəbərcatdan o qədər bəzək-düzək vurulub ki, adam baxanda gözləri qamaşır. Əhməd bir az irəli gedib, görür ki, qalaçanın bir tərəfi tamam bağ-baxçadı. Amma bu baxçada bitən hər nə varsa hamısının rəngi qırmızıdır. Qalaçanın o biri tərəfinə keçib, görür ki, burda o qədər vahiməli heyvanlar var ki, adam baxanda az qalır ürəyi partlasın. Şir, pələng, əjdaha, ayı, canavar, tülkü, çaqqal, ilan, nə deyim, hər nə desən var. Tez yavaşca burdan da çəkilib, qalaçanın o biri yanına gedir. Görür ki, burda hər nə varsa, daşdan, torpağdan tutmuş suya qədər hər şey alışıb yanır. Alov, tüstü, duman asimana qalxır. Tez burdan qaçıb özünü salır qalaçanın dal tərəfinə. Görür bura tamam dəryayi-ummandı. Göz işlədikcə hara baxırsan sudu. Əhməd bir o tərəfə, bir bu tərəfə baxıb, görür ki, suyun qırağında bir boş gəmi var, fikirləşir ki, deyəsən Oxxay mənim atamı aldatdı, yaxşısı budu məni öldürməmiş elə bu gəmiyə minim qaçım. Əhməd gəmiyə minib, başlayır getməyə. Yeddi gün, yeddi gecə suyun üzündə yol gedir. Bir də baxıb görür ki, qabağında bir elə divar durub ki, dibi dəryada, başı göyün yeddi qatında. Divar tamam insan kəlləsindən hörülüb. Əhməd divara yaxınlaşan kimi doxsan doqquz yerdən səs gəlir:

– Ey cavan, özünə yazığın gəlsin, nə badə gəmidən düşəsən. Ayağın yerə dəyən kimi, Oxxay səni də bizim günümüzə salacaq. Biz də vaxtı ilə sənin kimi cavan idik. Oxxay bizi aldadıb, öz qalaçasına gətirdi. Sonra hərəmizi bir bəhanə ilə öldürüb, bu günə qoydu. Cavan oğlan, indi hara getsən, Oxxay gəlib səni tapacaq. Xəbər alacaq ki, hara gedirdin? Deyərsən ki, ürəyim darıxırdı, dəryanı gəzməyə çıxmışdım. Onda Oxxay səni öldürməyib, aparacaq yenə qalaçaya. Biz nə qədər elədik bu qalaçadan qaça bilmədik. Bu qalaçanın sirrini bir onun qızından başqa heç kim bilmir. Çalış o qızdan bu sirri öyrən. Əgər

öyrənə bildin sənə ölüm yoxdu, öyrənə bilməsən onda sən də bizim günümüzə düşəcəksən!

Elə bu vaxt Əhməd görür ki, dəryanın ortası bulaq kimi pıqqapıq qaynadı, Oxxay başını qaldırıb, sudan çıxdı. Əhmədə acıqlanıb, dedi:

– Sən buralarda nə gəzirsən?

Əhməd deyir:

– Gördüm təkcə qalmışam, ürəyim darıxır. Odu ki, gəmiyə mindim ki, bir az dəryada gəzim, ürəyim açılsın.

Oxxay daha Əhmədə bir söz deməyib, yanına salıb, gətirir qalaçaya, özünə də tapşırır:

– Əhməd, mənim burda qırx otağım var, darıxanda hərdən bir-ikisini gəzsən ürəyin açılar. Al bu otuz doqquz otağın açarını, verirəm sənə. Amma qırxıncı otağı nəbadə açasan.

Əhməd açarları alıb, qoyur cibinə. Oxxay qapıdan çıxan kimi Əhməd başlayır otaqları gəzməyə. Otaqların hansını açırsa, görür burda bir cahi-cəlal var ki, heç bir padşahın xəzinəsində olmaz. Quş iliyi, can dərmanı, hər nə desən, burda tapmaq olar. Əhməd otuz doqquz otağın hamısını gəzir, gəlib qırxıncı otaqda dayanır. Öz-özünə deyir: "Görəsən burda nə var ki, Oxxay bu otağın açarını vermədi?" Odu ki, gəl elə bu qapını da aç. Nə olar-olar.

Əhməd qıfılı sındırır, içəri girir. Görür ki, qırxıncı otaq onun gördüyü otuz doqquz otağın hamısından seçilir. İçəridə hər nə varsa, hamısı zil qaraya bürünüb, yerə cürbəcür xalılar, zililər döşənib. Hamısı zil qara. Ev tamam brilyanta tutulmuş, qara şəvə qablarla, güldanlarla, şamdanlarla bəzənib. Evin lap başında qara mərmərdən taxtın üstündə almaz kimi şox salan bir qız, üzüqoylu uzanıb ağlayır. Səsə qız başını qaldırıb baxır. Əhməd görür bu elə bir qızdı, yemə, içmə, xətti-xalına, gülcamalına tamaşa elə. Alma kimi yanaqları, lalə kimi dodaqları, saçlar qara, qaşlar qara, gözlər qara. Ağ mərmərdən inci dişlər, ağ buxaxdan cücü dişlər, gəl məni gör, dərdimdən öl. Əhməd qızı görən kimi bir könüldən min könülə ona aşiq olur. Gözəllikdə Əhməd qızdan heç də geri qalmırdı. Qız da Əhmədi görən kimi onun gözəlliyinə valeh olub, ürəyində ona məhəbbət bağlayır. Bir xeyli götür-qoydan sonra Əhməd qızdan soruşur:

– Ey nazənin sənəm, bir məni agah elə, görüm sən kimsən, nəçisən, bu qara otaqda tək-tənha neyləyirsən?

Qız deyir:

– Ey oğlan, sən bil və agah ol ki, mənim başımın tükü sanı bura igidlər, pəhlivanlar gəlib, mən heç birisinə sirr açmamışam. Görürəm mərifətli, qabiliyyətli adama oxşayırsan. Odur ki, sənə sirr açıram. Mən Oxxayın qızıyam. Bu gördüyün qalaça atamındı. Özü də yeddi qat yerin tərkində yerləşir. Burda hər nə gözünə görükürsə hamısı sehirli, tilsimlidi. Mənim bu qara otaqda olmağımın səbəbi odu ki, atam başımın tükü sanı adamları aldadıb, bura gətirib. Onlara zülm eləyir. Mən onlara kömək eləməyim deyə hər yeni adam gətirəndə məni tilsimləyib, bu otağa salır. Mən də dərddən, qəmdən bu otağı qara bəzəyib, içində otururam.

Qız dərdini söyləyə-söyləyə Əhmədlə çıxır eşiyə. Qalaçanın dörd tərəfini gəzə-gəzə deyir:

– Əhməd, qalaçanın qabağındakı bu baxçaya qırmızı baxça deyirlər. Burda hər nə əksən hamısı qırmızı rəngdə çıxar. Atam bu baxçada o qədər baş kəsib ki, ağaclar, otlar, çiçəklər su əvəzinə qan içib. Odur ki, burda hər nə bitsə qırmızı rəngdə olur.

Qalaçanın o biri tərəfinə keçib vəhşi heyvanları görürlər. Qız deyir:

– Bu gördüyün cürbəcür heyvanların hamısı vaxtilə insan idilər. Atam bunları tilsimləyib, hərəsini bir heyvan şəklinə salıb.

Sonra gəlib qalaçanın o biri tərəfindəki od-alova baxırlar. Qız deyir:

– Əhməd, bu gördüyün od-alov atamın öldürdüyü adamların ahnaləsinnən, qəzəbinnən, kininnən əmələ gəlib.

Axırda onlar gəlib, dəryanın qırağında dayanırlar, qız yenə deyir:

– Bu dərya günahsız ölənlərin göz yaşınnan əmələ gəlibdir. Görürəm sən yaxşı oğlansan, sənə yazığım gəlir. İstəmirəm atam səni də bunların gününə salsın. Sənə bir neçə söz öyrədəcəyəm, onları yadında yaxşı saxla. Oxxay adamları gətirib, əvvəlcə oxudur. Gündə onlara bir tilsim öyrədir. Aradan doxsan doqquz gün keçənnən sonra onları imtahan eləyir. Yaxşı bilənləri öldürür. Korazehinləri qurda, quşa, heyvana döndərir. Heç nə bilməyənləri buraxır. İndi sən atam öyrətdiyi tilsimlərin hamısını yaxşı öyrən. Amma imtahan eləyəndə hər nə soruşsa denən bilmirəm. Ancaq bu yolla onun əlindən qurtara bilərsən.

Oxxay hər gün Əhmədə bir cür heyvan cildinə girməyi öyrədir. Doxsan doqquz günün içində Əhməd hər şəklə düşməyi öyrənir. Vaxt tamam olur. Oxxay gəlib Əhmədi imtahan eləyir, ondan hər nə xəbər alırsa, Əhməd deyir:

– Usta, yadımdan çıxıb, heç nə bilmirəm.

Oxxay Əhmədə hədə-qorxu gəlib, bir xeyli döyür, bərkə-boşa çəkir.

– Ədə, zalım oğlu, mən sənə bu qədər dərs öyrətmişəm, heç biri də yadında qalmayıb.

Əhməd deyir:

– Usta, görmürsənmi heç nə bilmirəm. Bir şey bilsəm deyib, canımı qurtarardım də.

Elə bu vaxt Əhmədin atası bulağın başına gəlir. Doyunca sudan içib Oxxay deyir. Oxxay da Əhmədi götürüb, gedir bulağın başına, atasına deyir:

– Oğlun əfəlin biridi. Nə qədər elədim heç nə öyrənə bilmədi. Mənə belə aciz uşaq lazım deyil. Al apar, bunnan oxuyan olmaz.

Kişi oğlunu götürüb, qayıdır evlərinə, Əhməd söyündüyündən bilmir neyləsin. Bir az gedəndən sonra yolda atasına deyir:

– Ata, sən qabaxca get, mən bu saat gəlirəm.

Kişi razı olur. Əhməd bir az ayaq saxlayıb, bir kolun dalına girir. Cildini dəyişib, olur bir axsaq turac. Başlayır atasının qabağından o tərəfə, bu tərəfə qaçmağa. Kişi çox əlləşir turacı tutsun, tuta bilmir. Turac gedib, yenə həmin kolun dibinə girir. Əhməd yenə adam şəklinə düşüb gəlir atasının yanına. Atası deyir:

– Oğul, mən səndən heç yarımadım. Səni oxutdum ki, bir molla olasan, qazanıb gətirəsən, mən də rahat oturub yeyəm. Fərasətsiz çıxdın, bu olmadı. İndicə qabağımda bir axsaq turac var idi. Nə qədər əlləşdim, tuta bilmədim. Heç olmasa yanımda olsaydın, onu tutub kəsərdik. Bir günlük azuqəmiz olardı.

Atasının bu sözünə Əhməd bərkdən gülür. Kişi deyir:

– Bala, niyə güldün? Burda gülməli nə var? Əhməd deyir:

– Ata, heç nə, sonra gülməyimin səbəbini deyərəm.

Yazıq kişi daha nə bilsin ki, Əhməd bütün elmləri, tilsimləri öyrənib. Özünü yoxlayırmış. Əhməd deyir:

– Ata, heç darıxma, elə sən deyən olacax, evdə rahatca oturacaqsan, mən qazanıb, səni dolandıracağam.

Kişi deyir:

– Ay oğul, axı sən məni neynən dolandıracaqsan?

Əhməd deyir:

– İndi ki, elə oldu, elə buradaca deyim, sən də bil. İndi mən bir yaxşı at olacağam. Aparıb məni yüz manata satarsan. Amma nə badə

yüyənimi satasan ha. Əgər səni aldadıb yüyənimi alsalar, onda bir də mənim üzümü görə bilməzsən.

Əhməd sözünü deyib, qurtaran kimi olur qəşəng bir köhlən at. Atası atı çəkə-çəkə aparır düz bazara. At o qədər qəşəng imiş üstündə dava düşür. O deyir mən alacağam, bu deyir mən alacağam. Axırda biri qolu zorlu çıxıb, atı kişidən yüz manata alır. Atı alan nə qədər yalvar-yaxar eləyirsə də, kişi yüyəni satmır. Bu pulnan onlar bir xeyli dolanırlar. Kişinin keyfi kökəlir.

Günlərin birində onların pulları qurtarır. Əhməd yenə at olur. Atası aparır yenə atı satmağa. Bu dəfə atı alan bir hündürboylu dərviş kişini üzdən-gözdən salıb, yüyəni zornan alır. Demə bu dəfə atı alan Oxxay imiş. Kişi evə qayıdıb nə qədər gözləyirsə, Əhməd gəlib çıxmır. Birdən Əhmədin dediyi sözlər yadına düşür. Kişi iki əlli başına qapaz vurub, deyir:

– Ay haray, indi mən nə eləyim? Niyə yüyəni əlimnən verdim. Mən bir də Əhmədin üzünü görməyəcəyəm.

Kişi burda tək-tənha qalmaqda olsun, görək Əhmədin başına nə iş gəlir. Əhməd at cildində başını qaldırıb görür ki, yüyəni öz ustasının əlindədi. Oxxay Əhmədi çəkə-çəkə gətirir öz qalaçasına. Atın yüyənini qızına verib, deyir.

– Bunu saxla, qoyma qaçmağa, gedim qılınc gətirim, başını kəsək.

Qız baxıb görür ki, bu gələn Əhməddi. Atası onu bu dəfə sağ buraxmayacaq. Qızın bir tərəfdən Əhmədə yazığı gəlir, bir tərəfdən də ürəyində ona məhəbbəti var imiş. Açıq-aşkar onu buraxmağa da atasınnan qorxur. Odu ki, yüyənin altını açıb, elə amanatca qoyub deyir:

– Əhməd, yüyəni boşaltmışam, başını bircə dəfə tərpətsən açılacaq. Atam gələndə başını tərpədib qaçarsan.

Qız sözünü qurtarmışdı ki, Oxxay əlində siyirmə qılınc gəlib dayanır atın qabağında, deyir:

– Əhməd, bu yaşa çatmışam, hələ məni aldadan olmayıb. Amma sən aldatdın, dedin ki, heç nə bilmirəm. İndi dərsini əzbərdən bilərsən.

Oxxay qılıncı çəkir ki, Əhmədin boynunu vursun. At başını yuxarı qaldıranda yüyən yerə düşür. O saat Əhməd sehr oxuyub, bir dəli ceyran olur, başlayır meşələrnən, dağlarnan qaçmağa. Oxxay qılıncı yerə atıb, o da bir sehr oxuyub dönüb olur mahir bir ovçu. Əlində oxu-yayı düşür bu ceyranın dalına. Ceyran qaçır, ovçu qovur, dağlar aşırlar, dərələr keçirlər, bulaqlardan su içirlər, axırda ikisi də yorulub əldən dü-

şürlər. Əhməd görür ki, Oxxay ona çathaçatdı, tez bir qızıl balıq olub, verir özünü dəryaya. Oxxay da dönüb olur bir qoca torçu başlayır dəryada balıq tutmağa. Balıq qaçır, balıqçı torun atır. Əhməd tez bir qoz ağacı olub, bağın bir küncündə bitir. Oxxay o saat dönüb, bir ala qarğa olur. Başlayır ağacdan bütün qozları daşımağa. Əhməd görür ki, Oxxay yenə ondan əl çəkmir, dönüb bir qızıl alma olur, girib sandıqda gizlənir. Oxxay iyləyib-çüyləyib Əhmədin yerini tapır, sandığı açır Əhməd tez dönüb, bir alacəhrə olur. Oxxay da dönüb, bir çalağan olub, başlayır onu qovmağa. Əhməd qaçır, Oxxay qovur. Biri qaçıb, o biri qovmaqda olsun, gəlib bir şəhərin üstünə çatırlar. Həmin şəhərin padşahı öz arvadıynan yasəmən bağında oturmuşmuş. Oxxay Əhmədi qova-qova gəlib bu baxçanın üstünə çatırlar. Əhməd tez bir dəstə qızıl gül olub, düşür padşahın arvadının qucağına. Oxxay işi belə görəndə, bir dərviş olub, başlayır padşahın yanında oxumağa. Oxxay avazla oxuyur, adamı valeh eləyir. Dərviş oxuyub qurtarandan sonra padşah ona hər nə verirsə almır, deyir:

– Padşah, indi ki, mənə yaxşılıq eləmək istəyirsən, elə o arvadının qucağındakı bir dəstə gülü versən kifayətdir.

Padşah nə qədər istəyir ki, gülü verməsin, dərviş qırsaqqız olub, əl çəkmir. Axırda padşah pərt olub, gülü vermək istəyir. Əhməd işi belə görəndə bir vird oxuyub, bir ovuc darı olub yerə tökülür. O saat dərviş bir cücəli toyuq olub, başlayır darıları dənləməyə. Oxxay darını yeyib qurtarır. Arxayın olur ki, daha Əhməd öldü. Demə darının bir dənəsi padşahın ayağının altında qalıbmış. Əhməd tez bir çaqqal şəklinə düşüb, toyuğu da, cücələri də boğub öldürür, Oxxayı cəhənnəmə vasil eləyir.

Əhməd Oxxayın tilsimini sındırıb, onu öldürəndən sonra, yadına düşür ki, bu kişilikdən deyil, Oxxayın qızı məni ölümdən qurtardı, qalaçanın bütün sirlərini öyrətdi, mənə böyük yaxşılıqlar elədi, amma mən onun atasını öldürəm, özü də çıxam gedəm. İndi yaxşısı budu gedib Oxxayın qızını tapıb, onu da əzab-əziyyətdən qurtaram. Özü də gözəl-göyçək qızdı. Əgər mənə gəlməyə razı olsa, onu alam, özümə arvad eləyəm. Əhməd bir vird oxuyub, qalxır göyə. Göyün yeddi qatıynan uçub, düz gəlib düşür həmən bulağın başına. Əhməd, Oxxayın bütün tilsimlərini bilir deyə bulağın başına çatan kimi elə ağzını açmamış qalaçanın qapısı taybatay açılır.

Əhməd qalaçadan içəri girib, düz gedir qırxıncı otağa. Qapını açıb, öz gözlərinə inanmır. Otaqdakı qara şeylərin hamısı dönüb, al-əlvan,

düm ağappaq olmuşdu. Amma bircə qız başdan-ayağa qara geyinmişdi. Əhməd içəri girib, qızla görüşür, bir xeyli dərdləşəndən sonra deyir:

– Məni bu sirdən agah elə görüm, niyə əvvəllər qap-qara bəzənmiş otaq indi al-əlvan bəzənib, özün də qara geyibsən?

Qız deyir:

– Əhməd, hər şey mənə əyandır. Bilirəm sən Oxxayı öldürübsən. Mən buna bir tərəfdən sevinirəm. Yaxşı oldu elə o, öz cəzasına çatdı. Ona görə də qara bəzədiyim otağı indi döndərib al-əlvan bəzəmişəm. O, biri tərəfdən də dərd çəkirəm, necə olsa yenə atadı, ona görə də qara geymişəm.

Qız sözünü qurtarıb, gedir o biri otağa. Özünə yetmiş yeddi qat bəzək-düzək verib zər-zibadan elə paltar geyir ki, adamın üzünə şox salır. Qız geyinib-keçinənnən sonra gəlir Əhmədin yanına. Əhməd baxıb görür qızın gözəlliyi əvvəl bir idisə, indi olub min. Az qalır Əhmədin huşu başından çıxsın. Bir könüldən min könülə aşiq olur qıza, deyir:

– Ey gözəl sənəm, indi nə deyirsən, mən gəlmişəm səni aparam. Mənə gəlməyə razısanmı?

Qız deyir:

– Razıyam, amma mən elə oğlana getmək istəyirəm ki, o mənə vəfalı olsun, həm igid, həm də ağıllı olsun.

Əhməd deyir:

– Məgər mən vəfasızam, vəfasız olsaydım Oxxayı öldürənnən sonra sənin yanına gəlməz idim. Qoçaq olmasaydım bütün aləmə qan udduran Oxxayı öldürə bilməz idim. Ağıllı olmasaydım, tilsimləri sındıra bilməzdim.

Qız deyir:

– Bu sözlərin hamısı doğrudu. Bunları sən özündən ötəri eləyibsən. İndi mən bilmək istəyirəm görüm mənim yolumda neynəyərsən. Mən sənə o zaman gedərəm ki, gedib ağ devin almalarının sirrini öyrənib, gəlib mənə deyəsən.

Əhməd əlini gözünün üstə qoyub, deyir:

– O mənim gözüm üstə.

Elə o saat qalaçadan çıxıb, başlayır yol getməyin binasını qoymağa. Az gedir, çox dayanır, çox gedir, az dayanır. Gəlib bir meşəyə çatır.

Əhmədi meşəlikdə qoyaq, görək qız neynəyir. Bu tərəfdən qız göyə qalxıb uça-uça düz gəlir Əhmədin getdiyi meşəyə. Qız gözəllik-

də misli-bərabəri olmayan bir pəri şəklinə düşüb, Əhmədin qabağına çıxır. Qız Əhmədi görən kimi deyir:

– Oğlan, soruşmaq ayıb olmasın, hardan gəlib, hara gedirsən?

Əhməd deyir:

– Heç, elə belə, yolumu itirib, gəlib bura çıxmışam.

Qız deyir:

– Əhməd, sən məndən heç nə gizlətmə, mən filan padşahın qızıyam. Bütün elmlərdən xəbərdaram. Oxxayın qızı atasının intiqamını almaq üçün səni gedər-gəlməz yola göndərir ki, gedib ona sehirli almaların sirrini öyrənəsən. Gəl sən bu yoldan dön.

Əhməd deyir:

– Ey gözəl pəri, mən Oxxayın qızına söz vermişəm. Ölsəm də, qalsam da gedib almaların sirrini öyrənəcəyəm.

Qız deyir:

– Əhməd, yoxsa qorxursan ki, Oxxayın qızı əlindən çıxa. Mənim haram ondan əskikdir. Razı olsan gedərik bizim şəhərə, orda evlənərik, səni dünya malından qəni edərəm. Atam da qocalıb, onun taxt-tacına sahib olarsan.

Əhməd deyir:

– Ey pəri, mənə heç nə lazım deyil. Mən Oxxayın qızına söz vermişəm, onu alacam.

Əhməd sözünü qurtarıb, heç dalına da baxmır, başlayır yol getməyə. Elə bir az getmişdi ki, qız tez cildini dəyişib, olur bir pəhlivan. Kəsə yolnan gedib çıxır Əhmədin qabağına. Əhməd baxıb görür ki, ona sarı vallah elə bir nəhəng pəhlivan gəlir ki, boyu çinar boyda. Hər qolunda yeddi dəyirman daşı. Daşları elə oynadır, elə bil əlində çibin oynadır. Pəhlivan Əhmədin yolunu kəsib deyir:

– Ey cavan oğlan, hara belə?

Əhməd deyir:

– Gedirəm sehirli almaların sirrini öyrənməyə.

Pəhlivan bərkdən qəhqəhə çəkib deyir:

– Ədə, zalım oğlu, mən yekəlikdə pəhlivan gedib, o almaların sirrini öyrənə bilmədim. İndi sən bir tikə uşaq öyrənəcəksən.

Əhməd deyir:

– Öyrənə bilmərəm də bilmərəm. Bu yolda öldü var, döndü yoxdu.

Pəhlivandan soruşur:

– Bəs yaxşı, ay pəhlivan qardaş, sən hara gedirsən?

Pəhlivan deyir:

– Ey cavan, Oxxay adlı bir tilsimkarın gözəl-göyçək ağıllı bir qızı var. Oxxayın sağlığında heç kişi o qıza yaxın düşə bilmirdi. İndi eşitmişəm ki, Oxxay ölüb, gedirəm onun qızını zornan qaçırdam.

Əhməd deyir:

– Ey pəhlivan, sən də bil ki, o qız mənim nişanlımdır. Nə qədər mən sağam, heç kim onu qaçırda bilməz.

Pəhlivan bu sözləri eşidən kimi cin vurur kəlləsinə, gözləri hədəqəsindən çıxır, ağzı köpüklənə-köpüklənə deyir:

– Ədə, bir buna bax, bu bir tikə uşaq da mənə meydan oxuyur. Elə bu dəyirman daşlarının birini üstünə salsam, altında xaşıl kimi əzilərsən.

Əhməd, pəhlivanın belə coşduğunu görəndə, qılıncını çəkib deyir:

– Eh pəhlivan, çox da boy-buxununa, qoluna güvənmə, boş danışmaqdan bir şey çıxmaz. Bu meydan, bu şeytan, kim kimi öldürsə qanı halaldı!

Qız görür ki, Əhməd bu sınaqdan da yaxşı çıxdı, deyir:

– Ey cavan, sənin kimi uşaq-muşaqla vuruşsam, mənə əskiklik gələr. Odu ki, səni öldürmürəm, çıx get.

Bu sözləri deyib, başını aşağı salıb, çıxıb gedir.

Əhməd təzədən yol getməkdə olsun. Qız bu dəfə də cildini dəyişib, qoca qarı ağ dev şəklinə düşür. Gedib Əhmədin yolunun qabağındakı xaraba bir qalaçanın qapısında oturur. Əhməd gəlib qalaçaya çatanda görür qapıda bir qoca qarı oturub, alt dodağı yer süpürür, üst dodağı göy. Sir-süfətindən zəhrimar tökülür. Qarı Əhmədi görən kimi deyir.

– Ey bəni-insan, bura quş gəlsə qanad salar, qatır gəlsə dırnaq salar. Sən nə cürətlə buralara ayaq basıbsan?

Əhməd deyir:

– Ey qarı nənə, mən ağ devdəki sehirli almaların sirrini öyrənməyə gəlmişəm.

Qarı bərkdən gülüb deyir:

– Mənim başımın tükü sanı pəhlivanlar, igidlər gəlib bu sirri öyrənə bilməyib, başlarını qoyublar. Gəl görək indi sən neyləyəcəksən.

Qarı Əhmədi yanına salıb, aparır bir otağa. Bir qızıl məcməyinin içində üç dənə qızıl alma gətirir. Almaların üçü də bir rəngdə, bir ölçüdə, bir boyda. Qarı deyir:

– Oğlan, səninlə əvvəlcə bir şərtim var. O şərtimi yerinə yetirsən biləcəyəm ki, ən ağıllı oğlansan. Almaların da sirrini öyrənib, çıxıb

gedəcəksən. Yox, şərtimi yerinə yetirə bilməsən başını bədənindən ayırıb, ananı ağlar qoyacağam.

Əhməd deyir:

– Qarı nənə, mən razıyam, de görək nə deyirsən?

Qarı deyir:

– Bu almaların biri bir illik, biri iki illik, biri də üç illikdi. Bu sirri təkcə məndən başqa heç kim bilmir. İndi sən görsət görüm bunların hansı bir illik, hansı iki illik, hansı üç illikdi?

Əhməd deyir:

– Qarı nənə, bu mənim əlimdə su içimi kimi bir şeydi. Dur bir qab su gətir, bu saat deyim.

Qarı bir qab su gətirib qoyur Əhmədin qabağına. Əhməd almaların üçünü də salır suya. Almaların biri o saat batır suyun dibinə, ikincisi suyun ortasında qalır, üçüncüsü isə suyun üzündə üzür. Əhməd deyir:

– Qarı nənə, suyun dibinə çökən alma təzədi, həm də ağırdı. O bir illikdi. Suyun ortasındakı alma bir xeyli qalıb suyunu çəkib deyə yüngülləşib. Bu da iki illikdi. Lap suyun üstündə qalan alma isə tamam quruyub, suyunu çəkib. Bu da üç illikdi.

Qarı görür hamısını düz dedi. Odu ki, deyir:

– Bala, elə o almaların sirri bunda idi ki, sən özün tapdın. Görürəm çox ağıllı oğlansan, səni öldürmürəm, indi çıxıb gedə bilərsən.

Əhməd üzünü çevirir ki, çıxıb getsin. Qız qarı cildini dəyişib, düşür əvvəlki şəklinə, "Əhməd, Əhməd" deyib, onu səsləyir, Əhməd geri baxıb gözlərinə inanmır.

Dev qarısı dönüb Oxxayın qızı olmuşdu. Əhməd gözünü ovuşdurub qıza deyir:

– Bu nə əhvalatdı, mən yuxumu görürəm, nədi?

Qız deyir:

– Əhməd, sən yuxu-zad görmürsən bu gördüyün qarı mən özüməm. Yolda sənin qabağına çıxan padşah qızı da, pəhlivan da mən özüm idim. Səni sınaqdan keçirirdim. Şükür olsun Allaha, bütün sınaqlardan çıxdın. İndi mən səninəm, nə deyirsən eləyək.

Əhməd deyir:

– Yaxşısı budu əvvəlcə gedək qalaçadakı adamların hamısını tilsimdən qurtaraq. Sonra da gedək gözü yolda qalan atamı sevindirib, toyumuzu edək.

Əhmədnən qız gəlirlər qalaçaya. Oxxayın tilsimə saldığı adamların hamısını dirildirlər. Bu adamlar Əhmədnən qızın əl-ayağına döşənib deyirlər:

– Siz ki, bizi bu tilsimdən qurtardınız, ölənəcən sizə qulluq eləməyə hazırıq.

Əhməd deyir:

– Bizə heç bir qulluq lazım deyil. Bircə xahişim odur ki, indi biz gedirik atamın yanına. Orda toy eləyib evlənəcəyik. Siz də biznən gedib, toyda yeyib, içib, şadlıq eləyəsiniz. Sonra da kim hara istəyir, çıxıb gedə bilər.

Əhmədnən qız Oxxayın var-dövlətindən qiymətdə ağır, çəkidə yüngül şeylərdən götürürlər, sonra adamlara deyirlər:

– Kim nə istəyirsə, bu xəzinədən götürsün.

Adamlar da istədikləri qədər qızıldan, gümüşdən götürüb, başlayırlar getməyə. Gethaget, gəlib çıxırlar Əhmədgilin evlərinə. Əhmədin atası görür ki, qabaqda oğluynan bir gözəl qız, dallarınca da o qədər qoşun gəlir ki, iynə atsan yerə düşməz. Əhməd gəlib, atasının yanına çatır. Ata-bala öpüşüb, görüşürlər. Kişi deyir:

– Oğul, bu nə qoşundu, bu vaxtacan hardaydın?

Əhməd atasını oturdub, başına gələn əhvalatların hamısını bir-bir ona söyləyir.

Başlayırlar haman gündən toy tədarükü görməyə. Qırx gün, qırx gecə elə bir toy olur ki, ruzigarın gözü indiyə qədər belə bir toy görməyib. Oğlannan qız evlənib öz arzularına çatırlar. Siz də muradınıza çatasınız.

## ŞAHZADƏ VƏ QURBAĞA

Biri varıymış, biri yoxuymuş, əyyamı qədimdə bir padşah varıymış. Bu padşahın üç oğlu varıymış. Oğlanlar boya-başa çatıb böyüyüblərmiş. Ataları baxıb gördü ki, övladlarının övlənmək vaxtıdı. Padşah baş vəziri yanına çağırıb dedi:

– Vəzir, sən görürsən ki, mən qocalmışam, ölüm dediyin qaşla göz arasında olan bir şeydi, birdən yıxılıb ölərəm, uşaqlarımın toyunu görmərəm, indi deyirəm onları evləndirim, bu işə sən nə deyirsən?

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, bu cür ağıllı sözə nə demək olar? İstəyirsən elə günü sabahdan işə başlayaq.

Padşah vəzirə dedi:

– Vəzir, bəs uşaqlara kimin qızını alax?

Vəzir dedi:

– Ey adil hökmdar, öz dədə-baba qaydamıznan əmr elə, sənin torpağında nə qədər adlı-sanlı adamın qızı varsa, sabah hamısı bəzənib bir-bir sənin sarayının qabağından keçsinlər. Oğlanların da küləfirəngidən baxıb özlərinə qız seçsinlər. Hansı qız xoşlarına gəlsə, ona bir alma atsınlar; biz də bilək ki, həmin qız kimdi, gedib onu oğluna alaq.

Bəli, həmin günü şah əmr verdi, kəndbəkənd, şəhərbəşəhər carçılar hər yerə car çəkdilər ki, padşah oğlanlarını evləndirmək üçün qız seçəcək, sabah özünə güvənən nə qədər qız varsa, hamısı şahın sarayına gəlməlidi. Carçılar car çəkməkdə olsun, bu tərəfdən də padşah küçəbacanı xalı-ziliynən, gül-çiçəynən, çil-çıraxban bəzətdirib səhərisi

günü üç oğlunun üçünü də çıxarmışdı küləfirəngiyə. Oğlanların yanında atası, vəzir, vəkil, əyan, əşrəf oturmuşdular. Padşahın vilayətində nə qədər qəşəng qız varıydısa, hamısı gəlib bir-bir şahzadələr olan küləfirənginin qabağından nazi-qəmzə ilə keçirdilər. Aradan bir az keçməmişdi ki, gördülər vəzirin qızı gəlir. Qız gəlib küləfirənginin qabağından keçəndə padşahın böyük oğlu almanı atdı vəzirin qızına. Bir az keçmiş gördülər vəkilin qızı budu bir şəstnən gəlir ki, elə bil tovuz quşudu. Padşahın ortancıl oğlu da əlindəki almanı vəkilin qızına atdı. Şahın yanındakı adamlar hər iki qardaşa əhsən, bərəkallah dedilər.

Axırda növbə gəldi kiçik qardaşa. Bu qardaş da almanı hey əlində atıb-tuturdu. Hamı gözlüyürdü ki, elə indicə kiminsə qızına atacaq.

Qızlar bir-bir gəlib, boylana-boylana keçirdilər. Birdən çaydan bir yekə qurbağa hoppanıb düz yolun üstünə düşdü. Padşahın kiçik oğlu almanı atdı. Alma gedib həmən qurbağaya dəydi. Hamı bu əhvalata məyus oldu. Vəzir, vəkil dedilər:

– Padşah sağ olsun, bu səhv olub, oğlun almanı yəqin qızların birinə atırmış, gedib qurbağaya dəyib. Gərək təzədən ata.

Oğlan bu dəfə də almanı atanda yenə gedib həmən qurbağaya dəydi. Hamı bir təhər olub bu işə mat qaldı.

Vəzir dedi:

– Ey şahzadə, yəqin bu dəfə də səhv olub, atalar üçətən deyib, gərək almanı bir də atasan.

Padşah da əmr elədi ki, o zəhirmar qurbağanı götürüb suya atsınlar. Adamlar qurbağanı ayaqlarının ucu ilə itələyib çaya saldılar.

Kiçik şahzadə əlindəki almanı üçüncü dəfə adamlara atdı. Amma yerə düşüb yumarlana-yumarlana gedib düşdü çaya. Bir də gördülər həmən qurbağa almanı ağzına alıb çıxdı yolun kənarına. Hamını heyrət aldı, bilmədilər nə desinlər. Axırda kor-peşman düşüb evə gəldilər.

Səhəri gün padşah yeddi gün, yeddi keçə toy eləyib vəzirin qızını böyük oğluna, vəkilin qızını da ortancıl oğluna aldı. Kiçik oğluna da toy eləmədilər ki, camaat onları qınayar.

Bəli, günlər, aylar keçdi. Böyük qardaşla ortancıl qardaş şad, keyfləri kök, damaxları çağ ömür sürüb dövran keçirdilər. Kiçik qardaş qurbağa ilə bir daxmada məyus, başı aşağı gününü ah-vayla keçirməkdə olsun, sizə xəbər verim padşahdan. Padşah bir gün oğlanlarını yanına çağırıb dedi:

– Balalarım, mən bilmək istəyirəm ki, görüm sizin arvadlarınızın əl qabiliyyəti varmı? Gedib arvadlarınıza deyərsiniz ki, bir həftəyə kimi hərəsi bir xalı toxusun, görüm kimin xalısı daha yaxşıdır?

Oğlanlar atalarına baş üstə deyib gəldilər evlərinə, atalarının tapşırığını arvadlarına söylədilər. Vəzir, vəkil qızları tez tədarük görüb, xana qurdular, başladılar xalı toxumağa.

Kiçik qardaş atalarının yanından gələndən sonra evdə üzüquylu yıxılıb başladı ax-uf eləməyə. Elə olmuşdu ki, çırtıx vursaydın qanı damardı.

Qurbağa xanım ərini belə bikeyf görüb səbəbini soruşdu. Əri əvvəlcə demək istəmədi. Qurbağa əl çəkmədi ki, gərək deyəsən. Oğlan gördü baş-beyni gedir, əlacsız qalıb dedi:

– Hal-qəziyyə, atam gəlinlərinin qabiliyyətini yoxlamaq üçün xalı toxumağı tapşırıb. O biri qardaşlarımın arvadları başlayıblar toxumağa. İndi mən qalmışam naçar. Sən nə bilirsən xalı toxumağı, onlar toxuyub aparacaqlar, biz qalacayıq əliboş.

Qurbağa dedi:

– Elə mənə demək istəmədiyin, fikir çəkdiyin budu?

Oğlan dedi:

– Məgər bu az şeydi?

Qurbağa dedi:

– Elə isə sabah sənin xalçan hazır olar, baxıb görərsən olarınkı yaxşıdı, yoxsa bizimki.

Qurbağa xanım sözünü qurtarıb evdən çıxdı. Tullana-tullana getdi yekə bir gölə girdi, orda qurbağalarla nə danışdı, nə danışmadı, qayıdıb gəldi. Gecə yatdılar, səhər oğlan durub gördü vallah evdə bir gözəl xalı var ki, padşahın bütün xəzinəsini satsan, o xalını almaq olmaz. Oğlan bu işə çox şad olub xalını apardı atasına. Atası xalıya baxıb məəttəl qaldı. Öz-özünə dedi: "Yəqin oğlum bunu hardansa satın alıb".

Bəli, aradan bir neçə gün keçdi, o biri qardaşlar arvadları toxuduğu xalıları gətirdilər. Gördülər yox, kiçik qardaşlarının gətirdiyi xalının misli-bərabəri yoxdu. Ürəklərində paxıllıq elədilər. Aradan bir neçə gün keçdi, padşah oğlanlarına yenə dedi:

– Oğlanlarım, indi də arvadlarınıza deyin: hərəsi bir paltar tiksinlər, görüm kim yaxşı tikir.

Qardaşlar evə qayıdıb atalarının tapşırığını arvadlarına söylədilər. Kiçik qardaş bu dəfə də evə bikef gəldi. Qurbağa dedi:

– Ey şahzadə, ürəyindəkini gizlətmə, de görüm atan bu dəfə nə tapşırıb?

Kiçik şahzadə dedi:

– Atam indi də gözəl bir paltar istəyib.

Qurbağa dedi:

– Heç keyfini pozma, sabah paltar hazır olar, apararsan.

Qurbağa sözünü qurtarıb qapıdan çıxdı. Gedib yenə qurbağalı gölün içinə girdi. Qurbağalarla danışıb, ərinin yanına qayıtdı. Axşam oldu, yatdılar, səhər yerlərindən duran kimi oğlan gördü bir qızıl teştdə bir yaşıl örtük var. Örtüyü açıb gördü burda bir qoz var.

Oğlan dedi:

– Bu qoz nədi?

Qurbağa dedi:

– O qozun içində bir dəst şahanə paltar var, aparıb verərsən atana.

Oğlan bu işə də sevinib şad oldu. Qızıl teşti götürüb getdi atasının yanına. Gördü o biri qardaşları da ordadı. Onların hərəsinin arvadı zərdən-zibadan bir paltar tikib, yekə bir xonçaya qoyublar. Bu da gətirdiyi teşti qoydu atasının qabağına.

Padşah əvvəl böyük oğlunun, sonra ortancıl oğlunun gətirdiyi paltarları əyninə geydi. Paltarların biri əyninə yekə oldu, o biri balaca. Padşah teştin üstündəki örtüyü götürüb gördü ki, içində bir qoz var, dedi:

– Oğul, mən səndən paltar istəmişdim. Bəs bu qoz nədi gətiribsən?

Oğlan dedi:

– Ateyi-mehriban, sənə gətirdiyim paltar həmən qozun içindədi, qozu qır, onda görərsən.

Padşah qozu qırıb gördü bir elə paltardı ki, adam baxanda ağlı heyran qalır. Paltar gün kimi şox salır. Hər sapı min bir rəngə çalır. Özü də elə bil düz əyninə biçilib. Hamı bu işə əhsən dedi. Padşah fikirləşdi ki, kiçik oğlum gətirdiyi xalçaya şübhə elədim ki, onun arvadı qurbağadı, o nə bilir xalı toxumağı, yəqin bazardan alıb, bəs indi bu paltara nə deyim, belə paltarı dünyanın heç yerində satmazlar ki, onu da oğlum ala. Gərək üçüncü dəfə oğlumu bir də sınayam.

Bəli, aradan bir müddət keçənnən sonra padşah oğlanlarını yanına çağırıb dedi:

– Sabah böyük qonaqlığım var, arvadlarınızı özünüznən gətirərsiniz. Onlara tapşırarsınız ki, özlərinə elə paltar tikib geysinlər ki, mənə gətirdikləri paltarlar onun yanında heç nə olsun.

Bu dəfə kiçik şahzadə evə lap bikef gəldi. Az qalırdı ağlasın. Qurbağa ondan soruşdu:

– Ey şahzadə, yenə nə olub, atan nə tapşırıb ki, belə kefsizsən?

Oğlan dedi:

– Bu dəfəki qara sən deyən qaralardan deyil.

Oğlan nə qədər istədi deməsin, qurbağa and-aman eləyib xəbər aldı. Oğlan dedi:

– Vallah Allahdan gizlin deyil, sənnən nə gizlin. Atamın sabah böyük qonaqlığı var. Bizi də çağırıb. Özü də tapşırıb ki, arvadlarınızla bərabər gözəl geyinib-kecinib gələrsiniz. İndi özün de, mən ora səni necə aparım?

Qurbağa dedi:

– Rəhmətliyin oğlu, burda nə çətin iş var, apararsan, mən də gedərəm.

Oğlan dedi:

– Axı birini bilirsən, birini yox?

Qurbağa dedi:

– Sən səhv eləyirsən, mən elə ikisini də bilirəm. Sənin işin yoxdu, məni də apararsan.

Oğlan elə bildi ki, qurbağa heç nə başa düşmür, daha bir söz deməyib yıxılıb yatdı. Gecədən bir az keçmiş ayıldı, başladı öz-özünə fikir eləməyə ki, yaxşı bu qurbağa deyir məni də apar. Axı camaat onu görəndə mənə nə deyər? Elə bu fikirnən səhərə qədər gözünə yuxu getmədi.

Səhər açıldı, oğlan yanına baxıb öz gözlərinə inanmadı. Oğlan nə görsə yaxşıdı? Qurbağa dönüb elə bir gözəl qız olub ki, adam baxanda az qalır ağlı başınnan çıxsın. Qız nə qız, üzünə baxanda elə bil on beş gecənin ay çıxıb, qaşlar qara, gözlər qara, yanaxlara elə bil qan çilənib, dodaqlar qıpqırmızı lalə kimi, daha nə deyim, gəl məni gör, dərdimnən öl.

Oğlan qızı oyadıb əhvalatı xəbər aldı. Qız dedi:

– Mən qurbağa donumu çıxardıb evdə gizlətmişəm, odu ki, belə insan olmuşam.

Oğlan bu işə çox şad oldu, qıza tapşırdı ki, nə badə birdə qurbağa donunu geyinəsən ha! Qız da ona dedi ki, bax sən də nə badə mənim qurbağa donumu yandırasan ha! Əgər donumu yandırsan, mən yoxa çəkiləcəm, məni tapmaq üçün gərək bir dəmir əsa, bir də dəmirdən

çarıx geyib yeddi il gecə-gündüz axtarasan. Çarığın dabanı yırtılanda, asanın da ucu yeyiləndə bəlkə məni bir təhər tapa biləsən.

Bəli, vaxt tamam oldu, kiçik şahzadə arvadını da götürüb getdi atasının məclisinə. Qız özünə minbir bəzək vurub, zərdən-zibadan paltar geyinib, ləl-cavahiratdan, qızıl-gümüşdən o qədər bəzək-düzək vurdu ki, gözəlliyi bir idisə, oldu min. Məclisdəkilər, hamısı mat qaldılar ki, qurbağa dönüb belə gözəl qız olsun, bu lap möcüzədi.

Padşah yəqin elədi ki, elə xalını, paltarı qurbağa qız özü hazırlayıbmış, həm də söyündü ki, oğlunun arvadı belə qəşəng bir qız olub. Məclis başlanannan qurtarana kimi hamının gözü kiçik şahzadə ilə arvadında qalmışdı. Amma bu işə o biri qardaşların, həm də arvadlarının paxıllığı tutdu. Elə həmin günnən çarə axtarıb, tədbir tökməyə başladılar ki, qızı bir yolnan itirsinlər. Məclis dağılandan sonra böyük qardaşla ortancıl qardaş kiçik qardaşlarından xəbər aldılar ki, bəs qurbağa qız necə oldu ki, dönüb belə gözəlləşdi.

Kiçik qardaş dedi:

– O qurbağa donunu çıxardıb deyin dönüb insan olub.

Qardaşlar bu sirri gəlib arvadlarına söylədilər. Həmin günnən bir tərəfdən arvadlar, o biri tərəfdən də qardaşlar kiçik şahzadənin baş-beynini dəng elədilər ki, bəs sən onun qurbağa donunu yandır ki, bir də dönüb qurbağa olmasın. Oğlan bu sözlərə aldanıb arvadının qurbağa donunu yandırdı. Don yanan kimi hər tərəfi tüstü, duman basdı, elə qaranlıq oldu ki, göz-gözü görmədi. Arvadı yerindən qalxıb dumanın içinə yüyürdü. Bir azdan sonra duman çəkildi, nə qədər axtardılarsa, qızı tapa bilmədilər. Oğlan tutduğu işdən peşman olub başladı fikir eləməyə. Aradan bir müddət keçdi, padşah öldü, yerinə böyük oğlunu qoydular.

Sizə kimnən deyim, vəzirdən. Vəzir çox paxıl adam idi. Özü də tələ qurub padşahlığı ələ keçirmək istəyirdi. Özünü tülkülüyə vurub böyük qardaşla ortancıl qardaşın qılığına girib dedi:

– Ey şahzadə, sən qardaşlarının böyügüsən, onlara ata əvəzindəsən. Amma kiçik qardaşın sənin paxıllığını çəkir, ondan özünü gözlə, onun könlündən şahlıq keçir.

Vəzir böyük qardaşa bu sözləri deyəndən sonra xəlvətcə düz getdi kiçik qardaşın yanına. Vəzir o üzdən, bu üzdən danışannan sonra yağlı dilini işə salıb dedi:

– Oğul, hərçəndi sənin atan rəhmətə gedib, amma o mənə çox yaxşılıqlar eləyib, məni özünə ən yaxın adam bilib, hər vaxt dara düşəndə mənə məsləhət eləyib. İndi mən onun yaxşılıqlarını yadımdan çıxara bilmərəm. Mən səni özümə oğuldan artıq bilirəm. İstəmərəm ki, sənin dar günün olsun. İndi sənə bir sirri deyəcəm, nə badə açasan. Bil, agah ol ki, qardaşların sənin paxıllığını çəkirlər. Onlar başa düşürlər ki, sən onlardan ağıllı, bacarıqlısan, arvadın da o qədər gözəldi ki, onların arvadları sənin arvadının əlinə su da tökə bilməzlər. Qardaşların sənin başını batırmaq istəyirlər, bax ayıq ol, heç bir sözə inanma; yaxşısı budur ki, bir müddət bu vilayətdən baş götür get.

Vəzir sözünü deyib çıxıb getdi. O gündən qardaşların biri-birinə şübhələri artdı. Kiçik qardaş arvadı itəndən sonra çox bikef olub, üzü gülmürdü, ürəyində qardaşlarına kin bəsləyirdi. Çünki qurbağa donunu onlar yandırtmışdılar. Bəli, narazılıq o qədər artdı ki, böyük qardaş bir gün kiçik qardaşını çağırıb dedi:

– Mənim gözüm sənnən su içmir. Əgər mənim torpağımnan çıxıb getməsən səni zindana saldıracam.

Kiçik qardaş razılıq verib gəldi evə. Elə həmin günü özünə bir dəmir əsa, bir də dəmir çarıq alıb başladı yol getməyə. Öz-özünə dedi: "Allaha təvəkkül, qabağıma hara gəldi gedəcəm, bəlkə arvadımı tapdım".

Bəli, kiçik qardaş çəkib çarığın dabanını, qırıb yerin damarını, günə bir mənzil, teyyi-mənazil, nağıllarda mənzil olmaz, qız əlində güllər solmaz, az getdi, üz getdi, dərə, təpə düz getdi, dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi, dağların dabanıynan, yolların kənarıynan, axırda gəlib dəryanın qırağında bir qalaçaya rast oldu.

Oğlan gördü bu qalaçanın divarları o qədər hündürdü, quş-quşluğuynan ora səkə bilməz. O yanı, bu yanı axtarıb, qalaçanın darvazasını tapdı. Gördü darvazanın qapısında heç kim yoxdu. Amma darvazanın hər iki yanında bir qurbağa arxası üstə çevrilib, ayaqları göydə qalıb. Oğlanın bunlara yazığı gəldi, qurbağaları arxası üstdən çevirib üzü üstə döndərdi. Bir də gördü o saat darvaza taybatay öz-özünə açıldı. Oğlan fürsəti fövtə verməyib tez özünü içəri verdi. Gördü bura göz işlədikcə düzənlik, bərri-biyabanlıqdır. İçəri tərəfdə, darvazadan bir az aralı bir ağac var. Ağacın başından bir qurbağanı ayaqlarından asıblar. Tez xəncərini çıxardıb ipi kəsdi, qurbağa yerə düşən kimi dil açıb dedi:

– Ey bəni-insan, sən mənə bu yaxşılığı ki, elədin, ölənəcən sənə qul olacayam, nə desən yerinə yetirəcəm.

Oğlan dedi:

– Mənə heç nə lazım deyil, de görüm bura haradı, səni niyə ayağından asıblar?

Qurbağa dedi:

– Bura qurbağalar padşahının torpağıdı, mən də sənin kimi bəni-insan idim, gəldim bu yerlərə çıxdım, heç nədən xəbərim yox idi, qurbağalar mənə hücum etdi ki, tutub aparsınlar, mən də onlardan bir neçəsini vurub öldürdüm. O vaxtdan məni tilsimə salıb qurbağa elədilər, özümü də bu ağacdan asdılar. Nə qədər yalvar-yapış elədimsə, günahımdan keçmədilər. Padşah dedi ki, bizlərdən səni azad eləyən olmayacaq. Ta o vaxta kimi burda qalacaqsan ki, bir də bura bir bəni-insan ayağı düşər, bəlkə onun rəhmi gələr səni azad elər. Doğrudan da elə oldu, sən gəlib məni ölümdən qurtardın. İndi burda hər nə görürsən, hamısı tilsimlidi, bu tilsimli şeylərin hamısını tərsinə elərsən, onda bəlkə burdan çıxa biləsən.

Oğlan bu sözlərdən sonra qurbağadan ayrıldı. Qurbağa o saat dönüb adam şəklinə düşdü, oğlandan razılıq eləyib getdi.

Oğlan bir xeyli irəli yeriyib gördü ki, vallah hər yerə elə bil yaşıl, ala-bəzək xalça döşəyiblər. Hər yer göz işlədikcə başqa-başqa rəngdə görünür. O, bir xeyli yol getdi. Amma ayaqlarını yerə basdıqca yer elə bil yay kimi çöküb qalxırdı. Oğlan bu işə lap məəttəl qalmışdı. Tamam qılçaları yorulmuşdu. Bir də baxıb gördü ki, uzaqda yekə bir qara daş görünür, gedib çıxdı ora. Bir təhər dırmaşıb daşın üstündə oturdu. Üzünü çevirib ətrafa baxdı, gözlərinə inanmadı. Az qaldı dəli olsun. Oturduğu daşdan başqa demə hər yer dəryayi-ümman imiş. Dünyada nə ki qurbağa varımış, hamısı suyun üzünə çıxıb tamam hər yeri örtüblərmiş, oğlan da həmin qurbağaların üstü ilə yeriyib gəlirmiş, indi qurbağalar çəkilib gedənnən sonra məlum olur ki, bura dəryaymış. Oğlanı fikir götürür ki, mən burdan necə çıxacam. Əlacı kəsilir, durub daşın o tərəf, bu tərəfinə baxır. Bir də görür ki, burda bir qapı yeri var. Qapını açıb görür ki, burdan yol var. Bu yolla yeddi gün, yeddi gecə gedir. Yolda qabağına cürbəcür şeylər çıxır. Oğlan görür ki, yeddi açıq qapı var, yeddi də bağlı qapı. O saat qurbağanın sözü yadına düşür. Açıq qapıları bağlayır, bağlı qapıları açır. Bir qədər gedəndən sonra görür ki, yolunun üstündə iki qılınc asılıb, biri tərpənir, o biri

yox. Tez xəncərilə tərpənən qılıncı dayandırır, o birini tərpədir. Axırda gedib bir qapıya çatır, görür qapının hər tərəfində bir şam var. Şamın biri yanır, o biri yox. Tez sönmüş şamı yandırır, yanan şamı keçirir. O saat qapı taybatay açılır.

Oğlan içəri girib görür ki, vallah burda bir cahi-cəlal var ki, adam baxanda ağzı ayrıla qalır. Bütün evin fərşi qızıldandı, divarlar ləl-cavahiratdandı. Tavandan o qədər bəzək şeyləri asılıb ki, hamısı par-par parıldayır. Qızıl şamdanlar, yaqutdan, zümrüddən qablar, qızıldan taxtlar. Nə başını ağrıdım, dünyada hər nə yaxşı şey desən, burda tapmaq olar. Mərmər sütunlu sarayın lap başında hündür taxtın üsdündə zər-zibadan paltar geymiş, başında gün kimi yanan bir, tac qoymuş, min bir bəzəklə bəzənmiş dəvə boyda bir qurbağa oturmuşdu. Onun hər yanında əli qılınclı iki yekə qurbağa dayanmış ki, bu da onun vəzir, vəkili idi. Olan içəri girən kimi hər tərəfdən qurbağalar onu hop götürüb apardılar öz padşahlarının hüzuruna. Padşah dedi:

– Ey bəni-insan, sən kimsən, nə cürətlə bura gəlibsən?

Oğlan dedi:

– Hal-qəziyyə, mən filan padşahın oğluyam. Arvadımın qurbağa donunu səhv eləyib yandırmışam. O da həmin gündən qeybə çəkilib. Mən yeddi ildir ki, əlimə dəmir əsa alıb, ayağıma dəmir çarıq geyib onu axtarıram, indi gəlib bura çıxmışam.

Qurbağa padşahı bu sözləri eşidən kimi dedi:

– Oğlan, sən də bil, həmin sənin arvadın mənim doğmaca qızımdı. O, mənim sözümdən çıxıb bəni-insana ərə getdiyinə görə mən də onu qızlıqdan çıxartmışam. Bura gələn bəni-insan nəslini də mən cəzasız buraxmıram. Amma görürəm sən çox vəfalı insansan, düşüb düz-dünyanı gəzib arvadını axtarırsan, odu ki, sənə cəza vermirəm.

Oğlan padşahdan razılıq eləyib, ayrıldı. Şah əmr elədi ki, onu saraydan ötürsünlər. O saat yekə-yekə qurbağalar oğlanı hop götürüb bir göz qırpımında saraydan çıxardılar. Oğlan saraydan çıxanda al-əlvan bəzənmiş bir qurbağa onu saxlayıb dedi:

– Oğul, mən sənin arvadının anasıyam. Qızım bəni-insana getdiyinə görə biz onu qızlıqdan çıxartdıq. Ona heç bir cehiz vermədik. İndi al sənə bir qiymətli daş verim, qızımı tapsan bunu ona ver, de ki, anan yadigar verib.

Oğlan yumurta boyda olan bu qəribə daşı cibinə qoyub yola düşdü. Az getdi, çox getdi, orda aynan, ilnən, burda şirin dilnən, gəlib çıxdı

bir çayın kənarına. Gördü burda bir xaraba ev var. Evin uçuq-söküyünü düzəltdi, ətrafına çır-çırpıdan çəpər çəkib bir yaxşı həyət düzəltdi. Getdi ki, çaydan bir az su içsin, bir də gördü suyun qırağında bir ilan bir qurbağanı yarıya qədər udub, yarısı qalıb, elə onu da udhauddadı. Tez bir daş atıb ilanı vurdu. İlan qurbağanı ağzından yerə salıb dedi:

– Ey insafsız, mən neçə gün idi acından ölürdüm, bu qurbağa mənim ruzum idi, sən əlimnən aldın, bəs mən nəylə dolanım.

Oğlan xurcunundan bir xeyli yemək çıxardıb verdi ilana. İlan yeyib doyandan sonra çıxıb getdi. Qurbağa dil açıb oğlana dedi:

– Sən ki, məni ilanın ağzından qurtardın, ölənəcən sənə qulluq edəcəm, məni yanında saxla.

O gündən oğlanla qurbağa bir yerdə qaldılar. Hər gün səhər tezdən oğlan gedib quşdan, heyvannan ovlayıb gətirərdi, bir az özü yeyib, qalanını da qurbağaya verərdi.

Günlərin bir günü oğlan yenə ova gedibmiş. Evin qabağından bir tülkü keçirmiş. Qurbağa başlayır bərkdən quruldayıb səs-küy salmağa. Tülkü bu səs-küyə dözə bilməyib dedi:

– Ey səfeh qurbağa, bir həftədi acından ölürəm, yeməyə heç nə tapmıram. Ovqətimin təlx vaxtında sən qurhaqur salıb başımı ağrıdırsan, bir də səsin çıxsa, gəlib səni bircə tikə eləyib udacam.

Qurbağa dedi:

– Ay tülkü lələ, gəl mənim yanımda qal, sənə o qədər ət verim ki, lap qarnın cırılanacan ye.

Tülkü dedi:

– Ay qur-qur qurbağa, sən hardan alırsan əti ki, mənə də yedirdəsən?

Qurbağa, dedi:

– Mənim bir ağam var, hər gün gedib meşələrdən ov eləyib gətirir, bir az özü yeyir, qalanını da mənə verir.

Tülkü razı olub qaldı qurbağanın yanında. Axşam oldu, oğlan çoxlu ov ovlayıb gətirmişdi. Bir az özü yeyəndən sonra qalanını verdi qurbağaya. Qurbağa da öz payını götürüb yerdə qalanını verdi tülküyə. Tülkü quş ətini gözünə təpdi. Oğlan tülkünü görüb qurbağadan xəbər aldı:

– Bu hardan gəlib?

Qurbağa cavab verdi:

– Ağa, mən gətirmişəm. Sən evdə olmayanda yaman darıxıram. Yoldan keçirdi, özümə hiyən saxlayıram.

Tülküynən qurbağa burda qalmaqda olsun, səhər oğlan yenə ova getdi. Bu dəfə canavar səldirləyə-səldirləyə yolnan gedəndə qurbağa başladı bərkdən quruldamağa. Canavar da tülkü kimi özünə yemək tapa bilməmişdi deyin ovqəti təlx idi. Odu ki, dedi:

– Kəs səsini, çil qurbağa, mən acından ölürəm, sən segah oxuyursan?

Qurbağa dedi:

– Canavar qardaş, keyfini pozma, gəl mənim yanımda qal, gör sənə nə qədər ət verərəm.

Ac canavar ət sözü eşidən kimi gəldi qurbağanın yanına. Elə bu vaxt oğlan çoxlu ov vurub gəlmişdi. Qurbağa oğlanın gətirdiyi quşdan, heyvandan tökdü canavarın, tülkünün qabağına. Hər ikisi doyunca yedilər. Oğlan bu dəfə də canavarı görüb qurbağadan xəbər aldı:

– Bu hardan gəldi?

Qurbağa dedi:

– Bunu gətirmişəm ki, ev-eşiyimizə qarovul çəksin.

Bəli, səhər oldu, bu dəfə də göynən bir yekə quş uçub gedirdi. Qurbağa yenə səs salıb qur-qur quruldayırdı. Quş qanad saxlayıb qondu bir ağaca, dedi:

– Ay qur-qur xanım, nə hay-küy salıb quruldayırsan, deyəsən mənim kimi sənin də qarnın acdı?

Qurbağa dedi:

– Xeyr, mən acınnan yox, toxumdan oxuyuram.

Quş dedi:

– Yaxşı, de görüm yeməyi hardan alırsan ki, belə tox olursan?

Qurbağa dedi:

– Yeməyi mənim ağam gətirir. İstəyirsən qal mənim yanımda, hər gün sənin də qarnını doydurum.

Quş razılıq verdi, o günnən qaldı qurbağanın yanında. Qurbağa ağası gətirdiyi ovdan quşa da verib onu razı salırdı.

Qurbağa, tülkü, canavar, quş tamam bir il burda qaldılar. Yeyib-içib keyf çəkdilər.

Qurbağa ağası yatan evdə yatırdı, tülkü ev qapısının ağzında otururdu, canavar məhliyə qarovul çəkirdi, quş da damın üstünnən uzaxlara baxıb gəlib-gedəni xəbər verirdi. Günlərin birində qurbağa tülkünü, canavarı, quşu başına yığıb dedi:

– Ay qardaşlar, bizim ağamız bir ildi ki, gündə gedib ov eləyib bizə yemək gətirir, biznən yaxşı rəftar eləyir, birimizin də qəlbinə dəymə-

yib, biz də onnan razıyıq. Amma ağamızın heç üzünün güldüyünü görməmişik. Yəqin onun ürəyində dərdi var. Gəlin özünnən soruşaq, əkir gücümüz çatsa, dərdinə əlac eləyək.

Heyvanlar qurbağanın sözünü bəyəndilər. Axşam oğlan evə gələndə qurbağa məsələni açıb ağasına söylədi. Oğlan əvvəlcə istədi dərdini deməsin, fikirləşdi ki, bunlar nədi ki, mənim dərdimə əlac eləyələr. Heyvanlar əl çəkmədilər ki, gərək deyəsən. Oğlan bunların xətrinə dəyməyib başına gələn əhvalatı da arvadının qeybə çəkildiyinnən başlamış hər şeyi bir-bir söylədi.

Qurbağa bu əhvalatı eşidən kimi əlilə bir neçə dəfə gözlərini silib baxdı. Oğlan dediyi sözlərdən qurbağa başa düşdü ki, bu onun əridi, amma sir-sifəti dəyişib, qurbağanın gözünə ayrı cürə görünür. Qurbağanı fikir götürdü, bir xeyli fikirləşənnən sonra ürəyinə gəldi ki, ay gidi, bəlkə bu məni axtara-axtara gedib ata-anamın yanına çıxıb, onlar da bunu tilsimləyib, odur ki, gözümə ayrı sifətdə görünür. Birdən qurbağa dedi:

– Oğlan, de görüm bura gəlməmişdən qabaq hara getmişdin?

Oğlan dedi:

– Yolu azıb gedib arvadımın atasının sarayına çıxmışdım.

Qurbağa bu sözü eşidən kimi barmağını dişlədi. Bildi ki, onu tilsimləyiblər, dedi:

– Orda sənə bir ləl daşı vermədilər ki?

Oğlan daşı çıxardıb göstərdi ki, bax budu, bunu arvadımın anası verdi ki, qızıma yadigar verərsən. Qurbağa tez ləli oğlanın əlinnən alıb qoydu daşın üstünə, quşu çağırıb dedi:

– Bunun üstünə bir yekə daş sal.

Quş bir yekə daş gətirib yuxarıdan zərblə saldı ləlin üstünə. Ləl parçalandı, o saat bir nərilti, bir gurultu qopdu ki, yer-göy lərzəyə gəldi, az qaldı qulaxlar tutulsun, göy guruldadı, şimşək oynadı, hər yeri su basdı, elədi dəryayi-ümman. Ləlin içinnən bir göyərçin çıxıb qalxdı havaya. O saat qurbağa yanındakı quşa çığırdı ki, evin yıxılmasın, qoyma onu qaçmağa, tut gətir, yoxsa suda boğulub öləcəyik. Quş havaya qalxıb çox çətinliklə göyərçini tutub gətirdi. Qurbağa canavara əmr elədi ki, tez göyərçinin başını bədəninnən ayırsın. Canavar göyərçinin başını üzüb atdı kənara. O saat su çəkildi, səs-küy dayandı, qurbağa dönüb oldu misli dünya gözəli bir qız. Yeməyə idin, içməyə idin, onun gül camalına, xətti-xalına tamaşa eləyəydin. Qaşları kaman kimi,

kıprikləri ox kimi, nərgiz gözlü, gül yanaqlı, ağ buxaqlı, reyhan saçlı, mərmər sinəli, can alan, könül talayan, ürək yandıran, ağılları başdan çıxaran bir qız.

Oğlan qızı görən kimi tanıdı ki, bu öz arvadıdı. Hər iki aşiq-məşuq qol-boyun olub ilan kimi biri-birinə sarmaşdılar. Məst olub üç gün, üç gecə yuxuya getdilər. Üç gündən sonra ayılıb, başladılar məsləhətləşməyə ki, hara getsinlər, nə eləsinlər. Qurbağa xanım dedi:

– Sən söylədin ki, qardaşların səni didərgin salıblar. İndi bu hayıfı onlarda qoymaq kişilikdən deyil, gərək gedib intiqam alaq.

Oğlan dedi:

– Tək əldən səs çıxmaz, sənnən mən nə eləyə bilərik?

Qurbağa xanım dedi:

– Sənin işin yoxdu, bu saat görərsən mən nə elərəm. Qız sözünü qurtarıb tülkünü, canavarı, bir də quşu yanına çağırıb dedi:

– Siz bilirsinizmi ki, ağamızın bizim üstümüzdə çox haqqı var. O olmasaydı acınnan, ölərdik. İndi biz bu yaxşılığın əvəzini çıxmalıyıq.

Tülkü dedi:

– Biz ağamıza nə yaxşılıq eləyək ki, əvəzi çıxsın?

Qurbağa xanım dedi:

– Sən bütün tülküləri, canavar bütün canavarları, quş da dünyada nə qədər quş var hamısını gətirin bura. Ağamızı öz torpağınnan didərgin salan padşahın üstünə gedək, onun qoşununu qırıb özünü də öldürək. Sonra ağamızı onun yerində padşah qoyaq.

Heyvanlar bu tədbirə razılıq verib dağılışdılar. Aradan bir az keçmiş oğlanla qız gördülər ki, qabaxdan o qədər tülkü gəlir ki, göyə iynə atsan biri də yerə düşməz. O biri tərəfə baxıb gördülər vallah o qədər canavar gəlir ki, toz, duman asimana qalxır. Birdən hər yerə qaranlıq çökdü, elə bil gün batdı. Başlarını qaldırıb yuxarı baxanda məəttəl qaldılar, göydə o qədər quş varıydı ki, tamam günün qabağı tutulmuşdu. Tülkü, canavar, bir də quş gəlib qurbağa xanıma dedilər:

– Biz sənin qulluğunda hazır, indi hara deyirsən gedək.

Qurbağa xanımla oğlan qabaqca, heyvanlar, quşlar da onların dalınca başladılar yol getməyə. Az gedib çox dayandılar, çox gedib az dayandılar, gəlib oğlanın atasının torpağına çatdılar. Şəhərin kənarında məskən salıb başladılar tədbir görməyə. Belə qərara gəldilər ki, tülkülər düşmən atlarının əl-ayağına dolaşıb onları ürkütsünlər, quşlar

hərəsi caynağında bir yekə daş götürüb havadan qoşunun başına töksün, canavarlar da adamları parçalasın.

Səhər sübh tezdən oğlan bir namə yazıb tülkü ilə padşaha göndərdi. Padşah açıb naməni oxudu. Gördü yazılıb ki, hal-qəziyyə, mən filankəsəm, hazırlaş, səninlə dava eləməyə gəlmişəm. Padşah naməni oxuyan kimi, vəzirini, vəkilini çağırıb əhvalatı onlara söylədi. O saat qoşuna əmr verildi, dava başlandı. Padşah əlində durbin uzaxdan baxırdı. Bir də gördü ki, vallah bu heyvanlar, quşlar onun qoşununu elə qırıb çatdılar ki, biri də salamat qaçıb qurtara bilmədi. Heyvanlar qoşunu tamam qırannan sonra oğlan axtarıb padşahı tapdı, gördü atasının vəziridi. Qılıncını çəkib onu cəhənnəmə vasil elədi. Sonra soraxlaşıb qardaşlarının yerini öyrəndi. Gedib gördü qardaşlarının ikisi də yeddi qat yerin təkində, qolları zəncirli, zindanda heyva kimi saralıblar. Oğlan dedi:

– Sizi bura kim salıb?

Qardaşlar cavab verdilər ki, vəzir padşahlığı əlimizdən alıb, özümüzü də bura salıb.

Oğlan qardaşlarını zindandan azad edib buraxdı, özlərinə də dedi ki, gedin harda keyfiniz istəyir dolanın, gününüzü keçirin. Qurbağa xanım əhvalatı belə görüb dedi:

– Bəs onları niyə sağ buraxdın, sənə ki, xəyanət eləmişdilər.

Oğlan dedi:

– Atalar deyib ki, yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir. Onlar mənə pislik elədi, mən onlara yaxşılıq eləyirəm, qoy utanıb qızarsınlar.

Sonra oğlan padşahın tacını öz başına qoyub ədalətlə şahlıq elədi. Quşları, heyvanları da azad eləyib ömür sürməyə başladı. Burda nağıl tamama yetdi, hamı durub evlərinə getdi. Göydən üç alma düşdü, üçü də öz ağzıma düşdü.

## İLAN VƏ QIZ

Biri var imiş, biri yox imiş, əyyamı qədimdə bir kişi varmış. Kişi boyda-buxunda elə bil Rüstəm Zalmış. Hansı pəhlivanın boynu əlinə keçsəymiş, o saat qatlayıb qırarmış. Belindən yapışanda belini qatlayıb sındırarmış. Heç bir pəhlivan onun arxasını yerə vura bilməzmiş. Kişinin adına Məhəmməd pəhlivan deyərlərmiş.

Günlərin birində Məhəmməd pəhlivan meşəynən gedirmiş, bir də gördü ki, bir qara tikən kolunun dibində lüt anadangəlmə bir qız uzanıb. Qızın saçları o qədər uzundu ki, tökülüb tamam bədənini örtüb. Bir az da yaxına gedib, görür ki, bu elə bir qızdı, gözəllikdə milsi-bərabəri yoxdu. Bədən ağappaq mərmər kimi, saçları zil qara şəvə kimi. Elə bil qız qönçələnmiş qızıl güldü. Məhəmməd pəhlivan qızı oyadıb dedi:

– Ey nazənin gözəl, kimsən, buralarda tək-tənha nə gəzirsən?

Qız dedi:

– Mən kim olduğumu heç kimə deməyəcəyəm. Hər nəyəmsə, elə bu gördüyünəm.

Məhəmməd nə qədər əlləşdi ki, qızın kim olduğunu öyrənsin, amma heç bir şey çıxmadı. Axırda dedi:

– Ey gözəl qız, burda, bu kol-kosun dibində tək-tənha qalarsan, qurd-quş gəlib səni yeyər. Razı ol, gəl mənə, səni alım. Mən də tək adamam, bir yerdə dolanarıx.

Çox uzun götür-qoydan sonra qız razılıq verdi. Məhəmməd çuxasını qıza geydirib evlərinə gətirdi.

Ay dolandı, il keçdi, Məhəmmədin bu arvaddan üç qızı oldu. Məhəmməd evlənənnən sonra günü-gündən heyva kimi saralıb solurdu. Əvvəllər nər kimi olan kişi indi beli-buxunu əyilib cücəyə oxşayırdı. Kişi nə qədər həkimə, təbibə gedirdisə, heç bir əlacı olmurdu, Məhəmməd bir gün əlində əsa yolnan gedirdi. Dörd yolun ayrıcınnan bir qoca dərviş ona tərəf gəlirdi. Məhəmməd dərvişi görüb, ədəb-ərkanla baş əyib salam verdi. Məhəmməd yanın yerə qoyub, bir ah çəkdi. Dərviş dedi:

– Bala, niyə ah çəkdin, dərdin nədir?

Məhəmməd dedi:

– Ey baba dərviş, mənim dərdimə loğmanlar, həkimlər əlac eləyə bilməyiblər, sən neyləyə bilərsən.

Dərviş dedi:

– Bəli, görürəm yeriyə bilmirsən, aparım səni evinə, əlacını deyərəm.

Dərviş Məhəmmədin yanına düşüb, gəldi onların evinə. Evdə bir az oturub, söhbət eləyənnən sonra dərviş dedi:

– Məhəmməd, indi sən arvadına, uşaxlarına de, evdən çıxsınlar.

Arvad-uşaq evdən çıxannan sonra dərviş dedi:

– Məhəmməd, bu gecə arvadına çoxlu duzlu xörəklə şoraba verərsən. Evdə bir damcı da su saxlamazsan, ayna-qapını da elə qıfıllayarsan ki, heç fələk də gəlsə aça bilməsin. Gecə barmağını yarıb, içinə duz basarsan, yatmazsan. Xəlvətcə güdüb, arvadının nə elədiyinə fikir verərsən; sonra bütün gördüklərini sabah mənə söyləyərsən. Məhəmməd, nə badə mənim bu dediklərimi arvadına bildirəsən. Əgər o, bu sirri bilsə, səni su kimi əridər.

Dərviş sözünü qurtarıb, çıxıb getdi. Həmən gecə dərviş necə demişdisə, Məhəmməd elə də elədi. Arvadı çoxlu duzlu xörəklə şoraba yedi, yatdılar. Gecədən bir xeyli keçmiş Məhəmməd gördü ki, arvadı yerindən qalxıb, evi tamam hələk-fələk elədi ki, su tapsın, bir damcı da tapa bilmədi. İstədi aynanı, qapını açsın. Gördü hər yerə qıfıl vurulub. Gəlib dayandı aynanın qabağında nəfəsini şişəyə verib, bir dəfə nəfəs aldı, ağzınnan elə bil od-alov çıxdı. O saat şüşə əriyib suya döndü. Arvad aynadan çıxıb, özünü verdi həyətdəki suyun başına. Ağzını suya diriyib o qədər içdi ki, çayın suyunu tamam qurutdu. Sonra yavaşca gəlib girdi yerinə. Məhəmməd bunların hamısını öz gözüylə gördü. Onu fikir götürdü ki, görəsən bu nə olan işdi. Heç üstünü vur-

mayıb, bir təhər səhər açılana kimi dözdü. Səhər sübh tezdən yerinnən durub, getdi həmin dörd yolun ayrıcında dərvişi axtarmağa. Gördü ki, dərviş bir qara daşın üstündə oturub onu gözləyir. Məhəmməd dərvişi görən kimi dedi:

– Ağa dərviş, mən belə görürəm ki, başıma gələn işlərin hamısını sən bilirsən. Məni agah elə görüm, bu nə sirdir?

Dərviş dedi:

– Məhəmməd, bil və agah ol, sənin arvadın bəni-insan nəslinnən döyül. O, əjdaha nəslinnəndir. Onların belə bir qaydaları var, əvvəlcə ilan olurlar, üç yüz il ömür sürürlər. Üç yüz ildən sonra onların bədənində bir qara xal əmələ gəlir. Əlləri, ayaqları çıxır, yeddi yüz il yaşayıb, ikinci bir xal çıxardırlar. Bu dəfə dönüb əjdaha olurlar. Təzədən min iki yüz il yaşayıb, üçüncü bir qara xal da çıxardırlar. Bu dəfə dönüb insan şəklinə düşürlər. Amma adətləri, nəfəsləri əjdaha olaraq qalır. İndi səni heyva kimi saraldan arvadının nəfəsidir.

Məhəmməd dedi:

– Baba dərviş, bəs mən nə edim ki, bu bəladan xilas olum?

Dərviş dedi:

– Məhəmməd, burdan gedərsən bir yekə təndiri ağız-bağız odunla doldurub, bərk yandırarsan, arvadını aldadıb, deyərsən ki, bu gün çörək bişirsin. Arvadın təndirin qırağında hərlənəndə itələyib onu salarsan təndirin içinə, tez təndirin ağzını bağlayıb, qaçıb girərsən evə. Bunu eləyə bilsən canın qurtaracaq.

Məhəmməd dərvişdən çox razılıq eləyib, gəldi evinə. Təndiri möhkəm qalayıb, arvadına dedi ki, get çörək bişir. Arvad təndirin qırağına gələn kimi Məhəmməd onu daldan itələyib saldı təndirə. Tez təndirin ağzını örtüb qaçıb girdi evə. Məhəmməd gördü təndirdən bir nərilti, gurultu qopdu, bir alov qalxdı ki, az qaldı hər yer alışıb yansın. Aradan bir az keçdi. Səs-küy kəsildi. Məhəmməd yavaş-yavaş gedib təndirin ağzını açıb gördü təndirin daşı, torpağı yanıb kül olub. Arvadın izi-tozu qalmayıb.

Məhəmməd təndirin başından qayıdıb, gəldi evinə. Gördü qızlarının üçü də qorxudan biri-birinə qısılıb ağlayırlar. Məhəmməd bir fikirləşdi ki, əjdahadan törəyən elə əjdaha olar. Gəl sən bunları da öldür, sonra başına bəla açarlar. Amma günahsız övladlarını bu vəziyyətdə görüb, ürəyi yumşaldı, öz-özünə dedi: “Allaha təvəkkül, nə olar-olar. Nə təhər olsa, yenə övladlarımdı”.

Ay dolandı, il keçdi, qızlar, gəlib həddi-büluğa çatdılar. Məhəmməd də qocalıb lap əldən düşmüşdü. Məhəmməd görür ki, əlinnən daha ayrı iş gəlmir. Odur ki, hər gün gedib koldan-kosdan qırıb bazarda satmağa başladı. Aldığı qəpik-quruşnan uşaxlarını dolandırırdı.

Bir gün kişi yenə kol qırdığı yerdə bir bədheybət ilan çıxıb durdu qabağında, başladı insan kimi dil açıb danışmağa:

– Ay kişi, sən az qalmışdın dəhreynən quyruğumu üzeydin. İndi mən səni elə vuracam tas-tas olasan.

Kişi başladı yalvarmağa ki, ey Allahın heyvanı, mən nə bileydim sən bu kolun dibində gizlənibsən, gəl sən məni vurma, uşaxlarıma baxan olmaz.

İlan dedi:

– Neçə uşağın var?

Kişi dedi:

– Üç qızım var.

İlan o saat başını bir irəli, bir geri qatlayıb dedi:

– Kişi, əgər qızını mənə versən onda səni vurmaram.

Kişi dedi:

– İlan qardaş, qoy gedim evdə qızıma deyim, razı olsa sabah kol qırmağa gələndə onu da gətirərəm.

İlan onun sözünə razı olub getdi öz yerinə. Kişi gəlib evdə əhvalatı böyük qızına söylədi.

Qız dedi:

– Ay dədə, dəli olubsan, nədi, mən niyə ilana ərə gedirəm. Get de qızım razı olmur.

Yazıx kişi qorxa-qorxa gəlib çıxdı həmin gölün dibinə. O saat ilan sürünə-sürünə gəlib dayandı kişinin qabağında, dedi:

– Hə, de görək qızın razı oldu, ya yox?

Yazıx kişi dedi:

– Vallah nə qədər elədim, razılıx vermədi ki, vermədi.

İlan dedi:

– Kişi, bu dəfə də gedib ortancıl qızına deyərsən, gör o nə deyir.

Binəva kişi heç bu dəfə kol da qırmayıb başı alovlu qayıtdı evə. Ortancıl qızını yanına çağırıb əhvalatı ona danışdı. Bu da böyük bacısı kimi dədəsinin sözünü yerə saldı. Kişi kor-peşman, qorxudan əsə-əsə gəlib ortancıl qızın da sözünü ilana xəbər verdi. İlan o saat bir fəğan elədi ki, gəl görəsən. Fısıldadı, gözləri çıxdı kəlləsinə, özünü bir o üzə, bir bu üzə çırpıb sarındı kişinin boğazına, dedi:

– Kişi, bax sənə deyirəm, bu dəfə də gedib kiçik qızına deyərsən, o da razı olmasa, onda özünü ölmüş bil, səni elə vuracam ki, əriyib suya dönəcəksən.

Yazıx kişi gəlib əhvalatı indi də kiçik qızına söylədi. Qız dedi:

– Ay dədə, ilana deyil, lap çayana da versən gedərəm, təki səni ilan vurmasın. Dur bu saat hara deyirsən gedək.

Kişi qızını yanına salıb gətirdi ilanın yanına. İlan dedi:

– Mən hara getsəm dalımca gələrsən.

Bəli, ilan başladı əyri-üyrü yollarnan sürünə-sürünə getməyə. Dağlar aşdı, meşələr keçdi. Gəlib çıxdı bir mağaranın ağzına. Mağaradan içəri girdi. Qız baxdı ki, hər yer qaranlıxdı, göz-gözü görmür. Odu ki, mağaraya girməyə qorxdu. İlan o saat qışqırdı ki, ay qız qorxma, gəl dalımca. Qız ürəklənib bir az da gedənnən sonra bir də gördü ki, bir gözəl imarətin qabağında dayanıb. İmarət nə imarət, bir kərpici qızıl, bir kərpici gümüşdən. adam baxanda gözü qamaşır. İlan düz girdi bu imarətin içinə, onun dalınca da qız, hər yer qızıl, gümüş, ləl-cavahirat, almaz, yaqut tamam daş-qaş içində idi. İlan keçib o biri evdə donunu dəyişib gəldi qızın yanına. Qız baxıb gördü ki, ey gidi, bu ilan deyilmiş, qəşəng bir oğlan imiş. Qız bu işə şad olub sevindi.

Sizə xəbər verim qızın dədəsinnən. Kişi kiçik qızını ilana verənnən sonra demə pusa-pusa bunların dalıncan gedirmiş ki, görsün ilan qızını hara aparır. Axırda kişi də ilanın donunu dəyişib gözəl bir oğlan olduğunu görüb sevindi. Kişi düz ordan qayıdıb gördüklərinin hamısını evdə qızlarına söylədi. Böyük qıznan ortancıl qız bu sözləri eşidən kimi paxıllıxlarından od tutub yandılar. Bədənlərinə qor dolmuşdu. Öz-özlərinə dedilər: "Yaxşı, biz ona elə divan tutarıx ki, heç ömrünün axırınatan yadınnan çıxmaz".

Günlərin birində iki bacı dədələrinnən bacılarının yerini öyrənib gəldilər kiçik bacılarıgilə. Bir az o yannan, bu yannan söhbət salannan sonra böyük bacı dedi:

– Ay bacı, ilan oğlan səni çox istəyirmi?

Kiçik bacı dedi:

– Məni elə çox istəyir ki, öl desəm ölər, qal desəm qalar. Dünyada mənim bir sözümü iki eləməz.

Böyük qız dedi:

– Ay bacı, indi ki belədi, onda al onun ilan donunu yandır getsin, nəyə lazımdı. Birdən acığı tutar, təzədən onu geyər. Bir də onu neyləyirsən evdə saxlayıb, adam qorxur.

Qızlar hərəsi bir tərəfdən kiçik bacılarını başdan çıxartdılar. Sonra da durub getdilər. Axşam qızın əri evə gələndə başladı ki, gərək sənin ilan donunu yandıram. Kişi nə qədər başa saldı ki, onu yandırsan mən yox olacam, qız inanmadı ki, inanmadı. Elə nırx deyib durdu ki, sən məni istəmirsən. İstəsən qoyarsan donunu yandırmağa. Oğlan gördü qız əl çəkmir, dedi:

– İndi ki, donumu yandırmaq istəyirsən, onda bu sözlərimi yadında saxla, yoxsa sonra peşman olacaxsan. Mənim donumu bircə soğan qabığıynan yandırmaq olar. Ayrı heç nəynən yanmaz. Elə ki, onu yandırdın, o saat özündən gedib yıxılacaqsan yerə. Hannan-hana ayılıb görəcəksən ki, mən yoxa çəkilmişəm. Nə qədər axtaracaxsan məni tapa bilməyəcəksən. Məni tapmaq istəsən onda gərək ayağına bir cüt dəmir çarıx geyib, əlinə də bir dəmir əsa alasan, o qədər axtarasan ki, çarıxların dabanı deşilə, əsanın da ucu yeyilə. Bəlkə onda, tapasan.

Qərəz, qız oğlanın sözünə fikir verməyib onun donunu yandırdı.

O saat qız tirtap özünnən gedib yıxıldı yerə. Bir də gözün açıb gördü ki, yanında nə ins var, nə cins. Tək-tənha qalıbdı bir düzdə. Qız tutduğu işdən tamam peşman oldu. O qədər ağladı ki, gözünün yaşı sel kimi axdı. Bir də gördü bir qarı buna sarı gəlir. Qız başına gələnləri ona danışıb dedi:

– Ay qarı nənə, sənə qurban olum, mənə bir cüt dəmir çarıxnan bir dəmir əsa tap.

Qarının qıza yazığı gəldi. Gedib bir cüt dəmir çarıxnan bir dəmir əsa tapıb gətirdi. Qız çarıxları ayağına geyib, əsanı da əlinə alıb yol başladı getməyə. Bu getməynən düz qırx gün, qırx gecə yol getdi. Bir də baxıb gördü ki, çarığın dabanları deşilib, əsanın da ucu yeyilib. Baxdı ki, yaxında bir bulax görünür. Getdi bulağa sarı. Gördü bir qız əlində parç, su doldurur, dedi:

– Ay bacı, parçı ver bir az su içim.

Qız dedi:

– Verə bilmərəm, Mədəd bilsə acığı tutar ki, niyə mənim parçımda ayrı adam su içib.

Qız dedi:

– Mədəd kimdi?

– Mənim nişanlım.

Qız Mədəd adını eşidən kimi öz əri yadına düşdü. Öz-özünə dedi: “Ay gidi, bəlkə elə bu mənim ərim özüdü”. Odu ki, qızı bir təhər dilə

tutdu, parçda su içib sonra da doldurdu, öz üzüyünü xəlvətcə çıxardıb parçın içinə saldı. Qız aparıb suyu nişanlısına verdi, oğlan suyu içəndə gördü ki, parçın içində bir üzük var. Üzüyə baxıb o saat tanıdı ki, öz arvadınındı. Tez qızı çağırıb dedi:

– De görüm bu parçda kim su içib?

Qız əvvəlcə istədi dansın, gördü yox, olmayacax. Axırda naəlac qalıb dedi ki, bir yolçu qız zornan parçı əlimnən aldı, su içdi.

Oğlan dedi:

– Tez bu saat get o qızı tap gətir bura.

Qız qaçıb bulağa sarı getdi, gördü həmin adam oradaca oturub, elə bil adam gözləyir. Qız dedi:

– Ay bacı, Mədəd səni çağırır. Dur gedək.

Elə bu sözü eşidən kimi Mədədin arvadı gəldi evə. Baxıb biri-birini tanıdılar.

Mədəd su gətirən qızı bir bəhanə ilə ayrı yerə göndərdi. Mədəd arvadına dedi:

– Hal-qəziyyə, sən mənim donumu yandırannan sonra gəlib çıxmışam bu məmləkətə. Bura yeddi qardaş devin torpağıdı. Sənə su verən qız da onların bacılarıdı. Günlərin birində yeddi qardaş dev məni tilsimə salıb tutdular, gətirdilər öz qalaçalarına ki, məni yesinlər. Əl-ayağımı sarıyıb atdılar bir küncə. Devlərin aman-zaman bircə bacıları var idi. Onu çox istəyirdilər. Bu qız demə mənə aşiq olubmuş. Bir gün yenə devlər bir yerə yığışıb məni yemək istəyirdilər. Birdən qız başladı ki, ay qardaşlarım, gəlin bu bəni-insanı öldürməyin, verin mənə. Siz çıxıb gedəndə mən qalıram təkcə, darıxıram, heç olmasa onunla danışıb, gülərəm, dərdim yadımdan çıxar. Dev qardaşları bacılarının xətrinə dəymədilər. Qız bir neçə gündən sonra mənə elə alışdı ki, mənsiz dayana bilmirdi. Fikirdən saraltma azarı gətirmişdi, yeddi qardaş dev bacılarının günü-günnən geri getdiyini görüb dedilər:

– Ay bacı, axı sənin dərdin nədi ki, belə saralırsan? Allaha şükür, sən dünyada nə istəyibsənsə, hamısını hazır eləmişik. Səni and veririk anamızın südünə, aç dərdini de.

Qızın əlacı kəsildi, dedi:

– Ay qardaşlar, Allahdan gizlin deyil, sizdən nə gizlin? Hal-qəziyyə, mən bu bəni-adəmin dərdinnən saralıb soluram. Əgər ölməyimi istəmirsinizsə, məni ona ərə verin, yoxsa mənim dərdimə çarə yoxdu, ölüb gedəcəm.

Yeddi qardaş dev götür-qoy elədilər, axırda dedilər:

– Bəni-adəmin fikrini çəkib ölüncə, qoy verək ərə.

Odu ki, hazırlıq görüb, sabah məni həmin qıznan övləndirmək istəyirlər. İndi ayrı əlac yoxdu, bircə yol qalır ki, qaçax. Ər-arvad başladılar tədbir tökməyə ki, necə qaçsınlar. Mədəd dedi:

– Biz elə belə qaçsax, devlər tutarlar. Bu devlərin bacılarınnan onların sirlərini öyrənmişəm. Gərək biz devlərin qalaçalarınnan sehirli su, ülgüc, bir də duz götürüb, qara devin yerin altında, qaranlıxda saxladığı qara ata minib qaçaq.

Qız Mədəddən soruşdu:

– Yaxşı, bəs o suyu, ülgücü, duzu neyləyirsən?

Mədəd dedi:

– O sudan bircə tulux yerə töksən, hər yer dönüb olacax yekə bir ümman. Ülgücü yerə salanda, hər yer ülgüc dönəcək, dalımıznan gələn devlərin ayaxlarını doğram-doğram eləyəcək. Duzu da tökəndə devlərin yaralarına dolub yandıracax.

Bəli, Mədəd gecəni yatıb səhər tezdən bir müsibətnən qara devin atını tövlədən çıxardıb mindi, qızı da tərkinə aldı. Suyu, ülgücü, duzu da götürüb, asta qaçana göy imam qənim, deyib götürüldü. Elə bir azca getməmiş geri baxıb gördülər ki, yer, göy hamısı qarışıb biri-birinə, bir tufan qopub, bir çovğun düşüb ki, adamı vahimə basır, bir tərəfdən göy guruldayır, bir tərəfdən yer inildəyir, şimşək oynayır. Mədəd o saat bildi ki, bu qızın böyük qardaşı qara devdi. Tez götürdüyü sudan bir az yerə səpdi, o saat hər yer dönüb oldu dəryayi-ümman, qara dev sudan keçib gələnədək bunlar bir az uzaxlaşdılar. Bir azdan sonra Mədəd dönüb bir də geri baxdı, gördü ki, indi də qızın qardaşlarının hamısı ildırım kimi gəlirlər. Bu dəfə də oğlan bunların qabağına ülgücü atdı, devlərin ayaxlarını ülgüc kəsib doğram-doğram elədi. Mədədlə qız bir az da uzaxlaşdılar. Devlər yenə əl çəkməyib axsaya-axsaya gəlirdi. Mədəd indi də duzu atdı yerə. Duz devlərin yaralarına doldu, yandırdı. Daha gələ bilmədilər. Mədəd bir də geri baxıb gördü heç nə yoxdur. Gün çıxıb, hər yeri işıqlandırıb.

Gəlib evlərinə çıxdılar. Qız baxıb gördü ki, ona dəmir çarıxnan dəmir əsa verən qarı pilləkəndə oturub onların yolunu gözləyir. Mədəd, arvadı, qarını da yanlarında saxlayıb xoş güzəran keçirdilər.

## İKİ QARDAŞ

Bir şəhərdə iki qonşu var imiş, biri tacir imiş, o biri əkinçi. Bunların hərəsinin iki oğlu var imiş. Tacirin oğlanları həm fərasətsiz, həm də yaman dəcəl imişlər. Elə işləri, peşələri ona, buna sataşmaq imiş. Amma əkinçinin oğlanları ağıllı, zəhmətkeş, başı aşağı imiş. Bu kişinin bütün var-dövləti bircə cüt öküzü var imiş. Kişinin böyük oğlu evli imiş, kiçiyi subay.

Ay dolanır, il keçir, kişi canını oğlanlarına tapşırıb ölür. Ataları öləndən sonra iki qardaş bir müddət bir yerdə dolanırlar. Amma böyük qardaşın arvadı hey ərinin baş-beynini aparıb, giley eləyir:

– Qardaşın böyüyüb yekə oğlan olub. Nə vaxtatan biznən bir yerdə qalacaq. Ona de ki, çıxıb getsin. Özünə ayrı yerdə ev-eşik düzəltsin.

Arvad nə qədər deyirdisə, əri qardaşından ayrılmaq istəmirdi. Amma arvad əl çəkmirdi ki, çəkmirdi. Axırda əri əlacsız qalıb, kiçik qardaşına dedi:

– Qardaş, görürəm bu arvad səni yola verməyəcək, məndə öhdəsindən gələ bilmirəm. Yaxşısı budu gəl səni ayırım, sənin də canın rahat olsun. Mən də onun dannağından qurtarım. Arxayın ol, səni ayırsam da gözüm üstündə olacaq.

Kiçik qardaş razı oldu. Var-yox atalarından qalan iki öküzləri var idi. Onu da bölüşdülər, hərəsinə biri düşdü. Qardaşlar bir neçə ay ayrı yaşadılar.

Ay dolandı, gün keçdi, əkin əkmək vaxtı gəlib çatdı. Böyük qardaş baxıb gördü bir öküznən heç bir iş görə bilməyəcək. Əlacı kəsilib, gəldi kiçik qardaşının yanına, dedi:

– Qardaş, indi əkin vaxtı gəlib, bir öküznən nə sən iş görə biləcəksən, nə mən, gəl birlikdə əkib, becərək, nə götürsək tən yarı bölərik.

Kiçik qardaş razı oldu. Həmin gündən iki qardaş arpanı, buğdanı əkib, biçib döydülər. Hərəsi öz payını taya kimi bir yerdə yığdılar. İstədilər evə daşısınlar, gördülər qaranlıq düşüb. Hərə öz taxılının yanında uzanıb yatdı ki, səhər açılanda işıq gözü durub, daşıyarıq. Böyük qardaş yuxuya gedənnən bir az sonra kiçik qardaş durub, öz-özünə bərkdən dedi:

– Bu heç insafdan deyil, böyük qardaşımın arvadı-uşağı var. Külfəti böyükdü, amma mən təkcəyəm. Taxılı da tən yarı bölmüşük. Gərək mən çox hissəsini böyük qardaşıma verəydim.

Oğlan sözünü qurtarıb, kürəyi aldı əlinə, öz arpa-buğdasının yarısını tökdü qardaşının payının üstünə. Sonra yenə yıxılıb yatdı. İndi də böyük qardaş yuxudan ayıldı. O da ucadan öz-özünə dedi:

– Heç insaf deyil. Mən taxılı kiçik qardaşımnan tən yarı bölmüşəm. Əvvəla, mən haqsızlıq eləyib, onu ayırdım. Sonra da öküzünü verməsəydi, mənə kömək eləməsəydi, bu qədər taxılı hardan ala bilərdim.

Bu qardaş da kürəyi əlinə alıb öz arpa-buğdasının tən yarısını kiçik qardaşının payının üstünə tökdü. Sonra da yıxılıb yatdı.

Qardaşlar burda yatmaqda olsun, sizə kimnən xəbər verim, qırx quldurdan. Qırx quldur demə həmin gün padşahın xəzinəsini yarıb, qırx dəvə yükü qızıl gətirirlərmiş. Gəlib yoldan keçəndə burda arpa-buğda tayalarını görüb, gəlirlər ki, atlarına bir az arpa aparsınlar. Buğda tayasının dalısında durub, pusurlarmış. Quldurlar burda pusan zaman bu iki qardaşın danışığını eşidirlər. Qardaşların biri-birinə belə can yandırmaları quldurbaşının xoşuna gəlir. Bir-iki çuval arpa götürürlər. Quldurbaşı əmr eləyir ki, apardığımız arpanın əvəzində bunların hərəsinin taxılının üstünə bir dəvə yükü qızıl səpin. Quldurlar o saat quldurbaşının sözün yerinə yetirib, iki dəvə yükü qızılı taxılın üstünə töküb gedirlər.

Qardaşlar səhər yuxudan ayılıb görürlər ki, taxıllarının üstü qızılnan doludu. Onlar bu işə məəttəl qalırlar. Öz aralarında götür-qoy eləyirlər ki, bəlkə, bizi şərə salmaq üçün qızılları bura töküblər. İstəyirlər ki, qızılları götürməsinlər. Baxıb görürlər ki, taxıl tayasının üstündə bir kağız var. Kağızı açıb oxuyurlar: "Ey Allahın təmiz ürəkli bəndələri, mən bilirəm ki, siz bu qızılları aparmaq istəməyəcəksiniz, qorxmayın, aparın. Öz malınız kimi halaldı. Gecə sizin hər ikinizin söhbətini, elə-

diyiniz işi gözümnən gördüm. Bu iş mənə çox xoş gəldiyinə görə bu qızılları sizə bağışlayıram. Aparın, halal xoşunuz olsun". Kağızı oxuyandan sonra qardaşlar taxıl və qızılları yığışdırıb apardılar evlərinə. Özlərinə gözəl imarət tikdilər.

Qonşu tacirin oğlanları bunların bu cahi-cəlalını görüb, paxıllıqları tutdu. Tacirin böyük oğlu atasının nə qədər var-dövləti var idisə, hamısını qumara, keyfə, damağa verib, xərcləyib qurtarmışdı. O, bir gün atasının yanına gəlib, deyir:

– Ata, daha sən qocalıbsan. Ticarətə getməyə halın yoxdu. Gəl mənə pul ver, gedim alver eləyim, çoxlu pul qazanım, yenə əvvəlki dövlətini qaytarım özünə.

Atası dedi:

– Ay oğul, mənim o qədər pulum nə gəzir ki, sənə verəm, olan-qalanımın hamısını sən dağıtdın. Bir də fərasətinə bələdəm. Sənnən pul qazanan olmaz.

Oğlan dedi:

– Ata, məgər mən qonşumuzdakı əkinçinin oğlanlarından fərasətsizəm. Görmürsən nə cah-cəlal düzəldiblər.

Tacir dedi:

– Əlbəttə, fərasətsizsən. Mənim dövlətim onların indiki varından çox idi, hamısını dağıtdın.

Oğlan yarı dil, yarı güc atasının olan-qalan pulunu alıb, yol başladı uzaq şəhərlərə ticarətə getməyə. Az getdi, çox dayandı, dağlar aşdı, dəryalar keçdi. Gedib çıxdı Firəngistana. Burda bir arvad tapıb, başladı keyf çəkməyə. Atasına da bir məktub yazıb, yolladı ki, ata, daha mənim yolumu gözləmə. Mən burda qalası oldum.

Atası məktubu alandan sonra, cavab göndərdi ki, oğul, səbəb nədi ki, öz evinə qayıtmaq istəmirsən?

Oğlan təzədən yazdı ki, ata, sən qocalıb əldən düşübsən. Sən nə bilirsən ki, al yanaqlar, qoşa xallar, ala gözlər, bal dodaqlar, incə bellər, sərvi boylar nə deməkdi. Mən burda evlənmişəm. Arvadımı qoyub, oralara gələsi deyiləm.

Tacir məktubu açıb oxuyan kimi, cin vurdu beyninə. Götürüb oğluna yazdı ki, oğul, düz deyirsən. Sən də evinə qonaq gələndə, onun üçün yatmağa bir dəst yorğan-döşək tapmamağı, arvad-uşaq evdə acınnan ağlaşanda gedib ona, buna əl açmağı, boş süfrəni görməyibsən. Borclular başının üstünü kəsib, ver borcumu deyəndə tər tökməyi

görməyibsən. Səndəki fərasətə ki mən bələdəm, bu şeyləri görəcəksən, onda özün qayıdıb gələcəksən.

Tacir məktubu yola saldı, oğlan atasından məktubu alanda, doğrudan da əlində olan pulu, var-dövləti tamam qurtarmışdı. Borc boğazına qədər yığılmışdı. Arvad da ağına-bozuna baxmayıb, gündə bir şey istəyirdi. Oğlan baxıb gördü ki, işlər şuluqdu. Əlacı kəsilib, kor-peşman qayıtdı atasının yanına. Atası oğlunu görüb dedi:

– Hə, oğul, indi necəsən, bəs qədrini bildiyin o qönçə dodaqlar harda qaldı?

Oğlan başını aşağı salıb dinmədi. Tacirə hər şey əyan idi deyə o da heç nə demədi.

Hə, sizə indi kimdən deyək, tacirin o biri oğlundan. Bu oğlan da ağıldan kəm, qoldan qüvvətli idi. On adam onun bir qolunu qatlaya bilməzdi. İşi belə görəndə kiçik qardaş cuşa gəlib dedi:

– Ata, indi də mənə icazə ver gedim, bir yerdə iş-gücdən tapım, bəlkə bir az puldan-paradan qazandım.

Tacir dedi:

– Oğul, səndən böyük qardaşın getdi neynədi ki, sən də neynəyəsən.

Oğlan dedi:

– Ata, sən ki, məndəki gücə, qüvvətə bələdsən. Bu qədər gücü olan adam nə desən eləyər.

Tacir dedi:

– Oğul, səhv eləyirsən, təkcə gücnən heç nə eləmək olmaz. Adamda ağıl, bacarıq da olmalıdır. Oğlan hirslənib dedi:

– Ata, indi ki, belə oldu, mən getdim. Görərsən bu güclə, bu qüvvətlə nə qazanaram.

Oğlan evdən çıxıb o qədər getdi ki, bir böyük çayın qırağına çatdı. İstədi soyunub çaydan keçsin. Gördü yox, bu o deyən çaylardan deyil. Bu çaydan keçmək mümkün deyil. Amma baxıb gördü ki, iki nəfər adam camaatı bərəyə mindirib, sudan keçirir. Gedib onlara dedi ki, məni də keçirin. Bərəçilər dedilər:

– Adamın birini bir manata keçiririk. Pulun varsa ver keçirək, yoxdursa keçirmirik.

Oğlan gördü bunlar pulsuz keçirməyəcək, qolunun zoruna salıb, hərəsini bir tərəfə itələyib, keçib oturdu bərədə. Özlərinə də qışqırdı ki, keçirin məni o taya.

Bərəçilər sözü bir yerə qoydular ki, oğlanı itələyib, suya yıxsınlar. Dinməz-söyləməz bərəni sürdülər. Bir xeyli gəlib, suyun lap gur yerində bərəni ləngərlətdilər. Firsət tapıb, oğlanı itələdilər duz suyun içinə. Su o saat oğlanı axıtdı. Oğlan suyun içində o qədər əlləşdi ki, axşam qaranlıq düşəndə bir təhər gücnən qırağa çıxa bildi. Səhər tezdən təzədən başladı yol getməyə. Gedib bir yerə çıxdı, gördü burda adamlar bir quyunun başına yığılıb, pulnan su alıb içirlər. Oğlan irəli keçib, bir az su istədi. Pulu yox idi deyə su vermədilər. Oğlan qolunun gücünə güvənib, su satanı itələdi ki, alıb su içsin, su satan o saat haray saldı ki, ay camaat, nə durubsunuz, bu adam bizim suyumuza sahib olmaq istəyir. Oğlanı o ki var döyüb, baş-gözünü yarıb, yola saldılar. Oğlan kor-peşman başladı yol getməyə. Gedib, bir dəvə karvanına rast oldu. Karvanbaşıdan xəbər aldı:

– Bu səhralıqda niyə düşüb qalıbsınız?

Karvanbaşı dedi:

– Qardaş, qabaxda qırx quldur mağarası var, gecə vaxtı ordan keçsək, bizi soyarlar. Elə buranın özündə də qorxuludur, birdən gəlib, quldurlar bizi tapa bilərlər.

Oğlan dedi:

– Siz qorxmayın, təkcə mən iyirmi-otuz quldura cavab verərəm.

Karvanbaşı oğlanın sözündən bir az ürəkləndi, ona çörəkdən-zaddan verdilər yedi, yatdı. Gecənin bir vaxtı karvançılardan biri dedi:

– Ay qardaşlar, mən bu adamdan şübhələnirəm, birdən o quldurların yoldaşlarınnan olar, bizi arxayın salıb, yuxuya verəndən sonra yoldaşlarını çağırar. Var-yoxumuzu əlimizdən alarlar. Gəlin elə bunu yata-yata qoyaq, xəlvətcə yol başlayaq gedək. Yoldaşları bu fikrə razı oldular. Sakitcə yığışıb getdilər. Oğlan neçə gün idi ac-susuz, yorğun idi deyə elə yatmışdı ki, heç nədən xəbəri yox idi. Oğlan bir də gözün açıb, gördü ki, lələ köçüb, yurdu qalıb. Bilmədi nə eləsin, hara getsin. Gəlib bir meşəyə çatdı, yenə otdan-ələfdən yeyib aclığını söndürdü. Demə bu vaxt padşah öz qoşunuynan ova çıxıbmış. Birdən oğlanı gördü, yanına çağırıb dedi:

– Oğlan, kimsən, nəçisən, buralarda tək-tənha nə eləyirsən?

Oğlan ağlaya-ağlaya başına gələn əhvalatları bir-bir danışdı. Padşahın yazığı gəldi, oğlana pal-paltar, bir xeyli pul verdi. Oğlan cığırı tutub düz gəldi evlərinə.

Atası oğlunun qayıtdığını görüb sevindi. Bir xeyli söhbətdən sonra oğlan başına gələn əhvalatların hamısını atasına da söylədi, dedi:

– Ata, bəs sən deyirdin ki, təkcə güc ilə heç nə qazanmaq olmaz. Bəs mən bu pulu necə qazandım?

Atası dedi:

– Oğul, əvvəla, sənin bu pulun bir həftədən artıq qalmaz. Axı bir də sən o pulu heç bir zəhmət çəkib qazanmayıbsan. Bu bir təsadüf nəticəsində olub. Əgər yolda padşaha rast olmasaydın bu pulu da ala bilməzdin. Təsadüfə bel bağlamaq olmaz. Pul qazanmaq üçün zəhmət çəkmək, ağıl işlətmək lazımdır. İndi mən sənə bir əhvalat söyləyəcəyəm, görəcəksən ki, səndən balaca bir uşaq təsadüfə nə cür cavab veribmiş.

Günlərin birində bir padşahın bir qiymətli üzüyü var imiş. Padşah düzgün ox atmağı çox sevərmiş. Odur ki, üzüyü bir məscidin minarəsinin lap təpəsində, görünən bir yerdən asdırıb, hər yerə car çəkdirir ki, kim bu üzüyün içindən ox keçirə bilsə, üzük onun olacaq. Ölkədə nə qədər ox atan vardısa, hamısı tökülüb gəlir, heç kim üzüyün içindən ox keçirə bilmir. Bir uşaq da qarğıdan özünə ox düzəldibmiş. Uşaq gözünü yumub, oxu hara gəldi atıb hey gülürmüş. Birdən uşağın oxu düz üzüyün içindən keçir. O saat hamı hay-küy salıb uşağı alqışlayır. Gətirib üzüyü uşağa verirlər. Uşaq üzüyü geri qaytarır. Ondan xəbər alırlar ki, bəs sən niyə belə eləyirsən? Uşaq deyir:

– Mən gözlərimi yumub oxu atdım, təsadüfdən o üzüyün içindən keçdi. Bu mənim zəhmətimlə yox, təsadüf nəticəsində olmuşdur. Mən belə mükafatı özümə əskiklik bilirəm.

Kişi əhvalatı söyləyib qurtarandan sonra üzünü oğluna tutub dedi:

– Oğul, indi çox da öyünmə, sənin qazandığın qəpik-quruş da belə təsadüf nəticəsində olubdu. Əsil qazanc zəhmət, bacarıq, ağıl nəticəsində əldə edilir.

## İKİ YOLDAŞ

Biri varıymış, biri yoxuymuş, bir qarının İlyas adında bir nəvəsi varıymış. İlyas həm gözəl, həm də ağıllı imiş.

Nənə-bala çox əzab-əziyyətlə, kasıblıqla dolanırmış. Qarı yun əyirib corab toxuyarmış, İlyas da aparıb bazarda satarmış.

İlyasla nənəsi nə qədər çalışırlarmış ki, güzaranları bir az yaxşılaşsın, amma heç bir şey çıxmırmış. Axırda İlyas təngə gəlib, nənəsinə dedi:

– Nənə, görürsən ki, corab toxuyub satmaqla heç nə qazana bilmirik, indi mən istəyirəm kəndimizdən baş götürüb gedəm özgə şəhərlərə, kəndlərə, bəlkə oralarda bir işdən-gücdən tapıb işləyəm, bir az puldan-paradan qazanam.

Qarı əvvəlcə istədi nəvəsini buraxmasın. Dedi:

– Oğul, sən hələ uşaqsan, ağzınnan süd iyi gəlir, haranı tanıyırsan ki, ora gedəsən. Gedərsən yolda-izdə nanəcibə rast olarsan. Gəl sən heç yerə getmə, mən də qocalmışam, bir əlimnən tutanım yoxdur. Məni qoyub hara gedirsən?

İlyas dedi:

– Nənə, qorxma, hara getsəm tez qayıdıb gələcəm, sən mənə xeyir-dua ver, dalısıycan işin olmasın.

Qarı gördü nəvəsinin tərs damarına düşüb, dediyinnən dönməyəcək, dedi:

– Oğul, indi ki, sözümə baxmırsan, get, Allah köməyin olsun. Amma sənə üç söz öyrədəcəm. Yolda bir adamla yoldaşlıq eləsən bu sözləri yadına salıb o adamı sınayarsan.

Qarı gətirib İlyasın heybəsinə dörd fətir, bir az da soğannan, şordan qoydu, özünə də tapşırdı:

– Yolda sənə yoldaşlıq eləmək istəyən bir adama rast olsan bir az gedəndən sonra bu fətirin birini çıxardıb verərsən həmin adama, özünə də deyərsən ki, kəs yeyək. Əgər həmin adam fətirin çox hissəsini kəsib özü götürsə, az hissəsini sənə versə, bil ki, o adam tamahkardı, sənə zərər verər, bir bəhanə tapıb ondan ayrılarsan. Yox, əgər fətiri ya tən bölsə, ya da çox hissəsini sənə verib, az hissəsini özü götürsə, onda onunla yol yoldaşı olarsan. Bir az gedənnən sonra bəhanə eləyib deyərsən ki, məni burda bir saat gözlə dəyəsi yerim var, ora dəyib gəlirəm, gedib kənardan baxarsan, əgər həmin adam səni gözləsə, onunla ürəkdən dost olarsan. Yox, çıxıb getsə, ondan uzaq olarsan. Üçüncü sözüm də odur ki, əgər qabarınıza çay çıxsa, sən yoldaşına deyərsən ki, gəl min dalıma, sudan keçirdim. Əgər o dalına minsə, ondan da uzaq olarsan, yox, işdi, o səni dalına alıb çaydan keçirsə, onnan əl çəkməzsən.

Qarı nəsihətini eləyib, xeyir-duvasını verənnən sonra İlyas başladı yol getməyin binasın qoymağa. Az getdi, çox getdi, yolda bir adama rast oldu. Bu adam ədəb-ərkanla İlyasa salam verib dedi:

– Qardaş, xeyir ola, hara belə gedirsən?

İlyas dedi:

– Uzağa səfərim var.

Həmin adam dedi:

– Elə mən də səfərə çıxmışam, təkcə getmək çətindi, sənnən yol yoldaşı olaram, söhbət eləyə-eləyə gedərik.

İlyas dedi:

– Yaxşı olar, mən də özümə bir belə yol yoldaşı axtarırdım.

İlyasla həmin adam bir xeyli yol getdilər. Bir bulağın başına çatanda İlyas dedi:

– Qardaş, mən yaman acmışam, bir az oturaq çörək yeyək.

Hər ikisi oturdular bulağın başında, göy otluğun üstündə. İlyas heybəsindən bir dənə fətir çıxardıb verdi həmin adama, dedi:

– Al, bu fətiri yarı böl, yeyək.

Həmin adam fətiri kəsib çox payını özünə götürdü, az hissəsini İlyasa verdi. İlyas bir altdan yuxarı baxıb, gördü ki, həmin adamın gözündən elə bil cin çıxır, ürəyində dedi:

– Hə, sənnən mənə yoldaş olmadı.

Bir az çörək yeyəndən sonra dinclərini alıb, təzədən başladılar yol getməyə. Bir xeyli yol gedəndən sonra birdən İlyas dedi:

– Qardaş, sən məni burda bir saat gözlə, bu yaxın kənddə bir balaca işim var, ora dəyim, sonra qayıdıb gedərik.

Kişi razı oldu. İlyas bir təpənin dalında gizləndi. Bir də gördü ki, kişi heç beş dəqiqə də gözləmədi. Elə İlyas bu tərəfə gələn kimi, o da başladı o biri tərəfə getməyə.

Kişi uzaxlaşıb gedəndən sonra İlyas ayrı yolnan başladı getməyə. Bir xeyli gedəndən sonra indi də qabağına bir cavan oğlan çıxdı. İlyas bu oğlanla başladı söhbətə. Bu oğlan da İlyasdan xəbər aldı:

– Qardaş, xeyir ola, səfərin haradı?

İlyas dedi:

– Heç, gedirəm bir iş tapıb işləyəm, bir az puldan-paradan qazanam.

Oğlan dedi:

– Elə mən də özümə bir sənin kimi yoldaş axtarırdım, yaxşı oldu səni tapdım.

İlyasnan oğlan şirin söhbət eləyə-eləyə başladılar yol getməyə. Bir az gedənnən sonra İlyas dedi:

– Qardaş, mən yaman acmışam, bir az oturaq çərək yeyək.

Oğlan razı oldu. Oturdular yolun kənarında, bir göy otluğun üstündə. İlyas heybəsindən bir fətir çıxardıb verdi oğlana, dedi:

– Al, bu fətiri bol, yeyək.

Oğlan fətiri yarı bölüb, çoxunu İlyasa verdi. İlyasın bu iş çox xoşuna gəldi, ürəyində dedi: "Deyəsən elə mən axtardığım adamı tapmışam".

Hər ikisi çörəklərini yeyib durdular ayağa, başladılar yol getməyə. İlyas oğlanı sınamaq üçün nənəsinin ikinci sözünü də yadına saldı, dedi:

– Qardaş, gəlsənə məni burda bir saat gözləyəsən, bu yaxın kənddə mənim bir balaca işim var, onu düzəldim, sonra gəlim bir yerdə gedək.

Oğlan dedi:

– Get, arxayın ol, lap sabaha qədər də gəlməsən səni burda gözləyəcəyəm.

İlyas oğlannan ayrılıb bir xeyli getdi. Bir ağacın dalında gizlənib başladı baxmağa. Gördü ki, yox, bu oğlan heç yerinnən də tərpənmir. Oturub onu gözləyir. İlyas bir az ora-bura gedib axırda gördü oğlan sədaqətli adama oxşayır, odur ki, gəldi yanına, dedi:

– Qardaş, çox sağ ol, məni çox gözləmiyəsən deyə tez qayıtdım, di dur gedək.

Oğlanla İlyas təzədən başladılar yol getməyə. O qədər getdilər ki, axırda gəlib çatdılar bir çayın qırağına. İlyas öz-özünə dedi ki, atalar üçə qədər deyiblər, gəl elə bu dəfə də oğlanı sına. Dedi:

– Qardaş, indi bu çaydan keçmək lazımdı, ikimiz də qılçalarımızı çırmayınca elə mən soyunum səni alım dalıma, keçək o tərəfə.

Oğlan dedi:

– Qardaş, elə iş yoxdur, mən dura-dura qoymaram ki, sən soyunub məni dalına alasan. Gəl min dalıma, mən səni keçirəcəm.

Oğlan tez qılçalarını çırmayıb İlyası aldı dalına, çaydan keçirib qoydu o tərəfdə yerə. İlyas tamam arxayın oldu ki, nənəsinin dediyi adam elə budur.

İlyasnan oğlan o qədər biri-birinə isnişmişdilər ki, yolun uzaxlığı heç yadlarına da düşmürdü. Bir də başlarını qaldırıb gördülər ki, hər yan düzənlik, çəmənlikdi. Qabaxlarında isə ucu-bucağı görünməyən bir dərya var. Dəryanın lap kənarında qəşəng bir hündür bina var. Amma uzaxda bir çoban qoyun otarır. Gedib çobandan xəbər aldılar:

– Çoban qardaş, de görək bu ev kimindi, niyə buralarda başqa ev-eşik görünmür?

Çoban dedi:

– Qardaş, bura şəhər deyil, kənd deyil. Qaldı o böyük bina, orda bu torpaxlar padşahının qızı olur. Qız analığının zülmünnən cana doyub, gəlib burda insan ayağı dəyməyən bir yerdə bu binanı tikdirib, təkcə ömür, gün keçirir. Onun yanında kişi tayfası yoxdur, amma çoxlu qulluqçuları, qarabaşları var.

İlyas bu əhvalatı eşidəndən sonra başını aşağı salıb başladı fikir eləməyə. Oğlan gördü İlyas qəm dəryasına batıb, soruşdu:

– Qardaş, düzünü de görüm sənə nə oldu belə fikrə getdin?

İlyas dedi:

– Hal-qəziyə, Allahdan gizli deyil, bəndədən nə gizlin, çoban bu əhvalatı söyləyəndə ürəyimnən keçdi ki, nə olaydı, o qızı bircə dəfə görə biləydim.

Oğlan dedi:

– Qardaş, bu mənim əlimdə bir su içimi kimidir. İndi ki, belə oldu, sən çobandan bir keçi al, dalısıynan işin olmasın.

İlyas o saat çobana pul verib ondan bir yaxşı keçi aldı, keçini qabaxlarına alıb gəldilər düz qızın küləfirəngisinin qabağına. Oğlan dedi:

– İlyas, – mən nə eləsəm, sən mənnən heç nə soruşma. Sonra özün görəcəksən ki, mən niyə belə eləyirəm.

Bəli, oğlan keçini yerə uzadıb başladı qulağını qatlayıb əzməyə. Keçi qulağının əzildiyinə dözə bilməyib bərkdən bəyirdi. Oğlan gah keçinin quyruğunu qatladı, gah tükünu yoldu, gah da qulağını əzdi. Keçi ağrıya dözə bilməyib hey bəyirirdi. Keçinin səsinə şahzadə qız yuxudan ayılıb qulluqçusuna dedi:

– A qız, get gör bu nə səs-küydü.

Qız küləfirəngiyə çıxıb gördü iki adam keçini gah o tərəfə çevirir, gah bu tərəfə, quyruğunu qatlayır, qulağını əzirlər. Qız dedi:

– Ay qardaşlar, siz neyləyirsiniz?

Oğlan dedi:

– Bu keçini kəsmək istəyirik, amma təhərini bilmirik.

Qulluqçu qız bərkdən gülüb dedi:

– Qəribə kişidilər, bir keçini kəsə bilmirlər.

Qız gedib xanımına dedi:

– Xanım, iki bığıburma cavan oğlan bir keçini kəcə bilmirlər.

Xanım bu işə bir az gülüb, qulluqçusuna dedi:

– Ay qız, bir bıçaq götür get, onlara öyrət ki, keçini necə kəsərlər.

Qulluqçu qız əlində bıçaq İlyasgilə sarı getməkdə olsun, görək İlyas neylədi. Bu vaxt idi ki, şahzadə qız küləfirəngidən baxırdı.

Oğlan dedi:

– Qardaş, gördün fəndim baş tutdu, şahzadə qız küləfirəngiyə çıxdı, indi nə qədər keyfindi bax.

İlyas baxıb gördü ilahi pərvərdigarə, bu elə bir gözəl qızdı adam baxanda ağzının suyu tökülür. Qız bir az baxandan sonra getdi evə.

Oğlan dedi:

– Qardaş, de görüm şahzadə xoşuna gəlir, ya yox?

İlyas dedi:

– Vallah qız o qədər xoşuma gəldi ki, onu bircə dəfə də görsəm, ölsəm də ürəyimdə dərdim qalmaz.

Oğlan dedi:

– Yaxşı, bu dəfə də onu sənə göstərərəm.

İndi də oğlan başladı ki, guya keçini soya bilmir. Bir ağac özü götürüb, birini də verdi İlyasa. Özünə də öyrətdi ki, qışqır-bağır sala-sala

keçinin cəmdəyini başla döyəcləməyə. Oğlanla İlyas keçinin cəmdəyinə bir hərəkət gəldilər ki, şappıltı az qalırdı yeddi ağaclıq yol getsin.

Bu hay-küyü eşidib şahzadə qız yenə çıxdı küləfirəngiyə, gördü bu iki oğlan elə hey keçinin cəmdəyinə ağac vururlar. Şahzadə yenə qulluqçusuna dedi:

– Soruş gör, indi nə eləmək istəyirlər.

Qulluqçu səslədi:

– Ay çobanlar, nə eləmək istəyirsiniz?

Dedilər:

– Keçinin dərisini soymaq istəyirik, amma bilmirik necə soyaq.

Şahzadə qız dedi:

– Qız, bunlar yazıq, avam adama oxşayırlar, get onları çağır həyətə, özlərinə də öyrət ki, keçini necə soyarlar.

Qulluqçu gedib xanımının tapşırığını bunlara yetirdi. Elə bunlar da onu istəyirdi ki, bir təhər həyətə girsinlər. Tələsik keçini də götürüb getdilər həyətə. Qulluqçu bunlara keçini soymaq qaydasını öyrətdi. İlyasnan oğlan yalannan hıqqana-hıqqana o qədər əlləşdilər ki, axşam şər qarışdı. Oğlan qulluqçuya dedi:

– Qəşəng qız, get xanımına de ki, bunlar qərib adamlardı, qalmağa heç bir yerləri yoxdu, bu gecəliyə bizə yatmağa bir yer versin, səhər durub gedərik.

Qulluqçu gedib xanımına dedi. Xanım razılıq verib, tapşırdı ki, onlara bir otaqda yer versin. Qız gəlib İlyasla yoldaşını apardı bir evə. Tapşırdı ki, burda gecələyin, amma səhər durub gedərsiniz. Qız getdi ki, bunlara yorğan-döşək gətirsin. İlyas dedi.

– Qardaş, xanımı görmək istəyirəm, nə eləyək ki, onu bir də görüm.

Oğlan dedi:

– Bu dəfə qorxuram gəlməyə.

İlyas əl çəkmədi ki, gör bir təhər eləyə bilərsənmi. Oğlan dedi:

– İndi ki, elə oldu, onda sən başını qoy yerə, ayaxlarını qaldır yuxarı, qulluqçu gəlib səni belə görsün, sonra dalısıynan işin olmasın.

İlyas ayaxlarını göyə qaldırıb təpəsi üstə dayandı. Bu halətdə qulluqçu əlində yorğan-döşək içəri girdi. Xəbər aldı:

– Bu niyə təpəsi üstə durub?

Oğlan dedi:

– Bizim yerlərdə adamlar belə yatırlar.

Qız gəlib əhvalatı xanımına danışdı. Xanım gəlib özü bu əhvalatı gördü, başladı bunları ordan-burdan danışdırıb ürəklərini öyrənməyə. Xanım başa düşdü ki, bunların kələyi var, əmr elədi, o saat ikisini də qapıdan eşiyə atdılar.

İlyasla oğlan qaldılar gecənin qaranlığında düzün üzündə. Bir xeyli gedənnən sonra qabaxlarına bir qəbiristanlıq çıxdı. Bərk yağış yağıb, yel əsirdi. Eşikdə qalmaq mümkün deyildi. Oranı-buranı axtarıb bir də gördülər ki, qəbirlərin arasından yerin altına bir lağım gedir. Lağımnan bir az gedib çıxdılar bir yekə sərdabənin içinə. Gördülər sərdabənin küncündə beş-altı meyit də var. İlyasla oğlanı vahimə bürüdü, amma neyləsinlər, eşikdə qalıb qurt-quş dağıdınca elə burda qalmağı məsləhət bildilər.

İlyasla oğlan yenicə yanlarını yerə qoyub dincəlmək istəyəndə, gördülər lağımın içindən adam səsi gəlir, elə bil ağır bir şey gətirirlər. İlyası vahimə basdı. Oğlan dedi:

– Qardaş, deyəsən bu gələn quldurlara oxşayır, özü də bura onların gizlənmək yerləridir. İndi bizim bircə yolumuz var, o yolnan qurtara bildik qurtardıq, yox, qurtara bilməsək, hökmən bizi öldürəcəklər. İndi gəl hərəmiz o ölülərin kəfənini üstümüzə örtək, uzanaq meyitlərin arasında, əgər bizi ölü bilib dəymədilər, səhər durub qaçarıq, yox, işi başa düşsələr, onda mən tez kəfəni üstümnən atıb deyəcəm:

– Ey ölülər, nə durubsunuz, qalxın ayağa, bu insanları qıraq, canımız onların əlindən qurtarsın. O saat mənim sözüm ağzımdan çıxan kimi sən də kəfəni onların üstünə atıb de ki, gəlin bunları qıraq. Onda quldurlar qorxub qaçarlar. Onlar qaçandan sonra biz də çıxıb gedərik.

Oğlan sözünü deyib işıqları keçirdi, kəfəni çəkdi üstünə, amma gözünün ucuyla kəfənin altınnan baxırdı ki, görsün bu gələnlər kimdi, budu, qırx quldur dalbadal doldular sərdabənin içinə. Quldurbaşı əmr elədi, işıqları yandırdılar, ortalığa o qədər qızıl, gümüş, daş-qaş tökdülər ki, gəl görəsən. Başladılar bölüşdürməyə. Gətirdikləri şeylərin hamısını tən yarı böldülər, amma bu şeylərin içində bir qəşəng qılınc var idi. Qılıncın qəbzəsi, qını tamam başdan-ayağa ləl-cavahiratla bəzədilmişdi. Hamının qılıncda gözü var idi. Quldurbaşı dedi:

– Hər kim bu qılıncla yerdəki meyitləri bircə dəfə vurmaqla tən yarı bölə bilsə, qılınc onun olacaq.

Quldurbaşı qılıncı əlinə götürüb getdi ki, əvvəlcə meyiti özü iki bölsün. Qılıncı qaldırdı ki, oğlanı iki bölsün. Tez oğlan yerdən sıçrayıb kəfəni atdı onun üstünə, bərkdən qışqırıb dedi:

– Ey bədbəxt ölülər, nə durmusunuz, görmürsünüzmü bu insanlar bizi qəbirdə rahat yatmağa da qoymurlar, tez qalxın bunların hamısın qıraq, canımız dincəlsin.

Söz oğlanın ağzınnan qurtarmamış, İlyas ondan da bərk qışqırıb qalxdı ayağa:

– Qardaş, gəl buları qıraq.

Quldurları vahimə bürüdü. Qızıl-gümüşü də burda qoyub başladılar qaçmağa. Quldurlar qaçandan sonra İlyasla oğlan qızılları böldülər. Qılıncı da oğlan götürdü. Quldurlar gedib bir xeyli fikirləşdilər ki, bu nə olan işdir, bəlkə bizi qara basır. Odur ki, quldurbaşı qoçaq, ürəkli oğlanlardan iki nəfərini göndərir ki, gedib görsünlər ölülər ordadı, ya qaçıblar. Quldurlardan iki nəfəri yaraqlanıb-yasaqlanıb qayıtdılar qəbiristanlığa. Sinə-sinə, yavaşca, ayaxlarının ucu ilə yeriyib sərdabənin qapısından baxdılar. İlyasla oğlan gördülər ki, hənir gəlir. Oğlan başa düşdü ki, gələn quldurlardandı, onları yoxlamağa gəliblər. İlyasın qulağına pıçıldadı ki, sən dava salıb de ki, heç olmasa mənə bir quruş verin. Bəli, İlyas o saat başladı qışqırmağa ki, di mənim də bir quruşumu verin. Oğlan dedi:

– Ay ölülər, gördünüz pulları payladım, hərənizə bir quruş düşdü, indi daha qızıl qalmadı ki, hamınıza verəm. Gözləyin, bəlkə buralara bir adam gəlsə, onu öldürüb sizin quruşunuzu da verərik.

Oğlan tez əlin atıb qapıdan busan adamın papağını götürüb atdı İlyasın üstünə, özünə də dedi:

– Al, Allahın yetirdi, quldurlar qaçanda birinin papağı qapının küncünə ilişib qalıb, bu da sənin bir quruşunun əvəzi.

Qapıdakı iki nəfər bu əhvalatı görən kimi başladılar əkilməyə. Düz gəlib başçılarına söylədilər ki, sərdabədə o qədər meyit var ki, qızılların hamısını bölüşüblər. Hələ üstəlik mənim papağımı da alıb birinə verdilər.

Quldurlar qaçıb gizlənməkdə olsun. İlyasla oğlan qızılları yığışdırıb gecəynən yol başladılar getməyə. Gethaget, gethaget, gəlib çatdılar İlyasın evinə. Başladılar yeyib-içib keyf çəkməyə. Bir neçə gündən sonra İlyas qızıllardan bir az da xırdalayıb özünə toy tədarükü görməyə başladı.

Bunlar burda qalsınlar, görək qırx quldur neçə oldu. Həmin gecəni səhərə qədər quldurlar yatmadılar, fikirləşdilər ki, burda deyəsən kələk var, heç ölü də dirilib pul bölüşərmi. Yəqin görəsən hansı lotu

imiş bizə gələk gəlib, biz də qorxub qaçmışıq. Səhər sübh tezdən qırx quldurun hamısı yaraqlı-yasaqlı gəldilər qəbiristanlığa. Girdilər sərdabəyə, gördülər ölü nədi, zad nədi, lələ köçüb yurdu qalıb. Lap yəqin elədilər ki, axşam bunları qorxudan ölü yox, diri adamlar imiş. Düşdülər hər yeri axtarmağa. Bir-iki gündən sonra soraq aldılar ki, bəs İlyas hardansa çoxlu qızıl tapıb, toy eləyib evlənmək istəyir. Quldurlar yəqin elədilər ki, yeməyə çörək tapmayan İlyas bu qədər qızılı hardan ala bilər, elə bizim qızıllarımızı aparıb. Quldurlar gecənin bir vaxtı doluşdular İlyasın evinə, qılınclarını çəkib dedilər:

– De görək bizim qızılları hara qoyubsan? Deməsən səni tikə-tikə doğrayacayıq!

İlyas dedi:

– Qardaşlar, bir az səbirli olun, qılıncları taxın yerinə. Qızıllarınızın hamısı durur. Nə vaxt istəyirsiniz götürüb apara bilərsiniz.

Quldurlar İlyasın sözündən sonra bir az sakit olub oturdular. Oğlan dedi:

– Ey quldur qardaşlar, siz gördünüzmü biz qəbiristanlıqda sizə nə kələk gəldik. Özümüz də əhli-keyf adamıq, gəlin dostlaşaq, gecənin bu vaxtı harda gedib qalacaqsınız, bu gecə bizə qonaq olun, yatın burda, səhər tezdən qızıllarınızı da götürüb gedərsiniz.

Quldurlar fikirləşdilər ki, gecədən xeyli keçib, doğrudan da gedib qalmağa başqa yerləri yoxdur. Bir də iki-üç adam qırx quldura nə eləyə bilər. Razı oldular gecələməyə. Quldurlar hərəsi evin bir tərəfinə döşənib yatmaqda olsun, sizə xəbər verim İlyasın dostundan. Oğlan eşiyə çıxıb tez quldurların birinin atını minib özünü yetirdi padşahın yanına, əhvalatı danışdı:

– Sənin xəzinəni yaran qırx quldur bu saat bizdədir, tez qoşun göndər tutsunlar.

Padşah əmr elədi, qoşun İlyasın evin üzük qaşı kimi mühasirəyə aldı. Quldurların hamısını tutdular, İlyasla oğlan qızıllardan bir xeyli gizlədib özlərinə saxladılar, qalanını padşahın adamları apardı.

İlyas həmin pulnan bir yaxşı imarət tikdirdi. Özünə ev-eşik düzəltdi. İlyas ha istəyirdi ki, yolda gördüyü qızı yadından çıxartsın, çıxarda bilmirdi. Dərdini yoldaşına danışdı. Oğlan dedi:

– İlyas, bilirəm sən o qızı almaq istəyirsən. Amma onu elə-belə asanlıqla ala bilməzsən. Burda bir tədbir işlətmək lazımdır. Əgər biz

elə-belə bu paltarda bir də ora getsək, qız o saat tanıyacaq. Gedib hərəmizə bir yaxşı köhlən at, bir dəst gözəl şahanə paltar alarsan.

İlyas gedib oğlanın dediklərini elə həmin gün tapdı.

İlyas nənəsini evdə qoydu, ata suvar olub, yoldaşıynan getdilər. Gəlib çıxdılar həmin qızın imarətinin qabağına. O qədər gözlədilər ki, axşam qaranlığı düşdü. Oğlan gəlib darvazanı bərkdən döydü. O saat qulluqçulardan biri gəlib qapını açıb dedi:

– Ay qardaş, kimsiniz, nəçisiniz? Gecənin bu vaxtı kimi istəyirsiniz?

Oğlan dedi:

– Bacı, uzaq yerdən gəlirik, qərib adamıq, qalmağa yerimiz yoxdu. Bu gecəliyə bir yer verin, yataq, səhər durub gedərik.

Qulluqçu dedi:

– Ay qardaşlar, burda durun, gedim xanıma deyim, icazə versə gələrsiniz.

Qız gedib xanımına əhvalatı söylədi. Xanım dedi:

– Yoxsa o keçini kəsə bilməyən adamlardı?

Qulluqçu dedi:

– Xanım, yox, bunlar əməlli-başlı adamdılar. Şahzadəyə oxşayırlar.

Xanım razılıq verdi. Qulluqçu gedib onları içəri buraxdı. Xanımın qulluqçuya ürəyi qızmadı, özü çıxıb onları yoxlamaq istədi. Qulluqçuya dedi:

– Tövlədən bir qoç gətir qonaqlar kəssinlər.

Oğlan bu sözü eşidən kimi İlyasın qulağına pıçıldadı ki, nə durmusan, qız bizi yoxlamaq istəyir. Qoçu elə kəsib soyarsan ki, elə bil bir sərçə başı kəsirsən. Qız qoçu gətirən kimi İlyasnan oğlan bir göz qırpımında qoçun başını kəsib, soyub şaqqaladılar. Xanım baxıb gördü yox, bunlar igid adamdılar. Onlara əməlli-başlı yer verdirib getdi. Oğlanlar çörəkdən-xörəkdən yeyib yatdılar. Səhər açıldı. Qız onların yanına gəlib dedi:

– Axı mən heç sizdən soruşmadım ki, kimsiniz, hardan gəlib hara gedirsiniz?

İlyas bir ah çəkdi, dedi:

– Xanım, vallah düzünü deməyə utanıram, səni də aldatmaq istəmirəm.

Qız dedi:

– Nədən utanırsan, de. Bəlkə dərdinə əlac elədik.

İlyas dedi:

– Vallah Allahdan gizlin deyil, bəndədən nə gizlin, bir analığım var idi. Mənə o qədər divan elədi, o qədər şər-böhtan atdı ki, axırda onun əlindən cana doyub baş götürüb çıxdım. İndi hara gedəcəyimi özüm də bilmirəm.

Qız dedi:

– Elə bunu deməyə utanırdın.

İlyas dedi:

– Xanım, bəli, bunu deməyə utanırdım. Qorxurdum deyəsən ki, sən necə kişisən ki, bir arvadın əlindən baş götürüb qaçırsan. Mən şahlarla, şahzadələrnən vuruşmuşam. Nər kimi pəhlivanların arxasını yerə vurmuşam. Şirlər, pələnglərlə üz-üzə gəlmişəm. Amma arvada əl qaldırıb, qılınc vurmağı özümə ar bilirəm. Odu ki, baş götürüb, bu diyardan uzaqlaşmışam. İndi xanım, mənim bu fikirlərim sənə bir təhər gələr. Çünki belə işlər sənin başına gəlməyib. Bir də yaxşı deyiblər, kotan nə bilir qayış nə çəkir.

Xanım dedi:

– Oğlan, mən görürəm ki, sən yaxşı adama oxşayırsan. Mən də öz dərdimi sənə deyim, qulaq as. Mən də səndən dərdli adamam. Analığımın zülmündən, şərindən, xatasından baş götürüb bu diyara gəlmişəm.

Xanımın ürəyi yumşalmışdı. Bütün başına gələn qəzavü-qədərin hamısını birbəbir İlyasa nağıl elədi. Qız dedi:

– Oğlan, bəs indi nə eləmək fikrindəsən?

İlyas dedi:

– Xanım, vallah mən burda qərib, yersiz, kimsəsiz adamam. İndi hara gedəcəyimi özüm də bilmirəm. Biz də səndən bir gecəliyə yer istəmişdik. İndi çıxıb getməliyik.

Xanım dedi:

– Ey oğlan, əgər yerə görə getmək istəyirsinizsə, getməyin. Nə qədər istəyirsiniz qalın.

İlyas xanımnan çox razılıq eləyib dedi:

– Xanım, sizə zəhmət versək də keçib, onda bir neçə gün qalıb fikirləşək.

Bəli, aradan beş gün, on gün keçdi. Qız İlyasa tamam alışdı. Elə oldu ki, İlyas bir-iki saat evdən çıxanda qız onnan ötəri darıxası oldu.

İlyasın yoldaşı gördü qız tamam məhəbbətini salıb oğlana. İlyası bir tərəfə çəkib dedi:

– İndi sən qıza de ki, daha biz yığışıb, getmək istəyirik, nə deyirsən?

İlyas elə də elədi. Xanımın yanına gedib dedi:

– Xanım, sən bizə o qədər hörmət elədin ki, biz bilmirik bu hörmətin əvəzini necə çıxacayıq. İndi çıxıb getmək istəyirik. Sən nə məsləhət görürsən?

Xanım bu sözləri eşidən kimi, gözləri doluxsundu, bir ah çəkib, başını aşağı saldı. İlyas gördü fırsətdi, dedi:

– Xanım, niyə ah çəkdin?

Qız əvvəlcə səbəbini demək istəmədi. İlyas çox yalvar-yapış eliyənnən sonra qız utana-utana dedi:

– Vallah sənə o qədər isnişmişdim ki, indi getməyini istəmirəm. İlyas dedi:

– Xanım, onu bil ki, mən getmək istəsəm də ürəyim burda qalır. Mən sənin məhəbbətini çoxdan ürəyimə salmışdım. Gəl göturüm səni gedək mənim vətənimə, orda bir yaxşı toy eləyib evlənək.

Qız bir xeyli fikirləşəndən sonra, başını aşağı salıb, razılıq işarəsi verdi. Elə həmin günü atları, dəvələri yükləyib, qızın qul-qarabaşını da götürüb, yola düşdülər. Yola düşməmişdən əvvəl qız dedi:

– Bu evi-eşiyi burda qoyub gedirik. Mən bir neçə söz yazım, apar vur qapının başına. Qız qələmi əlinə alıb bir kağıza yazdı: “Ey bu yoldan keçən qərib adamlar, bu evi sizə halal eləyirəm. Ölənə kimi qalıb gününüzü keçirə bilərsiniz”.

İlyas həmin kağızı aparıb, darvaza qapısına yapışdırdı. Sonra yol başlayıb gəldilər İlyasın evinə üç gün üç gecə toy eləyib evləndilər.

İlyasın yoldaşı da kimsəsiz adam idi deyə o da qaldı bunların yanında. İlyas nənəsini də yanına gətirib, keyf-damağnan. ömür sürüb, gün keçirdilər. Siz də xoş günlər görüb, uzun ömür sürəsiniz.

## NAŞÜKÜR QIZ

Biri varıymış, biri yoxuymuş, Allahın bəndələri çoxuymuş. Raviyan belə rəvayət eliyir ki, əyyamı qədimdə bir paçcah varıymış. Bu paçcahın gözünün ağı-qarası, aman-zaman bircə qızı varıymış. Bu qızın gözəllixdə tayı-baravarı yoxuymuş. Paçcah qızını o qədər çox isdiyirmiş ki, onnan ötəri ayrıja bir qəsr tixdiripbiş. Bu qıza qırx incə belli gözəl xanım qulluğ eliyirmiş. Qızın ağzınnan ağ çıxsa ağ, qara çıxsa qara, hamısını paçcah hazır eliyirmiş. Elçilərin də ki, gündə biri gedif, mini gələrmiş. Elçi daşının üsdü heş vaxt boş olmazmış. Munnan belə qız həməşə gününü ah-vaynan keçirir, baxdınnan gileylənərmiş. Günnərin bir günündə qız qırx incə belli xanımnan özünün gülüzar bağına seyrə çıxıpbış. Onun nazı-qəmzəsiynən oynuyan qırx incə belli qız bağda nə qədər gülüf oynuyullarsa da, qızın eynini aça bilmillər. Qız elə baxdınnan gileylənif gözünün yaşını tökərmiş. Həməşə qız xanımların gözünnən yayınıf, bağın bir küncünə çəkilif qəmli-qəmli oturarmış. Gənə günnərin birində paçcah qızı öz qul-qaravaşıynan bağa seyrə çıxıpbış. Qızdar gənə həməşəki kimi başdadılar çalıf-oynamağa. Buların başı qarışanda qız gözdən oğurranıf özünü verdi bir sakitdiyə. Elə bu vaxd bir də gördü kü, göydən bir yekə qara quş enif, onu aldı ciynaxlarına. Quş qalxdı göyə. Bu işdən heş kimin xəvəri olmadı. Quş uça-uça qızı aparıf, bir qalın meşədə yerə qoydu. Bir zaman qızdar başdarını qaldırıf, görüllər ki, xanım yannarında yoxdu. Pütün bağı pit-pit eliyillər, qızı tapa bilmillər. Axırda gəlif paçcaha xəvər verillər ki, bəs hal-qəzyə qızın bağda gəzdiyi yerdə yoxa çəkilif.

Paççah bu xəvəri eşidən kimi bir başına döyür, bir dizinə döyür. Vəzir-vəkil səsə-küyə tökülüf, deyillər:

– Ey qibleyi-aləm, başına-gözünə döymədən bir şey çıxmaz, burda tədbir lazımdı.

Bir təhər paççah sakit eliyif, hər yerə atdılar, carçılar salıllar. Heş kim qızdan xəvər-ətər gətirə bilmir, elə bil qız bir yağlı əpbəy oluf göyə çəkilif.

Paççahı burda qoyax, görəx qız meşədə neyliyir. Qız meşədə otdan-alafdan, merdən-meyvədən yiyif, kejələr də çıxıf, bir ağacın başında yatarmış. Qırx günüymuş kü, qız günüzdər yol gedif, gejələr hündür ağaşdarın başında yatarmış. Bir gün ağaşdan baxıf görür kü, uzaxda dağın döşündə bir çovan qoyun otarır. Cannı tişinə tutuf gedir çovanın yanna. Salam verif deyir:

– Ey çovan qardaş, ajam, maa bir az süd verərsənmi içəm?

Çovan o saat bir sərniş süd sağıf qıza verir. Qız südü içif, bir az gözünə işıx gələnnən sonra deyir:

– Çovan qadraş, sənnən bir xaişim var, köhnə-kürüş paltarrarınnan varsa bir dəsini maa ver. Əvəzində bu bazubəndimi[1] saa verərəm.

Qız bazubəndini açıf çovana verir. Çovan köhnə paltarının birini çıxardıf qıza verir. Bir qoyun dərisini də yumurruyuf, qıza papax düzəldir. Qız çovannan çox razılığ eliyif, başdıyır şəhərə tərəf gəlməyə. Üş gün, üş kejə yol gəlif bir şəhərə çatır. Şəhərdə bir çayçıxanıya rasd olur. İçəri girif çayçıya deir:

– Qardaş, məni şəyirt götürərsənmi?

Çayçı deir:

– Niyə götümürəm?

Qız deyir:

– Çayçı qardaş, amba yatmağa yerim yoxdu, gərəx kejələr mana çayçıxanıda yer verəsən.

Çayçı razı olur. Qız, oğlan paltarında bir neçə müddət tükəndə çay paylıyır. Heş kim onun qız olduğunu bilmir. Günnərin birində qız kejə çayçı tükənində təhcə qalıf istəkan-nəlvəkiləri silirmiş. Birdən eyləri, ata-anası yadına tüşüf ürəyi köyrəlir. Başdıyır gənə öz baxdınnan küsüf giley eləməyə. Qız fikirri-fikirri bir döyrə bardax götürüf yerinə qoymağ isdiyəndə əlinnən salıf hamsını çilix-çiliy eliyir. Savağ açılır, çayçı tükənə gəlir. Görür kü, iyirmi-otuz bardağı qırılıf. Ajığı tutur

qızı o ku var əngəzdiyif qoyluyur. Yazıx qız gözünün yaşını tökə-tökə tükənnən çıxır, bilmir hara getsin, dərdini kimə desin. Axırda əlacı kəsilir, bir yolun ağını tutur, başdıyır getməyə. Az gedir, çox gedir, bir də görür kü, şəhərdən çıxıf. O üzə, bu üzə boylanıf bir dəvə karvanı görür. Allaha təvəkkül eliyif karvana sarı gedir. Görür kü, soydayarrar karvannan mal aparıllar. Qız yalvar-yapış eliyif deyir:

– Qəriv adamam, heş kimim yoxdu. Hara gedirsinizsə məni də özünüznən aparın. Yolda sizə nökərçiliy eliyərəm.

Soydayarrarın muna yazığı gəlir. Özdərinnən onu da aparıllar. Soydayarrar o qədər yol gedillər ki, şər qarışır, axşam olur. Dəvələri bir tərəfə çəkif başdıyıllar yatmağa. Qız bulara etivar eləmir, xeyli aralı bir yerdə yatır, səhər sübh tezdən ala qarannıx karvan yola tüşür. Karvan gedənnən bir xeyli sora qız yuxudan ayılır. Baxıf görür karvan nə gəzir, lələ köçüf, yurdu qalıf, ha o yana, bu yana boylanır karvanı görə bilmir. Kor-peşman başdıyır yol getməyə. Qız az gedir, çox dayanır, çox gedir, az dayanır, dağlar aşır, dərələr keçir, gəlif gənə bir böyüx meşiyə çıxır; bir müddət meşədə gün keçirir. Üsdü-başı tamam tökülür. Günüzdər meşədə cincilimnən, əmənköməncidən, dağ əzgilinnən, cır almadan, armutdan yiif bir təhər dolanır. Gejələr də çıxıf ağacın başında yatarmış.

Qızı meşədə qoyax, indi sizə xəvər verəx kimnən, bu vilayətin paççahının oğlunnan. Paççahın oğlu bir gün meşiyə ova çıxıpbış. Oğlanın qabağınnan qəfildən bir maral hopbanıf qaçır. Oğlan ox-kamannı götürüf maralın dalınca qaçır. Nə qədər qoluyursa tuta bilmir. Maral gözdən itif gedir. Oğlanın hər yerdən əli üzülür, başdıyır qayıtmağa. Yolun ağzında bir bulağa rasd olur. Əyilir bulaxdan su işməyə. Baxır kı, suyun üzündə bir oğlan şəkli görünür. Tez başını qaldırır görür kü, ağacın başında bir cavan oğlan uşağı var. Əl atır oxa-kamana ki, onu vursun, oğlan başdıyır yalvarmağa:

– Səni and verirəm Allaha, məni öldürmə. Yerim-yurdum yoxdu, odu ku, burda qalmışam.

Paççah oğlu deir:

– İndi ki elədi, tüş ağacın başınnan aşağı.

Qız ağacın başınnan tüşəndə papağı yerə tüşür. O saat hörüxləri açılıf çiynnə tökülür. Paççah oğlu görür kü, bu gözəl-göyçəx bir qızdı. Odu ku, deyir:

– Ay qız, de görüm sən kimsən, hardan gəlif, hara gedirsən?

Qız başına gələn əhvalatı tamam başdan-əyağatan söylüyür. Oğlanın qıza yazığı gəlir. Onu da özünnən yanına salıv öylərinə aparır. Qul-qaravaşdara tapşırır ki, onun üst-başını dəyişdirsinnər. O saat qızı hamama aparıf çimizdirif, üst-başını dəyişdirillər. Başdan-əyağa zərzibeynən bəziyillər. Gətirillər öyə. Aradan bir müddət keçir. Paççah oğlunun yadına tüşür kü, gedim görüm o, qız nejə oldu. Oğlan qapıdan içəri girif qızı görəndə öz gözünə inammır. Görür, qız nə qız, elə bil ay parçasıdı. Qızın üzünə baxanda onun gözəlliyinnən oğlanın gözdəri ğamaşır. İsdiyir danışsın, nitqi tutulur. İrəli durmağ isdiyir, qılçaları əsir. Oğlan bir könüldən min könülə qıza aşiq oluf, məhəbbət bağlıyır. Oğlan bir təhər qızın yanınnan çıxıf gedir. Qızın dərdi bir günün içində oğlanı hayva kimi saraldır. Oğlan kejə savaha kimi fikirinnən yata bilmir. Sabağ açılan kimi oğlan canını tişinə tutuf, qızın yanına gəlir. Dərdini açıf ona söylüyür. O vaxdan hər gün xəlvəççə görüşüllər. Bu əhvalatı oğlanın atası eşidir. Odu ku, oğlunu yanına çağırıf deyir:

– Oğul, bu nə əhvalatdı? Eşitmişəm ki, meşədən tapdığın qıza məhəbbət bağlıyıfsan? Bizim adımıza yaraşarmı ki, əsli-nəcabətini tanımadığımız bir qızı ojağımızın başında oturdax, sümüyümüzü onun sümüyünə calıyax? Gəl səni baş vəzirin qızınnan öyləndirim.

Paççah nə qədər dəlil-dəlalət elədisə, onun sözdəri oğlunun beyninə batmadı. Oğlan dedi:

– Ey ateyi-mehriban, üzümün suyu tökülsə də gərəx düzünü deyəm. Mən meşədən gətdiyim qızdan savayı heş kimnən öylənmiyəjəm.

Paççah gördü kü, ayrı çarə yoxdu. Qırx gün, qırx gejə toy eliyif, oğlunu meşədən gətdiyi qıznan öyləndirdi. Aradan doqquz ay, doqquz gün keçənnən sora oğlanın bu qızdan bir qəşəng oğlu oldu. Böüx məclis quruldu, addı-sannı adamlar, vəzirrər-vəkillər, loğmannar, rəmmallar, dərvişdər yığılıf uşağa ad qoydular. Qullar, qaravaşdar, nökərrər-nayıflar qıznan uşağı elə əzizdədilər ki, elə bil bular göydən qızıl zəmbilnən tüşüflər. Əri də ki, laf onnan ötəri sinoy gedir. Gününün-güzarının belə xoş keşməyinə baxmıyarax qız gənə də öz baxdınnan nəyrazılığ eliyirmiş. O, bir gejə yatıf, səhər yuxudan ayılanda gördü kü, uşağı yanında yoxdu. Qız əhvalatı ərinə söylüyür. Xəvər gedir paççaha çatır. Hər yeri axtarıllar, uşaxdan əsər tapılmır ki tapılmır. Bir ildən sora qızın bir oğlu da olur. Aradan bir neçə gün keçir. Gejənin bir vaxdı bu uşax da yoxa çəkilir. Səhər duruf görüllər ki, ananın həm əli,

həm də ağzı qandı. Bu əhvalat da hər yerə yayılır. Paççah qızdan şübhələnir. Qız nə qədər and-aman eliyirsə, heş kim onun sözünə inammır. Paççah vəzirini çağırıf deyir:

– Vəzir, bu qızı aparıf, meşədə öldürüf, qannı köynəyini maa gətirərsən.

O saat vəzir əlini gözünün üsdə qoyuf deyir:

– Şahim, sənin əmrini günü büyün yerinə yetirəjəm.

Vəzir qızı qavağına qatıv, aparır bir meşiyə. Vəzir çox ağıllı, həm də insaflı adamıymış. O, başa tüşür kü, heş ana öz öyladını öz əlinnən öldürməz. Görəsən burda nəsə bir sirr var. Odu ku, qızı meşədə buraxıf deyir:

– Bala, çıx bu torpaxdan get. Baxtına nə çıxar-çıxar. Ya yolda qurda-quşa rasd oluf, ölərsən, ya da axırın bir tərəfə çıxar.

Vəzir meşədə bir quş vuruf, qızın köynəyini də quşun qanına batırıf paççaha gətirir. Paççah qannı köynəyi görüf, elə bilir ki, qız ölüf.

Bəli, vəzir o tərəfə gedənnən sora qız qalır meşədə gənə tək-tənha. Yazıq bilmir hara gessin, neyləsin, başına nə çarə qılsın. Odu ku, meşədə bir balaca cığırı tutuf başdıyır getməyə. Bir də görür kü, qavaxda bir kişi bir şələ tikən aparır. Qız isdiyir ki, onnan yolu xəvər alsın, amba ürəy eləmir. Fikirləşir ki, mən nə tanıyıram bu kimdi, oğrudu, quldurdu nədi? Mən də ki, tək-tənha bir qız, yanımda bir inni-cinni yox, özü də ki, meşədə. Odu ku, kişini çağırıf səsləməy istəmədi. Qavaxda gedən kişi dalınca bir hənirti gəldiyini eşitdi. Dönüf geriyə baxdı, gördü kü, bir qız xaylağıdı. Qız kişini görən kimi tez özünü verdi bir ağacın dalına. Kişi gördü kü, qız onnan gizdənir. Bir söz demiyif, başdadı yolunnan getməyə. Bir azdan sora qız ağacın dalınnan çıxıf sinəsinə gənə kişinin dalınca getdi. Kişi bir də dönüf geri baxdı. Bu gənə özünü ağacın dalına verdi. Kişi qızın gizdəndiyini görüf dedi:

– Ay bala, mən uşax-zad döyüləm ki, mənnən gizdənpaç oynuyursan.

Qız gördü kü, kişi bunu görüf, özünə ürəx-dirəx verif gəldi onun yanına. Kişi dedi:

– Ay bala, bu nə işdi eliyirsən, mənim dalımca gəlirsən. Sənin buralarda nə işin var, kimsən?

Qız dedi:

– Yolumu azmışam, şəhəri tapa bilmirəm. Sənnən də qorxurdum yolu soruşmağa. Odu ku, orda-burda gizdənirdim.

Kişi gördü kü, qızın bəti-bənizi, rəngi-rufu qaçıf, özü də ki, üsdü-başı cırıx-cındır, əyaxyalın, başı açıx, qızdan gözü su işmədi. Odu ku, dedi:

– Qızım, gəl düzünü de, sən yoldan azana oxşamırsan, lap meşə adamına oxşuyursan. Kişi qızı dilə tutdu ki:

– Ay bala, səni hara desən ora apararam, gəl dərdini aç maa söylə. Görürəm ki, dərtdi adama oxşuyursan?

Qızın ürəyi yumşaldı, bir ah çəkif başına gələn bütün qəzavü-qədəri açıf söylədi. Qız tamam dərdini söylüyənnən sora kişi dedi:

– Qızım, sən özün paççah qızı olufsan, paççah oğluna ərə gedifsən, həməşə də var-dövlət, zər-ziba içində yaşyıfsan, qırx incə belli qul-qaravaşın oluf, həməşə də baxtınnan gileylənif şikayətdənifsən. Pütün bu işdər də naşükürrüyünə görə sənin başına gəlif. Sən gəl bu naşü-kürrüxdən əl çək. Onda pütün işlərin düz gedər.

Kişi gördü kü, qız onun sözünə əhmiyyət vermir. Odu ku, dedi:

– Qızım, indi qulağ as, mən də öz baxdımnan, güzəranımnan danı-şım, onnan sonra bilərsən ki, sənin işin niyə düz gətimir.

Kişi dedi:

– Qızım, mənim sənətim tikənçiliy iydi. Hər gün meşədən bir şələ tikən qırıf gətirif iki quruşa satardım. Nə qədər eliyərdim gündə iki quruşdan artıq qazana bilməzdim. Odu ku, öz-özümə gileylənərdim. Bir gün gənə palçığa, batdağa bata-bata bir şələ tikən qırıf iki quruşa satmışdım. Öz-özümə deyinirdim ki, bu nə gün-güzərandı mən keçi-rirəm. Ya mənim iki quruşum arteydi, ya da dönüf bir quruş oleydi. Həmən gejə yatıf yuxuda gördüm kü, bir nurani kişi başımın üsdündə peyda oluf dedi:

– Oğul, bu günnən sənin qazancın gündə bir quruş olajax.

Mən bu sözdəri eşidən kimi yuxudan ayılıf dix qalxdım. Həmin günü gedif meşədən bir qom tikən qırdım, apardım satmağa. Bir də gördüm kü, bir tacir küçə qapısınnan səsdiyir ki, ay tikənçi, ay tikənçi bura gəl!

Mən getdim tacirin qapısına. Gördüm içəridə bir vurhavurdu ku, çalan kim, oynuyan kim, gülüf danışan kim, hamı qatışıf bir-birinə. Demə burda toyuymuş. Məhlədə yeddi qara qazan aş asılmışdı. Tacir əmr elədi ki, tikənnəri qazannarın altına atım. Tikənnəri atdım qaza-nın altına. Tacir çıxardıf maa on quruş pul verdi. Özümə də dedi ki:

– Oğul, görürəm yaman əlli-əyaxlı uşağa oxşuyursan, gəl toyda bir az qav-qacaq daşımağa kömək elə, özün də doyunca yi!

Mən razı oldum. O gejə tacirin toyunda qaldım. Tacirin qızını köçürdülər getdi, savağ açıldı. Mən durdum ku, gedəm, tacirin arvadı ərinə dedi:

– A kişi, qızımızı köçürdük getdi. İndi daha ayrı oğlumuz, uşağımız yoxdu, elə gəlsənə bu uşağı özümüzə oğulluğa götürək, qalsın bizdə.

Kişi arvadının sözünə razı oldu. O günnən məni saxladılar öz öylərində, mənim də heş kimim yoxuydu deyin onların yanında qalmağa razı oldum. Gənə hər gün gedif meşədən bir şələ tikən qırıf gətirif satırdım. Amba kim tikəni alırdısa dimməz-söyləməz çıxardıf on quruş veryirdi. Mən bu işə tamam məhəttəl qalmışdım. Bəli, günnərin bir günündə tacirin yoldaşdarı gəldilər ki, savax ticarətə gedirik hazırraş. Tacir dedi:

– Deyəsən bu dəfə mən gedəsi olmuyajam.

Dedilər bəs niyə?

Tacir dedi:

– Bərk azarranmışam, sətəlcəm olmuşam. Odu ki, gedə bilmirəm.

Tacirin arvadı dedi:

– A kişi, bir az puldan-zatdan ver, qoy bu uşağı göndərək gessin. Tacir dedi:

– Ay arvad, o tikənçinin biridi, nə bilir alış-veriş nədi, aparar pulları-zadı batırar.

Arvad dedi:

– A kişi, uşağ olanda nolar? Bir az sən pul ver, yoldaşdarın da köməxdən-zaddan eliyər. Görək nə çıxar.

Tacir maa çıxardıf yüz tümən pul verdi, qoşdu o biri yoldaşdarına. Bular başdadılar yol getməyə. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, tamam qırx gün, qırx kejə yol getdilər. Mən hələ mənzilə çatmamışdım, pullarımın yarısınnan çoxunu xaşdamışdım. Yoldaşdarım nə qədər öyüd-nəsihət elədilər ki, ay bala, sən alverə gedirsən, o pulları havayı yerə xaşdama, mal almağa pulun qalmıyajax. Nə qədər dedilərsə, mən onların sözünə baxmadım. Bəli, gəlif çıxdıx Yəmən şəhərinə. Yoldaşdarım hərəsi bir tərəfə dağıldı. Mən də bir karvansarada özümə bir hücrə tutdum. Kejənin bir vaxtı gördüm yanımdakı hücrədən zığıltı

səsi gəlir. Duruf getdim ora, gördüm zığıldıyan bir tacirdi, yazıx elə sətəlcəm oluf ki, can üstədi. Ha-hadı kı, canını tapcırsın. Tez bunun boynunu, belini ovuşdurdum. Güj-bəleynan bir istəkan qaynar çay içirtdim. Hannan-hana bir az kişinin dili açıldı. Tacir gördü kü, mənim ona yazığım gəlir, özü də gejənin yarısınnan oturmuşam yanında, əvəzində maa yaxşılıq eləməkdən ötəri dedi:

– Oğul, mənim heş kimim yoxdu. Ölsəm varım, döylətim onamuna qalajax. Görürəm ki, sən çox rəhmli adamsan. İndi bil və agah ol ku, mən tacirəm, özüm də yüz tay düyü gətirmişəm satmağa, hamısı paççahın karvansarasındadı. Hər tayın içinə bir kisə qızıl gizdətmişəm. Bu işdən heş kimin xəvəri yoxdu. Bu sirri bircə saa deyirəm. Onda bu gejə mən ölüf canımı tapcırajam. Mənim öldüyümü eşidən kimi həmən düyüləri başdıyajaxlar satmağa, onda gedif əvvəlcə neçiyə desələr bir tayını alıf gətirərsən olduğun yerə, özdərinə də tapcırarsan ki, düyünü heş kimə satmasınnar, savax gəlif hamısını aparajam. Elə ki, bir taydüyünü gətirdin, içindəki qızılı çıxardıf onun puluna gedif yerdə qalan tayların hamısını alarsan, hər tayın içində bir kisə qızıl var, ollar hamısı olar sənin.

Tacir elə bu sözdəri deyif qutaran kimi gözdərini yumuf öldü. Mən savah açılan kimi taciri dəfin-kəfin eliyif aparıf qavırsannıxda basırdım. Tacirin ölüm xəvəri paççaha çatan kimi başdadılar car çəkməyə ki, bəs filan tacir ölüf, onun yüz tay düyüsü qalıf, kim almağ isdiyirsə gəlsin şah karvansarasına. Mən o saat özümü saldım ora. Tacir tapcırdığı kimi əvvəlcə bir tay düyünü alıf gəldim öz hücrəmə, açıf içindəki qızılları götürdüm. Həmən qızılnan gedif yerdə qalan doxsan doqquz tayın da hamısını aldım. Bir-iki günnən sora düyünü dəvələrə üklüyüf öz şəhərimizə yola düşdüm. Məni özünə oğulluğa götürən tacir bu cür gəlişimi görüf məhəttəl qaldı, dedi:

– Oğul, mən saa yüz tümən pul vermişdim, verdiyim pul hara, bu dəm-dəsgah hara, bu qədər düyünü hardan aldın?

Mən dedim:

– Hələ bu harasıdı? Hər tayın içində bir kisə də qızıl var.

Tacir bu sözü eşidəndə söyündüyünnən az qaldı bağrı çatdasın. Qərəz, karvanı yerbəyer eliyənnən sora qızılları çıxardıf yarı böldük. Həmin qızıllarnan bir qəşəng imarət tikdirdim ki, heş paççahın da elə imarəti yoxuydu. O, günnən sora elə hara gedirdimsə, elə bil pulu

başımnan tökürdülər. Bir gejə yatmışdım, aləmi-röyada bir də gördüm ki, həmən nurani kişi genə başımın üstündə duruf gülür. Birdən dedim:

– Ey qoca baba, yadındadımı bir vaxt mən öz baxdımnan saa şikayət eləmişdim. Sən də demişdin ki, get innən belə sənin qazancın gündə bur quruşdan artığ olmuyajax. Bəs sənin o sözün hara, mənim bu cahi-cəlalım hara?

Nurani kişi dedi:

– Oğul, mən saa deyəndə ki, sənin, iki quruşunu bir quruşa endirdim, sən bu işdən narazı olmadın, ax-uf eləmədin. Mən gördüm ki, sən naşükür adam döyülsən. Odu ku, səni dövlətdəndirdim. İndi mənim o qədər varım-devlətim var, amma genə naşükürlüy eləmərəm, hərdən bir öz köhnə sənətimi də yadımnan çıxartmıram. Gəlif meşədən tikən qırıf aparıram. İndi mənnən saa amanat, nə badə baxdına təpik atasan, onda işin düz gətirmiyəjək.

Bu sözdər qızın ağlına batdı. Qız dedi:

– Sən düz deyirsən. Mən çox naşükürrük eləmişəm.

Kişi başına gələn əhvalatdarı söylüyüf qutarannan sora dedi:

– Qızım, sən deyirdin ki, yolu azmışam, indi mən şəhərə gedirəm, gedirsənsə, gəl səni də aparım.

Qız fikirləşdi ki, üsdü-başı cırıx-cındır, ələm-yesir kökündə şəhərə getsə, hamı onu huyluyar. Ürəyində fikirləşdi ki, yəqin şəhər yaxındadı, qoy kişi getsin, qarannıxlaşanda bir təhər gedərəm, bəlkə görən-eliyən olmaz. Odu ku, dedi:

– Əmi, çox sağ ol, indi yolu tanıdım, sən get, bir azdan sora özüm bu cığırı tutuf gələrəm.

Kişi qızı meşədə qoyuf qayıtdı öyünə. Elə kişi yenijə getmişdi ki, qız gördü kü, qavağına bir qoja qarı çıxdı. Qız söyünə-söyünə qarının qavağına yüyürdü, dedi:

– Ay qarı nənə, Allah səni nə yaxşı yetirdi, de görüm bu meşədə sən nə gəzirsən?

Qarı gülə-gülə dedi:

– Qızım, hələ sən de görüm buralarda nə gəzirsən, sora mən deyərəm.

Qız başdadı başına gələn əhvalatı söyləməyə. Elə qız bir-iki kəlmə danışmamış qarı dedi:

– Qızım, mən səni sınamaxdan ötəri deyirdim ki, sən buralarda nə gəzirsən. Onsuz da mana hər şey agahdı. De görüm gənə baxdınnan şikayətdənirsənmi?

Qız gördü kü, qarı bunun ürəyini bilir. Odu ku, dedi:

– Qarı nənə, innən belə nə günə tüşsəm də baxdımnan giley-güzar eləmiyəjəm.

Qarı gördü kü, qız bu sözdəri ürəkdən deyir, odu ku, onu yanına salıf apardı özü olduğu yerə. Qarının olduğu yer meşənin içində hündür bir dağın təpəsindeydi. Dağı çıxmağa heş yerdən yol yoxuydu, hər tərəfi sıldırım qayalığıydı. Bircə yerdə gələ-götür bir cığır varıydı. Qarı qızı bu cığırnan çıxartdı laf dağın kəlləsinə. Burda zağa kimi bir yer varıydı, ikisi də girdilər ora. Qız baxıf gördü bura yekə bir öy kimi yerdi, özü də gejə qeybə çəkilən oğlannarının ikisi də burdadı. Bu işə məhəttəl qaldı, öz-özünə dedi: "Xudavəndi, bu nə möcüzədi?" Uşaxlarını bağrına basıf doyunca ağladı. Qız dedi:

– Qarı nənə, bu nə işdi? Mənim uşaxlarımı bura kim gətirif?

Qarı dedi:

– Qızım, qoy saa agah olsun ku, bu uşaxları bura mən gətirmişəm, özü də köynəyimin yaxasınnan keçirif özümə oğulluğa götürmüşəm. Hələ səni qız vaxdı baxcadan bu meşiyə gətirən də mən olmuşam. Mən baxt quşuyam. Kim öz baxdına xor baxırsa, oları belə əzab-əziyyətə, məşəqqətə salıram. Gəl sən bir də baxdınnan şikayət eləmə.

Qız and işdi ki, bir də ömrünün axırınatan baxdınnan gileylənməsin. Qız and içif qutaran kimi qarı dedi:

– Qızım, indi dur, uşaxları da götür, çıxın eşiyə, mən cildimi dəyişif quş olajam, minərsiniz qənətdərimin arasına, aparıf sizi qoyaram öz şəhərinizə, ərinin yanına.

Bular dağdan çıxan kimi qarı dönüf oldu yekə dəvə boyda bir quş, qız uşaxlarını da qucağına alıf oturdu quşun qənətdərinin arasında. Quş pırıltıynan qalxdı göyə.

Quş göynən getməkdə olsun, görəx qızın əri paççah oğlu nejə oldu? Bəli, elə ki, oğlanın arvadı, uşaxları əlinnən çıxdı, o günnən qara keyif ax-vaynan ömür keçirdi. Ata-anası, vəzir, vəkil nə qədər dəlil-dəlayil eliyirdilər oğlanı yola gətirə bilmirdilər, arvadının dərdinnən sap-sarı hayva kimi saralıf, şam kimi günü-günnən əriyirdi. Oğlan bir gün gənə atasının gülüsdan bağında oturuf qəm dəryasına qərq olmuşdu.

Qəfildən bura bir qoja rəmmal gəlif çıxdı. Rəmmal oğlanı fikirri görəndə dedi:

– Oğul, niyə beykefsən, dərdin nədi?

Oğlan dedi:

– A kişi, bu nədi, rəmmal paltarı keyifsən, adını da rəmmal qoyufsan! Sənnən rəmmal olmaa. Əyər sən rəmmal olseydin, heş mənnən soruşmazdın, o saat dərdimi bilərdi.

Bu söz rəmmala bərk toxundu. Rəmmal kitabını alıf qoydu qavağına, bir tərəfinə tas, bir tərəfinə tilsim cəmi qoydu, başdadı fala baxmağa, əllimikin oyun çıxardannan sora dedi:

– Ey şahzadə, saa əyan eliyim ki, dərdin noruz dərdidi. Arvadının, uşaxlarının dərdini çəkirsən.

Şahzadə gördü kü, rəmmal düz deyir, odu ku, dedi:

– Ey rəmmal, bəs mən neyliyim ki, bu dərddən qutarım?

Rəmmal cavaf verdi ki:

– Ey şahzadə, nə qədər ki, baxtınnan şikayətlənif, axuf eliyirsən, sənin işin düz gətirmiyəjək. Elə ki, gülüf-danışdın, şaddığ elədin, onda dərddən, qəmnən qutarajaxsan.

Rəmmal sözünü qutarıf getdi. Oğlan öz-özünə dedi ki, gəl sən rəmmalın sözünü yoxla görəx noolur. Odu ki, şahzadə əmr elədi, həmən gün atasının qavağında şaddığ məclisi quruldu, yiməy, işmək, çalmax, oynamax, bir dəm-dəsgah düzəltdi ki, elə bil toydu. Oğlan bu məclisdə böyük şaddıq elədi. Hamı bu işə məəttəl qalmışdı. Şahzadənin neçə iliydi ki, üzü gülmürdü, amba böyük bir vurha-vurdeydi ki, gəl görəsən.

Oğlanı burda qoyax, görək qıznan uşaxlar nooldular. Qıznan uşaxlar göyün yeddi qatında baxt quşunun belində yol gəlirdilər. Quş gəlif o zaman çatdı ki, oğlan bağda kef-damaxdeydi. Quş düz gəlif tüşdü paççahın bağının içində; qızı, uşaxları burda qoyuf özü uçuf gözdən itdi. Qız yavaş-yavaş səs-küy gələn yerə gedif gördü öz əri burda bir kefdədi ki, da nə deyim. Odu ku, qıraxdan boynunu püküf başdadı yazıx-yazıx baxmağa. Oğlan başını qaldıranda qızı gördü, o saat tanıdı, yüyürüf onu qucaxladı. Sarmaşıx kimi bir-birinə sarmaşdılar, sora uşaxlarını bağrına basıf öpdü. Oğlan dedi:

– Bu nə işdi, sən nə cür oldu ku, sağ qaldın?

Qız başına gələn əhvalatı ərinə tamam-kamal söylədi, axırda da bir ah çəkdi. Oğlan soruşdu ku, bəs niyə ah çəxdin?

Qız dedi:

– Mənim başıma bu qədər məşəqqətdər gəlif, ölüf ölümnən qayıtmışam, səni yadımnan çıxartmamışam. Amba sən gündə burda kef-damağ çəkifsən.

Oğlan dedi:

– Sən səhv eliyirsən, bircə buyün mənim üzüm gülüf, sən gedənnən qara geyif, yas saxlamışam. Buyün bir rəmmal maa dedi ki, nə qədər ki ax-uf eliyirsən, baxdınnan şikayətdənirsən, onda həməşə əzaf çəkəjəxsən, elə ki, şaddığ elədin, onda baxdın da yaxşı gətirəjək. Mən rəmmalın sözünə baxıf buyün şaddığ elədim, doğrudan da baxdım açıldı, arvad-uşağım qavırdan dirilif gəldilər yanıma.

Qız gördü kü, əri düz deyif, özünün başına gələn ərinin də başına gəlif, odu ku, onun sözünə inandı. O günnən təzədən ömür sürüf gün keçirdilər.

Göydən üç alma düşdü. Biri baxt quşunun, biri tikənçinin, biri də nağıl söylüyənin.

# QEYDLƏR

## OVÇU PİRİM
(səh. 5)

Bu nağıl bir neçə dəfə nəşr edilmişdir. İlk dəfə Tiflisdə nəşr edilən "Сборник материалов дли описания местностей и племен Кавказа" adlı kitabda, 1937-ci ildə H.Əlizadənin "Dastanlar və nağıllar" kitabında, 1935-ci ildə H.Zeynallının tərtib etdiyi, prof. Sokolovun redaktəsi ilə Moskvada nəşr edilmiş "Азербаиджанские, турецкие сказки", 1959-cu ildə isə Ə.Axundovun tərtib etdiyi "Азербаиджанские сказки" kitablarında nəşr edilmişdir. Nağılın rus dilində tərcümələri bir-birinin eyni olub, həm də ixtisar edilmişdir. Burada milli kolorit itmiş, nağılın ancaq məzmunu qalmışdır.

Gəncədən toplanmış "Ovçu Pirim" nağılı isə özündən əvvəl toplanmış nağılların əsas cəhətlərini birləşdirməklə bərabər, başqa maraqlı xüsusiyyətlərə də malikdir. Nağılda ibtidai din formalarının qalıqları qabarıq şəkildə nəzərə çarpmaqdadır.

Qədim cünglərin birində Ovçu Pirimlə əlaqədar bəzi şeirlər vardır. Həmin şeirlərdə Ovçu Pirimin adı çəkilir. Belə şeirlərdən birində deyilir:

Ovçu Pirim gözlər bu dağlarını,
Sevmişəm lalənin budaqlarını,
Nihan-nihan gəzdim bu dağlarını,
Dərdim əlvan-əlvan ayə qalmasın.

Şeirlərin ümumi ruhundan təxmin etmək olur ki, vaxtilə Ovçu Pirim haqqında dastan olmuşdur. Bir sıra dastanlarımız vardır ki, onlar həqiqətən də qədim nağıllar əsasında yaradılmışdır. Odur ki, güman etmək olar, çox qədim dövrlərin məhsulu olan "Ovçu Pirim" nağılı əsasında da dastan yaradıla bilərdi.

1. **Sehirli üzük** – Dini əfsanələrə görə həzrət Süleymanın barmağına taxdığı sehirli bir üzükdü. Guya bu üzüyün qaşında Allahın min bir adı yazılıbmış. Üzüyü barmağına taxan hər bir adam bütün canlı və cansızlara hökmranlıq edə bilərmiş. Üzükdən hansı diləyi istədikdə o saat yerinə yetərmiş. Azərbaycan nağıllarında qəhrəmanlar həmin üzüyü barmaqlarına taxmaqdan başqa çox zaman dillərinin altında saxlayırlarmış.

2. **Ana südü** – Ana südü nağıllarda müqəddəs hesab edilir. Nağıllarımızda insanlar, heyvanlar, hətta quşlar belə analarının südünə and içdikdə öz vədlərinə sadiq qalır, ölsələr də, verdikləri sözdən dönmürlər. Bu motiv nəinki

nağıllarımızda, habelə bütün şifahi ədəbiyyatımızda geniş yer tutmaqdadır. Çox qədimlərlə səsləşən bu motivin şübhəsiz ki, özünə görə tarixi kökləri vardır. Mütəxəssislərin qeyd etdiklərinə görə həmin motiv madərşahlıqla daha çox bağlıdır.

GÖYÇƏK FATMA
(səh. 16)

Bu nağıl bir neçə variantın içərisindən seçilmiş ən qüvvətlisidir. Çünki başqa variantlardakı hadisə və motivlər həmin nağılda toplu şəkildədir. Nağılda ibtidai din görüşlərin qalıqları çox aydın bir şəkildə öz izlərini saxlamışdır. Göyçək Fatmanın küləyə "yel baba" deməsi, inəyin sümüklərinin quyuya basdırıldıqdan sonra da Fatmaya istədiyi şeyləri verməsi dediklərimizi təsdiq edir.

SEHİRLİ ÜZÜK
(səh. 24)

Bu nağılın müxtəlif variantları vardır. Bu kitabda nəşr olunan nağılla başqa variantlar arasında fərq orasındadır ki, həmin nağıllarda bir neçə süjet bir-birinə qarışmışdır. Lakin buradakında isə hadisələr geniş, bir-birilə əlaqədə inkişaf edir. Sehirli əşya, meyvələr və s. orada çoxdur və nağıllarımıza xas olan səciyyəvi cəhətlərlə qəhrəmana kömək edirlər. Misal üçün; burada alma xəstəliyi sağaldır, armud isə əksinə, xəstəlik gətirir. Bu cəhət nağıllarımıza xas olan xüsusiyyətlərdir. Çünki bütün nağıllarda alma insana həyat verən, onu ölümdən, xəstəlikdən qurtaran, ömrü uzadan, adamı cavanlaşdıran meyvə kimi məşhurdur ("Məlik Məmməd", "Dərviş", "Padşah və qız" və s.). Lakin başqa variantlarda nağıl ənənələrinə zidd olaraq, alma mənfi, armud isə müsbət mənada təsvir edilmişdir. Bunlardan başqa, "Sehirli üzük" nağılının bir üstünlüyü də orasındadır ki, keçəl axırda sehirli suyun sayəsində gözəl bir oğlana çevrilir. Bu da yenə nağılı başqalarından fərqləndirir və ona üstünlük qazandırır.

1. **Div** – Nağıllarımızda şər qüvvə, zülmətin yaradıcısı kimi göstərilən divlər həmişə yer altında, zülmətdə, yaxud əlçatmaz qalaçalarda yaşayır və həmişə xeyirxah qüvvələrə qarşı mübarizə aparırlar. Onlar insanları həyat və səadətdən məhrum etməyə çalışır, gözəl qızları oğurlayıb zülmətdə saxlayır, insanları daşa döndərir, tilsimə salırlar. Məlum olduğu kimi, divlər "Avesta"da şər allahı Əhrimənin ən yaxın köməkçilərindən hesab olunurlar.

M.H.Təhmasib "Azərbaycan xalq ədəbiyyatında div surəti" adlı məqaləsində divin şər qüvvə, ziyanverici bir varlıq olmasını, eyni zamanda onun

zərdüştilikdən çox-çox əvvəllərə aid olan xeyirxahlıq əlamətlərinə, müsbət xüsusiyyətlərə, zülmətə deyil, işığa bağlı bir surət olduğunu yazır ki, bu da həmin surətin bəşər tarixinin çox qədim dövrləri ilə səsləşdiyini göstərir. Misal üçün, "Hatəm" nağılında div insana nəinki zərər vermir, hətta ona kömək də edir. Gedilməsi mümkün olmayan Gülüstani-İrəmdən atasının kor olmuş gözlərini sağaltmaq üçün yarpaq gətirən İbrahimə üç qardaş div kömək edir. Hətta divlər öz tüklərindən də İbrahimə verirlər ki, dara düşdükdə onları köməyə çağıra bilsin. Qeyd etmək lazımdır ki, qəhrəmana tük vermək özü də ancaq xeyirxah qüvvələrə xas olan xüsusiyyətdir. "Şahzadə Mütalib" nağılında uşağı olmayan şaha divlər alma vasitəsilə övlad verirlər, hətta şahın arvadı doğarkən ölüm qorxusu qarşısında qaldıqda belə, göy guruldayır, qara buludlar enir, içərisindən qoca bir div-qarı çıxıb arvadı ölümdən xilas edir. Doğulmuş uşaq böyüdükdən sonra da divlərin köməyi ilə görülməsi mümkün olmayan bir sıra işlər görür. Bu nağılda divlərin dostluqda çox möhkəm və xeyirxah olduqları göstərilir.

Bu surətin daha qədimlərdə xeyirxahlıqla bağlı olub, sonralar şər qüvvəyə çevrilmələri heç şübhəsiz ki, zərdüştilik ortalığa çıxdığı zaman qədim əsatiri, inam və etiqadları, adət və ənənələri məhv etməyə, bu mümkün olmadıqda isə onlara yeni məna verməsi ilə əlaqədardır. "Asura" şər allahı olduğu halda, zərdüştilik onu "Ahura" şəklinə salmış və xeyir allahı adlandırmışdır. Yaxud hazırda nağıllarımızda şər qüvvəsi kimi tanınan ilan, daha əvvəllərdə müqəddəs bir qüvvə olduğu halda, hətta zərdüştilik onu insanlığın düşməni kimi izah etmişdir. Lakin bütün bunlara baxmayaraq istər ilan, istərsə də div nağıllarımızda, çox cüzi də olsa, yenə də öz daha qədim əlamətlərini mühafizə edə bilmişlər. M.H.Təhmasibin yuxarıda adı çəkilən məqaləsində qeyd etdiyi kimi, divlərin yaşadıqları yerlər od və günəşlə əlaqədar olan parlaq şeylərlə dolu olur. Məsələn, "Şahzadə Mütalib" nağılında divlərin məkanından tüstü qalxması orada od olmasını göstərir. "İbrahim" nağılında ağ divin anası İbrahimin gecələr işıq verən kəmərini oğurlayıb aparır. "Ağ quş" nağılında qəhrəman "özündən yanan çırağı" divlərin məkanında tapır. Ümumiyyətlə, ən parlaq işığa malik olan şeylər: ləl-cavahirat, qızıl, gümüş və s. divlərin qalaçalarında olur. Göstərdiyimiz bu xüsusiyyətlər "Tapdıq" adlı nağılda özünü daha aydın bir şəkildə göstərir. Z.A.Raqozinanın "Qədim Şərq tarixi" (Midiya hissəsi) adlı kitabında divin ən qədimlərdə işıq allahı olduğu, xeyirxah işlərlə bağlılığı göstərilir.

Bütün bu deyilənlərdən məlum olur ki, nağıllarımızda iştirak edən div surətinin tarixi kökləri çox qədimlərə gedib çıxır.

2. **Uçan xalça** – Əfsanələrə görə həzrət Süleymanın cinlər tərəfindən yaşıl ipək və qızıldan toxunmuş böyük bir xalçası var imiş. Guya həmin xalça sehirli qüvvəyə malik olub, göy ilə yer arasında uçarmış. Xalça təkcə həzrət

Süleymanı deyil, həm də onun qoşunlarını, heyvanlarını, divləri, cinləri istədikləri yerlərə apararmış. Bunun üçün xalçanın üstündə oturub, "xalça, məni həzrət Suleyman eşqinə filan yerə apar" demək lazım imiş.

3. **Quruş** – Gümüş pul adıdır. Müxtəlif dövrlərdə müxtəlif dəyərdə olmuşdur. XX əsrin əvvəllərində səkkiz qəpik qızıl pula bərabər imiş. Azərbaycan nağıllarında "qəpik-quruş" ən cüzi miqdarda pul mənasında işlənir.

4. **Cin** – Əfsanələrə görə gözə görünməyən bir məxluqdur. Guya onlara toxunduqda, ziyan verdikdə (yerə qaynar su atdıqda, təsadüfən ayaqladıqda və s.) insanı ağır zərbə ilə vurar və bəzən də dəli edərlər. Cinlərin dişilərinə hal deyirlər. Guya onlar bir adət olaraq, yeni doğan qadını haldan salıb ona ziyan verirlər. Cinlər haqqında olan nağıllara görə guya ki, onların da insanlar kimi yaşayışı, qayda-qanunları, padşahları olur. Əfsanəyə görə dünyada bunlardan çox məxluq yox imiş. Onların qorxduğu şeylərdən biri iynədir. Guya cinlərin üstünə yalnız iynə taxdıqda gözə görünür və insana tabe olurlarmış. Cin haqqında nağıllar Azərbaycanda çox yayılmışdır.

5. **Daxma** – Azərbaycan dilində indi də tez-tez işlənən bu söz alçaq, qaranlıq, heç bir bəzək-düzəyi olmayan, qəbri xatırladan dam kimi təsvir edilir. Dilimizdə "bu ev lap daxmaya oxşayır" deyə işlədilən ifadə də vardır. Lakin daxma sözünün əsil mənası tamamilə başqadır. Qədim Midiyada daxma, yaxud "ölüm qalası" şəhərin kənarında, xarabalıqda, yüksək bir yerdə, ətrafı divarla əhatə edilmiş və keçmək üçün qapısı olan qəbiristanlığa deyilirmiş. Qədim midiyalılar ölünü basdırmazlarmış, aparıb açıq havada, həmin daxma adlanan yerdə qoyarlarmış. Meyidin ətini qurdlar, quşlar didib yeyərlərmiş. Qədim zərdüştilərin həmin daxmalarının xarabaları indi də İranda Tehran yaxınlığında saxlanılmaqdadır.

Bu barədə Z.A.Raqozina "Qədim Şərq tarixi" (Midiya hissəsi) adlı əsərində ətraflı məlumat vermişdir.

6. **Lövh** – Dini əfsanələrə görə lövh oxumaqla guya ki, insan istədiyi yerə gedir, uzaq məsafələri qısaldır, tilsimləri sındırır, sehirləri açır və düşmənə qalib gəlir. Lövh oxumaq. ən çox fəza aləminə uçmaqla bağlıdır. Nağıllarda divlər istədikləri yerə lövh oxumaqla uçub gedə bilirlər. Nağıllarda lövh qəhrəmanlar və düşmən qüvvələr tərəfindən oxunan dua şəklində icra edilir.

## QIZIL QOÇ
(səh. 43)

Xalq arasında olan bir neçə variantdan ən mükəmməli götürülmüşdür.

"Avesta"da "Vurukaş" dənizində yaşayan üç ayaqlı bir at haqqında danışılır. Guya ki, bu qeyri-adi at ədalətli işlər uğrunda mübarizə aparanları

zalımların təqibindən xilas edərək dənizdən keçirərmiş. Bu qədim əsatiri əfsanə "Qızıl qoç" nağılında çox aydın bir şəkildə yaşamaqdadır. Bu nağılın diqqəti cəlb edən ikinci bir xüsusiyyəti də vardır. Nağıl bəzi surətlərinə və süjet təfərrüatına görə məşhur özbək dastanı "Məlikə Əyyar"la səsləşməkdədir ki, bunun da xüsusi tədqiqat əhəmiyyəti vardır.

1. **Firəng padşahı**, firəng torpağı, firəng qoşunları sözlərinə Azərbaycan nağıllarında çox tez-tez rast gəlirik. Lakin qeyd etmək lazımdır ki, nağıllardakı firəng sözü bizim bu gün anladığımız mənadakı Fransa deyildir. Orta əsrlərdə firəng ümumiyyətlə avropalı mənasında işlədilmişdir. Yalnız Rum və türklər bura daxil deyildi. Bu sözə hələ XII əsrlərdə yazılmış bir sıra kitablarda da rast gəlirik.

XI əsrin sonlarında, XII əsrin əvvəllərində yaşamış ərəb tarixçisi Usama ibn-Münqizin "Nəsihət kitabı"nda dönə-dönə firəng sözünə rast gəlirik. Firəng sözü təkcə Azərbaycanda deyil, ərəb, fars və türk nağıllarında da işlənir.

2. **Dərviş** – Məlum olduğu üzrə, dərvişlik IX əsrin əvvəllərində meydana gələrək Şərqdə, xüsusən Ərəbistan, Türkiyə, İranda xeyli yayılmışdı. Dərviş əsasən müsəlman rahibi olub, eyni zamanda ara həkimi, ovsunçuluq, sehrkarlıq və sairə işlərlə məşğul olan ruhani nümayəndələrindəndir. XI əsrdən islam dininin hökmran olduğu ölkələrdə dərviş din nümayəndəsi olmaqdan başqa, həm də dövləti idarə işlərində də iştirak edən bir sima olmuşdur. Dərvişliyin bəzi xüsusiyyətləri Azərbaycan nağıllarında bu və ya digər şəkildə zəngin boyalarla öz əksini tapmışdır. Azərbaycan nağıllarında iki cür dərviş surəti vardır. Birincisi tamamilə mənfi surət olub şər qüvvələr sırasına daxildir. İkincisi isə müsbət keyfiyyətlərə malik xeyirxah adamlardır.

Nağıllarımızda mənfi qüvvə kimi təsvir edilən dərvişlər öz sehr və tilsimləri ilə insanı daşa, heyvana, quşa çevirir, əvvəlcə övladı olmayanlara alma vasitəsilə övlad verir, sonra onu oğurlayıb məhv etmək istəyirlər. Lakin bir ənənə olaraq nəticədə qəhrəman bu mübarizələrin sonunda mütləq qalib çıxır. Məsələn, "Qara qaş", "Üç bacı" kimi nağıllarda dərviş əvvəlcə övladı olmayanlara uşaq verir, böyüdükdən sonra oğurlayıb aparır. Nəticədə oğurlanmış uşaq dərvişi məhv edir. "Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi" nağılında dərviş nəinki insanlara, hətta quş və heyvanlara da zülm edir; illər boyu tilsimli qalaçalarda atın qabağına ət, quşun qabağına ot, aslanın qabağına arpa tökməklə haqsızlıq edir.

Yuxarıda qeyd edildiyi kimi, vaxtilə dərvişlər dövləti idarə etmək işində də iştirak etmişlər. Güman ki, nağıllarda dərvişlərə mənfi münasibətin bir səbəbi də dövrün, ictimai quruluşun ədalətsiz qayda-qanunlarının nəticəsi olmuşdur.

Nağıllarımızdakı müsbət keyfiyyətlərə malik ikinci növ dərvişlər isə yol azanlara yol göstərir, insanlara tilsimləri sındırmaqda, sehirləri açmaqda kömək edir, ağıllı məsləhətlər verirlər.

3. **Tilsim** – Azərbaycan nağıllarında müəyyən qalaçalar, qapılar, əşyalar guya sehirli qüvvəyə malik olur ki, ona yaxınlaşmaq, toxunmaq insana ziyan verir; onu daşa döndərir və hətta məhv edir. Qəhrəman həmin tilsimin sirlərini öyrəndikdən sonra tilsim sınır və qüvvədən düşür. Bir sıra tədqiqatçılar tilsimə inam və etiqadın ibtidan insan cəmiyyətində əmələ gəldiyini göstərirlər.

4. **Cinni Cəfər qoşunu** – Şərqdə bəzi xalqlar arasında belə bir əfsanə vardır ki, guya Cəfər cinlərin padşahı imiş. Cəfərin cinlərdən ibarət o qədər qoşunu var imiş ki, sayı-hesabı yox imiş. Həm də onları qırmaqla qurtarmaq olmazmış. Əgər bir cin öldürülsə imiş, onun hər damla qanından yenidən bir cin yaranarmış. İndi də hər hansı bir şey ardı-arası kəsilmədən çoxaldıqda xalq arasında deyirlər: "Elə bil cinni Cəfər qoşunudur". Hazırda bu ifadə dilimizdə çoxluq mənasını ifadə edir.

5. **Əjdaha** – Əjdaha bütün nağıllarda insanların ən qəddar düşməni kimi göstərilmişdir. Əjdahalar Avropa və rus xalqlarının nağıllarında üç, dörd, altı, doqquz başlı, bizim nağıllarda isə üç, yeddi, hətta qırx başlı təsvir edilir. Onlar çox nəhəng olub, əl və ayaqlara malikdirlər. İnsanı nəfəsləri ilə uzaqdan öz kamlarına çəkə bilirlər. Ağızlarından od və alov püskürür. Məskənləri daima su başlarında olur, şəhər əhalisini susuz qoyub, onlara olmazın əzab verirlər. Yalnız gündə bir qız yedikdən sonra şəhərə azacıq su buraxırlar. Əjdahanın su ilə bağlı olması bir çox xalqlarda, xüsusilə Şərq xalqlarında geniş yayılmışdır. Pekin şəhərinin əmələ gəlməsi haqqındakı Cin nağılında şəhərə birdən-birə quraqlıq üz verir. Quraqlığın əmələ gəlməsinə səbəb isə şəhər darvazalarının yanındakı mağarada əjdahanın peyda olmasıdır. Bu əjdahanı min illərlə heç kim görmür, lakin şəhərə su buraxmayanın əjdaha olduğunu hamı bilir.

Hind və Misir nağıllarında da əjdaha su ilə bağlı olub eyni zamanda kosmoqoniya ilə də əlaqədar olduğuna işarə vardır. Qədim hindlilərin "Riqveda"sında bu surətin ay və günəş mifologiyası ilə səsləşən cəhətləri vardır.

V.Y.Propp qeyd edir ki, sonrakı pillələrdə əkinçilik və maldarlığın inkişafı ilə əlaqədar olaraq vəziyyət dəyişir. Allahlar daha heyvanlardan deyil, insanlardan olur. Onlar öz təsərrüfatlarını idarə etmək işini öz əllərinə almalı olurlar. Təsərrüfatı becərmək üçün lazım olan suya özləri sahib olmaq məqsədilə heyvanlardan olan allahları məhv edib onların adlarına və onlarla bağlı olan şeylərə özləri yiyələnirlər. Tarixin bu pilləsində isə belə vəziyyət ilk dəfə əkinçilik və maldarlıqla məşğul olan Hindistan, Yunanıstan, Çin, Misir və başqa ölkələrdə özünü göstərmişdir.

M.H.Təhmasib "Azərbaycan nağılları"na (I cild) qeydlərində həmin məsələdən ətraflı danışaraq İndranın titullarından birinin də Vritrahan (Vritranı öldürən) olduğunu, sonralar dönüb Vərəhran, Bəhram şəkillərinə düşdüyünü qeyd etmişdir.

6. **Yəmən** – Yəmən ən qədimlərdən özünün ipəkçilik və başqa məhsulları ilə şöhrət tapmış bir ölkə olmuşdur. Hazırda Ərəbistan yarımadasının cənub-qərb hissəsində yerləşir. Bu ada nağıl və dastanlarımızda çox tez-tez rast gəlirik.

## YUSİFLƏ SƏNUBƏR
(səh. 66)

1. **Kəşkül** – hind qozu və ya adi qoz ağacı qabığından qayrılmış, kasaya oxşar, içərisi gen, ağzı dar qabdır ki, dərvişlər əllərində gəzdirirlər. Dərviş oxuduqu zaman verilən pul və başqa nəzirləri oraya yığır.

2. **Yusif** – Bu ad şifahi ədəbiyyatımızda gözəllik simvolu olaraq çox geniş bir şəkildə yayılmışdır. Əfsanəvi gözəlliyə malik olan bu mifik surət nəinki nağıllarımızda, hətta yazılı ədəbiyyatımızda da tərənnüm edilmişdir.

Azərbaycan nağıllarında Yusif öz gözəlliyi ucundan daim əzab-əziyyətlərə düçar olan, öz qardaşları tərəfindən quyuda kəndiri kəsilən bir surət kimi təsvir edilmişdir. Yusif haqqında daha bir sıra əfsanələr vardır. Həmin əfsanələrin birində deyilir ki, güya Yusif Yaqub peyğəmbərin üç oğlundan biri imiş. Hələ gənclik vaxtlarında öz qardaşları tərəfindən Misir hakimlərinə satılıbmış. Güya sonralar orada böyümüş, yüksək vəzifə sahibi olmuş və Fironun sarayında yaşamışdır. Yusif haqqında qədim Şərq mifologiyasında bəzi əfsanələrin izləri vardır. Onlardan birində Yusif bitkilərin allahı kimi təsvir edilir. Bitkilərin, nəbatatın "ölməsi", yenidən "dirilməsi" onunla əlaqələndirilir.

3. **Nurani qoca** – Bunlar da üç, yeddi və dörd yol ayrıcında, dağlarda, qalaçalarda insanlara rast gəlirlər. Onlar bütün tilsimləri bilir, qalaçaların yollarını göstərir, sehirli əşyaları gətirməyin sirlərini açır, insanlara öz ağıllı məsləhətləri ilə kömək edirlər.

4. **Rüstəmi-Zal** – İran əfsanələrinə görə ən böyük və məşhur qəhrəmanlardandır. O, nəinki bir pəhlivan, cəngavər, hətta həkim, elmi nücumu bilən bir ustad sayılır. Rüstəmi-Zal bütün müharibələrdə məğlubedilməz bir qəhrəman kimi göstərilir. İranlıların turanlılara qalib gəlməsi Rüstəmin tədbiri və hünəri ilə əlaqələndirilir. Azərbaycan nağıllarında isə Rustəm məğlubedilməz bir pəhlivan kimi təsvir edilir.

5. **Don** – Nağıllarımızda tez-tez təkrar edilən motivlərdən biri də quşların, heyvanların, xüsusilə ilanların cildini, donunu dəyişməsi məsələsidir. Çox zaman onlar öz donlarını çıxartdıqdan sonra gözəl oğlan və ya qız şəklinə düşürlər. Göyərçinlər isə öz donlarını çıxartdıqda güya gözəl pəri qızlarına çevrilirlər. Nağıllarımızdakı bu hadisə dönmə ilə əlaqədar məsələdir.

## MOLTANI PADŞAHI
(səh. 87)

Bu nağılda qədim Midiya adətlərinə, atəşpərəstlik izlərinə rast gəlinir. Nağıl zəngin ictimai məzmuna malikdir. Nağıl ənənələrimizin bir sıra gözəl xüsusiyyətləri burada mühafizə edilmişdir.

1. **Səməndər** – Səməndər əfsanəvi bir quş adıdır. Güya dərya kənarında yaşarmış. Dimdiyi poladdan, ayaqları isə daşdanmış. Səməndər hər dəfə ayaqlarını dimdiklədikdə oradan qığılcım qalxar və quşu alov basarmış. Quş alovlanıb yandıqda özünü suya atarmış. Daha başqa bir əfsanədə səməndərin nəhəng bir quş olduğu və yeddi ildən bir (bəzən bir ildən) qar üstündə bir yumurta yumurtladığı və özünü yumurtaya sürtüb oradan qığılcım çıxartdığı danışılır.

Şəmsəddin Saminin lüğətində həmin quş haqqında iki cür məlumat verilmişdir. Birinci məlumatda deyilir: "Səməndər güya atəşdə yaşar bir heyvani-mövhum ki, xurafati-İranidə məzkurdur". Sözün ikinci mənası isə, məşhur bir cins su kərtənkələsinə isnad edilir.

Türk tədqiqatçısı Agah Sirri Ləvənd 1941-1942-ci illərdə İstambulda nəşr edilmiş "Divan ədəbiyyatı" adlı əsərində Səməndər haqqında yazmışdır: "Atəşə atıldıqda lüzuqətli maddə ifraz etdiyi üçün bir neçə dəqiqə atəşin təsirinə müqavimət göstərən. bir heyvan. Heyvanın bu xüsusiyyəti atəşdə yanmadığına dair olan xürafatın çıxmasına səbəb olmuşdur".

Bütün bunlardan başqa Səməndər haqqında bəzən bir-birinə yaxın, bəzən də tamamilə bir-birinin əksinə əfsanələr vardır. Lakin bu əfsanələr nə şəkildə olursa-olsun, hamısı bu və ya digər dərəcədə odla əlaqədardır.

Səməndərlə əlaqədar bəzi yer adlarının olduğu da bizə məlumdur.

2. **Alma** – Nağıllarımızda alma xüsusi bir əhəmiyyət malik olub, həm də çox tez-tez təkrar edilir. Bir yanağı ağ, bir yanağı qırmızı adlanan (bəzən qırmızı almaya qızıl alma da deyilir) bu alma iki əlamətdar cəhətlə fərqlənir. Birinci halda onu yeyənlərin ömrü uzanır və bütün xəstəlikləri sağalır. Bu alma ya şahın bağından, ya da uzaq bir yerdən çox çətinliklə əldə edilir. İkinci halda isə həmin almanı övladı olmayan bir adama qapıya gəlmiş dərvişlər verirlər. Həmin almanı yarı bölüb arvadı ilə yeyən kişilərin övladları olur. Bir sözlə, bu almalar insana həyat verən sehirli bir şeyə çevrilir. Məsələn, "Məlik Məmməd" nağılında alma insanın ömrünü uzadır, onu müalicə edir, "Parabaş" nağılında insana övlad verir.

Nağıllarımızda almanın insana həyat verməsi motivinin haradan gəlməsi məsələsini aydınlaşdırmaq üçün daha çox səciyyəvi olan "Məlik Məmməd" nağılını nəzərdən keçirmək kifayətdir. Çünki buradakı adların müsəlman adları olmasına baxmayaraq, hadisələr hələ islamiyyətdən çox-çox əvvəllərin

məhsulu olduğu məlumdur. Bu nağıldakı əsas fikir haqqın nahaqqa qələbə çalmasından ibarətdir. Burada bir tərəfdən xeyir allahı Hürmüzd və onun xəlq etdiyi nur, əbədi həyat və ədalət, o biri tərəfdən isə şər allahı Əhrimən və onun xəlq etdiyi qaranlıq dünya, divlər, əjdahalar, fitnə, fəsad, şər quvvələrdir. Nağıl bir-biri ilə mübarizədə olan bu iki qüvvədən şərin məğlubiyyəti ilə nəticələnir. Bu barədə tədqiqatçılardan Y.V.Çəmənzəminli yazmışdır: "...Əbədi həyat bəxş edən almanı oğurlayan divlər, zümrüdün balalarını öldürmək istəyən əjdahalar, büxl və həsədə qapılan iki şahzadə məhv olub gedirlər. Zirək, qüvvətli, təmiz ürəkli Məlik Məmməd isə hər cür çətinlikdən qurtarır, işıqlı dünyanın bütün səadətinə nail olur".

Məlum olduğu kimi, nağıllarda təsvir olunan "alma" ağacına bənzər ağac "Avesta"da vardır. Y. Çəmənzəminli qeyd edir ki, "ari"lərin, yəni Kür və Araz çayları arasında yaşayan qədim irqin etiqadına görə bu ağac Kür-Kaspi dənizində bitib (bəzən bu ağacın Bisütun dağında, Gülüstani-İrəmdə də olduğunu iddia edirlər) cəmi nəbatata ruh verərmiş.

"Məlik Məmməd"dəki alma ağacı isə həmin ağaca çox bənzəyir.

## LOĞMAN
(səh. 118)

Loğman Azərbaycan nağıllarında ən çox adı çəkilən simadır. Onun həkimliyi haqda ayrı-ayrı kiçik əfsanəvi hekayələr də vardır. Nağıllarımızda Loğmanın adı böyük bir həkim kimi tez-tez çəkilir. O, bütün xəstəlikləri müalicə edir, insanları ölümdən qurtarır. Bu nağıl tamamilə müstəqil süjetə malik olub Loğmanın həkimliyindən danışır.

## KƏSİK BAŞ
(səh. 124)

Buradakı kəllə əhvalatı başqa şəkildə Ə. Axundovun tərtib etmiş olduğu "Azərbaycan nağılları" (III cild) kitabında "Quru kəllə" adlı nağılda vardır. Qalan təfərrüat isə hər iki nağılda başqa-başqadır.

## UŞAX PƏHLİVAN
(səh. 130)

1. **Zorxana** – Qədim müharibələrdə, habelə əyləncə işlərində pəhlivanlardan çox istifadə edilirdi. Şahlar öz himayələrində onlarca qüvvətli, pələng pəhlivanlar saxlardı. Döyüş zamanı əvvəlcə hər iki tərəfin pəhlivanları güləşər və ya vuruşardılar, hansı tərəfin pəhlivanı qalib gəlsə idi, o tərəf qalib

hesab olunardı. Pəhlivanların müharibə zamanı həlledici rol oynamaları padşahları vadar edirdi ki, qüvvətli pəhlivanlar hazırlasınlar. Məhz buna görə də sarayda pəhlivanların məşq etmələri üçün zorxana deyilən xüsusi yer düzəldilirdi. Zorxanalarda qurşaq tutub güləşmək, daş qaldırmaq, mil oynatmaq, zəncir qırmaq kimi işlərlə məşğul olur və gənc pəhlivanları öyrədirdilər. Şərqdə belə zorxanalar o qədər geniş yayılmışdı ki, sonralar böyük şəhərlərdə xüsusi zorxanalar düzəldilmişdi. Təkcə onu göstərmək kifayətdir ki, XX əsrin əvvəllərinə qədər Bakıda beş-altı zorxana var idi.

2. **Yalax-qoz** – Yerdə bir yalax-çuxur qazırlar, ora bir ovuc qoz atırlar. Bir nəfər isə yalağın başında dayanır. Qozlar yalağa duşdükdən sonra sayırlar. Əgər yalaxdakı qozların sayı cütdürsə, yalağa qoz atan adam o qədər qoz alır. Əgər təkdirsə, həmin qozlar yalağın yanında duran adama çatır. Beləliklə, həmin oyun davam edir.

3. **Sürməyə sehr oxumaq** – Əfsanəyə görə guya gözə çəkilən sürməyə bir adam haqqında əfsun oxuyub onu havaya sovurduqda həmin adamın yeddi il nitqi tutular, gücü gedər, yarı ölü, yarı diri vəziyyətdə yuxulayarmış.

## İSKƏNDƏR ZÜLQƏRNEYN
(səh. 136)

Doğrudur, İskəndər haqqında çoxlu nağıllar vardır. Ə.Axundovun tərtib etdiyi "Azərbaycan naqılları" (III cild) kitabında da "Quş dili bilən İskəndər" adlı nağıl çap edilib. Lakin bunların süjeti tamam başqadır.

Gəncədən toplanmış bu nağılın maraqlı cəhəti orasındadır ki, "Şahzadə Midiasın sirri" adlı yunan nağılı ilə eynilik təşkil edir, eyni zamanda Nizaminin "İskəndərnamə"sindəki motivləri xatırladır. Azərbaycan nağıllarında təsvir edilən İskəndər Yunanıstanı fəth edən Makedoniyalı Filippin oğludur. İskəndər İranı işğal etmiş və Əhəməni sülaləsinin son hökmdarı olan III Daranı məğlubiyyətə uğratmışdır. İskəndər o zaman böyük bir imperiya yaratmışdı. İskəndər haqqında Şərqdə çoxlu əfsanələr yaranmış və əsərlər yazılmışdır. Əfsanəyə görə İskəndərin buynuzları varmış. Şərq rəvayətlərində o, həm padşah, həm də peyğəmbər kimi təsvir edilir.

İskəndərin Azərbaycan şifahi ədəbiyyatında dərin iz buraxdığı məlumdur. Azərbaycanda onlarca nağıl və əfsanə İskəndərə həsr edilmişdir. Bunların bir hissəsində İskəndərin işğalçılığı, zalımlığı göstərildiyi halda, digər hissəsində isə ağıllı bir hökmdar olduğu təsvir edilir.

1. **Xızr** – Peyğəmbər kimi müqəddəslərdən hesab olunur. O, nağıllarda yolunu azanlara, darda qalanlara yol göstərib kömək edir. Geri dönüb bir də baxdıqda qeybə çəkilir. O daima dağlarda, daşlarda, insanın dara düşə bilə-

cəyi hər yerdə ola bilir. Geyimi çox sadə olub adi adamlardan seçilmir. İlk baxışda qəhrəman onu tanımır.

2. **İfritə** – Bu ad ərəb əfsanələrində də vardır. “Bibliya”da isə Süleyman peyğəmbərin qohumlarından, bəzən cinlərdən biri kimi göstərilir. Quranın XXVII ayəsində bu haqda məlumat vardır. Şəmsəddin Sami lüğətində ifritə cin tayfalarının ən müzür və qorxunc bir “cinsi” kimi verilir. İfritə məcazi mənada araqarışdıran, kinli və kifir qadına deyilir.

Azərbaycan nağıllarında ifritə sehirli, tilsimli, ən kifir bir qarı şəklində təsvir edilir. Onlar bəzən gözə görünür, bəzən isə görünməz bir məxluq olurlar. İnsanlara daima zərər verən şər qüvvə kimi göstərilirlər.

## GÖY TƏPƏ GÖYƏRDİ, ƏRİM MƏNİ DÖYƏRDİ

(səh. 144)

Burada ən qədim ibtidan insan təsəvvürlərinə, onun bir gecədə yun əyirmək, parça toxumaq arzularına rast gəlirik. Həmin nağılda ilin fəsillərinin adı belə məlum deyildir. Yaz fəslinin başlanması göy təpənin göyərməsi ilə, qışın gəlməsi isə yerin ağarması ilə müəyyənləşdirilir. Bu nağılda qədim insanların dünyagörüşü və məişətinin izləri mühafizə edilmişdir.

## ZƏNGİ

(səh. 155)

1. **Bilbis** – Orta əsrlərdə Misirdə bir şəhər adıdır. Qahirənin şimal-şərqində yerləşir. Səlib müharibələri dövründə avropalıların hücumundan Misiri müdafiə etmək üçün bu şəhər hərbi baza rolunu oynamışdır. Bu haqda Usama ibn-Münqizin “Nəsihət” adlı kitabında məlumat verilir.

## ƏZAZİL PADŞAH

(səh. 160)

Nağılda zəif, xəstə uşaqları və qocaları qırmaq haqqındakı motiv başqa xalqların şifahi ədəbiyyatı ilə səsləşir. Qədim Yunanıstanda elə bir dövr olmuşdur ki, hərbi xidmətə gələcəkdə yararlı olmayanları elə uşaq vaxtında məhv edirlərmiş. Bu nağılda da uşaqların, zəif qocaların qırılması haqqında şahın əmr verməsi bir növ həmin motivi xatırladır.

1. **Firon** – Misir şahları sülaləsinin adıdır. Onların birinin əsil adı Firon olmuşdur. O, şifahi və yazılı ədəbiyyatda çox zalım bir hökmdar kimi təsvir edilir. Hətta o əmr veribmiş ki, onu allah kimi tanısınlar.

## AĞILLI QIZ
(səh. 165)

1. **Qodu-qodu** – Novruz bayramına bir neçə gün qalmış məhəllə cavanları həyətləri gəzməklə qodu-qodu adlanan xüsusi oyun (mərasim) oynar və ev sahibindən şirni, xüşgəbər, pul və s. alırdılar. Bu oyunun keçirilmə qaydası belədir: rəqs etməyi bacaran bir adamın başına dəridən, keçədən və ya sadəcə kağızdan şiş papaq qoyub mumdan yekə burun düzəldib, üz-gözünü ala-bəzək rəngləyib, əyninə qoyun dərisindən kürk geydirirlər. O, ayaqlarına çarıq, ya da müxtəlif gülməli şeylər taxır. Qodunun əlində də yekə bir çomaq olur. Qodunu müşayiət edən cavanlar onu həyətlərə aparır və məzhəkəli suallar verib oynadırlar. Qodu oyunu, oxuması, güldürməsi, məzəli məzhəkələr deməsi, ölüb-dirilməsi və sairə ilə tamaşaçıları güldürür. Qodu oyununu qurtaran kimi onu müşayiət edən cavanlar üzlərini ev sahibinə tutub deyirlər:

A qodu-qodu gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Qodunu yola salsana.

Həmin nəğmə oxunub qurtarandan sonra, ev sahibi şirni, pul, yumurta və sairədən qoduya pay verib yola salır. Qodu qapıdan çıxanda aşağıdakı mahnını oxuyur:

Qodu-qodunu gördünmü?
Qoduya salam verdinmi?
Qodu qapıdan ötəndə
Qırmızı günü gördünmü?

Qodu-qodu gəzdirmək Azərbaycanın müxtəlif rayonlarında ayrı-ayrı ad altında (qodu-qodu, güdü-güdü, kosa-kosa) və müxtəlif şəkildə icra edilir. Bakıda bu oyuna “kosa-kosa” deyirlər. Gəncədə isə bu mərasim “qodu-qodu” adlanır. Oyun həm bayramı qarşılamaq, həm də günəşi çağırmaq (günün çıxmasını arzu etmək) məqsədi daşıyır.

## CİN
(səh. 172)

Forma etibarilə bir qədər nağıldan fərqlənsə də, əslində nağılların bir növüdür. Belə nağıllara cin, şeytan nağılları deyilir. Bunları söyləyən hər kəs

hadisənin baş verdiyi yer, iş, gün, saat haqqında elə məlumat vermək istəyir ki, elə bil bunlar olmuş hadisələrdir.

1. **Dirədöymə** – Bu oyun Azərbaycanın bir çox yerlərində məşhurdur. Oyunun qaydası belədir: diametri dörd-beş metr olan bir dairə çəkirlər. Altı-yeddi nəfər həmin dairənin içərisindən onun kənarına yaxın altı-yeddi yerdə ya çatı, ya adi toqqa (bel qayışı) qoyub, onu mühafizə edirlər. Dairənin içərisindəki adamların sayı qədər adam da kənardan hücüm edib dairənin içərisindəki çatını və ya toqqanı almağa çalışır. Kənardakı adamlar çalışmalıdırlar ki, onların ayaqlarına içəridəkilərin ayaqları toxunmasın. Beləliklə, kənardakı adamlar o tərəf, bu tərəfə qaçmaqla toqqaları bir-bir, çox çətinliklə dairədən kənara çıxarırlar. Sonra həmin toqqalarla içəridəki adamları vurmaqa başlayırlar. Bu hadisə dairədəki adamlardan birinin hücüm edərək (dairədən çıxmamaq şərtilə) kənardakı adamların birinin ayarına toxunmasına qədər davam edir. Sonra oyun yenidən başlanır. Lakin bu dəfə dairənin içərisindəkilər kənardakılarla əvəz edilir.

## PADŞAH VƏ DƏMİRÇİ
(səh. 183)

Bu nağılın başqa variantları da vardır. Lakin bu nağıl öz ictimai məzmunu etibarilə başqalarından xeyli fərqlənir.

1. H**arun** – Harun əl-Rəşid (786-809) Abbasilər sülaləsindən olan ərəb xəlifələrindəndir. Nağıllarda çoxlu torpağa malik, dövlətli bir şəxsiyyət kimi göstərilir. “Minbir gecə” nağıllarında adil, ağıllı bir xəlifə kimi təsvir edildiyi halda, xalq rəvayətlərində bəzən onun ədalətsizliyi, ağılsızlığı haqqında lətifələr də söylənilir.

2. H**atəm** – Nağıllarımızdakı şəxsiyyət adlarının bəziləri xalqımızın tarixi, ictimai həyatı ilə bilavasitə bağlıdırsa, bəziləri də başqa xalqların nağılları ilə bu və ya digər dərəcədə əlaqədardır. Azərbaycan nağıllarında tez-tez rast gəldiyimiz Hatəm adı da məhz belələrindəndir. Şərq ədəbiyyatı şərhçilərin “Tay” adlı ərəb tayfalarından olan Hatəmi səxavətli, müdrik, əfsanəvi bir şəxsiyyət kimi təsvir etmişdir. Bəzi mənbələrə görə isə Hatəm islamiyyətdən əvvəl yaşamış yarıməfsanəvi bir qəhrəman və şair olmuşdur.

3. **Əbabil quşu** – Əfsanələrə görə Əbrəh adlı zalım bir padşah öz rəiyyətinə çox divan tutarmış. O öz qoşununa arxalanıb zülmünü getdikcə artırırmış. İnsanlar onun ədalətsizliyindən cana doyub qarğış edirlər. Güya insanların qarğışı nəticəsində birdən-birə göydə minlərlə sərçə boyda əbabil adlı quş peyda olur. Bu quşlar hərəsi dimdiyində xırdaca bir daş götürüb göydən Əbrəhin qoşununun üstünə töküb hamısını qırırlar. Bircə nəfər qaça-qaça Əbrəhə xəbər aparır ki, nə durmusan, xırdaca-xırdaça quşlar göydən çınqıl salıb

tamam qoşununu qırdı. Xəbər gətirən adam padşahı bayıra çıxardır ki, quşları ona göstərsin. Padşahın gözünün qabağında quş onun da təpəsinə bir çınqıl salıb öldürür Əbrəh tamam tək qalır.

YETİM QIZ
(səh. 189)

Nağılda uzaq keçmişin bəzi əlamətlərinə də rast gəlmək olur. Məlum olduğu kimi, bir sıra atalar sözü və məsəllər vardır ki, onlar nağıllardan alınmışdır. "Dəyirmanın gözündən ölü saldım, diri çıxdı" zərbülməsəlinin "Yetim qız" nağılı ilə əlaqədar olduğu aydın bir şəkildə hiss edilir.

1. **Qazı** – Müsəlman Şərqində, feodal qayda-qanunları əsasında hökm verən hakimdir. Qazı əsasən böyük şəhərlərdə baş hakim vəzifəsini aparırdı. Müxtəlif dövrlərdə qazı daha geniş hüquqa malik olmuşdur.

KEÇƏL
(səh. 194)

Keçəl haqqında, məlum olduğu kimi, çoxlu nağıllar nəşr edilmişdir. Həmin nağılların hərəsində keçəlin ayrı-ayrı xüsusiyyətləri verilmişdir. Lakin Gəncədən toplanan bu nağılda keçəlin bütün xüsusiyyətlərinin nisbətən ümumiləşdirilmiş bir formasına rast gəlirik. Burada keçəl həm qəhrəman, həm də hiyləgər, ağıllı, hazırcavab, rəhmli, eyni zamanda düşmənlə barışmaz və başqa müsbət xüsusiyyətlərə malik bir qəhrəmandır.

1. **Gərməşo –** Möhkəm, elastiki ağacdır, onunla yun çırpırlar. Həmin ağacı oda tutub yağını çıxarırdılar; ondan əldə, üzdə olan dəmrov adlı dəri xəstəliyini müalicə etmək üçün türkəçara dərman kimi də istifadə edirdilər.

OXXAYLA ƏHMƏD
(səh. 204)

"Azərbaycanı öyrənmə yolu" məcmuəsinin 1926-cı il 2-ci nömrəsində "Oxxay" adlı bir nağıl nəşr edilmişdir. Bu cilddə nəşr edilən nağılla oradakının bir çox fərqləri vardır. Həmin fərqlər başlıca olaraq aşağıdakılardan ibarətdir:

1926-cı ildə nəşr edilən nağılda Oxxay öldürüldükdən sonra sujet qırılır. Oxxayın qızının, tilsimdəki insanların taleyi aydın olmur. Bizim verdiyimiz nağılda isə Oxxay öldürüldükdən sonra da süjet davam edir. Oğlan qalaçada tilsimə salınmış adamları azad edir, Oxxayın qızı ilə evlənir. Qız Əhmədin

sədaqətini, qəhrəmanlığını və ağlını yoxlamaq üçün onu bir çox sınaqlardan keçirir. Birinci nağılda oğlanın adı Qouz, ikincidə isə Əhməddir. Bizim verdiyimiz nağılda hadisələr bir-birini müntəzəm izləməklə bərabər, həm də sehirli ünsürlər daha qabarıqdır. Maraqlı bir cəhət də orasıdır ki, Əhmədlə (Qouzla) Oxxayın bir-birini tilsimə salmağa çalışması şeirlə deyişmə şəklindədir. Bizim nağılda isə həmin hadisə nəsrlədir. Nağılda deyişmə formasında olan bu şeir belə bir fikir yaradır ki, vaxtı ilə belə bir dastan olubmuş. Həmin nağıl da güman etdiyimiz dastandan alınmış, ya da dastan başqa belə bir nağıl əsasında yaradılmışdır.

1926-cı ildə nəşr edilmiş "Oxxay" adlı nağıldakı deyişməni olduğu kimi veririk:

Q o u z

Sən qılıncı ələ alıb,
Məni öldürməli olsan,
Mən bir dəli ceyran olub,
Düzlərə qaçsam, neynərsən.

O x x a y

Sən bir dəli ceyran olub,
Düzlərə qaçmalı olsan,
Mən bir mahir ovçu olub,
Ceyranı vursam, neynərsən.

Q o u z

Sən bir mahir ovçu olub,
Ceyranı vurmalı olsan,
Mən bir qızıl balıq olub,
Dənizə getsəm, neynərsən.

O x x a y

Sən bir qızıl balıq olub,
Dənizə getməli olsan,
Mən bir qoca torçu olsam,
Balığı tutsam, neynərsən.

Q o u z

Sən bir qoca torçu olub,
Balığı tutmalı olsan,
Mən bir dəli əsgər olub,
Salyana qaçsam, neynərsən.

O x x a y

Sən bir dəli əsgər olub,
Salyana qaçmalı olsan,
Mən bir cavan zabit olub,
Əsgəri tutsam, neynərsən.

Q o u z

Sən bir çavan zabit olub,
Əsgəri tutmalı olsan,
Mən bir qoz ağacı olub,
Bağlarda bitsəm, neynərsən.

O x x a y

Sən bir qoz ağacı olub,
Bağlarda bitməli olsan,
Mən bir ala qarğa olub,
Qozu daşısam, neynərsən.

Q o u z

Sən bir ala qarğa olub,
Qozumu daşımalı olsan,
Mən bir qızıl alma olub,
Sandığa girsəm, neynərsən.

O x x a y

Sən bir qızıl alma olub,
Sandığa girməli olsan,
Mən bir paslı açar olub,
Sandığı açsam, neynərsən.

Q o u z

Sən bir paslı açar olub,
Sandığı açmalı olsan,
Mən bir alacəhrə olub,
Göylərə uçsam neynərsən.

## ŞAHZADƏ VƏ QURBAĞA
(səh. 217)

Bu nağıl Azərbaycanda geniş yayılmışdır. Nağılı oxuduqda hadisələrin cərəyan etdiyi mühitin qeyri-adi, hər şeyin sehirli olduğu gözlər qarşısında canlanır.

Qeyri-real görünən bu sehirli nağılda çox uzaq keçmişlərin izləri yaşamaqdadır. Burada kiçik qardaşın baxtına qurbağa çıxması və onu özünə arvad qəbul etməsi hələ insanların vaxtilə taleyə inamının qalıqları ilə əlaqədardır.

"Şahzadə və qurbağa" sujeti Aarne-Andreyevin nağıl süjetlərinin göstəricisi cədvəlində 402-ci nömrədə qeydə alınmışdır. Bu nağıl ruslarda "Лягушка-царевна" adı ilə məşhurdur. Bu nağıllardakı hadisələr tamamilə bir-birinin eynidir. Lakin onlar arasında müəyyən fərqlər də vardır. Bu da rus nağılında oğlanların qızlara ox, bizim nağılda isə həm ox, həm də alma atmasıdır. Rus nağılında gəlinlər öz qabiliyyətlərini nümayiş etdirmək üçün qayınatalarına çörək bişirib apardıqları halda, bizimkində paltar və xalça aparılır.

## İKİ QARDAŞ
(səh. 239)

Bu nağılın xalq içərisində bir çox variantları vardır. Onlardan nisbətən mükəmməli seçilib kitaba daxil edilmişdir. Başqa variantlarla başlıca fərqi orasındadır ki, burada ictimai ziddiyyət daha qabarıq şəkildə nəzərə çarpır. Belə ki, bir tərəfdə ağıllı, zəhmətkeş yoxsul balaları, digər tərəfdə isə fərasətsiz, lovğa tacir uşaqları qarşılaşdırılmışdır. Həmin nağılın bir hissəsi "Силач" adı ilə 1930-cu ildə "Фольклор Азербайджана и прилегающих стран" adlı kitabın I cildində nəşr edilmişdir.

Burada diqqəti cəlb edən maraqlı bir cəhət vardır. Nağıl Sədinin "Gülüstan" adlı kitabında III fəsildəki 29 nömrəli hekayənin demək olar ki, eynidir. Sədinin kitabını oxuduqdan sonra belə bir qənaətə gəlmək olur ki, bu nağıl Sədidən çox-çox əvvəllər xalq içərisində var imiş. Sədi özü də "necə ki, nağıl edirlər..." – deyə açıqca həmin nağılın xalq içərisində söyləndiyini qeyd edir.

## İKİ YOLDAŞ
(səh. 245)

Bu nağıl öz forması etibarilə başqalarından fərqlənir. Burada qaravəlli ünsürləri xeyli qüvvətlidir. Belə ki, İlyasın yoldaşının keçini kəsib soyması, şahzadə qızın sarayına daxil olması, qızı görmək üçün işlətdiyi kələk, sərdabada quldurları qorxutması və sairə tamamilə qaravəlli formasındadır.

"Qaravəlli" şifahi ədəbiyyatımızda xüsusi formadır. "Qaravəlli" bəzən gülməli, mənasız, ritmik söz yığımından və əksər halda isə kəskin satira ilə dolu mənalı, qısa həcmli gülməli nağıllardan ibarətdir.

Qaravəllilərin söylənməsindən əsas məqsəd yorulmuş dinləyiciləri güldürmək, onlarda yenidən nağıla qulaq asmaq həvəsi doğurmaqdır. Lakin qaravəllilərin əksər hissəsi müstəqil süjet xətti olan satirik, yumoristik qısa nağıllardır.

## NAŞÜKÜR QIZ
(səh. 257)

Bu nağılın xalq içərisində olan "Baxt quşu", "Tale quşu" adlı variantları da vardır. Bu variant digər variantlara nisbətən daha maraqlıdır. Əvvəlki variantlarda baxt və taleyə inam dini pərdə altında təbliğ edilirsə, bu variantda naşükürlük pislənir.

"Naşükür qız" nağılında Gəncə dialekti tamamilə mühafizə olunmuşdur.

1. **Bazubənd** – Bir sıra nağıllar vardır ki, kişi səfərə gedərkən evdə bir bazubənd qoyur, oğlu olsa qoluna bağlamağı, qızı olduqda isə satıb xərcləməyi arvadına tapşırır. Ata gedəndən sonra doğulmuş oğlan mütləq həmin bazubənd vasitəsilə öz atasını tapır. Nağılda macəraların bazubənd ətrafında mərkəzləşməsi madərşahlığı yada salır.

# LÜĞƏT

## A

*Abid* – ibadət edən. Nağıllarımızda ağıllı məsləhətləri ilə, uzaqgörənliyi ilə insanlara kömək edən, yol göstərən sürət
*Abi-kövsər* – dirilik suyu, əfsanələrə görə zülmətdə olan sudur. Güya onu içən ölməzmiş
*Al dilnən* – aldatmaqla, şirin dillə
*Alışma* – qoyun, keçi, inək və başqa heyvanları kəsib bir neçə adam arasında bölüşdürmə
*Altını çəkmək* – zərərini çəkmək
*Ay gidi* – təəssüf əlamətidir
*Ayıbalası* – adi bişmiş kərpicdən üç-dörd dəfə böyük çiy kərpic

## B

*Bac* – xərac, vergi
*Bardax* – saxsı su qabı
*Barı* – divar, sədd
*Barigah* – saray, mənzil
*Başını batırmaq* – yox etmək, öldürmək
*Batman* – köhnə çəki ölçüsüdür
*Beyşüyür* – fərasətsiz
*Bədheybət* – yekəpər, kobud
*Bəeyni* – eynilə, tamamilə
*Bəhməz* – qatı doşab
*Bir ağac* – qədim məsafə ölçüsüdür
*Bir oturuma* – bir dəfəyə
*Bir tikə uşaq* – bir balaca uşaq
*Boylu* – hamilə
*Boyunu söymək* – oxşamaq
*Bozartma* – xörək adıdır

## C

*Cəm* – mis kasa
*Cığır* – ensiz dar yol
*Cıqqılı* – bir azca, bir balaca
*Cıqqırını çəkməmək* – səsini çıxarmamaq

*Cılız* – xüsusən, lap
*Cin atına minmək* – əsəbiləşmək
*Cincilim* – bitki
*Cuvar* – suçu

Ç

*Çala* – çuxur
*Çalmaq* – vurmaq, ilanın vurması
*Çarçoy* – çadra
*Çarsı* – üstü örtülü bazar
*Çayan* – qırxayağa bənzər zəhərli həşərat
*Çəmbərquyruq* – əqrəb
*Çəngələmək* – otu dəstələmək
*Çərən-pərən* – uzun-uzadı, mənasız, hay-küylü danışmaq
*Çilləyə qoymaq* (*oxu*) – oxu kamana qoymaq
*Çimir* – bir azca yatmaq, mürgüləmək
*Çırtdax* – qığılcım
*Çivin* – milçək

D

*Dağdağan* – ağac adıdır
*Darvaza* – qapı
*Daşdandı* (*ağzından köpuk daşdandı*) – ağzı köpükləndi
*Dəbilqə* – başa qoyulmuş dəmir papaq
*Dəhmərrəmək* (*dəhmərləmək*) – atı vura-vura sürmək
*Dəlil-dəlayil* – öyüd-nəsihət
*Dən düşmək* – ağarmaq (saqqala dən düşüb deməkdir)
*Dəyə* – keçədən düzəldilmiş çadır
*Difdimiş durmamaq* – sakit durmamaq
*Diydivan* – qələ başlarında gözətçi məntəqəsi
*Doan* – divan
*Düdüləmək* – toyuq-cücəni çağırmaq
*Dürmək* – lavaş bükümü

E

*Eşik* – həyət, bayır
*Eyni* (*açılmaq*) – kefi açılmaq, üzü gülmək

Ə

*Əcayif-qərayif* – qeyri-adi
*Əhliyal* – arvad, külfət
*Əkmək* – başdan eləmək, rədd etmək
*Ələk-fələk eləmək* – hər yeri axtarmaq
*Əlǝngə* – arıq; bir dəri, bir sümük
*Əlləzinə* – Quranda çətin öyrənilən bir ayədir
*Ənam* – bəxşiş
*Əncam* – tədbir, çarə
*Əndərmək* – əyib suyu tökmək
*Əngəzdəmək* – döyəcləmək
*Ənvayi-müsibət* – əzab-əziyyət
*Əppək* – çörək
*Ərəsət* – hay-küy
*Ərincək* – tənbəl
*Əsər eləmək* – təsir eləmək

F

*Fəmən-yəməl* – bir təhər
*Fərsəng* – uzunluq ölçüsü, təxminən yeddi kilometr

G

*Gədiy* – keçid, dağ beli
*Gərdək* – toy gecəsi oğlanla gəlin üçün evin bir küncündə pərdə ilə ayrılmış xüsusi yer
*Gərdiş etmək* – meydanda dolanmaq
*Göbəkkəsmə* – körpəlikdən adaxlanma
*Gödəmbul* – çox yeyən, qarınqulu
*Gözü sataşmaq* – qəflətən gözü görmək
*Gözün hoşu* – gözün yuxusu
*Gürz* – toppuz
*Güştü tutmaq* – güləşmək

H

*Hadağadan çıxmaq* – həddini aşmaq
*Haqqı olur* – yaxşı olur

*Heyvə* – kiçik xurcun
*Hələk-fələk eləmək* – hər yeri axtarmaq
*Həmzat* – cin-şəyatinə məxsus
*Həndəvər* – ətraf, yaxın
*Hənirə getməmiş* – bir azca yuxuya getməmiş
*Həzm rabedən keçirmək* – yemək; yeyib qurtarmaq
*Him* – işarə ilə başa salma (mimika ilə)
*Hin, bu hində* – bu vaxt, bu zaman
*Hırı tutmaq* – birdən kefi gəlmək, həvəsə gəlmək (bəzən mənfi mənada)
*Hiyən* – köməkçi, yoldaş
*Hörünü salmaq* – meylini salmaq
*Hüröyün* – ərkəsöyün.

X

*Xamlıx* – avamlıq
*Xaşa* – torba
*Xeylax* – bir xeyli, çoxlu
*Xımı* – əsəbi
*Xırıd eləmək* – satmaq
*Xışma* – bir ovuc
*Xof* – şübhə, qorxu
*Xüfət* – fikir, qüssə

İ

*İfdar* – ramazan ayında, orucluqda axşam yeməyi vaxtı
*İncavara* – xoşbəxtlikdən
*İnni-ins* – adam, insan
*İsmarış* – sifariş, xəbər
*İşdəklər* – əhvalatlar
*İşdi* – əgər

K

*Kaha* – mağara
*Kasıfçılığın daşın atmaq* – kasıbçılıqdan qurtarmaq
*Kefi kökəlmək* – kefi yaxşı olmaq
*Kejinmək* – al-əlvan geyinmk
*Kəltən* – bərkimiş quru torpaq
*Kirkirə* – kiçik əl dəyirmanı

*Kösəy* – yanmış odunun söndükdən sonra kömürə dönmüş hissəsi
*Küləfirəngi* – balkon
*Kündə* – vaxtilə dustaqların qollarına bağlanan zəncirin ucundakı ağır metal hissə
*Kür* – dəlisov, nadinc adam

Q

*Qor* – yandırılmış ağac söndükdən sonra külün altında qalan xırda od dənələri
*Qahmar* – tərəfkeş
*Qan sağalmaq* – gözün qızarması va ya bərk şeyə toxunduqda bədənin bir yerinə qan yığılıb orada qaralması
*Qanna qaltan* – qanına bulaşma
*Qantarğa* – atın cilovu
*Qara camaat* – aşağı xalq kütləsi
*Qaraçuxa* – bəxt mənasında işlənir
*Qarayüyrük* – mətbəx cücüsü
*Qarğı* – qamış
*Qart keçəl* – tamam keçəl
*Qaşqa* – heyvanın iki buynuzunun arası
*Qayıbdan* – qeybdən
*Qəni etmə*k – varlı etmək, dünya malı ilə təmin etmək
*Qəsr* – saray
*Qiblə* – müsəlmanların müqəddəs hesab etdiyi Məkkə tərəf
*Qılığına girmək* – dilə tutmaq
*Qılıncdan keçirmək* – qılıncla doğramaq, öldürmək
*Qırğı* – yırtıcı quş
*Qo, qov* – xüsusi düzəldilmiş, tez alışan, çaxmaq daşında yandırılan pambıq
*Qolun altı sancmaq* – nə isə hiss etmək, şübhələnmək
*Qolun qarısı* – qolun bazu sümüyü
*Qulaq asmaq* – fikir vermək; hörmət etmək, xidmət etmək
*Qulaq tikmək* – qulaq asmaq, diqqətlə dinləmək
*Quyunun təki* – quyunun dibi

L

*Lavaş* – sacda bişirilmiş nazik yuxa
*Ley* – yırtıcı quş
*Leysan yağışı* – yayda yağan yağış
*Lələ* – uşağa baxan, bəzən qardaşa da lələ deyilir
*Lələ köçüf yurdu qalıf* – yəni heç nə qalmayıb

*Ləpir* – ayaq izi
*Ləşkər* – ordu
*Löh* – dua; tilsim

M

*Mağıl* – heç olmasa; rahat
*Mahna* – bəhanə
*Majal* – vaxt
*Mamaça* – uşaq tutan
*Manşırramax* – nişanlamaq
*Marıtdamax* – güdmək, fürsət gözləmək
*Məhlə* – həyət
*Mərəkə* – dava, hay-küy
*Mitil* – ölüvay, tənbəl
*Muraz* – arzu, istək
*Muzəmmət* – danlamaq
*Mühəvvəl etmək* – həvalə etmək

N

*Namə* – məktub
*Nəfəsini dərmək* – dincəlmək, yorğunluğunu almaq
*Nər* – erkək dəvə; yaxud nəhəng qüvvətli pəhlivan
*Niqab* – üz örtüyü
*Nırx* (*nıx*) *deyif durmax* – tərslik etmək

O

*O tayda* – o tərəfdə
*Obaşdannıx* – orucluq ayında gecənin yarısından xeyli keçmiş çörək yeyilən vaxt
*Ojax çatmax* – ocax qalamaq
*Orət* – arvad
*Osanata keçmək* – yerinə düşmək, nəziri qəbul olunmaq

Ö

*Örüş* – otlaq
*Öy yarmax* – ev yarmaq
*Özünnən getmək* – ürəyi sıxılmaq

P

*Peyda oldu* – göründü
*Pəjmürdə* – pərişan, fikri dağınıq, qüssəli, kədərli
*Pənah gətirmək* – sığınmaq
*Piçini burmax* – işə salmaq
*Pişirim* – bir xörəklik
*Pişmiş* – xörək, yemək

R

*Rəm* – rəml
*Rəmmal* – fala baxan
*Rizə-rizə* – xırda-xırda
*Röya* – yuxu

S

*Sağdış-solduş* – toyda oğlanın sağında, solunda oturanlar
*Sarı* – tərəf
*Savax* – səhərisi gün
*Savayı* – başqa, əlavə
*Sayxın* – sayıq, ehtiyatlı
*Sehirli* – tilsimli
*Seyingimək* – sakitləşmək
*Səldirləmək* – budrəmək
*Sərnic* – misdən qayrılmış küpəyə bənzər qulplu qab
*Sımsığını sallamaq* – qaş-qabağını tökmək
*Sinni* – yaşlı
*Sinsaf olmaq* – həmrəy olmaq, dil tapmaq
*Soraxlaşmaq* – xəbər almaq
*Suax* – suvaq
*Suamax* – suvamaq
*Susdamaq* – tamah edib aldanmaq
*Suşsuç* – günah
*Suyuq* (*adam*) – hər şeyə tamahı düşən
*Suyunu dərmək* – qurulanmaq
*Süy, sün* – peysər

Ş

*Şenniy* – yurd məskən, ev-eşik
*Şər qarışanda* – axşam düşməyə başlayanda

*Şoluzümmə* – borclu
*Şümşürək* – ildırım çaxması
*Şüyən* – hay-küy salıb ağlamaq

T

*Tana* – sırğa
*Tasatdığı olmaq* – başına dolanmaq
*Tayaçı* – uşağa baxan, dayə
*Tazı* – tula; itin bir növü
*Tey* – tamam
*Təkaltı* – yəhərin altından salınan keçə
*Təkinə* (*quyunun təkinə*) – dibinə
*Tənbeh* – cəza
*Tənur* – uçmaq, göyə qalxmaq
*Tənzif* – cuna
*Təpinmək* – acıqlanmaq
*Təpitmə* – nazik yayılmış və alaçiy bişmiş lavaş
*Tərkləşmək* – bir ata iki adamın minməsi
*Tim-tik* – başı yuxarı
*Tırınqı* – oyun havası; çırtma çalıb oynamaq
*Toxdax vermək* – təsəlli vermək
*Tüfül* – südəmər uşaq, məzlum
*Tülüngü* – oğru, lap mahir oğru

U

*Uğur olsun* – yaxşı yol olsun

Ü

*Ürəyi əzilmək* – acmaq
*Üsdünu vurmamaq* – məsələni açmamaq; bildirməmək
*Ütəlgi* – yırtıcı quş
*Üz-gözünü turşutmaq* – qaş-qabağını tökmək

V

*Vağıya* – yuxu
*Varavürd* – diqqətlə ölçüb biçmə, ətraflı fikirləşmə

*Vəhmə* (*vahimə*) – qorxu
*Vəlhəm* – yumşaldıcı türkəçarə dərman
*Vərəsə* – birisi öldükdən sonra yerində qalıb mal-dövlətinə sahib olan adam
*Vəsvəsə* – qorxudan titrəmə, şübhə
*Vəzirgan* (*bəzirgan*) – tacir
*Vəzndən yüngül* – çəkidən yüngül

Y

*Yağır* – yəhərin taxtasının atın bəlində əmələ gətirdiyi yara
*Yalman* – atın yalı
*Yayma* – südlə bişirilmiş duru düyü xörəyi
*Yazı pişiyi* – çöl pişiyi, vəhşi pişik
*Yönü düşmək* – yolu düşmək
*Yuxa* – lavaşın bir növu

Z

*Zağa* – mağara
*Zərdava* – sərdabə; yer altında tağlı tikilmiş qəbir
*Zindanban* – zindan qapısındakı gözətçi
*Zürriyyət* – övlad

## NAĞILLAR HAQQINDA MƏLUMAT

Bu cilddə gedən nağılların hamısı Gəncə sakinlərindən toplanmışdır:

1. İsrafil Tağızadə, 60 yaşında, 1955 (*“Ovçu Pirim”, “Sehirli üzük”, “İskəndər Zülqərneyn”, “Yuxu”, “Göyçək Fatma”, “Oxxayla Əhməd”, “İlan və qız”, “İki yoldaş”*).
2. İbrahim Qafar oğlu, 35 yaşında, 1956 (*“Qızıl qoç”, “Yusiflə Sənubər”, “Moltanı padşahı”, “Bənidaş şəhərinin sirri”, “Naxırçı”*).
3. İsa Həsən oğlu, 79 yaşında, 1955 (*“Loğman”, “Ağıllı qız”*).
4. Murad Qəhrəman oğlu, 42 yaşında, 1957 (*“Kəsik baş”, “Uşax pəhlivan”, “Zəngi”, “Əzazil padşah”, “Padşah və dəmirçi”, “Keçəl”*).
5. Ruxsarə Əsgər qızı, 75 yaşında (*“Göy təpə göyərdi, ərim məni döyərdi”*).
6. Məşədi Xəlil Zeynalov, 60 yaşında, 1954 (*“Cin”*).
7. Dursun Qasım qızı Allahverdiyeva, 73 yaşında, 1956 (*“Hillilimnən Güllü-lüm”, “Naşükür qız”*).
8. Səməd Seyidov, 65 yaşında, 1954 (*“Yetim qız”*).
9. Əminə Xəlilova, 48 yaşında, 1962 (*“İki qardaş”, “Şahzadə və qurbağa”*).

# BEŞCİLDLİK “AZƏRBAYCAN NAĞILLARI”NDA NƏŞR EDİLMİŞ NAĞILLAR

## I CİLD

Zəmanənin hökmü
Göy Mıncıx
Keçəl Məhəmməd
Məlik Məmmədlə Məlik Əhməd
Axvay
Bəxtiyar
Avçı Məhəmməd
Quş dili bilən İskəndər
Nar qız
Kiçik şahzadə
Məlik Məhəmməd
Taxta qılınc
Südəmən
Gül Sumana neylədi?
Gül və Sanavar
Bulud
Fərasətsiz oğul
Peşə dalınca
Üç bacı
Lala və Nərgiz
Mərdnən Namərdin nağılı
İskəndər
Şəmsi Qəmər
Məlik Cəmilin hekayəsi
Dəmirdiş qız
Yeddi qardaşlar
Dünya gözəli
Muxtarın hekayəti
Barxudarın baxtı
Tənbəl Əhməd
Şahşonqar
Təlimli pişik
Qara at
Toyuq bir qılçlıdı
Nazikbədən

Pinəçi Məhəmməd
Dad Xanpərinin əlindən
Dərzinin şagirdi
Üç şahzadə
Hazarandastan bülbülü
Armud bəy
Cik-cik xanım
Dana, keçi və qoyun
Qızıl ilan
Cırtdan
Haxnəzər
Keçəlin divanı
Usta Abdulla
İki arvadın işləyi
Altı dul arvad
Zərnigar
Noxudu keçəl
Əbülqasım
Şah Abbasın oğlu
Xoşqədəm
Keçəllə tacir

**II CİLD**

Qaraqaşın nağılı
Simanın nağılı
Taxta qılınc
Yeddi dağ alması
Gülnar xanım
Cantiq
Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi
Ağ quş
Üç bacının nağılı
Şahzadə Mütalib
İlyasın nağılı
Nardan qızın nağılı
Kəl Həsənin nağılı
Ax-vax
Ceyranın nağılı
İbrahim

Qara vəzir
Əmiraslanın nağılı
Keçəllə qazının nağılı
Məhəmməd

## III CİLD

Nuşapəri xanımın nağılı
Hatəmin nağılı
Daş üzük
Hambal Əhməd
Qırx Qönçə xanım
Məlik çoban
Şəminin nağılı
Beçə dərviş nağılı
Üçbığ Kosa
Məlik Ducar
Xacə Fəttah
Məlik Məhəmməd və Məlik Əhməd
Şah oğlu Bəhrəmin nağılı
Ölü Məhəmməd
Əcəm oğlu İbrahim
Məstan
İtkin qız
Şükufə xanım
Qəhrəman
Cəlayi-vətən
Soltan İbrahim
Əhməd
Şirvan qazısı
Nuşaranın nağılı
Baftaçı Şah Abbas

## IV CİLD

Şəms-Qəmər
Tapdıq
Altı yoldaş
Həsən Qaranın nağılı
Yetim İbrahim və sövdəgər

Ləlin nağılı
Bacı və qardaş
Tələtin nağılı
Quru kəllə
Reyhanın nağılı
Keçəl
Quş dili bilən İsgəndər
Tacir oğlu
Padşah oğlu
Məlikməmməd
Barxudarın nağılı
Qara at
Əhmədi Çekkaş
Üç qardaş
Balıqlar padşahı ilə Yaqub
Əlimə su tök
Hacının qızı
Güloğlan
Əmir ilə şah qızı
Yoxsul qocaynan vəzir
Tülkü baba və hacıleylək
Hiyləgər keçi
Yaxşılığa yaxşılıq
Çil madyan
Loğmanla şəyirdi
Çıraxlı İsa
Yanığın nağılı
Bostançı və Şah Abbas
Pəri xanımın nağılı
Ağ atlı oğlan
Daşdəmirin nağılı

## MÜNDƏRİCAT


Ovçu Pirimin nağılı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .5
Göyçək Fatma . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .16
Sehirli üzük . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .24
Qızıl qoç . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .43
Yusiflə Sənubər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .66
Moltanı padşahı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .87
Bənidaş şəhərinin sirri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .101
Naxırçı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .111
Loğman . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .118
Kəsik baş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .124
Uşax pəhlivan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .130
İskəndər Zulqərneyn . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .136
Göy təpə göyərdi, ərim məni döyərdi . . . . . . . . . . . . . . . . . . . . . .144
Yuxu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .151
Zəngi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .155
Əzazil padşah . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .160
Ağıllı qız . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .165
Cin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .172
Hillilimnən Güllülüm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .175
Padşah və dəmirçi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .183
Yetim qız . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .189
Keçəl . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .194
Oxxayla Əhməd . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .204
Şahzadə və qurbağa . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .217
İlan və qız . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .231
İki qardaş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .239
İki yoldaş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .245
Naşükür qız . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .257

*Qeydlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .269
*Lüğət* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .287
*Nağıllar haqqında məlumat* . . . . . . . . . . . . . . . . . . . . . . . . . .296
*Beşcildlik "Azərbaycan nağılları"nda nəşr edilmiş nağıllar* . . . . . . . . . . .297

**AZƏRBAYCAN NAĞILLARI**

**BEŞ CİLDDƏ**

**V CİLD**


“ŞƏRQ-QƏRB”

BAKI-2005

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəşad Həmidov* |
| Korrektor: | *Pərvanə Məmmədova* |

Yığılmağa verilmişdir 12.11.2004. Çapa imzalanmışdır 25.05.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 19. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 135.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.